


# NAXÇIVAN DÜNYA MƏTBUATINDA

Az f-294639

# NAXÇIVAN DÜNYA MƏTBUATINDA

Kitabxanası

Naxçıvan - 2016

***Naxçıvan dünya mətbuatında.*** *Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan-2016, 216 səh.*

4700000000
053-2016

© Əcəmi 2016.

# NAXÇIVAN DÜNYA MƏTBUATINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI: TARİXİ-SİYASİ MƏLUMAT

Çox qədim və zəngin tarixi, mədəniyyəti və çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan diyarı əzəli Azərbaycan torpağıdır, oğuz türklərinin ölkəsi, bəşər sivilizasiyasının beşiklərindən biridir.

Naxçıvan ərazisində tapılmış Daş və Dəmir dövrlərinə aid abidələr, yeddi min ildən artıq tarixi olan iki minədək qayaüstü təsvirlər, zəngin boyalı qablar mədəniyyəti, şəhərsalma ənənələrinin indiyədək qalan izləri sübut edir ki, bu torpaq bəşəriyyətin inkişafında mühüm rol oynamışdır. Naxçıvanın əlverişli coğrafi-strateji mövqeyi, ilk növbədə, ən mühüm karvan yollarının, o cümlədən Böyük İpək Yolunun buradan keçməsi ilə bağlı idi. Şərqdə məşhur olan ticarət və sənətkarlıq mərkəzi, habelə ətrafdakı regionların barlı-bərəkətli torpaqları hələ eramızdan əvvəl qonşu dövlətlərin diqqətini bu diyara cəlb edirdi. Məhz buna görə bir çox yüzilliklər ərzində Naxçıvan növbə ilə qədim Mannanın, Midiyanın, Əhəmənilər imperiyasının, Atropatenanın, Sasanilər dövlətinin, Ərəb xilafətinin, Səlcuqilər dövlətinin və digər dövlətlərin tərkibinə daxil olmuşdur və bir qayda olaraq, həmin dövlətlərdə ən inkişaf etmiş regionlardan biri idi. XV-XVI əsrlərdə Naxçıvan Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində idi, sonra təxminən iki əsr yarım ərzində Azərbaycan Səfəvilər dövlətinin mühüm inzibati-ərazi vahidlərindən biri olmuşdur. 1747-ci ildə Nadir şahın imperiyası dağıldıqdan sonra Naxçıvan, əslində, müstəqil dövlətə – xanlığa çevrilmiş və 1828-ci ilədək, Rusiya imperiyası tərəfindən işğal edilənədək bu statusunu saxlamışdır.

Çarizmin devrilməsindən sonra və bunun ardınca Cənubi Qafqazda başlanmış hərc-mərclik, hakimiyyətsizlik və yeni dövlətlərin meydana gəlməsi dövründə Naxçıvan əhalisi diyarın Azərbaycan Respublikasının tərkibində qalmasına yekdilliklə səs vermişdir. 1921-ci il martın 16-da Moskvada Rusiya-Türkiyə müqaviləsi imzalanmış və bu sənədə əsasən, Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar əraziyə çevrilmişdir, bir şərtlə ki, Azərbaycan



bu himayədarlığı hər hansı üçüncü ölkəyə güzəştə getməyəcəkdir. Həmin sənədin müddəaları 1921-ci il oktyabrın 13-də Türkiyənin Qars şəhərində sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan tərəfindən imzalanmış müqavilədə təsbit olunmuşdur. Bu beynəlxalq sazişlərə uyğun olaraq, Naxçıvan Azərbaycanın tərkib hissəsi elan edilmiş, onun ərazi sərhədləri dəqiqləşdirilmişdir.

1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası elan edilmiş, 1923-cü ilin iyunundan Naxçıvan diyarı adlandırılmış, 1924-cü ilin fevralından Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikasına çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının indiki statusu 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmişdir. Konstitusiyaya əsasən, o, Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.







*2004-cü il martın 19-da Azərbaycan Prezidenti Şərur və Babək rayonlarının əraziləri hesabına Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonu yaradılması haqqında qanun imzalamışdır.*

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası 1998-ci il aprelin 28-də muxtar respublikanın Ali Məclisi tərəfindən qəbul olunmuş, Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üzrə

Komissiyanın sədri, ölkə Prezidenti Heydər Əliyevə təqdim edilmiş və 1998-ci il dekabrın 26-da Azərbaycan Milli Məclisi tərəfindən təsdiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini 45 deputatdan ibarət olan Ali Məclis, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini muxtar respublikanın məhkəmələri həyata keçirir.

Ali Məclisin Sədri muxtar respublikanın Ali vəzifəli şəxsidir və Ali Məclis tərəfindən seçilir.

Naxçıvan Muxtar Respublikası yeddi inzibati rayona – Babək, Ordubad, Sədərək, Culfa, Şahbuz, Şərur və Kəngərli rayonlarına bölünmüşdür. Paytaxtı Naxçıvan şəhəridir.

***"İzvestiya",***
**25.11.2004**



## BİZ ÖZ TORPAĞIMIZDA YAŞAYIRIQ

Heydərabad qəsəbəsi muxtar respublikanın şimal-qərbində ən ucqar yaşayış məntəqəsidir. Bu qəsəbə Sədərək rayonunun inzibati mərkəzidir. Qəsəbənin tam şəhər siması, sıra ilə düzülmüş ikimərtəbəli müasir kotteclər göz oxşayır.



Qəsəbədən cəmi bir neçə yüz metr aralı Ermənistanla sərhəd başlayır. Təmas xəttində barışığa artıq neçə illərdir ki, riayət edilir. Lakin əsəbilik, psixoloji gərginlik hər halda hiss olunur.

Münaqişə ağır iz qoymuşdur. Qəsəbənin sərhədə yaxın olan birinci küçəsində salamat qalmış evlərin deşik-deşik edilmiş pəncərələrini indi də görmək olar.

Heydərabaddakı 85 evdən birincilərinin bünövrəsi hələ 1980-ci illərin əvvəllərində qoyulmuşdu. Bu barədə qərarı həmin vaxtlar Sovet Azərbaycanına rəhbərlik edən Heydər Əliyev qəbul etmişdi. Tikinti üçün mişardaşı Abşeronun daş karxanalarından dəmir yolu ilə gətirilirdi. İndi ölkənin əsas hissəsi ilə birbaşa dəmir yolu və avtomobil yolu olmadığına görə bu, mümkün deyildir. Azərbaycandan Naxçıvanadək bir yük maşınının İran ərazisindən (dolama yollarla 420 kilometr) keçməsi 400 dollara (İran tərəfinin gömrük rüsumu) başa gəlir. Belə halda karxana daşı qızıl qiymətinə olur. Buna görə də müharibədən sonra evləri bərpa etmək üçün başqa keyfiyyətli yerli daşdan istifadə etmişlər. Bu əlamətə görə də neçə evin dağıldığını və ya zərər çəkdiyini müəyyən etmək olar. Ötəri baxsaq, onların azı yarısı belə evlərdir.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının onun idarəsi küçənin axırında yerləşir – sözlərinə görə, münaqişə yerinin yaxında olması

sərhəd qəsəbəsindəki ab-havaya şübhəsiz ki, öz təsirini göstərir, lakin insanlar buna çoxdan vərdiş etmişlər və bu barədə düşünməməyə çalışırlar. O deyir: "Bizim əkib-becərmək, özümüzü və başqalarını dolandırmaq üçün torpağımız var. Qəsəbə ayırıcı xəttə yaxın olsa da, qurub-yaratmaq lazımdır".

İnsanların işlə təmin olunduğunu qəsəbənin kimsəsiz küçələri də sübut edir, yalnız bir neçə uşaq yolda böyüklərin nəzarəti altında oynayırdı. Yeganə məhdudiyyət ondan ibarətdir ki, valideynlər öz uşaqlarına birinci küçədəki boş qalmış, ayırıcı xəttin lap yaxınlığında yerləşən evlərdə oynamağa icazə vermirlər. Lakin İcra Hakimiyyətinin başçısı arxayındır. "Biz öz torpağımızda yaşayırıq, özgə torpağına göz dikməmişik, biz heç nədən qorxmuruq, əgər bir hadisə baş versə, hamımız bir nəfər kimi sərhədlərimizi qorumağa hazırıq".

Bu gün Heydərabadda 1500 nəfər yaşayır, Sədərək rayonunun əhalisi isə 12 min nəfərdir. Bu il 3 min ton taxıl yığılmış, 12 min ton meyvə-tərəvəz məhsulu götürülmüşdür, heyvandarlıq böyük sürətlə inkişaf edir, əslində, hər qapıda mal-qara vardır. Bu, rayonun tələbatını tam ödəyir və artıq məhsulu satmağa imkan yaradır. Lakin, artıq deyildiyi kimi, daxili bazarın məhdud olması Naxçıvanda istehlakçı tapmağa imkan vermir, məhsulu Azərbaycanın başqa rayonlarına aparmaq isə çox baha başa gəlir. Vəziyyətdən yeganə çıxış yolu Türkiyənin yaxınlığıdır.

Sərhədyanı qəsəbələrə kömək göstərilməsi siyasəti öz bəhrələrini verir. Yeni iş yerləri açılır, məsələn, elə Heydərabadın özündə 120 nəfərin çalışdığı tikiş sexi fəaliyyət göstərir. Yerli məktəbdə 39 müəllim çalışır. Rayon İcra Hakimiyyətinin başçısı söhbətimizin axırında dedi ki, həyat ilbəil yaxşılaşır, təki heç kim bizə mane olmasın.

***"İzvestiya",***
**25.11.2004**



## TƏHSİLƏ BÖYÜK QAYĞI

Naxçıvandakı orta məktəbləri və digər tədris müəssisələrini geniş meydançalar, gül-çiçək ləkləri və tərtəmiz səkilər əhatə edir. Azərbaycanın bu muxtar respublikasında təhsilə olan diqqət və hörmət ilk baxışdan nəzərə çarpır. Məsələ heç də təkcə 370 minlik əhaliyə



malik ərazidə Dövlət Universitetinin olmasında, bu torpağın təbiətinin gözəlliyində deyildir. Burada elə bir mühit yaradılmışdır ki, təhsil almaq insana böyük zövq verir.

Muxtar respublikada təhsilə çoxlu vəsait ayrılır. Hökumət, ilk növbədə, tədris mərkəzlərinin daxili və zahiri səliqə-sahmanının qayğısına qalmışdır. Özümüz də yəqin etdik ki, bu işdə xırda məsələ olmur. Yeni rahat partalar, sinif otaqlarının müasir dizaynı, laboratoriyalar üçün ən yeni cihazlar diqqəti cəlb edir. Lakin rus dilinin tədrisinin dayandırılmamasını təhsil sisteminin ən mühüm nailiyyətlərindən biri hesab etmək olar.

81 il bundan əvvəl tikildiyi vaxtdan rus dilində təhsil verən 3 nömrəli məktəb bizim gəlişimizi gözləmirdi, buna görə də bizi çox səmimi qarşıladılar və hətta bir qədər təəccübləndilər. Müəllimlərdən biri isə özünü saxlaya bilmədi: "Doğrudanmı, Moskvanın yadına düşdük!"

Rus məktəbinin veteranlarından olan Fatma Qəzənfərova neçə onilliklərdir ki, burada çalışır. Əslən bakılıdır, lakin institutu bitirdikdən sonra təyinatla Naxçıvana gəlmiş və həmişəlik burada qalmışdır. Fatma müəllimə deyir: "Əvvəllər bu məktəbdə, əsasən, vaxtilə böyük ölkənin sərhədlərini qoruyan sovet ordusunun hərbi qulluqçularının uşaqları təhsil alırdılar. Lakin onlar buranı çoxdan tərk etsələr də, məktəb qalır, öz profilini dəyişmədən indiyədək fəaliyyət göstərir".

Naxçıvandakı rus məktəbinin məzunları arasında Azərbaycanın Rusiyadakı indiki səfiri Ramiz Rizayev, Prezident Administrasiyasının başçısı Ramiz Mehdiyev kimi tanınmış adamlar vardır.

Məktəbin direktoru Ülkər İbrahimova deyir ki, bu gün məktəbdə 500-dək uşaq – azərbaycanlılar və ruslar təhsil alırlar. Onlar üçün hər cür şərait yaradılmışdır: təmir olunmuş və modernləşdirilmiş məktəb binası, yeniləşdirilmiş tədris avadanlığı. Şagirdlərin rus dilini mükəmməl keçməsi və müəllimlərin təcrübəsi uşaqlara öz təhsilini rus şöbəsi də olan Naxçıvan Dövlət Universitetində uğurla davam etdirməyə imkan verir. Onu da deyək ki, bütün bunlar pulsuzdur və universitetə daxil olmaq üçün yalnız bilik tələb olunur.

Naxçıvanda, bütünlükdə, 232 orta və 3 ali məktəb fəaliyyət göstərir, şagirdlərin ümumi sayı isə, rəsmi məlumata görə, 72179 nəfərdir. Bu məktəblərdə 8,5 mindən artıq müəllim çalışır. Əslində, hər beş naxçıvanlıdan biri təhsil alır.

Bu torpaqda doğulmuş ən tanınmış şəxsiyyətin – mərhum Prezident Heydər Əliyevin adını daşıyan məktəb texniki təminat baxımından Naxçıvanda, eləcə də bütün Azərbaycanda ən qabaqcıl məktəbdir. Dövlət Neft Şirkəti onun tikintisinə 2,5 milyon dollardan çox vəsait ayırmışdır. Xüsusi fənn kabinetləri, psixoloji istirahət kabineti, idman salonu, hərbi hazırlıq üzrə məşğələlər keçmək üçün gözəl avadanlığı olan otaq, kompüter kabineti, müasir dizayn və tərtibat, şagirdlərin mərtəbələr üzrə səmərəli yerləşdirilməsi, yeməkxana, mətbəx, oxu zalı olan kitabxana, tibb məntəqəsi – bütün bunlar bir məqsədə xidmət edir: uşaqlar təhsildən zövq alsınlar. Məktəbin direktoru Hüseyn Məmmədyarovun sözlərinə görə, müasir dördmərtəbəli bina cəmi 8 ay ərzində tikilib başa çatdırılmışdır və burada testlə seçilmiş xüsusi istedadlı uşaqlar təhsil alırlar.

Məktəbin təmiz, səliqə-sahmanlı dəhlizlərini, sinif otaqlarını görəndə insanın ağlına yalnız gözəl fikirlər gəlir. Soyuq noyabr günləri olmasına baxmayaraq, yeni bilik məbədinin ətrafında isə qızılgüllər ətir saçırdı.

*"İzvestiya"*,
**25.11.2004**



## ÜMİD KÖRPÜSÜ

Muxtar respublikanı Türkiyə ilə əlaqələndirən avtomobil yolunu Naxçıvanda başqa cür yox, məhz "həyat yolu" adlandırırlar. Azərbaycana dost olan dövlətlə 11 kilometrlik ümumi sərhəd ölkənin qalan hissəsi ilə əlaqəsi kəsilmiş regionun 1990-cı illərdə yaşamasına



kömək etmişdir. Bu gün Naxçıvanın ümumi inkişafı ilə əlaqədar olaraq həmin yolun əhəmiyyəti bir qədər azalmışdır, lakin əvvəlki kimi, yenə də muxtar respublikanın həyatında mühüm rol oynayır.

Azərbaycan-Türkiyə sərhədinin bu hissəsinin tarixi XX əsrin əvvəllərinə təsadüf edir. O vaxtlar Naxçıvan ərazisini cənubdan və qərbdən yalnız İranın ərazisi əhatə edirdi. Osmanlı imperiyasının süqutundan sonra müasir Türkiyə dövlətinin banisi Atatürk Naxçıvanla sərhədin Araz çayının sahili ilə keçən 11 kilometrlik sahəsini İran şahından qızıl pulla almış, bununla da, qohum xalqlar arasında olan qardaşlıq münasibətlərini nümayiş etdirmişdir. Bu gün həmin hərəkət, ümumiyyətlə, uzaqgörənlik təsiri bağışlayır.

Düz yol birdən dönür və dağın arxasında Araz çayının geniş vadisini görürsən. Sovet dövründə Sovet İttifaqını NATO-nun üzvü olan ölkə ilə birləşdirən bu kiçicik sahə heç də Kremldən pis qorunmurdu. Amma zaman dəyişdi. İndi bu ərazi iki qardaş ölkə arasında sərhəddir və ona münasibət də bu cürdür. Qonşu rayonlar bir-biri ilə heç də təkcə rəhbərlik səviyyəsində əlaqə yaratmır, sadə insanlar da dostluq münasibətləri saxlayırlar. Onlara sərhədi keçmək üçün güzəştli rejim yaradılmışdır. Bu ilin 10 ayı ərzində Sədərək buraxılış məntəqəsi vasitəsilə Türkiyəyə 42627 nəfər keçmiş, Naxçıvana isə 39347 vətəndaş gəlmişdir. Onlar sərhədi

1990-cı illərin əvvəllərində istismara verilmiş "Ümid" avtomobil körpüsü vasitəsilə keçirlər. Bu körpünün təntənəli açılışında həmin illərdə muxtar respublikaya rəhbərlik edən Heydər Əliyev və Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəl iştirak etmişlər. O zaman dəmiryol körpüsü inşa etmək də nəzərdə tutulmuşdu. Onun tikintisinə qismən başlanmış, lakin hələlik işlər dayandırılmışdır. Ən yaxın vaxtlarda Azərbaycan tərəfdə müasir gömrük terminalı işə salınacaqdır, sərhədçilərin məişət şəraiti yaxşılaşdırılır.

Bu gün "həyat yolu" əvvəlki kimi naxçıvanlılara xeyir verir, onlar da iki xalqı birləşdirən qardaşlıq tellərini qoruyub saxladıqlarına görə hər iki ölkənin böyük şəxsiyyətlərinə ürəkdən minnətdardırlar.

***"İzvestiya",***
**25.11.2004**



## TORPAĞIN SƏRVƏTİ

İlk baxışda bu dağlar başqalarından heç nə ilə fərqlənmir, lakin oraya qalxandan sonra, ilk növbədə, gözə dəyən odur ki, torpağın üst qatını kilometrlərlə dərinə gedən yüngülcə duz kristalları örtür. Bu məhsul, sözün əsil mənasında, ayağının altındadır. Hər cəhətdən faydalı olan bu duzun hasilatı ilə böyük bir artel məşğul olur.

Naxçıvan Azərbaycanın duza olan tələbatını tamamilə təmin edə bilər. Ölkəyə hər il təxminən 60 min ton duz tələb olunur. Bunun 27-29 min tonu təkcə yeyinti məhsulları sənayesi və əhalinin ehtiyacları, 12 min tonu texniki ehtiyaclar üçün, yerdə qalan 19-20 min tonu isə heyvandarlıqda istifadə edilmək üçün lazımdır. Mövcud karxanaların və şaxtaların duz ehtiyatları təxminən 80 milyon tondur. Hasilatın indiki imkanları isə satış həcmini və Azərbaycanın digər rayonlarına göndəriləni xeyli üstələyir. Naxçıvan Dövlət Mədən İdarəsinin direktoru Məhərrəm Novruzovun dediyi kimi, müəssisə ötən il cəmi 2,5 min ton xörək duzu istehsal etmişdir. Direktor deyir: "Biz əlavə heç bir xərc çəkmədən istehsalın səviyyəsini xeyli artıra bilərik, lakin bazarın yoxluğu işimizə mane olur. Duzun İran ərazisi ilə Azərbaycanın digər rayonlarına və Bakıya göndərilməsi məhsulun satış qiymətini xeyli artırır".

Duz hasilatçıları qarşısında qoyulan vəzifə istehsalın səviyyəsini 10-11 min tona çatdırmaqdır. İstehsalın həcminin artırılması regionların inkişafı Dövlət proqramında da nəzərdə tutulmuşdur. Burada tikiləcək yeni zavodda avtomatik qablaşdırma xətləri də quraşdırılacaqdır.

Naxçıvanda ta qədimdən duz çıxarırdılar. Ötən əsrin 80-ci illərinin əvvəllərində burada işləyən leninqradlı arxeoloqlar ilk duz hasilatçılarının izlərini aşkar etmiş və bunların eramızdan əvvəl 1-ci minilliyə aid olduğunu bildirmişlər. Bizim buraxdığımız şaxta 1916-cı ildə salınmışdır. Bu il orada əsaslı təmir aparılmışdır və şaxta hər gün 50 ton məhsul verir. Hazırda burada bütöv ailə sülalələri çalışır. Elə direktor Novruzovun özü buna misaldır. Onun atası hələ sovet dövründə ömrünün çox hissəsini bu müəssisəyə

həsr etmişdir.

Fəaliyyətdə olan duz hasilatı şaxtasının yanında tibb müəssisəsi – duzla müalicə xəstəxanası yerləşir. Burada astma, bronxit kimi ağciyər xəstəliklərindən və digər azar-bezardan əziyyət çəkən xəstələri müalicə edirlər. 1964-cü ildə tikilmiş bu adi şaxta 15 ildən sonra ixtisaslaşdırılmış klinikaya verilmişdir. Xəstəxananın foyesini duz dağının dibində yerləşən "palatalardan" 296 metrlik məsafə ayırır. İonlar və faydalı mikroelementlər hopmuş hava dərindən və sərbəst nəfəs almağa imkan verir, hətta biz duz səltənətinin tunelləri ilə irəliləyəndə də darısqal yerə xas olan spesifik təzyiqi və gərginliyi hiss etmirdik. Solğun lampalar kişi, qadın və hətta uşaqlar üçün ayrılmış qalereyaları və palataları işıqlandırırdı. Əslində isə bunlar çarpayıları düzülmüş geniş mağaralara daha çox oxşayan müxtəlif otaqlardır. Xəstələr bura axşam gəlir, müalicə prosesi isə birbaşa foyenin girişində başlayır və gecə onlar müalicəvi hava ilə nəfəs ala-ala yatanda da davam edir. Elmi dildə buna speleoterapiya deyirlər.

"Duzdağ" respublika fizioterapiya xəstəxanasının baş həkimi Akif Abdullayev deyir ki, Sovet İttifaqı dövründə buraya gələnlər, əslində, bütün müttəfiq respublikaların nümayəndələri idilər, bəzən xarici ölkələrdən də bizə müraciət edirdilər. Baş həkimin özü burada müalicəxana yarandığı ilk gündən çalışır və bütün xəstələr onun şəfalı əllərindən nicat tapmışlar, belələrinin sayı isə 32 mindən çoxdur. Burada bronxial-astma (orta ağırlıq dərəcəsində olan infeksiya-allergiya formaları) kimi bronx-ağciyər aparatının qeyri-spesifik xəstəlikləri, allergik rinosinsopatiyalar, astma komponentli xroniki bronxit xəstəlikləri müalicə olunur.

Havanın təmizliyi həm də elmi cəhətdən əsaslandırılmışdır. Doktor Abdullayev bir neçə rəqəmi misal gətirdi. Onun sözlərinə görə, steril cərrahiyyə şöbəsində 1 kubmetr havada 3-5 min mikrob olduğu halda, Naxçıvandakı xəstəxanada cəmi 800-1000 mikrob var. Bütün bunlar astmadan və allergik reaksiyalardan əziyyətçəkən insanların müalicəsinin səmərəliliyini təmin edir.



Müalicə kursu qəbul etmək üçün ilkin müayinədən keçmək və həkimlərin razılığını almaq lazımdır, çünki diabet, vərəm və sidik yollarında daş xəstəlikləri olanlar üçün bu müalicə üsulu əksgöstəricidir. Doktor Abdullayev axırda demişdir: "Bizim qapılarımız köməyə ehtiyacı olanların hamısının üzünə açıqdır".

***"İzvestiya",***
**25.11.2004**

## BİR DAHA NAXÇIVAN DUZDAĞI HAQQINDA

Azərbaycan bu günə qədər ən qədim və məşhur duz mədənini qoruyub saxlayır. Milli Elmi Araşdırmalar Mərkəzinin (MEAM) arxeoloqları sübut etdilər ki, Duzdağ duz mədəninin yataqları Azərbaycanda, Araz vadisində eramızdan əvvəl 5-ci minilliyin II yarısında istifadə edilmişdir. Beləliklə, bu günə qədər gəlib çatan çox qədim duz yatağının istismarından söhbət gedir. Tədqiqatçılar elmi kəşf olaraq ortaya çıxartdılar ki, bu duz mədəninin intensiv işlənməsi eramızdan azı 3500 il əvvəl həyata keçirilmişdi. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin köməyi ilə aparılan bu işlər eradan 4500-3500 il əvvəl Qafqazda ilk yaşayış yerinin necə təzahür tapdığını yaxşı başa düşməyə imkan verir.

Antik və orta əsr dünyasında duzun iqtisadi və simvolik əhəmiyyəti çox məşhurdur. Yeni tapıntılar göstərir ki, qədim dövrlərdə duz çox əhəmiyyətli yer tuturdu, eyni zamanda ilk yazının ortaya çıxmasında da özünü göstərirdi. Duz necə əldə edilir? İki ən çox yayılmış texniki yol duz qatının aşkara çıxarılmasına imkan verir: ərzaq ehtiyatı məqsədilə toplanmış böyük çöküntü duz mənbəyi və şoran bataqlıqlarda Günəş şüası ilə qurumuş duz məhsulu. Duz kimi qədim xammalın istismar texnikasını bilmək, onun parlaq daş, yaxud mis ilə istismar edilməsi arxeoloqlara keçmiş cəmiyyətlərdə ciddi ehtiyac hiss olunan bu əsas məhsulun nə səviyyədə mürəkkəb yolla əldə edildiyini deməyə imkan verir. Qafqazda daşduzdan səmərəli istismarın ilk izləri qədim dövrlərdə ilk mis metallurgiya sənayesinin inkişafı ilə əlaqədar dərin iqtisadi və texnoloji irəliləyişlər zamanı tam dəqiqliklə ortaya çıxır.

Bu qarşılıqlı reaksiyaları başa düşmək üçün Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşı Katrin Maro və onun heyəti on ildən bəridir ki, Araz hövzəsinin (Türkiyə, İran, Azərbaycan) tədqiqatlarını aparır. Arxeoloqlar Azərbaycanda yerləşən Duzdağın duz mədəni ilə, tam dəqiqliklə desək, Təbrizdən (İranın şimal-qərbindən) İstanbula qədər gələn qədim orta əsr İpək Yolu ilə xüsusilə



maraqlanmışlar. Bu günə qədər bu qədim duz yatağının istismar izlərinin eramızdan əvvəl 2-ci minillikdən gəldiyi ortaya çıxır. Aparılan araşdırmalar gözlənilməz nəticə verdi: 70-ci illərdə qədim yeraltı dəhlizdə çalışan 4 nəfərin sümükləri və alətləri aşkar edildi.

2008-ci ildə fransız-Azərbaycan alimlərindən ibarət bir heyətin– Katrin Maro və onun peşə yoldaşı Vəli Baxşəliyevin iştirakı ilə Duzdağ duz mədənində sistemli kəşfiyyat aparıldı. Bu zaman böyük miqdarda qalıqlar (alətlər, saxsı qablar) siyahıya alındı, onların tarixi isə eramızdan əvvəl 4500-cü ili göstərir. İlk dəfədir ki, bir duz mədənindən bu dövrün qalıqları belə böyük miqdarda aşkar edilirdi. Tədqiqatçılar eyni zamanda duz istismarının çox qədimdən aparıldığını ortaya çıxartdılar və onun eramızdan əvvəl azı 5-ci minilliyin II yarısına aid olduğu aşkar edildi. Beləliklə, Duzdağ ən qədim istismar yeri olaraq bu gün ən məşhur duz mədənidir.

Az-f-204639

Başqa bir diqqətəlayiq fakt ondan ibarətdir ki, Duzdağ eramızdan əvvəl 4-cü minillikdən məhsuldar istismar kimi tanınır və qədim Mis dövrünün tarixi izlərini təsdiqləyir. Aşkara çıxarılan yüzlərlə kərkilər və daş çəkiclər, sınmış sümüklər bu yeraltı mədən dəhlizi ilə olan yaxınlığın doğruluğunu sübut edir. Digər tərəfdən, ətrafda çoxlu saxsı qırıqlarının olması onun Kür-Araz mədəniyyəti ilə yaxınlığını da təsdiqləyir. Onların fəza və xronoloji bölgüsü coğrafi informasiya sistemi, peyk şəkilləri, çərpələng fotoqrafiyaları ilə analiz edildi. Bu səmərəli nəticələr inandırır ki, Duzdağ duzu təkcə mövcud kiçik icmalar üçün təyin edilməmişdi. Sözsüz ki, o, hal-hazırda məlum olmayan iqtisadi çərçivədə çox uzaq istiqamətlərə də göndərilmişdir. Nəhayət, belə görünür ki, bu duz heç də bütün Araz vadisinin icmaları üçün nəzərdə tutulmamışdı. Belə ki, onun istismarı eramızdan əvvəl 5-ci minillikdə hökmranlıq edən bəzi qurumlara müəyyən üstünlük verirdi.

Bu tapıntılar ortaya çoxlu suallar çıxarır: eramızdan əvvəl 5-ci və 4-cü minilliklərdə duz kimə və nə üçün ayrılmışdı; bu mədənləri istismar edən icmalar necə təşkil edilmişdi; müxtəlif bölgələr



Kitabxanası

(kəndlər, emalatxanalar, şaxtalar və sair) arasında siyasi və iqtisadi əlaqələr necə idi? Bütün bu suallara cavab tapmaq üçün arxeoloqlar 6 kilometr ərazini əhatə edən mədən dəhlizinin yatağında ətraflı axtarışlar aparmaq ümidindədirlər.

2008-2009-cu illərdə bu ərazidə həyata keçirilən arxeoloji kəşfiyyatlar Fransa Xarici İşlər Nazirliyinin və Milli Elmi Araşdırmalar Mərkəzinin, eyni zamanda Avropa Milli Elmi Araşdırmalar Mərkəzinə xidmət edən İSİS proqramının köməyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə aparılmışdır.

**Katrin MARO,**
***Fransa Beynəlxalq Milli Elmi Araşdırmalar Mərkəzinin dosenti, "TÜBA-AR" jurnalı, 01.12.2010***



## DÜNYADA ƏN YADDAQALAN ANLAR

Növbəti getdiyim ölkə Xəzər dənizinin qərb hissəsində yerləşən Azərbaycan Respublikası idi. "Küləklər şəhəri" adlandırılan Bakı Azərbaycanın paytaxtıdır. Məlumat üçün bildirmək istərdim ki,





Azərbaycanın ərazi problemi vardır. Belə ki, qonşusu Ermənistanla müharibədə ərazisinin 20 faizini itirmişdir. Təəssüflər olsun ki, işğal faktı bu günə qədər davam edir. Bununla əlaqədar olaraq, Azərbaycanın cənub-qərbində yerləşən Naxçıvan Muxtar Respublikasına Bakıdan yalnız təyyarə ilə getmək mümkündür.

Naxçıvanda duz mağarasının yaxınlığındakı beşulduzlu "Duzdağ" otelində qaldım. Otel 2 bölmədən – otel və mağaradan ibarətdir. Duz mağarası "Duzdağ" otelindən avtomobillə 3-5 dəqiqəlik məsafədə yerləşir. Mağarada restoran və hamam olmadığına görə, oteldə şam yeməyindən sonra ayrılmış xüsusi avtomobillə Duzdağ Fizioterapiya Mərkəzinin yeraltı bölməsinə gedirdik.

Mağaraya daxil olarkən duzun qoxusu hiss olunur. İnsan bir anlıq fikirləşir ki, ağzında çoxlu duz vardır. Lakin bir müddət keçdikdən sonra qoxuya alışırsan. Mənim səfərim qış ayına təsadüf etdiyindən mağaradakı temperatur çöldəki temperaturdan daha mülayim idi. Ancaq sərinlik az da olsa, hiss olunurdu. Duz mağarasında havanın temperaturu il boyunca 15-18 dərəcə arasında müşahidə edilir. Yay fəslində Naxçıvanda havanın temperaturu 40 dərəcədən artıq olur. Ona görə də fikrimcə, isti fəsildə mağaraya getmək daha məqsədəuyğundur.

Duz mağarasının içərisi olduqca genişdir. Burada ion boldur və bu səbəbdən nəfəs almaq rahatdır. Sözügedən mağara insanın bronxlarının təmizlənməsi üçün yaxşı fürsətdir. Duz mağarasında olan ion bolluğu insan orqanizmi üçün xeyirlidir və müalicəvi xarakter daşıyır.

Duzdağ Fizioterapiya Mərkəzində çalışan həkimdən aldığım məlumata görə, xəstələrə ildə 2 dəfə və hər dəfə isə 2 həftə müddətinə müalicə almaq tövsiyə edilir. Burada 2 yaşından yuxarı uşaqlar da müalicə oluna bilərlər.

Yaponiyadan Naxçıvana səyahət etmək istəyənlər Bakıya getmədən, Türkiyənin İstanbul şəhərindən təyyarə ilə bu bölgəyə birbaşa səyahət edə bilərlər.

Sonda onu da qeyd edim ki, Azərbaycan mətbəxi ilə Türkiyə mətbəxi arasında bənzərliklər çoxluq təşkil edir. Naxçıvanda istehsal olunan şərablar ucuz və çox ləzizdir.

**İtaru İŞİ,**
***Yaponiyada nəşr olunan "Top Lider" jurnalının əməkdaşı,***
***08.03.2010***



## DƏYİŞİKLİK VƏ MÜASİRLƏŞMƏ

Əsassız erməni iddiaları ilə mübarizə dərnəyinin təşkilatçılığı ilə Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasına səfərə yola düşdük. Naxçıvana 18 il bundan əvvəl jurnalist həmkarlarımla birlikdə getmişdik və oradakı vəziyyətlə bağlı bir sıra təhlillər, araşdırmalar aparmışdıq. O illərdə Naxçıvan bir çox iqtisadi çətinliklərlə mübarizə aparmaqda, necə deyərlər, öz ayaqları üstə durmaq bir yana, sanki yaşam mübarizəsi verməkdə idi. Köməyə gələn ölkə isə yalnız Türkiyə oldu. Sərhəd məntəqəsini keçdikdən sonra yoxsulluq aşkar şəkildə gözə çarpır, şəhər mərkəzinə doğru getdiyimizdə bütün bunlar daha açıq şəkildə özünü büruzə verirdi. Binalar sanki adamın üzərinə yıxılacaq kimi pis vəziyyətdə, küçələr və səkilər isə baxımsızdı. Bir tikə çörək yemək üçün yer, demək olar ki, yox idi, satışda isə əksəriyyəti keyfiyyətsiz olan rus malları satılırdı.



İlk ziyarətimizdən təxminən on səkkiz il sonra yenə Naxçıvandaydıq. Şəhərlərin tarixi keçmişində on səkkiz il uzun bir müddət deyil. Buna görə də çox da böyük dəyişikliklərlə qarşılaşmayacağımızı düşünərək Naxçıvan-Türkiyə sərhədinə gəldik. Ancaq ilk dəqiqədən etibarən dəyişiklik özünü göstərməyə başladı. Burada bir haşiyə çıxaraq vurğulamaq istəyirik ki, bizim gömrük binamız ölkəmizə yaraşmır... Sərhədlərdən o tərəfi isə siz oxuculara təsvir etmək istərdim. Naxçıvan ərazisinə girişdən etibarən mükəmməl bir yol sizi qarşılayır və şəhərə çatdırır. Türk dünyasının böyük öndərlərindən Heydər Əliyev ilə başlayan dəyişiklik şəhərə möhürünü vurub. Rus memarlığının nümunələrini sərgiləyən geniş səki və küçələr yenidən qurulub. Hər tərəf baxımlıdır və par-par parıldayır. Bir-biri ilə kəsişən küçə və xiyabanların kənarındakı binaların bir qismi yenidən qurulmuş, çoxu isə üzlənmişdir. Naxçıvanın küçələrində polis görmədik. Məncə, buna ehtiyac da yoxdur. Çünki hər kəs qaydalara riayət edir. Diqqətlə baxsaq da heç bir yerdə zibil, sənaye tullantısı görmədik. Şəhər son



Albayrak

BÜYÜKELÇİLERE DADAŞ RUHU

www.albayrakgazetesi.com

dərəcə təmiz və baxımlıdır.

...Naxçıvan mədəniyyət və incəsənət şəhəridir. 85 min əhalisi olan şəhərdə tarix, ədəbiyyat, xalçaçılıq, incəsənət, əl işləri, xatirə, etnoqrafiya və başqa muzeyləri var. Tarixi abidələr də ayrı-ayrılıqda bir muzey funksiyasını yerinə yetirəcək qədər səliqəyə salınıb və diqqətlə qorunur.

Tarix və mədəniyyətin mirası olan memarlıq abidələrini bu sahənin biliciləri olan adamlar tanıdırlar və eyni zamanda sanki bu əsərlərin baxım və mühafizəsini də təmin edirlər. Bu abidələrin ətrafı müasir tərzdə qurulmuş, bəzilərinin ətrafı isə Açıq Səma Altında Muzeyə çevrilmişdir.

...Müstəqilliyinin ilk illərində yoxluqla mübarizə aparan Naxçıvan bu gün Türkiyə ilə İrana elektrik enerjisi ixrac etmək gücünə malikdir. Böyük bir dəyişiklik içində olan şəhər, digər tərəfdən ənənəvi tarixi quruluşunu qoruyaraq tarixi və mədəni mirasını gələcək nəsillərə ötürür. Dəyişiklik və inkişafla birlikdə tarix və mədəniyyət mirasını sintez edən Naxçıvandan bizim bəzi qurum və təşkilatlarımızın da ala biləcəyi xeyli dərs var deyə, düşünürəm.

**Feridun Fazıl ÖZSOY,**
***Türkiyənin Şərqi Anadolu Jurnalistlər Birliyinin sədri,***
***"Albayrak" qəzeti,***
***dekabr, 2010***



## QAFQAZ DAĞLARININ SAN-FRANSISKOSU – NAXÇIVANA XOŞ GƏLMISINIZ!

Təyyarə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına enərkən gözləyirdim ki, "Düşmən qapıda dayanıb" filmində olduğu kimi, parça-parça olan bir əraziyə ayaq basacağam. Düzünü desəm, məndə belə bir təsəvvür cüzi və cansıxıcı məlumatlar əsasında formalaşmışdı. Bu məlumatlar ərazisi 5 min kvadratkilometr, əhalisi isə 400 mindən çox olan Azərbaycanın əsas ərazisindən 30 mil kənarda – düşmən Ermənistanla sərhəddə yerləşən, kəsilib ayrılmış bu böyük eksklavın müasir tarixi barədə xoş fikirlər deməyə imkan vermirdi. Qafqaz bölgəsi haqqında çox oxumuş bir dostum mənə deyirdi ki, o, daim bu yeri "Əfqanıstansayağı" təsəvvür edib. Hətta Azərbaycanın paytaxtı Bakıdan olan dostum mənə deyirdi ki, təsəvvür elə ki, sən boş çöllüyə gedirsən.



Beləliklə, belə təsəvvür etdiyim halda mən, əsl həqiqətdə, özümü təcrid olunmuş San-Fransiskoya bənzər bir yerdə səyahət edən gördüm. Naxçıvan inanılmaz dərəcədə inkişaf etmiş, mütərəqqi, məğrur (özündən razılıq səviyyəsinə qədər) bir məkandır. Əhalisi yerli, təbii məhsullara və əczaçılıq məhsullarına, ekoloji məsələlərə çox diqqət yetirir. Səhiyyə və dini turizm imkanları genişdir və hər yerdə simsiz internet tapmaq imkanı vardır.



Ən çox təəssürat yaradan isə son dövrdə Naxçıvanın qətiyyət göstərib zamanı qabaqlamağa can atan zaman böyük məhrumiyyətlərlə üz-üzə gəlməsi olmuşdur. 1990-cı ilin yan-

varında Naxçıvan MSSR (1920-ci ildə sovet işğalına qədər bir il Araz-Türk Respublikası adlanmışdır) Rusiya tərəfindən naxçıvanlı azərbaycanlıların hüquqlarını pozaraq onu Azərbaycan SSR-in tərkibindən ayırıb Ermənistana birləşdirməyə səy göstərən zaman ona qarşı müqavimət göstərmişdi. Onlar Sovetlər İttifaqından ilk olaraq ayrılaraq öz müstəqilliyini elan etmiş və buna görə hücumlara məruz qalmışdılar. Bəzi naxçıvanlıların dediyinə görə, qarşıdurmalar zamanı ermənilər onlara qarşı kimyəvi silahdan da istifadə etmişdilər. Belə iddialar 1990-1994-cü illərdə – atəşkəsin əldə olunmasına qədər davam etmişdir. Qeyd edilən illərdə Naxçıvan blokada şəraitinə düşmüşdür. Təbii qaz, dəmiryol xətləri, elektrik enerjisi, radio kəsilmiş, qarşılıqlı asılılıq modelinə əsaslanan sovet iqtisadiyyatı kənd təsərrüfatını zəif salmış və sənaye məhsullarının qıtlığını yaratmışdır. Hər il on minlərlə adam Naxçıvanı tərk edirmiş. Hər 3 ağacdan biri kəsilərək sərt qışdan çıxmaq üçün oduncaq kimi istifadə edilmiş, bununla belə, əslən Naxçıvandan olan Heydər Əliyev tərəfindən tikilmiş iki kiçik körpü əhalinin güzəranını təmin etmişdir. O, sonradan muxtar bölgəyə rəhbərlik edərək onun İran və Türkiyə ilə əlaqələrini







yaratmış, 1993-cü ildən isə Azərbaycana rəhbərlik etmişdir.

Vəziyyət nisbətən sabitləşəndən sonra jurnalist və hökumət adamları bu bölgəyə gəlməyə başlamışlar. Qeyd edilənlər beynəlxalq müşahidəçilərin yaddaşında həkk olunmuşdur. O vaxtdan etibarən Bakının neftdən əldə etdiyi gəlirlər sayəsində Naxçıvan yeni tərəqqi dövrünə qədəm qoymuşdur. Belə ki, 1995-2012-ci illərdə ÜDM-in həcmi 48 dəfə artmışdır. Yerli əhali ruh yüksəkliyi tapmış və öz kimliyini müəyyən edərək bunu müəyyən mənada ermənilərin, ibarəli şəkildə desək, "gözünə soxmuşdur".

Bununla yanaşı, bəzi inkişaf meyillərində sovet irsi sezilir. Mən bu elementləri Naxçıvan Dövlət Universitetini gəzərkən gördüm. İri mərmər məbədlərə bənzəyən universitet kampusu Naxçıvanın güc və qüdrətini nümayiş etdirir. Lakin dövlətin kənd təsərrüfatı və sənaye istehsalı ilə bağlı proqramları yerli məmurların fikirləri üzərində qurulub və blokada şəraitindən çıxmağa hesablanıb.




Mətbəx mövzusu söhbətləşdiyim naxçıvanlılar üçün ən sevilən mövzulardan biridir. Sovet kənd təsərrüfatının xatirələri və 90-cı illərin qıtlığı, o cümlədən iqtisadi təhlükəsizliyin iki kiçik körpüdən asılı olması ərzaq təhlükəsizliyi və digər məhsullarla özünü təminetmə məsələsinə xüsusi diqqətlə yanaşmağı tələb etmişdir. Bu, süd məhsulları, ət, taxıl, yumurta, yun sarıdan özünü göstərir. 334 növ məhsuldan 330-u ilə Naxçıvan özü özünü təmin etməyə qadirdir. Mahiyyət etibarilə bu avtarkiya – yəni öz-özünü təmin edən iqtisadi model anlamına gəlir.

Özünü təmin etməyə yol göstərən digər tarixi və psixoloji aspekt ondan ibarətdir ki, Naxçıvanın iqtisadi modeli tər qida məhsulları və təbii ərzaq üzərində qurulub. Naxçıvanlılar qəti surətdə geni modifikasiya olunmuş məhsullardan imtina edirlər.

baxmayaraq ki, bu, kənd təsərrüfatının inkişafını təmin edə bilərdi. Onlar avtomatlaşdırılmış, genişmiqyaslı fermer təsərrüfatlarından istifadə edirlər və malqaranı yalnız yerli yem hesabına bəsləməyi üstün tuturlar. Onlar həmçinin yerli məhsul və mətbəxlərini tərif edir, bir ədəd Or-





dubad limonunun 10 manata olduğunu, bu pula isə 7 türk limonu alına biləcəyini bildirsələr də, yerli camaatın (həmçinin türklərin də) Ordubad limonuna üstünlük verdiyini deyirlər. Onlar həmçinin qoz mürəbbəsinin dünyada ən yaxşı və yüksəkkeyfiyyətli olduğunu bildirirlər.



Həmçinin deyirlər ki, bir dəfə Ordubad yumurtası (yağsız və balda bişirilən qayğanaq) yeyən adam daha heç bir yerdə bu yumurtadan yeyə bilməz. Yerli duzun bədəndən tez süzülərək artrit yaratmadığını, buraya



gəzməyə gələnlərin geri, Bakıya qayıdarkən özləri ilə su, meyvə, qoyun əti apardıqlarını söyləyirlər. Hər bir yemək yerli məhsullardan hazırlanır, təkcə yerli olmayan subtropik meyvələrdir.

Bölgədə belə bir fikir hökm sürür ki, mətbəx mədəniyyətdir.



Mənim bələdçimin dediyi kimi, mətbəxsiz mədəniyyət natamamdır. Xalqın kimliyini bilmək istəyirsənsə, mətbəxini başa düşməlisən.

Mətbəxin mədəni qüdrətinin bir tərəfi də ondan ibarətdir ki, burada alternativ təbabətə inam vardır. Naxçıvanlılar adları ingilislərə məlum olmayan 300-ə yaxın təbii dağ otu yetişdirirlər və onlardan çoxlu sayda spirtli içkilər çəkirlər. Həmçinin qeyd edirlər ki, o otları yemək insanın ömrünü ölməzliyə qədər uzadır. Bələdçim deyir ki, onun mədə xərçəngi xəstəliyinə tutulan dostu Naxçıvana gedərək bir həftə ərzində dağotlarından yemişdi. Nəticədə, onun ömrü 45 il uzanmışdı. Mən həmçinin sinir sistemi və əli iflic olmuş bir nəfər türkün Culfada mineral su vannasını qəbul edərək sağalması və Duzdağda dərin mağarada olan müasir taxta daxmalarda astma və digər illətlərdən əziyyət çəkən insanların yurd salaraq oturması və şəfa tapması haqqında söhbətləri də dinlədim.

Naxçıvanlılar bu yerləri, bu diyarın ekoloji turizm imkanlarını artırmaq üçün təbliğ-təşviq edirlər. Onlar həmçinin dini əhəmiyyətə malik Əshabi-Kəhf mağarasını turizm məqsədilə təbliğ edir, bu yerin "Quran"da xatırlandığını, Nuhun məqbərəsinin burada yerləşdiyini söyləyirlər. Bununla bağlı erməni iddialarının əksinə olaraq deyilir ki, Nuhun gəmisi İlandağa lövbər salmış və nəticə etibarilə Naxçıvan şəhərinin salınmasına gətirib çıxarmışdır. Ekoloji və dini ziyarət turizminin təbliği bu diyarın digər bölgələrində olan beşulduzlu, lüks istirahət zonaları ilə ziddiyyət təşkil etmir.

Mətbəxdən sonra ikinci aludəçilik ağaclarla bağlıdır. Hər şənbə günü hökumət nümayəndələri yerli camaatla birgə blokada zamanı itirilmiş ağacların bərpa edilməsi üçün yaşıllaşdırma işlərinə cəlb olunurlar. Mənim bələdçim tez-tez pəncərədən boylanaraq bu və ya digər yaşıllıq sahəsinin onların tərəfindən salındığını qeyd edirdi. Bütün yerli camaat kiçik ağac tinglərinin əkilməsinə böyük ticarət mərkəzinin tikintisi kimi baxır. Bu, ətraf mühitin təmizliyi və bərpa işlərinə aludəçilik məsələsidir. Məhz hökumət 10 il əvvəl irimiqyaslı iş yeri ola biləcək Sement Zavodunun tikintisini dayandırmış və bu layihənin ətraf mühitə, sağlamlığa vura biləcəyi

zərər nəzərə alınmışdı. Tikinti işləri yalnız zavodun tullantısını zərərsizləşdirən ventilyasiya sisteminin tətbiq edilməsindən sonra başlanmışdır.

Buranın San-Fransiskoya bənzərliyi o zaman ağlıma gəldi ki, hər yerdə kütləvi texniki qovşaqlar müşahidə etdim. Bir daha qeyd edək ki, ərazidə kommunikasiya və keçid islahatlarının aparılması, bəlkə də, 1990-cı illərin təcridolunma xatirələri ilə bağlıdır və ya buna məntiqi cavabdır. Hazırda yerli mobil telefon istehsalı və internet şəbəkəsinin inkişafına xüsusi diqqət yetirilir və 2015-ci ilin sonuna qədər bölgənin bütün yollarının modernləşəcəyini qeyd edirlər. Kənd təsərrüfatı və ekologiyada olduğu kimi, Naxçıvan burada da bir addım irəlidə gedir. Yerli hökumətin bir sıra nazirləri texnokratdır və yerli əhalinin 72 faizinin internetə çıxış imkanı vardır. Onlardan biri mənim qulağıma pıçıldadı ki, yaşlı nəsil kompüterdən istifadəyə qarşı çıxır, əks təqdirdə, əhalinin 100 faizi internetdən istifadə edərdi. Səkkiz şəhərdə və 200 kənddə simsiz internetdən istifadə üçün avadanlıqlar alınıb və simsiz internetin əhatə dairəsi bəzən Ermənistanın sərhədlərinə çatır. Hazırda bütün bölgəni əhatə edə biləcək fiber-optik internet kabelinin çəkilməsi işi gedir və belə bir layihə, yeri gəlmişkən, San-Fransiskoda olana bənzəyir...

Böyüyüb boya-başa çatdığım ABŞ-ın qərb sahilinin liberal dəyərlərə malik dairələri texniki cəhətdən inkişafın mənəviyyat və utopiya ideyalarına əsaslanır. Naxçıvanın nümunəsində isə müəyyən mənada quruculuqda özünümüdafiə çalarları vardır. Demək olar ki, hər bir söhbətin kökündə Ermənistan və onun tərəfindən Naxçıvan mədəniyyətinə məxsus olan hər bir elementi özününküləşdirmək təbliğatının aparılmasına eyham edən məqamlar var. Naxçıvan yeməklərini bir az da tərifləyəndən sonra ev sahibləri dövlətin sifarişi ilə nəşr edilmiş qalın "Naxçıvan mətbəxi" ensiklopediya kitabını açaraq (ensiklopediyanın Naxçıvan mədəniyyətinə aid 5 fəsli vardır) bu kitabın Azərbaycana məxsus olan şeylərdən bəhs etdiyini və bunun ermənilər tərəfindən mənimsənilməsinin



qarşısının alınmasına xidmət etdiyini söyləmişdir.

Bu, adi bir qayğıdır. Bəzən SSRİ-nin yeni tarix və kimliklər yaratmağa qadir olduğunu unuduruq. Etnosların adının dəyişdirilməsi, "Yer üzünün dəyişdirilməsi" kimi məsələlərlə biz həmçinin bu praktikanın psixoloji qüvvəsi ilə Mərkəzi Asiya və Qafqaz dağlarını gəzib keçərkən rastlaşırıq. Məhz bu irs və azərbaycanlılarla ermənilərin bir-birindən tam təcrid olunması haradasa reallığın şübhəli şəkildə qavranılmasına gətirib çıxarmışdır. Bir naxçıvanlı deyir ki, Ermənistanda cəmi 1 milyon çarəsiz insan qalıb. Baxmayaraq ki, beynəlxalq statistika 3,1 milyon olduğunu söyləyir. Həmçinin Azərbaycan xalqının irsi və qüdrətindən ağızdolusu danışaraq deyir ki, İranda 35 milyon azərbaycanlı yaşayır və Tehranın əhalisinin 5 milyonu azərbaycanlılardan ibarətdir. Bu, bütövlükdə, İran əhalisinin 45 faizinin, Tehran əhalisinin isə 40 faizinin azərbaycanlı olduğu deməkdir. Bir sıra rəsmi tədqiqatlar göstərir ki, İranın azərbaycanlı əhalisi 16 faiz civarındadır.

Beləliklə, bu və digər faktlar burada hamı tərəfindən ürəkdolusu ilə qəbul edilir və reallıqdır. Bütün bunlar Naxçıvanın məğrurluğu ilə bağlıdır. Naxçıvanlı vətənpərvərliyinə hər addımbaşı rast gəlinir. Naxçıvan Azərbaycanın ən qonaqpərvər və ziyalı kütləsinə malik ərazisi kimi ad çıxarıb. Ümummilli lider Heydər Əliyev burada doğulub. Azərbaycan bayrağı və dastanları bu diyarda yaradılıb. Faktiki olaraq bura qədim sivilizasiya beşiyidir. Dünyanın mərkəzidir. Nuhun yurdudur və beləliklə, bütün bəşəriyyətin ocağıdır.

Reallıqlardan və xatirələrdəki uyğunsuzluqlardan irəli gedərək, eyni zamanda sərhədboyu erməni snayperlərinin təhdidini gördük. Bunlar inkişaf üçün göstərilən səylərə qarşıdır. Bütün bunlar 1990-cı illərin hərb yaddaşının acı xatirələrini bir daha yada salır. Yolüstü yerli Hərbi Liseydə ayaq saxladım. Orada bir neçə yüz oğlan uşağı sərt "Sparta rejimi"ndə təlim görür və gələcək hərbçi karyerasına hazırlaşır. Məktəbin direktoru mənə söylədi ki, 3 gün əvvəl liseyin məzunu snayper güllləsinə tuş gəlib. Bu, liseyin sayca 3-cü qurbanıdır. Yerli Avtomobil Zavodu Dağlıq Qarabağ münaqişəsi

nəticəsində (Ermənistanla daha geniş müharibənin bir hissəsi) əlil olmuş veteranlar üçün də avtomaşın istehsal edir. Bu münaqişənin mövcudluğu yaxın gələcəkdə qeyri-sabitlik və daha genişmiqyaslı zorakılıqdan daim xəbər verir.

Naxçıvanlılar bunun nə ilə nəticələnəcəyinin fərqindədirlər. Naxçıvan 90-cı illərin məhrumiyyətindən güc-bəla ilə xilas olaraq kommunikasiya xətlərini bərpa etməyə nail olmuş və enerji resurslarına çıxış əldə edərək mərkəzi hökumətin əldə etdiyi gəlirlərdən bəhrələnir. Çox şey isə Ermənistanla sabitlikdən asılıdır, baxmayaraq ki, son dövrlərdə hərbi ritorika hərbi əməliyyatların yenidən alovlanması qorxusunu yaratmışdır.

Bakı ilə əlaqənin kəsiləcəyi və ya müharibənin yenidən alovlanacağı təqdirdə mərkəzdən Naxçıvana göstərilən dəstək itirilə bilər. Amma əgər sülh bərqərar olarsa, qiymətlərə nəzarət edilən və çox sürətlə inkişaf edən kiçik bir ərazidə təbii ərzaq istehsal edən bu regionun dünya siyasəti və iqtisadiyyatına daxil olması ilə kim bilir, nə baş verə bilər. Heyrətamiz San-Fransisko və yaxud bir vaxtlar blokadaya və mühasirəyə alınmış eksklavdan heç kimin gözləmədiyi bir xoş sürpriz ola bilər. Bir az aşağı tonda desək, bu, bir keçmiş tarix və ya gözlənilməz, yeni Qafqaz Silikon Vadisi ola bilər. Yaşayarıq, görərik..!

***Mark HEY,***
***"Vice" jurnalı (ABŞ),***
***16.05.2013***



## MAĞARA TƏDQİQATÇILARI ÜÇÜN FÜSUNKAR MEHMANXANA

Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan sakinlərinin yerli mağaralardan əldə etdikləri duz təkcə dadına görə deyil, həm də nadir bərpaetmə xüsusiyyətinə görə də fərqlənir. Yerli sakinlər



bu duzdan artrit xəstəliyinə tutulmamaq üçün istifadə edirlər, habelə astma və başqa tənəffüs yolu xəstəliklərindən sağalmaq üçün hər cür təchizatı olan mağaralarda günlərlə müalicə alırlar.

Bu mağaraların ən yaxşı təchiz olunmuşu və məşhuru Naxçıvan şəhərindən miniklə 15 dəqiqəlik məsafədə yerləşən Duzdağdadır. 300 metrlik tunel duzla elə zəngindir ki, sənə elə gəlir ki, toxunanda ovulacaq. Duzdağ onunla bağlı əfsanələr və horizontal quruluşun yaratdığı giriş sərbəstliyi ilə tanınır. O həm də son dərəcə yaxşı təchiz olunmuşdur. Boş zallar mərmər çərçivələrlə bəzədilmiş və taxta çarpayılar duz divarları içərisində yerləşdirilmişdir.



Tunelin doqquz bölümündə 300 çarpayıdan ibarət otaqlar otel ləvazimatları və müasir avadanlıqlarla təmin olunmuşdur. Hər kəs tam müalicə üçün əvvəlcədən sifariş verə bilər. İnsanların əksəriyyəti buraya 5 və ya 6 günlüyə gəlirlər, lakin 20 və ya daha artıq günlüyə gələn ağır xəstələr həm də həkimlər tərəfindən təyin olunmuş terapiya müalicəsindən də keçə bilərlər.

Zəngin tarixi keçmişlə müasirliyi və rahatlığı özündə birləşdirən Duzdağ dünyanın heç bir yerində olmayan qəribə və inanılmaz

xoş ovqat yaradır. Komaya bənzər kabinələrlə ayrılmış mağaraları gəzərkən insanlar sanki bunların həqiqət olduğuna inanmırlar. Bu yer müalicəxanadan çox "Ulduz keçidinə" bənzəyir. Ən təəccüblüsü isə müalicə qiymətlərinin əlverişli olmasıdır: hər kabinənin qiyməti 40-55 dollar arasındadır. Bir tərəfdən Naxçıvan dağlarının, digər tərəfdən Araz çayının xoş mənzərələri ilə tamamlanmış bu heyranedici gözəlliyə baxmağa dəyər.

Naxçıvanlıların tarixən bu mağaraların və onun ətrafındakı torpaqların müalicəvi gücünə dərin inamlarına şübhə etmək çətindir. 2000 kvadratmillik ərazidə sərt dağlarla əhatə olunmuş bu diyar 1990-cı ildən blokada nəticəsində Ermənistan və İran arasında qalaraq Azərbaycanla ərazi əlaqəsini itirmişdir. Buradakı torpağın altında və üstündə xeyli sərvət vardır.

***Mark HEY,***
***"Mens" jurnalı (ABŞ),***
***02.07.2013***



## SLOVENİYANIN "RTV" KANALINDA NAXÇIVAN HAQQINDA TELEVİZİYA PROQRAMI YAYIMLANIB

***Muxtar respublikanın inkişaf və tərəqqisi Sloveniya telekanalının əməkdaşlarını heyrətləndirib***

Azərbaycan avroatlantik məkana sürətlə inteqrasiya etdikcə, ölkəmiz dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə, eyni zamanda Qafqaz və Mərkəzi Asiya regionunun əsas güc mərkəzlərindən birinə çevrildikcə dünyanın müxtəlif ölkələrinin diqqəti respublikamıza yönəlir. Son 18 illik zaman kəsiyində inkişaf sürətinə görə həmsərhəd ölkələrin qonşuluqda yerləşən regionlarını geridə qoyan Naxçıvan haqqında son dövrlərdə dünyanın nüfuzlu kütləvi informasiya vasitələrində dərc olunan məqalələr, efirə verilən videosüjetlər, televiziya proqramları, sənədli filmlər dediklərimizə əyani sübutdur.




Bu günlərdə Naxçıvanın inkişaf və tərəqqisi daha bir Avropa telekanalı vasitəsilə dünyaya nümayiş etdirilib. Belə ki, Sloveniyanın ictimai televiziyası olan RTV-də Azərbaycanın inkişafı, bu inkişafda Naxçıvanın tutduğu yer haqqında geniş proqram yayımlanıb. Milyonlarla tamaşaçısı olan RTV-də efirə verilən proqramda əsas diqqət Naxçıvanın tarixi, turizm potensialı və sürətli inkişafına yönəldilib.

Bu televiziya kanalının İtaliya vətəndaşı olan əməkdaşı Stefano De Franceschinin təqdimatında efirə verilən proqramın əvvəlində Naxçıvanın düşdüyü blokada vəziyyətinin ağırlığı və faktiki olaraq ölkənin əsas hissəsi ilə nəqliyyat əlaqələrinin olmamasına diqqət çəkən telejurnalist deyir: "Biz Naxçıvana səyahət məqsədimizə çatmaq üçün məcburən təyyarəyə minməli olduq. Əslində, Naxçıvana çatmaq üçün biz özünü "müstəqil" respublika elan etmiş Dağlıq Qarabağ üzərindən uçuruq ki, bu ərazi 20 ildən çoxdur, Azərbaycan



və özünə yeni sərhədlər yaratmağa cəhd edən Ermənistan arasında müharibə və mübahisə mövzusudur. Biz Bakının 450 kilometr qərbində yerləşən Naxçıvana istiqamətlənirik. Muxtar respublika ölkənin əsas hissəsindən Zəngəzur dağ silsilələrinin ətəyində tamamilə aralı düşmüşdür. Bu ərazi Araz çayının sol sahilində yerləşir".

Naxçıvanı dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin Vətəni kimi təqdim edən telejurnalist buranın dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu bildirir: "Naxçıvan şəhəri heykəllər, muzeylər, teatrlar və abidələrlə zəngindir. Azərbaycanın tarixi və mədəniyyət beşiyi olmaqla yanaşı, bura azərbaycanlıların milli lideri, ölkənin keçmiş Prezidenti Heydər Əliyevin doğulduğu torpaqdır. Dünya şöhrətli siyasətçi və dövlət xadiminin xatirəsinin əbədiləşdirildiyini burada hər addımda hiss edirsən. Naxçıvanda Onun şərəfinə yaradılmış muzeyin açılışında Heydər Əliyev şəxsən iştirak edib. Ölkədə çox hörmət edilən bu siyasi xadimi "azərbaycanlıların Atatürkü" hesab etmək olar. Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisidir və hazırkı Prezident İlham Əliyev onun dövlətçilik yolunu və siyasi xəttini davam etdirir".

Televiziya proqramında diyarın qədim türk yurdu olmasını sübut edən Naxçıvan şəhərindəki tarixi-memarlıq abidələri və Naxçıvanın özünəməxsus xalçaçılıq ənənələrindən də bəhs olunur: "Şəhərin əsas memarlıq abidəsi 26 metr hündürlükdə, kufi əlifbası ilə bəzədilmiş XII əsrə aid olan çox möhtəşəm Möminə xatın məqbərəsidir. Muzeylərindən başqa, bu şəhərin 80 min sakini bu regionda gözəl xalça və toxuculuq məhsullarının istehsal edilməsindən fəxrlə danışa bilərlər".

Jurnalist Naxçıvan Dövlət Xalça Muzeyində muzeyin direktoru ilə müsahibəyə geniş yer verib. Azərbaycan, o cümlədən Naxçıvan xalçalarının digər Şərq ölkələrində istehsal olunan xalçalardan fərqli ornamentləri haqqında danışan müəllif qeyd edir ki, bu xalçaların bəzək və ornamentləri İslam aləmində yeganədir.



Stefano De Franceschinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə bağlı mövqeyi də özünəməxsus və maraqlıdır. Yerli əhalinin mehribanlığı, qonaqpərvərliyi və gülərüzlülüyünün insanda xoş əhval-ruhiyyə yaratdığını qeyd edən telejurnalist Əshabi-Kəhf haqqında deyir: "Yerli bələdçi bizi şəhərdən kənar gözəl mənzərəli dağların ətrafına apardı. Bu dağlar yürüş və dağaçıxma idmanı üçün əlverişlidir. Bu dağlardan biri müqəddəs hesab edilən Əshabi-Kəhf dağıdır. Uzun pilləkənlərlə siz dərin kanyona (dağ silsiləsinə) daxil olursunuz ki, buradakı müxtəlif mağaralar müqəddəs bir yerə çevrilir. Sonuncu düz pilləkənlər ziyarət edənləri balaca bir mağaraya aparır ki, bu mağarada əfsanəyə görə, 7 nəfər 309 il yatıb. Bu müqəddəs dağ müsəlmanlar üçün ziyarətgahdır və əsrdən-əsrə bu dağın əhəmiyyəti artır".

RTV kanalının əməkdaşı proqramda diqqəti Naxçıvanda sürətlə inkişaf edən və böyük potensialı olan müalicə-kurort turizminə də yönəldib: "Mağaralardan danışarkən biz Naxçıvanın növbəti görməli yerlərindən olan duz mağaralarına getdik. Bizi orda tam heyət gözləyirdi. 1979-cu ildən bəri bu mağara fizioterapiya xidmətləri göstərən yerli xəstəxananın iki şöbəsindən birinə çevrilib. Bu mağara, əsasən, terapiya və duzla müalicə xidməti göstərir".

Televiziya proqramında Naxçıvanda incəsənətin və təhsilin inkişafına göstərilən dövlət qayğısı, muxtar respublikada gənc nəslin vətənpərvər ruhda yetişməsi haqqında da bəhs olunur: "Buradakı iş, turizm və sağlamlıq turizmi üçün olan yeni imkanlar, həmçinin regionun mədəni, tarixi və ekoloji aspektləri, eləcə də bu torpağın gənclərinin marağı hökuməti təşviq etmişdir ki, təhsil sahəsinə böyük investisiyalar qoysun. Bunun nəticəsi olaraq yaradılan və bərpa edilən universitet korpusları ölkə ilə yanaşı, qonşu Türkiyə və İrandan tələbələrin bura axınına səbəb olmuşdur".

"İncəsənətə gəldikdə isə xüsusilə yerli konservatoriyanın tələbələri öz bacarıqlarını bizə nümayiş etdirmək və bizi salamlamaq üçün qarşımızda çıxış etdilər". Naxçıvan haqqında proqramı bu fikirlərlə bitirən jurnalist Naxçıvanın sürətli inkişafından təəccübünü açıq-aşkar gizlətmir.

Bütün bunlar blokada şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, Naxçıvanın müasir inkişaf və tərəqqisinin göstəricisidir.

*Stefano De FRANCESEH,*
*Sloveniya, 08.07.2013*



## MƏNİM NAXÇIVAN TƏCRÜBƏM

Naxçıvana enərkən gözəl mənzərə ilə qarşılaşdım! Nuhun gəmisini zədələmiş dağ silsilələri ilə birləşən İlandağ gözlərimizi və qəlbimizi sevindirir. Bakıdan Naxçıvana təyyarə ilə səfər edən kəs, gərək təyyarədə pəncərənin qırağında əyləşsin və təyyarə enərkən qətiyyən yatmasın! Enişdən bir neçə dəqiqə sonra biz balaca bir hava limanını tərk edirik və 15 dəqiqə dolmadan şəhərin mərkəzində yerləşən mehmanxanaya yerləşirik. Bizim Naxçıvan, daha dəqiq desək, Azərbaycanın muxtar respublikası haqqında ilk təəssüratımız olduqca müsbətdir: küçələr və binalar Qərb şəhərini xatırladır. Müxtəlif tikililər, şübhəsiz, yenə də Azərbaycanın keçmişinin şahididir. Naxçıvan insanı əsəbiləşdirən avtomobil siqnalları, tələsən avtomobillər və avtomobil xaosundan uzaqdır. Eləcə də hara baxsaq, nə tullantı, nə də həddindən artıq sıx olan evlər görmürük. Yoxsa biz Qafqazın İsveçrəsinə gəlmişik?

### Həsən ilə səyahət

NATİQ MMC Tərcümə və Turizm Mərkəzinin işçisi Həsən ilə günün ikinci yarısı və hər iki sonrakı gün Azərbaycanın ayrılmaz hissəsini kəşf edirik. Turistlər tərəfindən hələ az görülmüş bu xəzinə, landşaft, təbiətvurğunu və fotoqraflar üçün bir arzudur. O kəs ki, avaralıq və əyləncə axtarır, yaxşı olar ki, başqa qərara gəlsin. Bələdçimiz və sürücümüz Həsən bizə ən vacib abidələri, həmçinin Nuh Peyğəmbərin məqbərəsini və əzəmətli məscidləri göstərir. Eləcə də duz mədənindəki sanatoriya bizi heyrətləndirir. Tək şəxs və ya bütöv ailə burada bir, ya da bir neçə gecə keçirir və səhərlər isə evlərinə qayıdırlar. Duzla zəngin şaxtadakı hava astma və bir sıra tənəffüs yolları xəstəliklərinə qarşı yaxşı nəticə verir. Böyük məmnuniyyətlə mən şəxsən burada bir gecə keçirmək istərdim.

### Ecazkar təbiət

Naxçıvan təbiətinin təklif etdikləri sanki bütün insan əli ilə yaradılan tikililəri və zənginlikləri geridə qoyur. Qum təpələrinin gözəllikləri ilə rəqabət aparan gilli təpələr və təkrarolunmaz

rəngoyunu ilə lovğalanan dağ silsilələri, aydın göllər, landşaftı arası ilə qıvrılan çaylar bizi hər dəqiqə şəkil çəkməyə “vadar edir”. Ecazkar dağ landşaftları arası ilə Naxçıvanın cənub-şərqindəki Ordubada səfərimiz yaddaqalan oldu. Fotokameram rahatlıq tapmır. Naxçıvanda az müddət qalmağımız oradakı mənfi hal idi. Biz burada məmnuniyyətlə də artıq qalardıq.

Mənim qeydlərim: İstanbuldan Naxçıvana birbaşa gəlin və səyahətinizi yerli Tərcümə və Turizm Mərkəzi olan NATİQ LLC ilə planlaşdırın. Və ... mütləq bir neçə gün üçün planlaşdırın.

**Nikoletta HERMAN,**
***İsveçrə - www.nicolettas-welth.ch,***
***08.10.2013***



## QOPARILMIŞ PARÇA – NAXÇIVAN

***– SSRİ regionları arasında birinci olaraq sovet imperiyasından ayrılmış Azərbaycanın bu muxtar respublikasında həyat necədir?***


НЕВСКОЕ ВРЕМЯ

Bu diyar dünyanı su basandan sonra yaranmış sivilizasiyanın beşiyi sayılır. Çünki rəvayətə görə, Nuhun gəmisinin səfəri məhz buradakı dağların birində başa çatmış, gəminin sahibi Nuh Peyğəmbər sahilə çıxmış və bu şəhərin təməlini qoymuşdur. Bütün bunlar beş min il əvvəl baş vermişdir. Peyğəmbərin məqbərəsi və daha 1200 tarixi abidə – saraylar, qüllələr, sərdabələr, üzərində qədim insanların rəsmləri olan qayalar buradadır. Həmin abidələrin yarısı dünya və respublika əhəmiyyətli abidələr sayılır. Azərbaycan memarlıq və realist rəngkarlıq məktəbi burada yaranmışdır.

Yayda müsbət 43 dərəcə istilik, qışda mənfi 30 dərəcə şaxta olan bu diyar daim kimlərinsə işğal obyekti olmuşdur. Axı bura çox mühüm strateji məkanda yerləşir. Yaxın və uzaq regionlara, Çinə və Hindistana, Romaya və Bizansa gedən yollar buradan keçirdi. Lakin bu yerlərin sakinləri həmişə qürurlu və azadlıqsevər olması ilə fərqlənmişlər.

Biz Naxçıvan Muxtar Respublikasında və onun paytaxtı Naxçıvan şəhərindəyik.

### *“Elə etmək lazım idi ki, heç kəsdən asılı olmayaq”*

Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas ərazisindən cəmi 50 kilometr uzunluğunda Ermənistan torpağı ilə ayrılır. Azərbaycan və Ermənistan 20 ildən artıqdır ki, müharibə vəziyyətindədir. Biz buraya Bakıdan təyyarə ilə dost İran səmasından keçərək gəldik. Təyyarədən düşəndən sonra ətrafa nəzər salıb gördük ki, İran dağlarına, necə deyərlər, əl uzatsan, çatar. Naxçıvan dağları ilə İran dağlarını ensiz Araz çayı ayırır. Ana Vətəndən müxtəlif

malları Naxçıvana İran yolları ilə gətirirlər.

Son 20 ildən bir qədər artıq müddətdə burada inanılmaz dəyişikliklər baş vermişdir. 1990-cı ilin əvvəlində Naxçıvan Muxtar Respublikası öz müstəqilliyini elan etmiş ilk SSRİ ərazisi olmuşdur. Bu hadisə həmin ilin yanvar ayında Bakıya sovet qoşunları yeridiləndən sonra baş vermişdi. Həmin qoşunlar xalq cəbhəsi şəklində sıx birləşmiş müxalifətin baş qaldırmasına imkan vermədilər. Lakin kommunist rejimini xilas etmək üçün göstərilən bu cəhd həmin rejimin həm Azərbaycanda, həm də bütün ittifaqda məhvini yalnız sürətləndirmiş oldu. Naxçıvan isə bundan sonra blokada illərini yaşamalı oldu. Bakıda hakimiyyət uğrunda iyrənc mübarizə gedir, oradakı mərkəzi rəhbərlik ilə mürəkkəb münasibətlər və erməni silahlı qüvvələrinin fasiləsiz hücumları nəticəsində dəmir yolları bağlanmış, muxtar respublikanın qaz və elektrik təchizatı kəsilmişdi. Sənaye müəssisələri işi dayandırmışdı. Qış vaxtı istilik verilməməsi səbəbindən insanlar soyuqdan donurdular. Sakinlərin çoxu baş alıb qaçırdı. Qalanlar "mülayimləşmə" dövrünü gözləyirdi. Bu dövr 1995-ci ildən sonra başlandı.

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan, Bakıdakı bütün əleyhdarlarını neytrallaşdırmağa və Ermənistanla atəşkəs haqqında razılığa nail olan Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü ildə ölkənin neft yataqlarının işlənilməsi haqqında Qərb şirkətləri ilə razılığa gəldi. Neftdən əldə olunan pullardan Əliyevin Vətəni Naxçıvana da pay düşürdü. Həmin pullar hesabına bərbad vəziyyətdə olan yolları qaydaya salmağa, birtipli "qutulardan" fərqli olaraq təzə evlər – gözəl, rahat binalar tikməyə başladılar. Kənd təsərrüfatına (indi bu sahə yaxşı mexanikləşdirilmişdir) və çoxişlənən mallar istehsalına xeyli vəsait qoyulmuşdur.

Naxçıvandakı rahat çayxanaların birində Əli adlı yerli sakinlə tanış oldum. O dedi:

– O vaxt biz hamımız sıx birləşdik. Bilirdik ki, heç kəsdən asılı olmamaq, hadisələrin gedişatından asılı olmayaraq, daha bir də ac qalmamaq üçün belə etməliyik. İndi çoxişlənən malların hamısını özümüz istehsal edirik. Ərzaq məhsulları – ət, süd, yumurta, taxıl da öz məhsullarımızdır. Hamısı da ekoloji təmiz məhsullardır. Sizi inandırıram ki, Azərbaycanın heç bir yerində bu cür təmiz və dadlı meyvələr yoxdur. Qonaqlarımız buradan gedəndə özləri ilə kisə-kisə meyvə aparırlar. Bizdə elə qovunlar yetişir ki, heç yerdə beləsini ala bilməzsən. Hələ bizim qoz mürəbbəmiz! Buyur, dadına bax. Hə, necədir?

Həmsöhbətim haqlı imiş! Bu, çox dadlı təamdır... İçərisinə üyüdülmüş qoz doldurularaq məxsusi qaydada qurudulmuş şaftalı, ballı qayğanaq, paxlava da elədir. Genetik modifikasiyaya məruz qalmış məhsullardan söhbət belə gedə bilməz. Naxçıvanlıların düzgün və sağlam qidaya münasibəti də təbiətə münasibəti kimi safdır. Muxtar respublika blokadada olduğu dövrdə sakinlər evləri qızdırmaq üçün buradakı ağacların çoxunu kəsmək məcburiyyətində qalmışdı. İndi isə hökumət məmurları hər şənbə günü iməciliklər keçirir, təzə ağaclar əkilir. Hər bir sakin bir neçə ağac əkmişdir. Meydanlardakı, bağlardakı və parklardakı gözəl güllərin sayı-hesabı yoxdur.

Hökumət havanın təmizliyini qoruyub saxlamaq üçün yeni iş yerləri yaradılan həyati əhəmiyyətli obyektlərin tikintisini dondura bilər. Məsələn, Sement Zavodunun tikintisi zamanı belə olmuşdu. Yalnız həmin zavodda müasir havalandırma sistemi quraşdırılandan sonra obyektin tikintisi davam etdirilmişdir. Fikir verin ki, burada "Qrinpis" təşkilatının aksiyalarına ehtiyac qalmadı, hakimiyyət orqanları özləri bu təhlükəni başa düşdülər. Bu yaxınlarda yeni bir layihə hazırlanmışdır: Azərbaycanın bəzi başqa regionlarında olduğu kimi, Naxçıvanda da yüksək texnologiyalardan istifadə edilməklə alternativ elektrik enerjisi istehsal edən stansiyalar tikiləcəkdir. Belə stansiyaları hətta evlərin damlarında da quraşdırmaq olar. Bu həm ekoloji baxımdan münasib, həm ucuz, həm də elektrik enerjisinin fasiləsiz istehsalını təmin edir (yeri gəlmişkən, yaxın keçmişdə qaranlığa qərq olmuş Naxçıvan indi özü qonşu Türkiyəyə elektrik enerjisi ixrac edir).

Enerji təhlükəsizliyinin təmin edilməsi üçün iri qaz anbarları tikilmişdir. İndi qışın soyuğunun qorxusu yoxdur.

Ümumiyyətlə, Naxçıvan ən böyük ehtirama layiqdir. 1995-2012-ci illərdə muxtar respublikada ÜDM-in həcmi 48 dəfə artmışdır! 2015-ci ilə qədər muxtar respublikanın hakimiyyət orqanları bütün dəmir yolları və avtomobil traslarını bərpa etmək niyyətindədirlər. Burada tikinti işləri fasiləsiz davam edir. Yaxın vaxtlarda çox qısa müddətdə ən müasir Doğum Mərkəzi, olimpiya kompleksi və şahmat məktəbi, "Badamlı" mineral suyu istehsal edən zavod açılmış, Heydər Əliyev adına monumental saray bərpa edilmişdir. Naxçıvan Universiteti çox gözəldir, burada 5000 tələbə, o cümlədən 12 xarici ölkədən gəlmiş gənclər təhsil alır.

Lakin hər şeyin çox yaxşı olduğunu söyləmək səmimi olmaz. Ermənistanla sərhəddə gərginlik davam edir. Yerli sakinlərin sözlərinə görə, sərhədə yaxın getməmək yaxşıdır, əks halda sərhədin o tayında daim növbəçəkən snayperlərin gülləsinə tuş gələ bilərsiniz. Sakinlər dinc vaxtda neçə-neçə insanın snayper gülləsi ilə qətlə yetirildiyini söyləyirlər. Təbii ki, Naxçıvan əsgərləri də həmhüdud ərazini daim nəzarət altında saxlayırlar.

Azərbaycan Respublikasının Moskvadakı səfirinin müavini Qüdsi Osmanov deyir:

– Mən elə güman etmirəm ki, rusiyalıların əksəriyyəti Azərbaycanı döyüşkən ölkə hesab edir və bu səbəbdən buraya gəlməyə çəkinirlər. Statistika göstərir ki, həm Rusiyadan, həm də başqa ölkələrdən buraya çoxlu turist gəlir. Təkcə Bakıda deyil, regionlarda da turistlərə göstəriləsi yerlərimiz çoxdur, bu regionların hərəsinin özünəməxsus gözəllikləri vardır.

Qüdsi Osmanovun sözlərinə görə, vaxtilə Vətəni tərk edib getmiş azərbaycanlılar da burada həmişəlik qalmaq üçün gəlirlər. Son beş-yeddi ildə gələnlərin təxminən 12-14 faizi belə insanlardır. Onlar burada sabitlik yaranmasına inanırlar, çünki xaricdə qazandıqları pulları burada, evdə də qazana bilərlər.

Səfirin müavininin sözlərinə görə, 1000 manat (təxminən 1000



avro) məbləğində əməkhaqqı qazanmaq problem deyil. Vətən havası isə hər bir insan üçün hər hansı başqa havadan daha şirin, daha xoş olmalıdır.

### *Sağlamlıq bəxş edən duz*

Sağlam olmaq üçün Naxçıvana getmək lazımdır. Əvvələn, ta qədimdən burada 300 növdən çox müalicəvi ot bitir. Yerli sakinlərin sözlərinə görə, bu otlar əsl möcüzə törədir. Deyilənə görə, bir nəfər bir həftə ərzində yalnız dağ otları ilə qidalanmaq sayəsində mədə xərçənginə qalib gəlmiş və bundan sonra bir neçə il yaşamışdır. İkincisi, burada çoxlu nadir mineral su bulaqları vardır. Müalicəvi suyu şüşə qablara doldurub ixrac üçün göndərirlər. Üçüncüsü (bəlkə də, birincisi), Naxçıvanda möcüzəli "Duzdağ" Fizioterapevtik Mərkəz fəaliyyət göstərir. Duz mədənində yerləşən bu mərkəz duz dağının uçması nəticəsində təsadüfən aşkar edilmişdir. Orada gil qablar və daş baltalar aşkar edilmişdir. Mütəxəssislərin fikrincə, hələ eramızdan əvvəl III-II əsrlərdə insanlar bu çəkiclərin köməyi ilə burada duz çıxarır və onu Böyük İpək Yolu vasitəsilə Şərqə və Qərbə daşıyıb aparırdılar. Hündürlüyü on metrdən çox olan tuneldə bir neçə sütunlu salon aşkar edilmişdir. Görünür, duz çıxaranlar həmin salonlarda yaşayırmış. Bu qədim yeraltı möcüzə insanların sağlamlığına xidmət etməyə başlamışdır. Hazırda uzunluğu 300 metr olan bu mağarada havanın spesifik qoxusu bronxial-astma xəstəliyini müalicə edir.

"Duzdağ" Fizoterapiya Mərkəzinin baş həkimi Ruslan Süleymanov deyir:

– Speleoterapiya adlanan bu metod tənəffüs sistemi xəstəliklərinin müalicəsi üçün ən təsirli üsuldur. Bizdə müalicə seansları gecə vaxtına düşür. Pasiyentlər mağaradakı çarpayılarda sakit və yarıqaranlıq şəraitdə uzanıb mürgüləyir, natrium-xlor ionları ilə zəngin olan quru hava ilə nəfəs alırlar. Bir müalicə kursundan sonra yaşlı pasiyentlərin 65-70 faizinin, uşaqların 85-95 faizinin vəziyyəti yaxşılaşır.

Mənəvi sağlamlıq üçün paytaxtdan 12 kilometr məsafədə

yerləşən, daim küləklər əsən qayalıqlar boyunca müsəlmanların qədim ziyarətgahı Əshabi-Kəhfə getmək məsləhətdir. "Əshabi-Kəhf"in adı Quranın 18-ci surəsində də çəkilir. Bu adın tərcüməsi "Mağara adamları" deməkdir. Rəvayətə görə, bütpərəst padşahın vəziri Teymurxan başda olmaqla bir neçə dindar həmin padşahın və zülmkar Dağ Yunisin əlindən qaçaraq dağdakı bu mağaraya pənah gətirmiş, orada yatıb yuxulamış və 300 ildən sonra yuxudan ayılmışlar. Qaçqınların bələdçisi çörək gətirmək üçün şəhərə getmiş, orada tacirə çoxdan istifadədən çıxmış pul vermək istəyərkən tutulub saxlanmış və bundan sonra dağdakı insanların taleyi məlum olmuşdur. Bələdçi əvvəlcə heç nə anlamayıb adamları öz evinə aparmış, orada ahıl bir kişi görmüşdür. Həmin kişi söyləyir ki, vaxtilə bu evdə onun ulu babası vəzir Teymurxan yaşamışdır. Öz kötücəsini görəndə heyrətlənmiş Teymurxan mağaraya qayıdır və yoldaşlarına izah edir ki, onlar yeni dünyada yabançı insanlardır. Bundan sonra "mağara adamları" Ulu Tanrıya dua edirlər ki, onları öz yanına aparsın. Həqiqətən, bu adamlar yoxa çıxırlar...

İndi Əshabi-Kəhfə üz tutanlar zalım hökmdarlardan gizlənmək üçün belə etmirlər. Buraya gələn zəvvarlar ağacların və kolların budaqlarına parça qırıqları bağlayır, sonra bir qədər mağarada əyləşirlər. Onların üzərinə su damcıları düşür, balaca daşları böyük qara daşın yanına qoyurlar. Bütün bunlar zəvvarların arzularının çin olmasını təmin edir. Övladları olmasını arzu edən qadınlar balaca oyuncaq beşiklər götürərək dağa qalxırlar. Uşaqları olanlar isə dağdağan ağacından budaqlar kəsir və meyvələr dərirlər, bunlar körpələri bədnəzərdən və cin-şəyatindən qoruyur.

Bu müqəddəs ziyarətgah mərhum Prezident Heydər Əliyevin sərəncamı ilə bərpa edilmiş və abadlaşdırılmışdır. İndi hər il müxtəlif ölkələrdən minlərlə müsəlman zəvvar buraya gəlir.

***Bunlar hamısı onun barəsindədir...***

Vitrindəki şüşənin altında bir vərəq vardır. Bu vərəqdə Azərbaycan Sənaye İnstitutunun tələbəsinin avtobioqrafiyası yazılmışdır. Bu isə 1950-ci ildə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbər



operativ heyətinin Leninqrad Yenidənhazırlanma Məktəbinin bitirilməsi haqqında şəhadətnamədir. Onun yanındakı sənəd Ust-Kut-Komsomolsk-Amur marşrutu üzrə birinci qatarın fəxri sərnişininin Baş BAM Tikinti İdarəsinin rəisi tərəfindən imzalanmış biletdir. Bütün bu sənədlər burada Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevə məxsusdur. Onlar Naxçıvanın əsas meydanında Heydər Əliyev Muzeyində saxlanılır. Meydanda Heydər Əliyevin abidəsi də ucaldılmışdır.

Naxçıvanda Heydər Əliyevə xüsusi münasibət var, o, burada doğulmuşdur. Sov.İKP MK Siyasi Bürosu üzvlüyündən xaric ediləndən, iki il Moskvada fəxri təqaüdçü kimi yaşayandan, 1990-cı ildə Azərbaycan müxalifətini ram etmək üçün Bakıya qoşun yeridilməsi səbəbindən Qorbaçovla mübahisəsindən və Azərbaycana gələndən sonra siyasi rəqibləri onu ölkənin paytaxtından sıxışdırandan sonra o, buraya qayıtmışdır.

Heydər Əliyevin oğlu, Azərbaycanın indiki Prezidenti İlham Əliyev deyir: "Naxçıvanlılar Heydər Əliyevi müdafiə etdilər, Heydər Əliyev isə Naxçıvanı qorudu".

Heydər Əlirza oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin (Heydər Əliyevin rəhbərliyi ilə deputatlar muxtar respublikanın adındakı "Sovet Sosialist" sözlərini Sovet İttifaqı dağılandan, demək olar ki, iki il əvvəl çıxarmışdılar) Sədri olandan sonra öz həmyerliləri ilə birlikdə burada ən ağır blokada aylarını yaşamışdır. O vaxt Heydər Əliyev "böyük torpaqdan" ayrı düşmüş muxtar respublikanı İran və Türkiyə ilə birləşdirən iki körpü tikdirmişdi. İnsanlar bu iki əsas arteriyanın sayəsində salamat qalmışdı. O, təcavüzün dəf edilməsi üçün vətəndaşları səfərbər edən Dövlət Müdafiə Komitəsi yaratmışdı. Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti olmaq üçün Bakıya yeni yolunu buradan, Naxçıvandan başlamışdı. Onun Prezident seçildiyi gün dövlət bayramı, Milli Qurtuluş Günü oldu. İndi Azərbaycanda "Əliyevşünaslıq" adlanan ayrıca bir elm vardır, Naxçıvan Universitetində isə (yəqin ki, Azərbaycanın bütün ali məktəblərində olduğu kimi) elə bir au-

ditoriya yoxdur ki, orada ümummilli liderin portreti asılmasın. Azərbaycan rəsmiləri şəxsiyyətə pərəstiş barədə danışanlara qəti etiraz edərək bildirirlər ki, bu münasibət yalnız ölkədə beş il davam etmiş siyasi hərc-mərcliyə son qoymağı, iqtisadi və hərbi sahələrdə böhrana qalib gəlməyi, çox böyük məbləğdə xarici sərmayələr cəlb etməyi və ən başlıcası – 1990-cı illərin əvvəlində çox dəhşətli vəziyyətdə olan dövlət müstəqilliyini qoruyub saxlamağı bacarmış insana səmimi ehtiram əlamətidir. Düz sözə nə deyəsən!

Azərbaycanın indiki geosiyasəti haqqında ölkədə mübahisələr çoxdur. Bütün köşklərdə sərbəst satışda olan müxalifət qəzetlərini bir qədər oxumaq kifayətdir. Həmin qəzetlərdə ölkə rəhbərliyinin ünvanına çox kəskin tənqidlər söylənilir. Amma məsələ onda deyil... bəlkə də, bu, səthi mülahizə kimi görünə bilər, lakin Bakının, Naxçıvanın, digər şəhərlərin nağılvari dəyişmiş simasına baxanda, ezamiyyətdə olarkən Azərbaycanın xarici qonaqları ilə söhbət edəndə, onların burada sərmayə qoymağın çox cəlbedici və tamamilə təhlükəsiz olması barədə sözlərini eşidəndə, hətta, sadəcə, küçələrdəki təmizliyi və qaydanı qiymətləndirəndə hiss edirsən ki, bitib-tükənmək bilməyən islahatlar keçirən Rusiya Azərbaycandan geridə qalmışdır. Azərbaycanda modernləşmə barədə təkcə danışmırlar, onlar modernləşdirməni əyani şəkildə həyata keçirirlər.

***Yalnız faktlar***

• 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin sessiyasında muxtar respublikanın müstəqilliyi elan edilmiş, sonradan bütün Azərbaycanın dövlət bayrağına çevrilmiş üçrəngli bayraq təsdiq edilmişdir.

• Muxtar respublikanın səkkiz rayonunda və 200 kəndində Wi-Fi-dən istifadə etmək mümkündür. Yaxın gələcəkdə internet istifadəçilərinin sayını 72 faizə çatdırmaq planlaşdırılır.

• Yaxın gələcəkdə Naxçıvanda metro tikiləcəkdir. Naxçıvanda, habelə Sumqayıtda və Gəncədə metro tikintisinin planlaşdırılması barədə Bakı Metropoliteninin rəisi Tağı Əhmədov məlumat vermişdir. Bu tikinti Azərbaycanda metropolitenin inkişafına dair 20 illik proqram çərçivəsində həyata keçiriləcəkdir.



• Naxçıvanda cinayətkarlığa praktik olaraq son qoyulmuşdur. Buna görə də adamların çoxu öz maşınlarının, mənzillərinin və evlərinin qapılarını bağlamır.

*Andrey PETROV,*
*"Nevskoye Vremya"*
*ictimai-siyasi qəzeti,*
*(Sank-Peterburq, Rusiya Federasiyası),*
*06.12.2013*

## KƏNGƏRLİLƏR RUSİYANIN QAFQAZDAKI İDARƏSİNİN SƏNƏDLƏRİNDƏ

*(tarixi-hüquqi oçerk)*

Vaxtilə müasir Azərbaycanın ərazisində Rusiya imperiyasının hökmranlığı illərində yerli administrasiyanı Kəngərlilər (və yaxud Kəngərli) qədər məşğul edən başqa bir tayfa olmamışdır (XIX əsrin rəsmi sənədlərində "kenqerli"nin digər yazılış formasına – "Kyanqerlı"ya da rast gəlinir ki, bu da Rusiya Ordusunun Əlahiddə Qafqaz Korpusu sıralarında 1829-1856-cı illərdə fəaliyyət göstərmiş və dəfələrlə döyüş meydanlarında şöhrət qazanmış "Kəngərli süvarisi" ("Konniça Kenqerli") adlanan qeyri-nizami hərbi birləşmə ilə bağlıdır. Bu hərbi birləşmə istisnasız olaraq eyniadlı subetnosun nümayəndələrindən komplektləşdirilirdi).

Kəngərlilər XIX əsrin ikinci rübü ərzində hərbi-idarə və tarixi-hüquqi cəhətdən elə parlaq və özünəməxsus nadir sosial hadisədir ki, onların statusunun müəyyənləşdirilməsi və sonrakı nizamlanması məsələlərinə imperator I Nikolay da daxil olmaqla o zamankı Rusiya hakimiyyətinin aşağıdan yuxarıya bütün pillələri dəfələrlə müdaxilə etməli olmuşlar.

Gəlin bəri başdan şərtləşək ki, biz bu tayfanın etnoqrafik oçerkini yazmağı qarşımıza məqsəd qoymadığımızdan diqqətimizi yalnız bir yarım əsr bundan əvvəl Zaqafqaziyada digər müsəlman tayfaları arasında Kəngərlilərin özünəməxsus (əgər "əlahiddə" demək mümkün deyilsə) vəziyyətini müəyyənləşdirən normativ aktlar və ona qədər mövcud olmuş bürokratik aktların məzmununun təhlili üzərində cəmləşdirəcəyik. Bu mənbələrin əsas hissəsi "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktlar"da (QAKA) ("Aktı, sobrannıe Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey" – AKAK) çap olunsa da, indiyədək sistemləşdirmə və elmi dərketmə predmetinə çevrilməmişdir. Buna görə də bu qəbildən olan ilk xüsusi məqalə kimi onun qarşısında qoyulan əsas vəzifə Rusiya imperiyasının Qafqazdakı milli siyasətində konkret tarixi nümunədə hər hansı bir konkret xalq və tayfanın ənənə və məişətinin xüsusiyyətlərindən



asılı olaraq, yanaşma variantlılığının mövcud olduğunu göstərməkdən ibarətdir.

1826-1828-ci illər Rusiya-İran müharibəsi nəticəsində imzalanmış Türkmənçay sülh müqaviləsinə uyğun olaraq, Naxçıvan xanlığı ərazisinin – yəni yaşadıqları ərazinin Rusiya yurisdiksiyasına keçməsilə əlaqədar olaraq Kəngərlilər Rusiya imperiyasının hakimiyyəti altına düşdülər. QAKA görə, Kəngərlilər ilk dəfə piyada qoşunları generalı İ.F.Paskeviçin imperator I Nikolayın adına göndərdiyi İxlaskar raportunda "Kəngərlilərin Naxçıvan süvarisi" ("Naxiçevanskaya konniça Kenqerli") kimi xatırlanır. Bu raportda Rusiya Ordusunun Əlahiddə Qafqaz Korpusunun türk qoşunlarına qarşı Saqanlıq dağ silsiləsində 15-17 iyun tarixlərindəki üçgünlük döyüşləri təsvir olunur. Sənədin mətnindən belə aydın olur ki, Kəngərli süvarisi Qara dəniz kazakları ilə birlikdə ümumkazak alayını təşkil etmiş və general-mayor Sergeyevin qeyri-nizami süvari dəstəsi tərkibində əvvəlcə rus qoşunlarının ön hissəsində silsilənin hər iki yamacındakı meşəliklə irəliləmiş və bununla da, korpusun əsas qüvvələrinin gizli manevretmə imkanlarını təmin etmişlər. Sonda qələbə ilə nəticələnmiş həmin döyüşün son mərhələsində Kəngərlilərin atlı döyüşçüləri Qara dəniz kazakları ilə birlikdə rus qoşunlarının başında irəliləməklə cinahı mühasirəyə almış, sonra isə Osmanlı qoşunlarının əsas qüvvələrinin arxasına keçə bilmişlər. Türkiyənin Asiya hissəsindəki 1829-cu il kampaniyasının bütün gedişi zamanı Kəngərli süvarisi, əsasən, ümumkazak alayı tərkibində fəaliyyət göstərmişdir. Müstəqil bölmə kimi yalnız polkovnik-leytenant knyaz M.Z.Arqutinski-Dolqorukinin dəstəsi Olti ekspedisiyasında 18-20 sentyabrda Olti qalasının bilavasitə mühasirəsində, onun atəşə tutulmasında iştirak etmişdir ki, bu da nəticədə, qarnizonun təslim olmasına gətirib çıxarmışdır. Gördüyümüz kimi, Rusiya tabeliyinə keçdikləri andan etibarən Kəngərlilər Qafqazdakı rus hərbi komandanlığı və mülki idarəçiliyi tərəfindən rifahının əsasını yalnız hərbi və hərbi-polis qulluğu təşkil edən icma kimi qəbul edilirdi.

Ümumkazak alayı tərkibində 1829-cu ildə Osmanlılara qarşı hərbi əməliyyatlarda Kəngərlilərin Qara dəniz kazakları ilə çiyin-çiyinə iştirakı sübut edir ki, bu tayfa öz sosial mükəlləfiyyətinə və vəziyyətinə görə o zamankı Azərbaycanın digər əhalisi arasında xüsusi yer tutur, həyat tərzinə və hüquqi statusuna görə onlardan fərqlənirdi. Kəngərlilər XIX əsrin birinci yarısında Zaqafqaziya müsəlmanları arasında analoqu olmayan ictimai korporasiya təşkil edirdi. Bunu Qafqazdakı Rusiya administrasiyasının sənədləri əyani şəkildə sübut edir. Qeyd edək ki, bu tayfanın sayı XIX yüzilliyin birinci ilə ikinci qərinələrinin kəsişməsi dövründə rəsmi məlumatlara görə, 1270 ailədən və yaxud, təqribən, 10000 nəfərdən ibarət idi.

Kəngərlilərin həyatının məzmun və mənasını qulluq təşkil edirdi, şərəf və onunla qırılmaz şəkildə bağlı olan verilmiş sözə və ya anda sədaqət mövcudluqlarının mənəvi dominantı olduğundan onları heç nə üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsindən imtina etməyə məcbur edə bilməzdi. Azərbaycan torpaqlarının Rusiya imperiyasına birləşdirilməsindən sonra öz hərbi birləşmələri ilə Əlahiddə Qafqaz Korpusu qoşunları tərkibində daimi əsaslarla hərbi qulluq keçən Kəngərlilər yeganə icma idilər. Tez-tez Rusiya əsgərlərinin və yaxud Qafqaz kazaklarının öhdəsindən gələ bilmədikləri məsuliyyətli və xüsusi tapşırıqları onlar yerinə yetirirdilər. Buna misal olaraq, 1837-ci ilin yazında və yayında Ordubadda baş vermiş bir hadisəni göstərmək olar. Bu hadisə Rusiya imperiyasının bütün idarəetmə pillələrini – Ordubad mahal polis idarəsindən tutmuş əlahəzrət imperatorun Xüsusi Dəftərxanasına qədər bütün pillələri bürümüş qızğın bürokratik yazışmaya səbəb olmuşdur.

Belə ki, Ordubad yaxınlığındakı Vənənd kəndinin sakini, kifayət qədər qaranlıq şəxsiyyət olan Molla Məhəmmədsadıx aprelin 30-da İrandan geri dönüb kəndlərində vaizlik etməyə başlayır. Həmkəndlilərinin ifadələrinə görə, onun əvvəllər heç bir əmlakı olmayıbmış, çörək pulunu isə mirzəlik etməklə qazanırmış. Arvadını və oğlunu



taleyin hökmünə buraxıb bir neçə illiyə yoxa çıxmış, bu yaxınlarda geri qayıdıb özünü təzə peyğəmbər olmasa da, peyğəmbərlərin nümayəndəsi elan etmişdir. Bunun sübutu kimi üzərində "Şahənşah"ın adı yazılmış möhürünü də ortaya qoyur (sonradan aparılmış təhqiqatlardan bəlli olur ki, bu möhürü bir yerli sənətkar hazırlayıbmış). Moizənin məğzi tərki-dünya xarakterli olub, tezliklə dünyanın dağılacağı və qiyamət gününün başlayacağı xəbərinin verilməsindən ibarət idi. Həm də bunların mütləq Ordubad ətrafında və ən yaxın zamanlarda baş verəcəyi iddia edilirdi. Onun moizələrindən çaşqınlığa düşən sakinlər silahlanmağa başlayırlar ki, bu da mahal naibi mayor Şıxəli bəyi və polis pristavı ştabs-kapitan Voronçenkonu narahat etməyə bilməzdi. Onlar isə, öz növbələrində, "erməni vilayəti"ni idarə edən general-mayor knyaz V.O.Behbudova mümkün ixtişaşlar barəsində raportlar yazırlar. Ordubad idarəçiliyi xalq həyəcanlarının mərkəzində olmaq və bunun qarşısında aciz qalmaqdan açıq-aşkar vahiməyə düşür. Çünki onun sərəncamında cəmisi 120 nəfərlik 4-cü gürcü xətt (sərhəd) batalyonu və gömrük-karantin xidməti göstərən kazak bölüyü var idi. Qiyam baş verəcəyi halda qiyamət qorxusundan lərzəyə gəlmiş çoxminli kütləyə qarşı durmaq üçün bunlar həddən ziyadə az idi.

General Behbudov Əlahiddə Qafqaz Korpusunun komandanı baron Q.V.Rozenə, o isə, öz növbəsində, Sankt-Peterburqa gözlənilən təhlükələrə dair raportlar yazır. Vəziyyəti xüsusilə qəlizləşdirən məsələ bunda idi ki, bir neçə aydan sonra, 1837-ci ilin sentyabrında imperator I Nikolayın Qafqaza səfəri gözlənilirdi. Amma son nəticədə, bəlli oldu ki, hərbi-yerli administrasiyanın həyəcanları əbəs imiş. Belə ki, baron Rozenin hərbi nazir qraf Z.Q.Çernışevin adına yolladığı 19 iyul 1837-ci il tarixli məxfi raportundan aydın olur ki, Naxçıvanın naibi, polkovnik Ehsan xanın qardaşı mayor Fərəc ağanın rəhbərliyi altında Kəngərli süvarisinin sotnyası Ordubada gəlmiş, heç bir əsgər, heç bir ermənidən istifadə etmədən Molla Məhəmmədsadıxı onu müqəddəs sayan bir neçə min müsəlmanın gözləri qarşısında həbs etmiş və gətirib İrəvana təhvil

vermişdir. Zaqafqaziya tarixinin bu epizodu Kəngərliləri və onların yerli xalqlar arasında tutduqları mövqeyi hər şeydən daha yaxşı səciyyələndirir. Hamıya bəlli oldu ki, onlar yüz nəfərlə bir neçə minə qarşı çıxmaq, ya əmri icra etmək, ya da ölmək qabiliyyətinə malikdirlər. Buna görə də onların əleyhdarları öz başçılarının həbsinə qarşı belə çıxa bilməmişlər. Molla Məhəmmədsadığın özünə gəlincə isə o, Qafqaza inspeksiya məqsədli səfəri ərəfəsində imperator I Nikolayın 17 avqust 1837-ci il tarixli sərəncamı ilə yalançı "peyğəmbər" kimi tutulub həmişəlik olaraq Dinaburq qalasındakı məhbuslar rotasına göndərilir.

Bu Ordubad hadisəsi haqqında xəbərlər hərbi parad və baxışlara, ümumiyyətlə, az maraq göstərən imperator I Nikolayda Qafqaza səfəri zamanı məhz Kəngərli süvarisinə (Rusiya imperiyasının kargüzarlığında Kəngərlilərin hərbi birləşməsi rəsmən belə adlanırdı) sıra baxışı keçirməyə maraq oyatmışdı. Bu baxış 5 oktyabr 1837-ci il tarixdə baş tutur və hökmdarda, habelə onun əyanlarında ən xoş təəssüratlar yaradır. Bu baxış XIX əsr Rusiya hərb tarixi üçün unikal hadisə idi. Nə ona qədər, nə də ondan sonra Rusiya hökmdarları bu yüzillikdə bir daha "yadelli" hərbi hissələrinin onların yaşayış yerindəcə keçirilən paradını qəbul etməmişlər. Kəngərli süvarisinin belə bir şərəfə layiq görülməsi faktı onu sübut edirdi ki, Qafqazdakı Rusiya idarəçiliyi bu hərbi birləşməyə xüsusi ümidlər bəsləyir. Amma I Nikolayın Kəngərlilərə hökmdar iltifatının o biri tərəfi də vardı. Qafqaz idarəçiliyi buranın digər əhalisi arasında narazılıq salmadan Kəngərliləri fərqləndirməklə mükafatlandırmaq məsələsi sual olaraq qalırdı. Qafqazın baş hakimi, piyada qoşunları generalı qraf Y.A.Qolovin, hərbi nazir qraf Z.Q.Çernışev, o dövrdə Rusiyada Qafqaz üzrə başlıca mütəxəssis sayılan, Polşa çarlığında imperiya canişini işləyən general-feldmarşal qraf İ.F.Paskeviç-İrəvanski və İmperiya Dəftərxanası arasında bu mövzuda fəal və uzunmüddətli bürokratik yazışmalar aparılmışdı. Yazışmalar bir neçə il davam etmiş və 12 fevral 1840-cı il tarixdə hərbi nazirin Qafqazdakı baş hakiminin adına yazdığı sirkulyar



məktubla yekunlaşmışdır. Bu məktub nəinki dəftərxana bəlağəti nümunəsi, həm də Qafqazdakı vəziyyətə dair Rusiya hakimiyyətinin düşünülmüş yanaşması nümunəsi sayıla bilər. Fars hökuməti yanında yalnız hərbi mükəlləfiyyətli və Naxçıvan naibi yanında qulluqda olan Kəngərlilər tayfası heç zaman ticarətlə və ya sənaye ilə məşğul olmamışlar. Onlar azacıq heyvandarlıq və ondan da az səviyyədə əkinçiliklə məşğul olmuşlar. Fars hökuməti yanında hər cür vergilərdən azad edilmiş Kəngərlilərin sərhədlərin keşiyini çəkmək və naib yanında (onlara naib tərəfindən ümumən toplanan torpaq məhsullarından bir qədər yardım da edilirdi) polis qulluğunu icra etmək üçün ən azı 200 atlı döyüşçünü hər an hazır vəziyyətdə saxlamaq borcu idi. Rusiyaya birləşdirildikdən sonra Kəngərlilər həmin hüquqlarını qoruyaraq indi də ən azı 200 atlı döyüşçü saxlamaqda davam edirlər. Həmin atlıların az bir hissəsi naib Ehsan xanın fəxri mühafizəsini təşkil edib, yerli qulluq vəzifələrini icra edirdi, digərlərindən isə Araz boyunca keşik çəkməklə düşmənlərə qarşı ekspedisiyalarda və sairədə istifadə olunurdu.

Bu səbəblər üzündən knyaz Varşavski (yəni İ.F.Paskeviç-İrəvanski – O.K.) belə hesab edir ki, Kəngərliləri "erməni vilayəti"nin digər sakinləri ilə müqayisə etmək olmaz. Baxmayaraq ki, həmin əsgərlər də sərhədlərin keşiyini çəkirlər, lakin Kəngərlilər kimi kuryerləri və nəqliyyatı İrana müşayiət etmirlər, İranın sərhəd rəislərinə çatacaq sənədlər onlarla göndərilmir. Özlərinin çoxdankı hərbi vərdişlərinə uyğun olaraq, Kəngərlilər həmişə silahlanmağa hazır olurlar, lakin belə həyat tərzi təbii olaraq onları əkinçilikdən uzaq salır və "erməni vilayəti"nin digər sakinləri kimi təbiətin məhsullarından yararlanmağa imkan vermir.

Buna görə də, feldmarşalın fikrincə, Kəngərliləri Zaqafqaziya əyalətlərindəki maaflarla müqayisə etmək lazımdır. Çünki maaflar da ilk çağırışda qulluğa əldə silah və atla gəlməli idilər. Həmin vəzifələri indiyədək Kəngərlilər də icra edirlər. Lakin bu səbəbdən maaflar bütün vergilərdən azad edilsələr də, eyni şeyləri hökumətə sadiqlikləri ilə tanınan və həmişə igidlik və çalışqanlıqları ilə

seçilən Kəngərlilərə rəva görməmək ədalətsizlik olardı. Knyaz Varşavski əlavə edir ki, maaflar, İran kürdləri, Kəngərlilər və Zaqafqaziyadakı bəzi köçəri tayfalar, ümumiyyətlə, bizim kazaklar kimi qeyri-nizami süvari təşkil edə bilərdilər və bu, çox faydalı olardı: ilk olaraq onlardan düzgün məlumatlar toplamaq və alayları formalaşdırmaq lazımdır. Bu alaylar həqiqi qulluq zamanı məvacib, azuqə və mal yemindən başqa, hökumətdən hər hansı yardım istəmədən öz silahı və atı ilə qulluğa çıxacaqlar. Bu tədbir təsdiqləndikdən sonra onu digər sakinlərə də şamil etmək olar.

Əlahəzrət İmperator feldmarşal knyaz Varşavskinin rəyini bütünlüklə bəyənərək belə buyurdu ki:

1) Kəngərlilərə 1836-cı ildən, yəni bu mükəlləfiyyətə cəlbedilmə dayandırıldıqdan sonra qalan vergi borcları bağışlanılsın.

2) Onlar gələcəkdə pul vergisinin ödənilməsindən azad edilsinlər, lakin taxıl vergisi əvvəlki əsaslarla ödənilsin.

3) Bunun müqabilində sərhəd keşiyini çəkmək, naib yanında qulluq etmək, kuryer göndərilmək, düşmən əleyhinə hərəkətlərə cəlb edilmək və döyüşən orduya bir neçə atlı döyüşçü verilməsi üçün zəruri sayda süvari saxlamaq onların vəzifəsi hesab edilsin.

4) Feldmarşalın maaflar, Kəngərlilər və Zaqafqaziyadakı bəzi köçəri tayfalardan ibarət qeyri-nizami süvari dəstəsi yaradılmasına dair təklifi zaman və şərait imkan verdikdə tədricən icra etmək üçün nəzərə alınsın.

Sitat gətirilən bu sənəd o zamankı Azərbaycanın digər əhalisi ilə müqayisədə Kəngərlilərin imperiya yurisdiksiyasına keçdikdən sonra ilk 10-15 il ərzində onun tərkibindəki sosial-iqtisadi vəziyyətinin yığcam və lakonik xarakteristikasını özündə əks etdirir. Əvvəllər Rusiya administrasiyası tayfanın bütün potensialı və resurslarını qulluqdankənar bütün pul və natural mükəlləfiyyətləri ödətməklə yanaşı, dövlət-hərbi, feldyeger kimi qulluq növləri, diplomatik ehtiyaclı kuryer və yerli polis, sərhəd-gömrük, kordon-sanitar xidmətləri üçün onların silahlı dəstə və atlılarını kifayət qədər saymazcasına istismar etməyə çalışırdı. Belə vəziyyət isə



Kəngərlilərin həyat tərzlərinin əsaslarını dağıdırdı, çünki onlar əvvəlki uğur və səmərə ilə hakimiyyət qarşısındakı vəzifələrini, habelə pul vergilərini obyektiv olaraq icra edə bilmirdilər. Buna görə Qafqazdakı Rusiya idarəçiliyi tayfadan vergi toplanmasını dayandırdı, lakin ödənilməmiş məbləği borc kimi yazmağa başladı. Lakin 1837-ci ildə yalançı "peyğəmbər" Məhəmmədsadıxla bağlı hadisə Rusiya əsgərləri və kazaklarının yararlı olmadığı hallarda yerli şəraitə uyğun spesifik məsələləri səmərəli şəkildə həll etməyə qadir olan yerli, "yadelli" hərbi qüvvənin imperiya idarəçiliyinin sərəncamında olmasının son dərəcədə zəruriliyini nümayiş etdirdi. Buna görə də Kəngərlilər sosial-əmlak əlaməti üzrə korporativ imtiyazlar əldə etməyə başladılar ki, bu da yerdə qalan digər əhalidə yox idi. Tayfa atlıları yarımimtiyazlı maaflar təbəqəsinə bərabər tutulur, qalan Kəngərlilər isə pul vergisini ödəməkdən azad edilirlər. Bu həm də Rusiya imperiyasındakı kazakların statusundan azacıq fərqlənən maafların sosial statusunun bütün Kəngərlilərə verilməsi yolunda atılan növbəti addım idi.

Təəssüf ki, XIX əsrin ikinci qərinəsində Qafqazdakı Rusiya idarəçiliyinin hərəkətləri öz ardıcıllığı ilə fərqlənmirdi. Bunun başlıca səbəbini isə baş hakimlərin bir-birini tez-tez əvəzləməsində axtarmaq lazımdır. Bu, "zaman və şərait imkan verdikcə" ideyasının – Kəngərlilərin kazaklara bərabər tutulması ideyasının tədricən reallaşdırılması ilə bağlı idi: bütöv bir onillik ərzində – 1840-cı ildən 1850-ci ilədək məsələ yerindən tərpənmədi. Bu illər ərzində Kəngərlilər kifayət qədər ikili vəziyyətdə qalmalı oldular: bir tərəfdən şəxsən hərbi qulluq mükəlləfiyyəti daşıyırdılar, buna görə də hərbi komandanlığa tabe idilər. Lakin eyni zamanda natural vergilər də ödəyirdilər ki, bu da yerli mülki hakimiyyətin kompetensiyasına şamil edilirdi. Bürokratik uyğunsuzluq şəraitində mövcud olduğu kimi, nəticədə, idarəçiliyin hər iki qolu çətinlik çəkirdi: Kəngərlilər həm qulluğa laqeyd yanaşır, həm də vergilərini ödəməkdən yayınırdılar. Bütün bunlar Naxçıvan, Tiflis və Sankt-Peterburq arasında bir neçə il davam edən yazışmalara səbəb

olmuşdu. 1844-cü ildə Qafqaz canışini təyin edilən qraf M.S.Vorontsovun bu tayfanın hüquqi vəziyyətinin qəti şəkildə müəyyənləşdirilməsinə şəxsən baş qoşmasına qədər məsələ açıq qalmaqda idi. Bunun üçün bəhanə rolunu bilavasitə Naxçıvanda yaşayan 309 ailənin tayfa tərkibindən çıxması və şəhər əhli zümrəsinə yazılması cəhdi oldu. Bunu etmək sadə məsələ deyildi, çünki kişilər Rusiya imperiyasının hərbi idarəsinin tabeliyində idilər və onları şəhər əhli təbəqəsinə yalnız imperator keçirə bilərdi. Təbii ki, Kəngərlilərin qalan nümayəndələri öz tayfadaşlarının belə qərarına mane olmaq əzmində idilər, çünki onlar öz azadlıq və imtiyazlarını itirmək istəmirdilər. Nəticədə, imperiyanın administrativ maşını, bütövlükdə, hərəkətə keçdi. Əvvəlcə Peterburqdan Kəngərlilərin "qopub ayrılmış" ailələri, sonra isə bütün tayfa haqqında məlumatlar tələb olundu, daha sonra isə Zaqafqaziyada dövlətə şəxsi hərbi qulluq mükəlləfiyyəti olan bütün xalq və zümrələr haqqında məlumatlar istənildi. Bütün bu məlumatlar toplanıb qurtardıqdan sonra qraf Vorontsov onlardan bir məruzə hazırladı və 30 aprel 1850-ci il tarixdə imperator I Nikolaya təqdim etdi: "...Bu diyardakı baş idarədən bu məqsədlə göndərilmiş şəxslər tərəfindən dəfələrlə keçirilmiş baxışlardan və yerli rəislərin məlumatlarından aydın olur ki, bir hissəsi hərbi, bir hissəsi isə mülki idarəyə tabe olan bu tayfanın indiki vəziyyəti böyük narahatlığa səbəb olur və bu da həmin cəmiyyətin qulluğundan hər hansı bir mənfəət əldə etməyə maneçilik törədir. Çünki qulluğa yollama, cəmiyyətin yaxşı silahlanmış və sağlam atları olan atlıları ayırıb göndərməsi tələbi, nəhayət, daxili idarə və təşkiletmə əşyaları – bütün bunların hamısı mülki rəhbərliyə aiddir. Kəngərlilərin hərbi xidmətinin qüsursuzluğu da məhz bunlardan asılıdır. İki idarəyə tabelilik ucbatından Kəngərlilər hər hansı nəzarətdən kənarda qalır və qulluğa hazırlıqdakı və xidmətin özündəki bütün nizamsızlıqlar müxtəlif rəhbərliklər arasında əhəmiyyətsiz yazışmalara səbəb olur. Kordon xidmətində az xeyir verən Kəngərlilər həm də poseleniye əhli kimi də faydasızdırlar, çünki müxtəlif vergi və mükəlləfiyyətlərdən azad olunublar.



Bütün bu düşüncələrə görə, hökumət üçün əhəmiyyətli və hətta Kəngərli cəmiyyətinin özü üçün də faydalı olardı ki, onlar hərbi mükəlləfiyyətdən azad edilsinlər, dövlət poseleniye əhlinə çevrilsinlər və onlar şəhər əhalisi ilə, kəndlilər isə Naxçıvan qəzasının əhalisi ilə eyni səviyyədə vergilərə cəlb edilsinlər. Onları, ümumiyyətlə, sərhəd xəttində hərbi qulluğa cəlb etmək üçün yadellilərin karantin-gömrük idarəsində atlı qoruqçular qismində qulluqetmə nümunəsində olduğu kimi, aralarından könüllülərin muzdla tutulmasına icazə verilsin: bu şəkildə qulluq faydalı olardı və onlar arasında bəhsləşmə yaradardı.

Qafqaz Diyarı Baş İdarəsinin Şurası bütün bu işləri nəzərdən keçirərək və Kəngərlilərin vergi zümrəsinə şamil edilməsinin zəruriliyini etiraf edərək, bunu da əlavə edir ki, Kəngərliləri vergilərə cəlb etməklə daxil olacaq məbləğ hesabına kordon xəttinə azad keşikçilər tutulmalı, onlar habelə yem və ərzaq paylarına görə pullarla təmin olunmalıdırlar. Bu azad keşikçilər İranla bizim əlaqələrimiz üzrə diplomatik məmur və xidmətçiləri müşayiət etmək üçün nəzərdə tutulur ki, indi həmin vəzifə Kəngərlilərin üzərindədir..."

Qraf M.S.Vorontsovun məruzəsi baxılmaq üçün Qafqaz Komitəsinə – Qafqazın idarə edilməsi üzrə idarələrarası Şuraya daxil oldu və onun 31 oktyabr 1850-ci il tarixli qərarı ilə müəyyən əlavə qeydlərlə təsdiq edildi: "Kəngərlilərin istəklərinə uyğun olaraq, şəhərli və yaxud kəndli təbəqəsinə şamil edilməklə dövlət vergi vəziyyətinə keçirilməsi" elə olmalıdır ki, "Kəngərlilərin cəlb edildikləri vergi toplantıları nəinki haliyədə mövcud olan xidmət üçün müvafiq sayda adamların saxlanılması məsrəflərini, habelə dövlət əmlakının idarə edilməsi məsrəflərinə müraciət etmədən onların müəyyənləşdirəcək yerli idarəçilik üzrə kənd idarəetmə xərclərini də ödəyə bilsin".

İlk baxışda, məruzə Kəngərlilərin korporativ imtiyazlarına birdəfəlik son qoyur: nə vaxtsa administrativ cəhətdən xüsusiləşmiş tayfanın nümayəndələri "istəklərinə uyğun" olaraq, məmur tərəfindən

başa düşülən anlamda şəhər və ya kənd "əhli" dərəcəsinə keçirilir. Lakin bu sənəd həm də bürokrativ "əngəllərlə" dolu idi: bu sənədin özgə sətiraltı mənası vardır ki, bu da sadəlövh oxucuya göründüyündən tamamilə fərqli bir şey idi. Məruzənin məğzi ondadır ki, Kəngərlilərdən toplanılacaq vergilər iki növ dövlət məsrəflərini – "haliyədə mövcud olan xidmət üçün müvafiq sayda adamların saxlanılması məsrəfləri" və "onların kənd idarəetmə xərcləri"ni nəzərdə tuturdu. Əgər qanunun bu normasını bürokratik dildən rus dilinə çevirsək, belə alınar ki, 200 atlı döyüşçü, habelə idarəçiliyinə verildikləri yerli administrasiya Kəngərlilərin hesabına saxlanılmalıdır. Tayfanın hərbi birləşməsinin silahlanması, təchizat və atlarla təminatı vəzifələrini onlar 1828-ci ildən, yəni Rusiyanın yurisdiksiyasına keçirdikləri vaxtdan icra edirdilər. Kəngərlilərin kənd idarəçiliyi isə başqalarından deyil, elə həmin 200 atlı sırasına daxil olan bəy və ağalardan təşkil olunurdu. 1850-ci ildə edilən yeganə əhəmiyyətli dəyişiklik onda idi ki, əvvəllər hərbi idarəyə tabe olan Kəngərli süvarisi mülki idarəyə aid qeyri-müəyyən və çox zaman da anlaşılmaz olan hərbi dövrün qeyri-nizami süvarisinin əvvəlki funksiyaları saxlanılmaqla, Rusiya imperiyasının Daxili İşlər Nazirliyi və Dövlət Əmlak Nazirliyinin səlahiyyətlərinə şamil edilən vəzifələri – Naxçıvan qəzasında polis, sərhəd və gömrük-karantin xidməti kimi tamamilə müəyyən və köhnə – keçmiş vəzifələri də yerinə yetirməyə başlayırdı. Əsl həqiqətdə Kəngərlilər Naxçıvan qəzasının bürokratiyası çərçivəsində administrativ və fiskal muxtariyyət alıb, mövqeyinə görə sərhədyanı qəzada polis və digər "güc" funksiyalarını əllərində cəmləşdirirdilər. Bununla da, onlar İrəvandakı quberniya hakimiyyətindən müəyyən mənada uzaqlaşırdılar. Belə vəziyyət isə Kəngərlilərin Qafqazdakı Rusiya idarəçiliyinə yüksək dərəcədə loyallığını unutmadıqlarından onları tamamilə təmin edirdi. Lakin mülki idarənin tabeliyinə keçirilmə heç də o demək deyildi ki, hərb dövründə Kəngərli süvarisi hərbi əməliyyatların səhnəsinə çağırıla bilməz. 1853-1856-cı illər Şərq (Krım) müharibəsinin və Zaqafqaziyada hərbi əməliyyatların başlanılması Əlahiddə Qafqaz Korpusu qoşunlarının həm də yerli milis və qeyri-nizami birləşmələr hesabına gücləndirilməsini tələb edirdi. Bunun üçün qərara alındı ki, müharibə dövründə yerli sakinlərdən könüllülərin sotnyaları təşkil edilsin, hər quberniyada 1828-1829-cu illər rus-türk müharibələrində azərbaycanlılardan təşkil edilmiş nümunələr üzrə tərkibində 5 sotnya olan süvari-müsəlman alayına daxil edilsin. Sənədə görə, İrəvan quberniyasında könüllülər alayı aşağıdakı qaydada təşkil edilirdi: "Ən yaxşısı budur ki, alay Kəngərlilərdən ibarət üç sotnyadan və İrəvan qəzasının köçəri sakinlərindən ibarət iki sotnyadan formalaşdırılsın. Bu zaman sonuncu iki sotnyaya digər qəzalardan da könüllülər daxil ola bilsinlər və bu iki hissənin hər birinin öz rəisi: birincininki Naxçıvan xanlarından, sonuncununku isə köçərilərin bəylərindən olsun".

Nəticədə, alay elə beləcə də formalaşdırıldı. Onun tərkibində general-leytenant baron K.K.Vrangelin İrəvan dəstəsində İsmayıl xan Naxçıvanskinin (yuxarıda adıçəkilən Ehsan xanın oğludur) başçılığı altında Kəngərlilərin atlı döyüşçüləri də var idi.

Beləliklə, 1850-ci ildə mülki idarə çərçivəsində administrativ cəhətdən Kəngərlilərin xüsusiləşməsi hərbi dövrdə onları hərbi qulluq vəzifələrinin yerinə yetirilməsi yükündən azad etmədiyindən verilən muxtariyyət məhdud idi. Baxmayaraq ki, bu, onların dinc dövr həyatında çox əhəmiyyətli rol oynayırdı.

**Oleq KUZNETSOV,**
**tarix elmləri namizədi,**
***Moskva, 01.04.2014***

## AZƏRBAYCANIN ÜRƏYİ
## *NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 YAŞI TAMAM OLUR*

Azərbaycanın ayrılmaz tərkib hissəsi, Azərbaycan dövlətçiliyinin dayağı, təbii sərvətlərlə zəngin və şanlı tarixi olan diyar, çoxlu sayda görkəmli insanların Vətəni Naxçıvan Muxtar Respublikası ilə ölkəmiz haqlı olaraq fəxr edir. Həyat və yaradıcılığı bu torpaqla bağlı olan memarlar, filosoflar, şairlər, maarifçilər, alimlər, mütəfəkkirlər, sərkərdələr insanlığın ümumi xəzinəsinə nəhəng töhfələr vermişlər.

Naxçıvan sivilizasiyanın yaranma mərkəzlərindən biridir. Burada dörd min il bundan əvvəl inkişaf etmiş şəhərlər vardı. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin isə 5 min ildən artıq yaşı var. Hələ iki min il bundan əvvəl Naxçıvan vadisində Roma legionerləri ilə başdan-ayağa silahlanmış Parfiya çarlığının süvariləri ölüm-dirim savaşına girmişlər. Muxtar respublikada 700-ü arxeoloji olmaqla, 1200-dən artıq abidə vardır və hər il alimlər yeni abidələr tapmaqda davam edirlər. Lakin hələ nə qədər çoxlu sirlər açılmamış qalır! Tədqiqatçılar hələ çoxsəhifəli Naxçıvan salnaməsinin nə qədər maraqlı və heyranedici tarixini yazacaqlar. Bu diyar əsrlərin dərinliyinə gedən geniş, hərtərəfli mədəniyyəti ilə də tanınır. Zamanla yüzlərlə nişanəsi ilə özünü xatırladan mif və əfsanələr, mahnı və deyimlər, adət və ənənələr naxçıvanlıların həyatını bəzəyir. Çoxlu sayda kitabxana və muzeylər, teatrlar, böyük universitet, AMEA-nın filialı da belə bir mirasla yanaşıdır.



Burada buludlardan da yüksəyə qalxan dağlarla yanaşı, sonu görünməyən səhralar uzanır.



Çoxlu sayda kiçik çaylardan və dağ çaylarından qidalanan yaşıllıqlar və Günəşin şüaları altında sanki əbədi daşlaşmış quru çaylar da buradadır. Həmçinin sanki quşların da tək-tük qonaq olduğu səhralar, geniş bağlarla əhatə olunmuş qələbəlik kəndlər, orta əsrlərdən qalma dar küçələri olan səliqəli şəhərlər və muxtar respublikanın paytaxtında müasir binalar və geniş prospektlər vardır. Ömründə heç olmasa bir dəfə bu ecazkar diyarda olmuş, onun mənzərəsinə doya-doya tamaşa etmiş, təmiz su qaynaqlarının dadından ləzzət almış və yerli insanların qonaqpərvərliyini hiss etmiş hər bir insan ürəyində həmişəlik olaraq Naxçıvan məhəbbəti saxlayır.



Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il ötür. Bu dövr həyatın bütün sferalarında – iqtisadiyyatda, elmdə, mədəniyyətdə görkəmli uğurlar dövrüdür. Ancaq naxçıvanlılar həm də kənardan yaradılmış blokadanın bir çox çətinliklərinə də sinə gərməli olmuşlar. Bu sınaqlar naxçıvanlıların iradəsini qıra bilməmiş, əksinə, onları daha mətin və sıx etmişdir. Naxçıvan Azərbaycanın tərkib hissəsi olmuş və olaraq qalmaqdadır.



28 iyul 1920-ci ildə Naxçıvanda Sovet hakimiyyəti qurulmuş və Naxçıvan Sovet Respublikası elan edilmişdir. 1923-cü ildə diyar Naxçıvan Muxtar Diyarı statusu almış, 9 fevral 1924-cü ildən 17 noyabr 1990-cı ilədək o, Naxçıvan MSSR statusunda olmuşdur. 17 noyabr 1990-cı ildə Naxçıvan MSSR

Ali Sovetinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında dahi şəxsiyyətin təşəbbüsü ilə muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.



Heydər Əlirza oğlu Əliyev bu diyarın yetirməsidir. O, uzun müddət Azərbaycan Respublikasında ən yüksək rəhbər vəzifə tutmuş və 1982-ci ildə Sovetlər İttifaqının başçısı Andropovun təkidi ilə Moskvaya gəlmiş və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışmışdır. 1985-ci ildə Heydər Əliyev Mixail Qorbaçovu dəstəkləsə də, o, hakimiyyətə gələn kimi Heydər Əliyevin şöhrətinə paxıllıq edərək onun istefasına nail olmuşdur.

1990-cı ildə Heydər Əliyev Azərbaycana qayıtdı, artıq həmin ilin payızı o, Naxçıvandan Azərbaycan SSR-in deputatı seçildi. Bir il sonra, 1991-ci ilin sentyabrında o, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bakıdakı hakimiyyət öz işləri ilə məşğul ikən o, bu vəzifədə muxtar respublikanın xarici əlaqələrini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.



– Məhz həmin 1990-cı illərdə Naxçıvanın taleyi həll olunurdu. Əgər həmin illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar böyük liderin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi, – o dövrlərdəki hadisələr haqqında Azərbaycan Prezidenti cənab İlham Əliyev belə deyir.





Bu dövrdə Naxçıvandakı vəziyyət gərgin zəhmət hesabına stabil olmuşdur. O dövrkü Azərbaycan rəhbərliyi Naxçıvana ögey yanaşmış, ona heç bir köməklik göstərilməmiş, tam əksinə, Naxçıvandakı vəziyyətin gərginləşməsi və sabitliyin pozulması üçün ona əsassız mənfi münasibət göstərilmişdir. Ancaq naxçıvanlılar, həmişə olduğu kimi, müdriklik göstərərək öz liderinin ətrafında yumruq kimi möhkəm birləşmişlər.



Beləliklə, Azərbaycanın tarixinin Naxçıvandan əsası qoyulan yeni erası başlanmışdır.

**Sultan QASIMOV,**
***Azərbaycan Respublikasının Yekaterinburqdakı Baş konsulu,***
***"Moskovskiy komsomoleç" elektron qəzeti,***
***29.04.2014***

## NAXÇIVAN – AZƏRBAYCANIN İNCİSİ VƏ QƏDİM MƏDƏNİYYƏTİN BEŞİYİ



Bu günlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi geniş qeyd olunur və bu münasibətlə müxtəlif yubiley tədbirləri keçirilir. Son dövrlərdə müasir informasiya və istehsal texnologiyalarının hərtərəfli tətbiqi nəticəsində infrastrukturun inkişafı, həmçinin iqtisadi, sosial və mədəni sahələrdə əldə olunan nailiyyətlər sayəsində bu qədim diyar Azərbaycanın gözəl və inkişaf etmiş regionuna çevrilmişdir.

1924-cü ildə Azərbaycanın tərkib hissəsi kimi yaradılmış Naxçıvan Muxtar Respublikası 90 il ərzində böyük yol keçmişdir. Bu diyarın iqtisadi və mədəni inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi dövründə – ötən əsrin 70-ci illərindən başlamışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən böyük aqrar-sənaye bazası olmuş, yeni istehsal müəssisələri inşa olunmuş, həmçinin təhsil və mədəni obyektlərin inşası genişlənmişdi. Enerji, sənaye və kənd təsərrüfatı məhsulları-





nın istehsal olunduğu muxtar respublika bu gün də ölkənin iqtisadi həyatında fəal iştirak edir. Turizm, səhiyyə və təhsil sahəsində böyük uğurlar əldə olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası inkişaf etmiş infrastrukturu ilə Azərbaycan Respublikasının güclü sənaye mərkəzidir. Bütün bunlar ümummilli lider Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir.

Naxçıvan tanınmış siyasətçilərin, sərkərdələrin, elm və mədəniyyət xadimlərinin vətənidir. Müstəqil Azərbaycan Respublikasının memarı, zəmanəmizin görkəmli dövlət xadimi, dünya miqyasında tanınmış siyasətçi Heydər Əliyevin uşaqlıq və gənclik illəri Naxçıvanda keçmişdir. Bu diyarın yetirmələri arasında neçə-neçə sərkərdələr, elm və mədəniyyət xadimləri, tanınmış şair və yazıçılar, istedadlı aktyor və rejissorlar vardır. Bu torpaq məşhur yazıçı və publisist Cəlil Məmmədquluzadənin, tanınmış şair Əliqulu Qəmküsarın, dahi dramaturq və filosof Hüseyn Cavidin, tənqidçi alim Əziz Şərifin, yazıçı Cəmşid Əmirovun, realist rəssam Bəhruz Kəngərlinin, heykəltəraş Akif Əsgərovun, istedadlı aktyor və rejissorlardan İbrahim Həmzəyevin, Rza Təhmasibin, Zəroş Həmzəyevanın və bir çox başqalarının vətənidir.

Naxçıvan diyarının tarixi çox qədimdir. Buranın tarixi minilliklərlə ölçülür. Bu diyar əsrlərlə biri-birini əvəzləyən qədim sivilizasiyanın beşiyidir. Əfsanələrə görə, Yer üzünü su basarkən Nuh Peyğəmbər məhz Naxçıvanda dayanmışdır. Naxçıvan toponiminin də Nuh Peyğəmbərlə bağlı olduğu deyilir. Naxçıvan – "Nuh" və "çıxan" sözlərinin birləşməsindən yaranmış bir toponimdir. Bu torpaq bütün canlıları xilas edən və bəşəriyyətin nicat tapdığı diyardır. Azərbaycan xalqının folklorunda bu hadisə ilə bağlı xeyli əfsanələr vardır. Maraqlıdır ki, Naxçıvanda Nuh Peyğəmbərin adı ilə bağlı çoxlu tarixi yerlər – Nuh Pey-

ğəmbərin türbəsi və sair belə yerlər bu gün xalq tərəfindən ziyarətgah kimi qəbul olunmuşdur.



Əsrlərdən bəri Naxçıvan qədim türk millətinin mənəvi mərkəzlərindən biri olmuşdur. Arxeoloji qazıntılar sübut edir ki, hələ bizim eradan əvvəl əcdadlarımızın məskunlaşdığı bu yerlər qədim sivilizasiyanın formalaşdığı ərazilər olmuşdur. Naxçıvan qədim türk etnik elementlərinin yarandığı bir məkan kimi bu abidələrin günümüzə qədər qorunub saxlanmasında müstəsna xidmətlər göstərmişdir. Bu diyarda aparılan arxeoloji qazıntılar sübut edir ki, türk etnik faktorları qonşu tayfaların məişət və dəyərlərinin formalaşmasına da ciddi təsir göstərmişdir. Naxçıvanda aşkarlanan və tarixi-incəsənət baxımından misilsiz dəyərə malik olan arxeoloji tapıntılar təkcə Azərbaycandakı muzeylərdə deyil, dünyanın bir sıra muzeylərində saxlanılır.

Naxçıvan Azərbaycan dövlətçiliyinin formalaşdığı əsas regionlardan biridir. Artıq ilk orta əsrlərdə burada güclü Azərbaycan dövlətinin özəyini təşkil edəcək dövlətçilik ənənələri formalaşmışdır. XI əsrdə Naxçıvan Səlcuqların paytaxtı olmuşdur. XII əsrdə isə Naxçıvan Atabəylər dövlətinin mərkəzi olmuşdur. Bu, güclü ordu quruculuğu olan və bütün Şərq dövlətlərinə siyasi təsir etmək qabiliyyətli bir dövlət olmuşdur.

Naxçıvan həmçinin incəsənət növlərinin təşəkkül tapdığı və formalaşdığı bir regiondur. Sənətkarlığın müxtəlif növləri, təsviri incəsənət, şəhərsalma ilə yanaşı, bu regionda təkmilləşmiş tikinti texnikası bütün Şərqdə məşhur olmuşdu. Naxçıvanda



yaranmış memarlıq məktəbi tədricən Yaxın və Orta Şərq ölkələrində aparıcı məktəbə çevrilmişdir. Naxçıvan memarlıq məktəbinin çiçəklənmə dövrü XII əsrdə olmuş və həmin dövrdə Azərbaycan tarixi abidələrinin bir



çoxu inşa edilmişdi. Elə həmin dövrdə konstruksiya və bədii formaların məşhur inşaatçısı Əcəmi Naxçıvani orta əsrlər memarlıq məktəbinin görkəmli nümayəndəsi kimi bütün dünyada məşhurlaşmışdı. Naxçıvandakı məşhur Yusif Küseyiroğlu (1162) və Möminə xatın (1186) türbələri Əcəmi Naxçıvani tərəfindən inşa olunmuşdur. Bu abidələrdə tətbiq olunan orijinal tikinti konstruksiyaları sonradan digər ölkələrdə də tətbiq olunmuşdur. Maraqlıdır ki, Möminə xatın türbəsinin minarəsinin tikintisində tətbiq olunan tikinti üslubundan sonradan Avropa memarlığında, xüsusilə məbədlərin tikintisində istifadə olunmuşdur. Bütün bunlar Naxçıvan memarlıq məktəbinin dünya tikinti mədəniyyətinə bəxş etdiyi töhfələrin bariz nümunəsidir. Naxçıvan memarlıq abidələri təkcə həmin dövrdə qabaqcıl tikinti texnologiyasının tətbiqi ilə deyil, eyni zamanda Şərq ölkələrinə məxsus dekorativ rəng üslubu ilə səciyyəvidir. Məlumdur ki, Naxçıvan memarlıq məktəbinin əsas tikinti materialı bişmiş kərpicdən ibarət olmuşdur. Müxtəlif kərpic formalarından istifadə etməklə naxçıvanlı arxitektorlar binanın fasadında möcüzələr yaratmağa müvəffəq olmuşlar. Bununla yanaşı, digər təbii tikinti materiallarından istifadə etməklə müxtəlif rənglərin maraqlı kompozisiyalarının bəzədiyi Naxçıvan memarlıq abidələri ilə Orta

Asiya abidələri arasında oxşarlıq mövcuddur. Hər iki regionun mədəni və saray tikililəri konstruksiya və tətbiqi sənət baxımından xeyli oxşar xüsusiyyətlərə malikdirlər. Ağ və mavi rənglərlə bəzədilmiş sütunlarda təsvir olunan ornamentlər və fiqurlar Naxçıvan və Özbəkistan memarlığının xarakterik xüsusiyyətləridir.

Naxçıvan torpağı lap qədimlərdən Azərbaycan mədəniyyətinin formalaşdığı məkan olmuşdur. Burada memarlıq və xalçaçılıq məktəbi, miniatür işləmələr, bədii yaradıcılıq və dekorativ tətbiqi sənət növləri təşəkkül tapmış və inkişaf etmişdir. Burada istehsal olunan ipək parçalar, məişət əşyaları, həmçinin yerli sənətkarların zərgərlik nümunələri tacirlər və yerli əhali tərəfindən həmişə maraqla qarşılanmışdı. Xalqın dərin yaddaşına əsaslanan və nəsildən nəslə ötürülən sənətkarlıq ənənələri müasir dövrümüzə qədər gəlib çatmışdır. Əsrlərlə formalaşan ənənələr bu gün babaların mirasını şərəflə qoruyan gənc nəsil tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının milli-mənəvi dəyərlərə əsaslanan humanitar-mədəni siyasəti Naxçıvanda davamlı və məqsədyönlü şəkildə həyata keçirilir.

XIX əsrin birinci yarısında Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirilməsindən sonra Naxçıvan öz əhəmiyyətini itirməmişdir. Əksinə, Naxçıvan milli şüurun, maarif və mədəniyyətin formalaşdığı ocaq olmuşdur. Milli maarif hərəkatı burada XIX əsrin sonu, XX əsrin əvvəllərində daha sürəkli vüsət almışdır. Bu dövr milli ruhun oyandığı, mədəniyyətin çiçəkləndiyi dövr kimi xarakterizə olunur. Həmin dövrdə yalnız Azərbaycanda deyil, bütün Qafqaz miqyasında gedən ictimai-siyasi proseslərdə Naxçıvan ziyalılarının aparıcı rolu yaxşı məlumdur. Naxçıvanın tanınmış yazıçıları, publisistləri və mədəniyyət xadimləri maarifçilik ideyalarına əsaslanan milli-demokratik hərəkatın əsasını qoymuşdular.



Azərbaycanın mədəni tərəqqisində naxçıvanlı ziyalılar daim ön sırada olmuşdular. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk muzey Naxçıvanda yaradılmışdır. Bu, Nehrəm kənd məktəbində müəllim işləyən, tanınmış ədib Cəlil Məmmədquluzadə tərəfindən XIX əsrin sonunda yaradılmış muzey olmuşdur. Bu gün həmin muzey fəaliyyətini davam etdirir.

Naxçıvan teatrı zəngin ənənələri ilə məşhurdur. Gənclik illərində C.Məmmədquluzadə və dövrünün digər tanınmış mədəniyyət xadimləri bu teatrla əməkdaşlıq etmişlər. Azərbaycan mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvan teatrı yarandığı gündən milli demokratik və realistik tendensiyaya əsaslanaraq dini fanatizmə, savadsızlığa qarşı yorulmaz mübarizə aparmış və xalqın ehtiyac və tələbatını səhnələşdirmişdir.

Naxçıvan rəssamlarının ölkənin təsviri incəsənət xəzinəsinə töhfələri əvəzsizdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış naxçıvanlı rəssam Bəhruz Kəngərli rəssamlıq təhsili almış ilk azərbaycanlı rəssam olmuşdur. Azərbaycan mədəni irsinin zənginləşməsində Naxçıvan rəssamlarından Əyyub Hüseynovun, Məmməd Qasımovun, Hüseyn Əliyevin, Akif Əsgərovun xidmətləri əvəzsizdir.

Fəxrlə deyə bilərik ki, bugünkü Naxçıvanımız iqtisadi və elmi-mədəni potensialı ilə Azərbaycanın dinamik inkişaf edən gözəl regionlarından biridir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri gündən-günə gözəlləşir və inkişaf edir. Son illər ərzində şəhərdə xeyli sayda yeni yaşayış, ictimai və inzibati binalar inşa olunmuşdur. Şəhər nəzərəçarpacaq dərəcədə hüdudlarını genişləndirmişdir. Burada Heydər Əliyev Sarayı, Hüseyn Cavidin məqbərəsi, Naxçıvan Dövlət Universitetinin, Beynəlxalq Hava Limanının, Musiqili Dram Teatrın, Xalça Muzeyinin, Naxçıvan Biznes Mərkəzinin, xəstəxana binalarının və diaqnostika mərkəzinin, həmçinin ümumtəhsil məktəblərinin,

kənd mərkəzlərinin binaları və yeni salınmış yollar göz oxşayır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən, ölkənin iqtisadi potensialının güclənməsinə və xalqın rifah halının yaxşılaşmasına yönələn siyasi kursun Naxçıvanda davamlı həyata keçirilməsini təmin edən muxtar respublika rəhbərliyi hərtərəfli nailiyyətləri təmin etməyə nail olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ali dövlət fəaliyyəti, yorulmaz və yaradıcı əməyi sayəsində muxtar respublikanın iqtisadi, sosial, elmi-texniki və mədəni potensialı gündən-günə artmaqdadır.

Azərbaycanın ən qədim diyarı və minilliklərin izlərini qoruyan Naxçıvanın zəngin tarixi abidələri, geniş turistik imkanları vardır. Naxçıvanın hər daşı, hər qayası canlı tarixdir. Muxtar respublikanın 1170-ə qədər tarixi abidəsindən 56-sı dünya şöhrətli abidələrdir. Bunlardan Möminə xatın, Yusif Küseyiroğlu türbələri, Qarabağlar memarlıq kompleksi, "Quran"da adıçəkilən Əshabi-Kəhf ziyarətgahı, Kültəpə və başqa abidələr turistlərin maraq və diqqətlərini cəlb edir. Naxçıvanın müalicəvi süfrə suları – "Badamlı", "Sirab" və "Vayxır" mineral suları, Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ müalicəxanası da bu diyarın turizm potensialını daha da zənginləşdirir. Muxtar respublikada mədəni, ekoloji, müalicəvi, ziyarət və digər turizm növlərinin inkişafı üçün zəruri şərait yaradılmışdır.

Naxçıvan zəngin təbiəti, inkişaf etmiş infrastrukturu, təhsil sistemi və iqtisadi potensialı ilə yerli və xarici investorların, iş adamlarının, tələbələrin və turistlərin diqqətini cəlb edir. Bu gün Naxçıvanda müxtəlif beynəlxalq konfranslar, yüksəksəviyyəli iqtisadi və mədəni layihələr, sammitlər və dövlət başçılarının



görüşləri keçirilir. Şübhəsiz ki, gələcəkdə də Naxçıvan mövcud imkanlarını daha da genişləndirməklə dünya ictimaiyyətinin diqqət mərkəzində olacaqdır.

*"Darakçi" jurnalı (Özbəkistan),*
*16.05.2014*

# RUS RƏSSAMI İ.P.ŞEBLIKİNİN ƏSƏRLƏRİNDƏ NAXÇIVAN


*İ.P.Şeblıkin*

Azərbaycanın arxeologiya və memarlıq tarixində rus rəssamı İ.P.Şeblıkinin özünəməxsus yeri vardır. Onun şəkil və rəsmləri əvəzsiz tarixi mənbələrdəndir.

İ.P.Şeblıkin 1884-cü ildə Voronejdə anadan olmuş, 1886-cı ildə isə ailəsilə birlikdə Tiflisə köçmüşdür. Atası onu Kazan məktəbinin memarlıq-bədii şöbəsinə qoyur. Bu məktəbi o, 1909-cu ildə uğurla başa vurur. Elə həmin ildən də Qroznıdakı peşə məktəbində və qadınlar gimnaziyasında dərs deməyə başlayır. 1914-cü ildə Vladiqafqaza köçərək Müəllimlər İnstitutunda və kadet korpusunda müəllimlik edir, 1917-ci ildən sonra isə ilk sovet fəhlə fakültəsində və Ali Pedaqoji İnstitutda mühazirələr oxuyur və eyni zamanda bədii məktəbin müdiri vəzifəsində çalışır.

İ.P.Şeblıkin 1921-ci ildə Şimali Qafqaz Diyarşünaslıq İnstitutunun muzeyində işə dəvət edilir. Bu dövrdə o, İnquş və Osetin diyarşünaslıq muzeylərinin elmi əməkdaşı olur, Dağıstan üzrə ekspedisiyalarda iştirak edir. 1928-ci ildə tarix və mədəniyyət abidələrinin bərpası üzrə nəhəng işlərin başladılması ilə əlaqədar olaraq, İ.P.Şeblıkin Bakıya dəvət edilir. A.Bakıxanov adına Tarix İnstitutunun, Nizami adına Muzeyin və Azərbaycan Abidələrinin Mühafizəsi üzrə Mərkəzi İdarənin əməkdaşı kimi bir sıra arxeoloji qazıntı və bərpa işlərində fəal iştirak edir. O, rəssam istedadına malik olduğundan abidələri təkcə bir alim kimi öyrənmirdi, həm də onların bir çoxunun şəklini yaradırdı. "Bakıdakı Şirvanşahlar sarayının qısa tarixi oçerki" (Bakı, 1939), "Nizami dövrü Azərbaycan memarlığı abidələri: materiallar" (Bakı, 1943), "Azərbaycan memarlığı:



Nizami dövrü" (Bakı, 1947) kitabları onun Azərbaycanın orta əsrlər tarixi və memarlığına dərin elmi marağının olduğunu təsdiq edir.

1940-cı ildə İ.P.Şeblıkin SSRİ Memarlıq Akademiyasının Rəyasət Heyəti yanında Elmi Şuranın üzvü seçilir. 1940-cı illərdə o həmçinin Şimali Qafqazda işləyirdi. 14 iyun 1947-ci ildə vəfat edən İvan Pavloviç Şeblıkin özündən sonra təkcə məruzələr, məqalələr, qazıntı hesabatları deyil, həm də bir çoxu əsl elmi mənbələr sayıla biləcək əvəzsiz rəsmlər qoymuşdur.


*Naxçıvan peyzajı*

İvan Şeblıkinin yaradıcılığında qədim Azərbaycan diyarı olan Naxçıvana həsr olunmuş 1934-1945-ci illərə aid işlər xüsusi yer tutur. Onun "Naxçıvan peyzajı" (NTAM, SF №143, 31,5x44 sm) əsərində ucsuz-bucaqsız düzənliklər al-əlvan rənglərlə təsvir olunmuşdur. Bu düzənlik xırdaboylu yaz otları, orada-burada səpələnmiş daş-qaya parçaları ilə örtülmüşdür. O, ehmalca az qala üfüqlərə çataçatda sıra dağların ayırıcındakı kolkosluğa qovuşmağındadır. Göy və mavi rənglərlə təsvir olunmuş dağların özü də sanki dalğalar kimi düzənlikdən göylərə hücum çəkir və bununla da, monumentallıq və əbədilik təsiri bağışlayır.

Onun bu şəkillə təzadlıq təşkil edən əsəri "Qədim Naxçıvanın bir guşəsi"dir (NTAM, SF №209, 30x43 sm). Rəssam şəhərin elə bir hissəsini təsvir etmişdir ki, burada köhnə evlər, hasar qapıları, günbəzli və minarəli məscid, soldan arxa planda isə türbə görünməkdədir. Üzərindəki müəllif qeydlərindən bəlli olur ki, bu rəsmi o, 1943-cü ildə çəkmişdir. Boz-qəhvəyi divarlar və damlar, bəzi divarlardakı nəmişlik izləri, yarpağı tökülmüş ağaclar – bütün bunlar göstərir ki, rəsm əsəri payızda, ya da qışın sonunda çəkilmişdir. Hərçənd ki əsər özünün bütün ifadəsilə qəm-qüssə doğurur, rəssam bacalı qala divarlarının keçmişdəki qüdrətini,

məscidlərin əzəmətini və oyulmuş qapı yerləri olan ikimərtəbəli daş evlərin gözəlliyini də təsvir edə bilmişdir.



*Qədim Naxçıvanın bir guşəsi*

Nəinki Azərbaycanın, bütövlükdə, Şərqin ən qədim şəhərlərindən biri olan Naxçıvanın xüsusi çiçəklənmə dövrü Azərbaycan Atabəylər – Eldənizlər dövlətinin mövcud olduğu dövrə təsadüf edir. Bu dövlətin paytaxtı olmuş Naxçıvan şəhəri onlarla monumental tikili ilə bəzədilmişdir ki, onların da böyük bir hissəsi günümüzə qədər gəlib çıxmışdır.

"Köhnə Naxçıvan" əsərində (NTAM, SF №428, 32x44 sm) şəhər bir qədər başqa rakursda, ağqara tonlarla təsvir edilir. Tamaşaçı sanki şəhərin kiçik küçələrinin birində durub yolayrıcına, çat-çat olmuş köhnə hasarlara, ağacları çiçək açmış həyətlərə baxır.



*Köhnə Naxçıvan*

Belə bir ruhda, ağ-qara tonlarla, lakin daha monumental şəkildə işlənilmiş başqa bir rəsm "Naxçıvan" (NTAM, SF №429, 32x44 sm) adlanır. Bu əsərdə qədim karvansaranın hasar və divarları təsvir olunmuşdur. Uzaqdan haqqında çoxlu rəvayətlər qoşulmuş əzəmətli İlanlıdağ görünür. Rəvayətlərdən birinə görə, dünyanı sel-su basanda Nuhun gəmisi özünün son dayanacağı Gəmiqayaya yaxınlaşarkən oturacağı ilə naməlum maneəyə çırpılır. Nuh Peyğəmbər gəminin toxunduğu yerə nəzər salıb sevincək



*Naxçıvan*



halda "İnan, dağdı", – deyir. Elə dağın adı da buradan götürülür. Həqiqətən də, dağın zirvəsi haça şəklindədir, sanki gəminin oturacağıyla haçalanıbdır. Zaman keçdikcə bu ad "İlandağ" şəklinə düşür ki, o da dağın konturlarının əjdaha belinə oxşarlığını əks etdirir. Özünün qəribəliyilə bu dağ çoxlu sayda rəssamın diqqətini cəlb etmişdir. İ.Şeblıkinin rəsmində də İlanlıdağ daha maili, lakin bundan heç də az monumental olmayan digər dağların fonunda kəskin şəkildə seçilir.

Qeyd etmək lazımdır ki, rəssam təkcə çoxlu sayda peyzajlar deyil, həm də Naxçıvanın tarixi abidələrini çəkmişdir. 1935-ci ildə çəkilmiş "Qarabağlar türbəsi" adlı qrafik tabloda (NTAM, SF №175, 39x49 sm) biz orta əsrlər Azərbaycan memarlığının ən əzəmətli abidələrindən birini görürük. Kəngərli rayonunun Qarabağlar kəndində, Naxçıvan şəhərindən şimal-qərbə tərəf 30 kilometrlikdə yerləşən bu türbə on iki yarımdairəvi silindr şəklindədir. Hündürlüyü 30 metr olan qüllə içəridən dairəvi planlıdır. Qüllənin 30 metrliyində kvadratşəkilli oturacağı olan iki minarə arka ilə birləşmişdir. Maraqlıdır ki, minarələr XII əsrə aid olsalar da, qüllə alimlər tərəfindən XIV əsrə şamil edilir. Qüllə ilə minarələr arasında dini təyinatlı tikili qalmaqdadır. Qüllənin yuxarı kənarlarında mövcud olmuş yazılar sanki 12 çıxıntını birləşdirirdi. Qüllənin başlıca dekorativ bəzəyi firuzəyi rəngə bülənmiş və "Allah" kəlamının çoxlu sayda təkrarını əmələ gətirən kərpiclərdir. Abidənin əzəmətini göstərmək, mozaikanın qurulma ciddiliyini, giriş portallarının işlənmə orijinallığını, ətraf peyzajın gözəlliyini incə rənglər qamması ilə vermək İ.Şeblıkinə müyəssər olmuşdur.



*Qarabağlar türbəsi*

"Naxçıvanda kromlex" şəklində (NTAM, SF №388, 32x44 sm) daşların səpələndiyi sahə təsvir olunmuşdur. Kromlex, bir qayda olaraq, Son Daş və ya Erkən Tunc dövrünə aid olan, işlənilmiş və ya işlənilməmiş, üfüqi şəkildə yerə pərçim edilmiş uzunsov iri-iri daşların əmələ gətirdiyi bu və ya digər kompozisiyalı qədim qurğudur. Azərbaycanın ərazisində çoxlu sayda kromlex mövcud olmuşdur. Kromlexlərin təyinatı heç də həmişə aydın olmur. Səpələnmiş daşlı bu cür sahələrin təyinatı haqqında ayinlərdən tutmuş astronomik yozumlara qədər çoxlu sayda versiyalar mövcuddur. Hər halda kromlex insan əməyi məhsuludur və bu cür abidələrin elə mövcudluğu yaxınlıqdakı yaşayış məskənlərinin qədimliyinə işarədir.

Azərbaycanın arxeoloji abidələrinin bənzərsiz növlərindən biri də siklopik qurğulardır. Bu, ara məhlulu (sement, gəc və sairə) işlədilmədən nəhəng daş parçalarından tikilmiş qurğudur. Belə qurğular (əsasən, müdafiə və kult təyinatlı) Eneolit dövrü (e.ə. III minillik), daha çox hissəsi isə Son Tunc və Erkən Dəmir əsrinə (e.ə. II minillik-I minilliyin əvvəli) şamil edilir. İ.Şeblıkinin tuşla çəkilmiş "Siklopik abidə. Naxçıvan" şəklində (NTAM, SF №387, 32x42 sm) dağın zirvəsində yüksələn belə qurğulardan birinin təsviri verilmişdir. Rəsm nəhəng qaya parçalarını bütün qüdrətilə nümayiş etdirməkdədir.



*Siklopik abidə. Naxçıvan*

İ.Şeblıkinin "Naxçıvandakı Yusif Küseyiroğlu" rəsmi (NTAM, SF №223, 32x42 sm) böyük maraq doğurur. Şəkildə xalq arasında "Ata-baba türbəsi" kimi tanınan, Naxçıvan şəhərinin mərkəzində yerləşən memarlıq abidəsi təsvir edilmişdir. Bu, Naxçıvan memarlıq məktəbinin 1162-ci ildə tikilmiş ən möhtəşəm nümunələrindən biri, Yusif Küseyiroğlunun türbəsi, görkəmli memar Əcəmi Əbubəkr





*Naxçıvandakı Yusif Küseyiroğlu türbəsi*

oğlunun şah əsərlərindəndir. Bu türbə çox da böyük olmayan səkkizguşəli qurğu olub, bişmiş kərpicdən ucaldılmış və piramidaşəkilli örtüklə tamamlanmışdır. Türbənin orta hissəsindəki haşiyəli parça üzərində "Quran"dan kufi xətti ilə yazı vardır. Türbənin qərb tərəfində həndəsi naxışın altında tikinti yazısı vardır ki, o da burada dəfn olunmuş şəxsin adını və türbənin tikilmə tarixini əks etdirir. Türbənin içi iki hissəyə – geniş yuxarı kameraya və sərdabəyə ayrılır. Memarın adı girişin solunda, birinci üzün yuxarısında həkk olunmuşdur.

İ.Şeblıkinin bir neçə rəsmi Naxçıvandan cənub-şərqdə yerləşən Ordubada həsr olunmuşdur. Ordubad keçmişin abidələrinin, köhnə planlı və əsasən, köhnə tikililərin yaxşı qorunub saxlanıldığı məkandır. Təsadüfi deyil ki, şəhərin tarixi tikililəri YUNESKO-nun ümumdünya irsi siyahısına düşməyə namizəddir.

"Ordubadın bir guşəsi" rəsmində (NTAM, SF №211, 32x43,5 sm, kağız, qrafika) köhnə şəhərin kiçik küçələrindən biri təsvir edilmişdir. Rəssam müdafiə divarlarının əzəmətini, giriş qapıları portalının monumentallığını göstərə bilmişdir. Bənzər süjetə "Ordubadda küçə" rəsmində də (NTAM, SF №430, 32x44 sm, kağız, tuş) rast gəlinir.



*Ordubadın bir guşəsi*

İ.Şeblıkinin "Pir Eyvaz" rəsmi də (NTAM, SF №211, 32x43,5 sm) maraq doğurur. Bu türbə şəhərin cənub hissəsində qəbiristanlığın yanında yerləşirdi. Rəvayətə görə, Eyvaz Bektaşi sufi təriqətinin şeyxlərindən biri olmuş və XVI əsrdə yaşamışdır. Təəssüf ki, abidə Sovet hakimiyyəti illərində dağıdılmışdır.

Məhz buna görə də Şeblıkinin həmin rəsmi qorunub saxlanılmamış bu orta əsrlər memorial qurğusunun öyrənilməsi nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.

**Səbuhi ƏHMƏDOV,**
***tarix üzrə fəlsəfə doktoru,***
***"İrs" jurnalı,***
***21.05.2014***



*Pir Eyvaz*



## "NAXÇIVAN – BƏŞƏRİYYƏTİN BEŞİYİ" II BEYNƏLXALQ RƏSM FESTİVALI KEÇİRİLMİŞDİR

Ən qədim dövrlərdən bəri Azərbaycan torpağı olan Naxçıvan dünyanın tanınmış mədəniyyət ocaqlarından biridir. Bu ərazidə istər ən qədim dövrlərdən qalan, istərsə də yaxın keçmişdə ərsəyə gətirilən bənzərsiz sənət əsərləri bir çox ölkələrdə yaxşı tanınır. Azərbaycan torpağı tarixin bütün dövrlərində dünya sivilizasiyasına çox dəyərli şəxsiyyətlər bəxş etmişdir. Naxçıvan isə hər biri Azərbaycan xalqının milli sərvəti olan tarixi abidələrlə zəngin bir diyardır. Azərbaycan xalqının yaratdığı bu mədəniyyət inciləri görənləri heyran qoyur. Bu inciləri yaratmaq nə qədər çətindirsə, onları qoruyub saxlamaq və nəsildən nəslə ərməğan etmək də bir o qədər asan məsələ deyil. Muxtar respublikada digər mədəniyyət nümunələri kimi, memarlıq abidələrinin də qorunub saxlanılması üçün böyük zəhmət sərf edilmişdir.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi bu əsrarəngiz diyarda "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalını təşkil etmişdi. Festivala 7 ölkədən 33 rəssam gəlmişdi. Naxçıvanda qonaq olan sənətçilər festivala ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoymaqla başladılar. Daha sonra rəssamlar Heydər Əliyev Muzeyini ziyarət etmiş, muzeydə sərgilənən eksponatlarla tanış olmuşlar. Muzey işçiləri ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında ətraflı məlumat vermişlər. Fırça ustaları Naxçıvan Dövlət Xalça, Tarix və Açıq Səma Altında muzeylərlə tanış olmuş, Möminə xatın türbəsi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Duzdağ Fizioterapiya Mərkəzi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi

və Nuh Peyğəmbərin türbəsini ziyarət etmişlər.

Mayın 22-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalının açılışı olmuşdur. Mayın 23-də isə Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda iştirak edən rəssamların çəkdikləri əsərlərdən ibarət sərgi təşkil olunmuşdu. Sərginin açılışında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişlər.

Festivalda iştirak edən rəssamlara xatirə plaketləri və müxtəlif hədiyyələr təqdim olunmuşdur. Həmin gün rəssamlar Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin muzeyini də ziyarət etmişlər. Günün ikinci yarısında isə Naxçıvan Dövlət Universitetində gənc rəssamların əsərlərindən ibarət sərgiyə baxış olmuşdur.

***"Ortaq ses.com" informasiya portalı (Türkiyə), 11.06.2014***



## GÜLLƏR İÇİNDƏ GÖZƏL NAXÇIVAN...

### Birinci məqalə

Keçən həftə Naxçıvanda idim. Nə üçün getdim? Çünki muxtariyyətinin yaradılışının 90-cı ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalı təşkil etmişdi. Bakılı qardaşım, rəssam Nəvai Mətinin xəbər verməsi və Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın dəvəti ilə mən də müsabiqədə iştirak etdim. Və festivalın sonunda yeddi ölkədən olan 33 qalib sənətçinin arasında mən də var idim...

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi beş min ildən daha qədimdir. Ölkədaxili idarəçilik məsələlərində müstəqildir, müdafiə və xarici siyasət məsələlərində isə Azərbaycan Respublikasına tabedir. Qonşuları İran ilə Ermənistandır. Eyni zamanda Türkiyə ilə 11 kilometr uzunluğunda sərhədi var. Azərbaycanla əlaqələri hava yolu ilə qurulan Naxçıvan kiçik bir şəhərdir, amma çox yüksək mədəniyyətə sahibdir.

Naxçıvan şəhəri muxtar respublikanın paytaxtıdır. İğdırdan, ya da Ərzurumdan Naxçıvana avtobusla getmək mümkündür. İğdırdan Dilucu sərhəd-keçid məntəqəsində, Araz çayı üzərində inşa edilmiş "Həsrət" körpüsünü keçən kimi Naxçıvana çatırsan. Mən də elə etdim. Nəvainin təklifi ilə İzmirdən İğdıra təyyarə ilə, İğdırdan Naxçıvana isə avtobusla getməyə qərar verdim...

Somanın ağrısı ürəyimdə, bir qanadım qırılmış vəziyyətdə düşdüm Naxçıvanın yollarına...

İğdır şəhərinə gəldim. Burada avtobus firmaları ilə birlikdə şəxsi maşınlar da Naxçıvan-İğdır arasında yolçu aparıb-gətirirlər. Xüsusən bu işi naxçıvanlılar edirlər. Çünki benzin onlarda ucuzdu. Həmin maşınlardan birinə əyləşdim. Yola çıxdıq. Maşının sürücüsü də, sərnişinlər də naxçıvanlılar idi. Yol boyu söhbət edə-edə gedirdik...

Sürücümüz yoldakı çuxurlara düşməmək üçün maşını sağa-sola qaçırırdı. "Xanım, indi bir sizin yollara bax, bir də sərhədi keçəndən

sonra bizim yollara baxarsan", – dedi. Araz çayının üzərindəki körpü ölkələrimizi birləşdirir. Həmin körpünü keçəndən sonra Naxçıvana gəldik. Sürücünün dediyi kimi, burada uzanan avtomobil yolları ip kimi düzülmüşdü…

Söhbətimizi davam etdiririk… "Sizdə kefir varmı?", – deyə soruşdum. Mənə süzmə qatıq haqqında məlumat verməyə başladılar: "...Torbaya qoyursan, suyu süzülür..." "Yox" – dedim. "Biz ona süzmə qatıq deyirik. Kefir o deyil. Digər tərəfdən, deyilənə görə, süzmə qatığın suyu, əslində, çox faydalı imiş. Atılmamalıdır. İstifadə edilməlidir. Hətta böyrəkdəki daşı da düşürə bilirmiş".

Mənim bu sözümə sürücümüz bığaltı eyhamla gülərək belə cavab verdi: "Bacı, məndə heç böyrək daşı olmaz… Sizin yollarda silkələnməkdən qalmır ey..." Sürücünün bu sözünə yenə hirsləndim, amma səsimi çıxarmadım.

Nəvai hər dəqiqə zəng edib – "Haradasınız, gəlim sizi götürüm" – deyirdi. Lakin sağ olsun, sürücümüz məni otelə qədər gətirdi…

Naxçıvanlılar yaxşı insanlardır… Nə də olsa, qardaş ölkədir... İki dövlət, bir millətik onlarla...

Əslində, Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Qədim yunan alimi Ptolomey miladdan əvvəl II əsrdə Naxçıvan barədə yazarkən, buradan "İnsanların rifah halının yüksək olduğu şəhər" kimi bəhs etmişdi. Əsrlər boyunca baş verən ardıcıl işğallar nəticəsində dəfələrlə dağıdılan və təkrar qurulan bu sevimli şəhər bir elm və mədəniyyət mərkəzidir. Naxçıvanda iki universitet və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi var…

"Təbriz" otelində qalacağıq. Bura beşulduzlu və çox gözəl bir oteldir. Müdiri Bəkir bəy türkiyəlidir… Qaldığımız müddət ərzində Naxçıvana xas olan milli yeməkləri bizə tanıtmaq üçün böyük əmək sərf etdilər. Çeşid-çeşid ət yeməkləri, dolmalar... Hamısından bir az dadsam, İzmirdə iki-üç dəfəyə yediyim yeməkdən daha çox yemiş olardım... Necə yeməyim?! Hər halda kökəlmişəm... Nə isə, Türkiyəyə qayıdanda yeməyimə diqqət edərəm. Amma bu yeməkləri bir daha tapa bilməyəcəyəm" – deyə düşündüm və iştahla



yedim...

Naxçıvanda tərəvəzi çox yemirlər. Daha çox ət, balıq və toyuq yeyirlər. Göyərtilərdən tərxun, reyhan, keşniş və yaşıl soğan hər dəfə süfrələri bəzəyir. Hələ bir gün Rizədə yediyimiz, ancaq qırx beş ildir, bir daha dadmadığım ləzzətli, təbii bildirçin kababını gətirdilər. Bundan məst oldum. Xəyalımda uşaqlıq illərimə qayıtdım... O zamanlar Rizədə yüksək təpələrdə tor qurardılar. Bundan sonra işıqsaçan lampaları yandırardılar. Qara dənizi keçərək Rusiyadan gələn yorğun bildirçinlər işığı görüncə sahilə çatdıq düşüncəsiylə həmin yerlərə qonmağa çalışanda tora çırpılaraq yerə düşər və yorğun olduqları üçün bir daha ayağa dura bilməzdilər. Onları armud kimi səbətə toplayıb, ertəsi günü də bazarda satardı rizəlilər. Rəhmətlik atam da alıb gətirərdi. Mən də bütün günü onlarla oynardım. Axşam süfrəyə gətiriləndə əvvəlcə ağlayardım, sonra çarəsiz yeyərdim…



Gəzməyə başlayırıq.... Səfərimizin ikinci günü proqramımızda gəzinti vardı. Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyduq və Heydər Əliyev Muzeyini gəzdik...

Naxçıvanın ən çox ziyarət edilən yerlərindən biri də Möminə xatın türbəsidir. Bu türbə XII əsrdə Atabəy Eldənizin 30 yaşlarında vəfat edən arvadı Möminə xatının şərəfinə tikilmişdir. Səlcuqluların memarlıq xüsusiyyətlərini özündə əks etdirən türbənin çöl sütunlarında "Yasin" surəsi yazılmışdır. Lap yuxarısında isə memarın yazdığı bir söz vardır: "Biz gedərik, ancaq qalar rüzigar. Biz ölərik, əsər qalar yadigar".

Fasadı son dərəcə estetik görünüşə malik olan bu türbəyə heyran qaldım. Bir də memarın sözünü çox sevdim və "Məndən sonra kim bilər, bəlkə, rəsmlərimin asılı olduğu divarların sahibləri də

məni yad edərlər", – deyə düşündüm... Sonra Buzxana deyilən yerdə günorta yeməyimizi yedik. Deyilənə görə, əvvəllər bura buzxana imiş, yenidən bərpa edilmiş və gözəl bir yeməkxana, əyləncə yerinə çevrilmişdir.



Naxçıvanda sənətə çox dəyər verirlər. Uşaqlara rəssamlıq sənəti ilə bağlı xüsusi təhsil verirlər. Deyirlər ki, "Tariximizi rəssamların çəkdiyi rəsmlər sayəsində öyrənirik"...

Naxçıvanda hər tərəfdə gül bağçaları var...

Gəzdiyimiz Dövlət Xalça Muzeyinin dünyada analoqu yox imiş. XIV əsrdə əsgərlərin hərbi yataqxanası kimi istifadə edilən bir binada bu gün XVIII-XX əsrlərə aid olan dəyərli xalçalar sərgilənir. Muzeyin ən qiymətli əsəri 8 qadın tərəfindən 8 ayda tamamlanan və 1,2 milyon ilmə vurulan, əslən naxçıvanlı olan mərhum Prezident Heydər Əliyevin rəsminin işləndiyi xalça idi.

Bir çox tarixi əsərin nümayiş etdirildiyi Dövlət Tarix Muzeyi də görülməyə dəyər bir yerdir... I Dünya müharibəsində türk ordusu Naxçıvanı ermənilərin işğalından xilas etmişdir. Kazım Qarabəkir Paşa onlara çox kömək etmişdir. Buna görə də onu çox sevirlər və muzeylərində Qarabəkir Paşaya aid bir guşə vardır.

Növbəti gəzinti ünvanımız hər kəsin müqəddəs bildiyi, dualar edilərək qurbanlar kəsdiyi Əshabi-Kəhf idi. Həmin yer barədə rəvayətlər bizdəki yeddi yatan kimsənin rəvayətləri ilə eynilik təşkil edir. Yeddi dost və bir it dinsizlərin zülmündən qaçaraq bir dağa sığınmışlar. Dağ onları, necə deyərlər, gizlətmişdir. Tam 300 il yatmışlar. Oyandıqları zaman heç nəyin fərqinə varmadan bazara çörək almaq üçün getdiklərində verdikləri pulu dükançı tanımamışdır. Ondan-bundan soruşduqdan sonra isə 300 il öncəsinə aid pul olduğunu bilmişlər... Rahatlıq bəxş edən, yaşıllıqlarla əhatəli bir yerdir. Təpədəki mağaraya çatmaq üçün



3500 pillə qalxmaq lazımdır. Orada kimsələrin məzar daşları var. İtlə çobanın məzar daşı isə ziyarətgahın girəcəyindədir. Bu rəvayət "Qurani-Kərim"də olduğu kimi, hətta "İncil"də də qeyd olunmuşdur. Müxtəlif dinlərə inanan insanlar buranı ziyarətə gələrək dualar edirlər, ürəklərində arzu tutur, qurban deyirlər. Arzuları yerinə yetəndən sonra qurbanlarını kəsmək üçün yenidən bura gəlirlər. Qurban kəsildikdən sonra onun tullantıları səliqə ilə təmizləndiyi üçün pis qoxu və milçək yığnağı ilə rastlaşa bilməzsiniz. Hər tərəf təmizdir...

Davam edəcək....

## GƏZDİM GÖZƏL NAXÇIVANI...

*II məqalə*

Bundan əvvəlki məqaləmdə qeyd etdiyim kimi, Naxçıvan Rəssamlar Birliyinin təşkil etdiyi "Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalına dəvət edilmişdim. Həmin festivalda iştirak etmək üçün səfər etdiyim gözəl Naxçıvan haqqında təəssüratlarımı sizinlə bölüşməyi davam etdirirəm...

Sənətə dair belə möhtəşəm tədbirlərdə müxtəlif ölkələrdən, müxtəlif mədəniyyətin təmsilçiləri olan dostlarla tanış oluram. Onlardan bəziləri ilə dostluğumuz bu gün də davam edir. Qarşılıqlı olaraq bir-birimizə qonaq gedirik. Azərbaycanlı Nəvai Mətin ilə olduğu kimi. Nəvai artıq mənim bir qardaşım kimidir. Həmin tədbirdə tanış olduğum Eldar Zeynalov da artıq belə olacaq.

Eldar naxçıvanlıdır, amma İtaliyada yaşayır. Professordur. Elm sahəsində yüksək səviyyəyə çatsa da, bu gün yenə oxumaqdan, elm öyrənməkdən doymaq bilmir. Belə ki, həm memardır, həm tibb elmləri doktorudur, həm də çox yaxşı rəssamdır. Üç universitetin məzunudur. Tam 25 dil bilir. Eyni zamanda rəqs müəllimi və idmançıdır. Amma bülbülü qızıl qəfəsə qoyublar, "Ah, Vətənim!" – deyib. Eldar da belədir. Hər kəs tərəfindən müqəddəs ziyarətgah kimi qəbul edilən yeddi kimsənənin qeybə çəkildiyi Əshabi-Kəhf ziyarətgahını ziyarət edərkən duasını sona çatdırdıqdan sonra "Ah, qürbət! Ah, qürbət!" – deyərək göz yaşlarına hakim ola bilmədi. Ürəyim sızıldadı...

Televiziyaların birində rejissor işləyən gənc rəssam Vüqar Mehdiyev də dostlar, qardaşlar siyahısına əlavə etdiyim insanlardandır. Oturacaqda oturub dincəlirdik. Dağın yüksəkliyinə çıxan dostlarımız var idi. Vüqar "Oradakı dostlarımız da dağdan düşsünlər gedərik", – dedi. Mən dərhal "Niyə düşsünlər? Allah qorusun!" – deyərək bir az sərt cavab verdim. Sonra anladım ki, azərbaycanlılar "enməyə" "düşmək" deyirlər. Bizdə isə "düşmək" sözü "yıxılmaq", "qəza etmək" mənasına gəlir...

Saeed Ayyami iranlıdır. Naxçıvanın sərhədində olan Araz çayının



yaxınlığındakı şəhərdən gəlib. Türk dilini bilir. Otuz yaşındadır və şam yeməyimizdə çıxış edərkən "Burada yaxşı bir böyük bacı tapdım" deməsi məni duyğulandırdı...

Sıra gəlmişdi Duzdağı gəzməyə. Naxçıvan şəhərindən 14 kilometr uzaqlıqda yerləşən Duzdağın mağarasında astma, bronxit və nəfəs darlığı olan xəstələrə şəfa verən maraqlı bir xəstəxana var. Deyilənə görə, mağarada yayda da, qışda da istilik 18-20 dərəcə olur. Xəstələr gecəni burada qalır, təbii yolla müalicə alırlar. Bu müalicənin müsbət nəticələr verməsi hər kəs tərəfindən qəbul edilir. Bizdə də Çankırı duz mağarasında buna bənzər belə bir sağlamlıq mərkəzi var.

Azərbaycanlıların bəzi sözləri mənim çox xoşuma gəlir. Budur, həmin sözlərdən biri də diqqətimi cəlb etdi. Həmşirənin otağının qapısında belə yazılıb: "Tibb bacısı"...

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yanında Nuh Peyğəmbərin türbəsi var. Türbənin tam arxasında uzaqda Haçadağ və Gəmiqaya görünür. Naxçıvanlılar belə hesab edirlər ki, Nuh tufanı bu bölgədə baş verib. Naxçıvandakı yer adlarının Nuh Peyğəmbər tərəfindən qoyulduğu, hətta "Naxçıvan" sözünün "Nuh çıxan" mənasına gəldiyini də deyirlər...

Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva gənc və gözəl bir xanımdır. Həm deputat, həm yaxşı bir ana, həm fədakar könüllü, həm də çalışqandır. Bu festivalın adına layiq bir şəkildə keçirilməsi üçün çox çalışıb.

Üçüncü gün hamımız muzeydə öz yerimizi aldıq və açıq havada rəsm çəkməyə başladıq. Çox gözəl rəsmlər ortaya çıxdı. Yeri gəlmişkən, azərbaycanlılar "rəsm yapmaq" demirlər, "rəsm çəkmək" deyirlər. Bu da xoşuma gələn sözlərdən biridir.

Digər bir sevdiyim və heyran qaldığım həmcinsim də vardı ki, onunla adaşıq. Adı Hülya Akıncıdır. Hülya xanım Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Əli Rza Akıncının həyat yoldaşıdır. Bahar təravətli gənc bir xanımdır. Sənətə bağlıdır. Boş dayanmır, keramika ilə rəsm yaradır. O, bizimlə birlikdə Naxçıvanın

tarixini canlandıran çox gözəl bir rəsm çəkdi. Çox şirin əkiz iki oğlu var. Naxçıvanlılar Baş konsula və onun həyat yoldaşına rəğbət bəsləyirlər. Onlar da yerli insanlarla qaynayıb-qarışıblar.

Səfərimizin sonuncu günü axşam çay içməyə dəvət etdilər. Söhbətimiz xoş keçdi. Ülviyyə xanım "Hülya xanım ilə birlikdə "Qadınlardan nağıllar" adlı keramika-rəsm sərgisi keçirdik. Türkiyəli və naxçıvanlı rəssam qadınlar da sərgidə iştirak edirdilər", – deyərək səmimi şəraitdə birgə fəaliyyət göstərdiklərindən danışdı...

Sonuncu gün Azərbaycanın ən tanınmış rəssamlarından biri olan və otuz yaşında vəfat edən Bəhruz Kəngərlinin məzarını ziyarət etdik və muzey binasını gəzdik. Həmin gün rəsmlərimizdən ibarət sərginin açılışı ilə birlikdə plaketlərimiz və hədiyyələrimiz də bizə təqdim olundu. Sonra Naxçıvan Dövlət Universiteti tələbələrinin rəsmlərindən ibarət sərgiyə baxdıq. Çox gözəl rəsmlər vardı. Bir daha deyirəm ki, naxçıvanlılar sənətdə bizdən çox irəlidədirlər...

Nəvai ilə yaxın dostu Mahir müəllim məni avtovağzala gətirdilər. Sağ olsunlar. Avtobusa mindirdilər. Avtobus hərəkətə gələndə gözəl xatirələri, dostluğumdakı yeni insanları xatırlayarkən gözlərim yaşardı, dostlara əl elədim...

Yol kənarları ağaclarla dolu idi, ancaq ondan o tərəfə baxanda intəhasız düzənlik görünürdü. Nəyə görə yol kənarlarından başqa yerlərdə ağac olmadığı barədə sualıma belə cavab verdilər ki, müstəqilliyin ilk illərində ermənilər Naxçıvana gələn işıq və qaz xətlərini kəsdikləri üçün əhali qış aylarında isinmək üçün ağacları kəsərək ondan istifadə etmək məcburiyyətində qalıb...

Bu gün isə yüzlərlə insan, könüllülər Naxçıvan şəhərindən kilometrlərcə uzaqda ağac əkir, yaşıllıqları daha da genişləndirmək üçün var güclərini əsirgəmir. Məni təəccübləndirən digər bir məqam isə həmin ağacları damcı üsulu ilə suvarmaq üçün su xətlərinin çəkilməsidir. Görürəm ki, bizdə bəzi bələdiyyələr tingi əkdikdən sonra belə hesab edirlər ki, bununla iş qurtarır. Həmin



tinglərə bütün yay boyu bir qab su da vermirlər və nəticədə, ağaclar quruyur...

Mən Naxçıvanı qurtuluş savaşından çıxmış Türkiyə Cümhuriyyətinə oxşatdım. Həmin illərdə bizdə olduğu kimi, burada da əhali yeniliklərə imza atmaq, irəliyə doğru addımlamaq, yüksəlişi davam etdirmək üçün sıx şəkildə birləşərək canla-başla çalışır... Təşkilatçılıq yüksək səviyyədə idi...

Güllərə qərq olan gözəl Naxçıvanı gəzdim. Gözəl dostlar, qardaşlar qazandım. Qısaca, 5 günüm çox gözəl keçdi. Gözəl xatirələrlə ayrıldım.

Festivalın təşkilinə böyük dəstək verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov başda olmaqla əməyi keçən hər kəsə təşəkkürlərimi, sevgi və salamlarımı çatdırıram.

**Hülya SEZGİN,**
***"Ortaq ses.com" informasiya portalı (Türkiyə),***
***24.06.2014***

# NAXÇIVAN HAQQINDA QEYDLƏR



Azərbaycan Xəzər dənizinin qərb sahilində, Cənubi Qafqazda yerləşir. Zəngin tarixə və mədəniyyətə malik olmasına baxmayaraq, İtaliyada və dünyada az tanınır. Bu, bilavasitə onun əsr yarımdan çox rus imperiyasının, daha sonra isə SSRİ-nin tərkibində olması ilə əlaqədardır. Lakin 1918-1920-ci illəri əhatə edən müstəqillik dövrü istisnadır. Bu ikiillik müstəqillik dövründə müsəlman aləmində ilk dəfə olaraq demokratik dövlət – Azərbaycan Demokratik Respublikası yaradılmış, hətta İtaliyadan 30 il öncə kişi və qadın bərabərliyi, qadınlara seçki hüququ verən demokratik Konstitusiya qəbul edilmişdir. Azərbaycan qitəmizin cənub-qərbində yerləşdiyindən daha çox Avropaya aid edilir. Paytaxt Bakının arxitekturası yalnız sovet üslubunda deyil. Bu şəhər 1900-cü illər Avropa memarlıq məktəbinin nümunələri ilə yanaşı, yeni minillikdə ölkənin sürətli iqtisadi inkişafını əks etdirən göydələnlər və ən müasir tikililərini özündə birləşdirir. Azərbaycanda "Avroviziya" kimi bir çox məşhur və mötəbər beynəlxalq tədbirlər keçirilib. Bakı 2015-ci ildə ilk dəfə keçiriləcək Avropa Olimpia Oyunlarına ev sahibliyi edəcək.

"İl Calendario del Popolo" jurnalı Bakıda keçirilən və bütün dünyadan Nobel mükafatçıları, məşhur alimlər, vətəndaş cəmiyyətinin görkəmli nümayəndələri, siyasətçilər və jurnalistlərin iştirak etdiyi III Beynəlxalq Humanitar Forumuna dəvət olunmuşdu. Heydər Əliyev Mərkəzi tərəfindən irəli sürülən təşəbbüs iraqlı arxitektor Zaha Hadidin layihələşdirdiyi müasir binada həyata keçirildi. Bu tədbir çərçivəsində Azərbaycan Respublikasının eksklav ərazisi olan Naxçıvana da səfər etmək imkanı əldə etdik. Eksklav ərazi tam olaraq bir ölkəyə məxsus ərazi olmasına baxmayaraq, həmin ölkənin ərazisindən kənarda yerləşən və coğrafi sərhəd baxımından digər ölkələrlə həmsərhəd olan yerdir. Tarixi və ənənələri ilə zəngin, lakin



İtaliyada hələ az tanınan Naxçıvan bəşəriyyət tarixində ilk yaşayış məskənlərindən və dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanın qərbində yerləşən bu diyar Ermənistan və İranla əhatə olunub, Türkiyə ilə 11 kilometr boyunca həmsərhəddir.

"Naxçıvan" sözünün mənşəyi barədə müxtəlif izahlar mövcuddur. Bəzi yerli mənbələrə əsasən, bu söz Nəqşi-Cahan, yəni "dünya nümunəsi" və ya "dünya bəzəyi" mənasını verir. Ən geniş yayılmış fikir isə bu torpağın adının Nuh Peyğəmbərlə bağlı olmasıdır. Əfsanəyə görə, "Naxçıvan" sözünün mənası "Nuh-çivan", yəni "Nuhun torpağı" deməkdir. Sahəsi 5,5 min kvadratkilometr olan (təxminən, Liquriya regionu böyüklükdə) bu ərazidə 410 mindən artıq əhali yaşayır. Zəngəzur dağları Ermənistan ilə, Araz çayı isə İranla sərhədi təşkil edir. Ən hündür zirvəsi 3904 metr yüksəklikdə yerləşən Qapıcıq dağıdır. Ən məşhur dağı isə 2415 metr yüksəklikdəki İlandağdır. Araz çayı üzərində yerləşən su anbarında elektrik enerjisi istehsal olunur.

Ordubad, Culfa, Şahbuz, Babək və Şərur rayonlarındakı 200-dən artıq mineral su mənbələri muxtar respublikanın ən əsas zənginliklərindən biri hesab olunur. Naxçıvanda, əsasən, quru kontinental iqlim tipi hakimdir. Florası çox zəngindir. (2782 növ bitki). Burada 400 böyük və kiçik çay mövcuddur. Ərazinin yalnız üçdəbir hissəsi Araz çayı ətrafı düzənlikdir. Qeyd edilməlidir ki, dünyadakı on bir iqlim tipindən doqquzu Azərbaycan ərazisində mövcuddur və demək olar ki, bu doqquz iqlim tipi məhz Naxçıvanda da var.

Azərbaycanlıların tarixi, elmi, mədəni, siyasi və hərbi irsinin böyük bir hissəsi məhz bu torpaqda formalaşıb. Naxçıvan ölkənin ən görkəmli şəxsiyyəti, SSRİ dövründən nüfuzlu siyasətçi kimi tanınan, müstəqil Azərbaycanın qurucusu və ölkə Prezidenti İlham Əliyevin atası ümummilli lider Heydər Əliyevin doğulduğu yerdir. Bu torpaq həmçinin Əcəmi (XII əsr) kimi memarlar, Marağa Rəsədxanasının banisi Nəsirəddin Tusi (XIII əsr) kimi məşhur alimlər, sufizm təriqətinin bir qolu olan hürufizmin yaradıcısı olan və Nəimi adlandırılan Fəzlullah Astarabadi (XIV əsr) kimi filosoflar, on doqquz-iyirminci əsrlərdə çar və qızıl orduya xidmət edən qəhrəman

generallar, neft-kimyası sahəsində böyük kəşf edən Yusif Məmmədəliyev kimi kimyaçılar, 30 yaşında dünyasını dəyişən istedadlı rəssam Bəhruz Kəngərli kimi sənətkarlar yetişdirmişdir. Teatr XX əsrdə muxtar respublikanın mədəni mühitinin inkişafında mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Qulubəyov və Hüseyn Ərəblinski (ilk azərbaycanlı teatr rejissoru) bu sahənin inkişafında əməyi olan insanlardır. Naxçıvan eyni zamanda məşhur Duzdağ mədəninə görə də tanınır. Mağaralarda çıxarılan bu xüsusi növ duz yalnız öz unikal dadı ilə deyil, həmçinin yerli əhalinin dili ilə desək, müalicəvi xüsusiyyəti ilə də fərqlənir. Dünyanın bir çox ölkələrindən yalnız artrit deyil, astma və digər ağciyər xəstəliklərindən əziyyət çəkən insanlar müalicə üçün Naxçıvandakı Duzdağ Fizioterapiya Mərkəzinə gəlir.

Bu gün Naxçıvan muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə inkişaf edir, beynəlxalq əlaqələri genişlənir. Son on ildə əhalinin yaşayış səviyyəsində ciddi irəliləyişlər müşahidə olunur; regionda müasir hava limanı inşa edilmiş, ətraf mühitin və ekoloji tarazlığın qorunması məqsədilə xüsusi tədbirlər görülmüş, köhnə avtomobillərin istifadəsi məhdudlaşdırılmış və könüllülər tərəfindən iməcliklər təşkil olunmuşdur. Naxçıvanın iqlimi meyvə və tərəvəz yetişdirilməsi üçün əlverişlidir. Regionun təbiəti, adət-ənənələri və mədəniyyəti beynəlxalq turizmin artan marağına səbəb olur. Son zamanlar aparılan araşdırmalardan aydın olub ki, regionda Günəş və külək enerjisindən istifadə imkanlarını inkişaf etdirmək üçün potensial mövcuddur. Naxçıvan eksklav ərazi olduğundan ölkənin paytaxtı Bakıya quru yolla yalnız şimal-qərbdə yerləşən Türkiyə sərhədindən keçərək Gürcüstan üzərindən, eləcə də birbaşa İran vasitəsilə birləşir. Azərbaycan, Gürcüstan və Türkiyədə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolu və gələcəkdə Qars-Naxçıvan dəmir yolu sayəsində Bakıya birbaşa səyahət etmək mümkün olacaqdır.

**Laura PERETTO,**
***arxitektor,***
***"İl Calendario del popolo" jurnalı (İtalya),***
***13.06.2014***



## NAXÇIVAN XATİRƏLƏRİM...



Biz indi Naxçıvandayıq. Bu ərazi tamamilə Azərbaycandan aralı düşüb. Türkiyə, İran və Ermənistanla həmsərhəddir, muxtar respublikadır və özünün idarəetmə forması var.

Xatırladaq ki, biz İslam memarlığı və dizaynını çox sevirik. Naxçıvanda birinci Yusif Küseyiroğlu türbəsinə getdik. Bu abidə səkkizbucaqlı türbədir və 1162-ci ildə Memar Əcəmi tərəfindən tikilib. Abidənin bütün divarları həndəsi naxışlarla bəzədilib. Abidənin başında ucumiz qübbəsi var. Bizim planlaşdırdığımız növbəti dayanacaq 17-ci əsrə aid olan Xan sarayıdır. Bu, çox gözəl ikimərtəbəli bina idi. Xan sarayının yaxınlığında Möminə xatın türbəsi ucalır. Bu abidə də 1186-cı ildə Memar Əcəmi tərəfindən tikilib. Bu abidə dövlət başçısı olmuş sərkərdə tərəfindən həyat yoldaşının şərəfinə tikilib və ölümündən sonra onun oğlu tərəfindən tamamlanıb. Abidənin üzərində kufi əlifbası ilə yazılar var. Bu, Azərbaycanda ən gözəl tarixi memarlıq abidəsi hesab olunur. Heyranedici səbəblərdən biri odur ki, abidənin ortasındakı tək sütun bütün abidəni ayaqda saxlayır.





Naxçıvan şəhərində bizim növbəti dayanacağımız Naxçıvanqala oldu. Bu qala tamamilə yenilənib. İçərisində muzey fəaliyyət göstərir. Kompleksin yaxınlığında



Nuh Peyğəmbərin dəfn olunduğu türbə vardır. Naxçıvanın adı "Nuhun vətəni" mənasını verir. Türbə 8-ci əsrdə tikilib və ilk dəfə 11-ci əsrdə təmir edilib. Ən son isə 2008-ci ildə təmir olunub.

Günorta yeməkdən sonra biz şəhərdən şimal-qərbdə olan Qarabağlar kəndinə yola düşdük. Burada Qarabağlar türbəsi yerləşir. Bütün bu böyük kompleksdən təkcə 12 sütunlu göy-mavi kirəmitlə bəzədilmiş abidə və iki minarə qalır.



Biz nahar yeməyi üçün dayandıq. Azərbaycanda olduğum müddətdə birinci dəfə idi ki, balıq yeyirdim. Bu, Araz çayından tutulmuş təzə sazan balığı idi. Qızardılmış balıq narşərabla süfrəyə verildi. Çox ləzzətli idi.



***Naxçıvan-Ordubad***

Gözəl səhər yeməyi yedikdən sonra saat 900-da bələdçimiz Həsənlə Ordubada yola düşdük. Yol boyu uzanan və eroziyaya uğrayaraq möcüzəli forma almış dağlar xoş mənzərə yaradırdı. Bu dağların rəngləri müxtəlif idi. Bəziləri kükürdlü olduğu üçün sarı, bəziləri isə çiyələk burulğanına bənzəyirdi. Yaşıllıqlar içərisindəki kənd uzaqdan vahəyə oxşayırdı. Bura çox yağış yağmır, lakin suvarma suyu asanlıqla əldə olunur. Çünki dağlardan çaylar axır. Günortaya yaxın biz əzəmətli İlanlı dağı gördük. Əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi birinci bu dağa dəyib və dağın zirvəsində haça yaradıb. Biz dağın ətrafındakı yaşıllıqlar və məhsuldar torpaqları gördükdə çox











təəccübləndik. Çünki yoldan baxanda bu ərazidə yaşıllıq olduğunu görmək çətindir.

Biz Ordubadın qədim məhəllələrini gəzdik. Buradakı evlər palçıqdan tikilmişdir. Şəhərin bu hissəsinə su qədim zamanlarda tikilmiş kəhrizlər vasitəsi ilə verilir. Hər evin həyətində kəhriz quyuları vardır. Biz Ordubad şəhərindəki Saatabad məscidində olduq. Ordubadın mərkəzində – çinar ağaclarının altındakı çayxananın yuxarı tərəfində XVIII əsrə aid olan Cümə məscidi yerləşir. Məscidin böyük pəncərələri və məscidlər üçün qeyri-adi olan iki şir və insan sifəti həkk olunan freskosu vardır. Məsciddə insanlar ibadət edirdi. Kilsələrdən fərqli olaraq, onların fikirlərini yayındıran heç nə ilə rastlaşmadıq. Məscidin qadınlar olan hissəsi əsas hissəsindən fərqli olaraq, daha gözəl və qapalı idi.





Bir çox tarixi yerlərlə tanış olduqdan sonra Naxçıvan şəhərinə qayıtdıq və Kazım Qarabəkir Paşa məscidində olduq. Kazım Qarabəkir Paşa Naxçıvanda qəhrəman kimi xatırlanır. O, ötən əsrin əvvəllərində bu ərazidə yerli əhaliyə qarşı amansız qətllər törədən erməniləri darmadağın edən türk ordusuna başçılıq etmişdir. Bu məscid 1997-ci ildə Kazım Qarabəkir Paşanın xatirəsinə inşa edilmişdir. Türk memarlıq üslubunda tikilən məscidin içərisi çox gözəldir.

Naxçıvan haqqında son qeydlərim

Günorta yeməyi yemək üçün Naxçıvan şəhərindəki Buzxanaya gəldik. Qədim zamanlarda bu yeraltı bina buz ilə doldurulmuş və burada ərzaqlar saxlanılmışdır. Haliyədə bu yer Azərbaycan milli yeməklərinin təq-



dim olunduğu milli yeməkxanadır. Mən bu yeri hər kəsə tövsiyə edirəm. Buradakı milli yemək nümunələri Azərbaycanın başqa yerlərində yediyimiz yeməklərdən dadlı idi. Biz milli şirniyyat olan paxlava sifariş etdik. Paxlava fındıq və qozla hazırlanır, çayla çox ləzzətli olur.

**Jacqui LİCHT,**
***İsrail, 20.06.2014***



## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK YUBİLEYİ

Bu il "Bəşəriyyətin beşiyi" adlandırılan Naxçıvanda muxtar respublikanın yaradılmasının 90 illik yubileyi qeyd olunur. 5,5



min kvadratkilometr əraziyə və 435 min 400 nəfər əhaliyə malik olan muxtar respublika Azərbaycan Respublikasının dənizə çıxışı olmayan eksklavıdır. Naxçıvan Muxtar Respublikası Ermənistan, İran və Türkiyə ilə həmsərhəddir. Sovet rəhbərliyi tərəfindən 1920-ci ildə qədim Azərbaycan torpağı olan Zəngəzurun qeyri-qanuni olaraq Ermənistana verilməsi nəticəsində Araz çayına doğru 44-45 km məsafədə yaranmış torpaq zolağı Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırır.

Naxçıvanda 1162 tarixi-mədəni abidə mövcuddur ki, onların 58-i dünya əhəmiyyətlidir. Qazançı qalası, Əshabi-Kəhf, Əlincəqala, Gəmiqaya abidələri, Nuh, Möminə xatın, Gülüstan türbələri və digərləri bu cür abidələrdəndir.

16-cı əsrdə Səfəvilər dövlətinin bir parçası olmuş bu diyar rus-İran müharibələrindən sonra 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin nəticəsi olaraq Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Çar Rusiyası dağıldıqdan sonra isə 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi olmuşdur. Birinci Dünya müharibəsi nəticəsində Rusiya imperiyasının dağılmasından bəhrələnmək istəyən ermənilər qonşularının torpaqlarını zəbt etməyə, dəfələrlə Naxçıvanı işğal etməyə cəhd göstərmişlər. Yalnız naxçıvanlıların şücaəti və Türkiyənin yardımı nəticəsində ermənilərin bu məkrli planları puç olmuşdur.

1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra həmin il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin

sədri M.Bektaşi Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri N.Nərimanova məktub yazaraq deyirdi: "...Naxçıvan özünü Azərbaycan Sovet Respublikasının ayrılmaz tərkib hissəsi hesab edir".

20-ci əsrin sonlarında Naxçıvan Muxtar Respublikası Sovet İttifaqı süquta uğradıqdan sonra yenidən ermənilərin hədəfinə tuş gəlmişdir. Ermənilər siyasi xaosdan və mərkəzi sovet hökumətinin dəstəyindən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə çalışmışlar. Beləliklə, Azərbaycan Respublikası yenidən Naxçıvan və Qarabağa yönəlmiş erməni terroru və işğalı ilə üz-üzə qalmışdır. Ermənistan tərəfindən tətbiq olunmuş blokada nəticəsində muxtar respublika çox çətin bir duruma düşmüşdür.

Yalnız ümummilli lider Heydər Əliyev Naxçıvana başçılıq etdikdən sonra muxtar respublikanın təhlükəsizliyi təmin olunmuşdur. Eyni zamanda Naxçıvanda ilk dəfə Azərbaycan milli dövlət rəmzləri qəbul edilmiş, "Sovet Sosialist" ifadəsi muxtar respublikanın adından çıxarılmış, kommunist partiyasının fəaliyyəti dayandırılmış, SSRİ-nin tərkibində qalmaq barəsində referendumun keçirilməsi təklifi rədd edilmişdir.

Bütün bunlarla yanaşı, ilk dəfə məhz Naxçıvanda Azərbaycanın üçrəngli bayrağı ucaldılmış, sovet qoşunları regiondan çıxarılmış, dövlət quruculuğu istiqamətində əməli işlər görülmüş, aqrar islahatlar keçirilmiş, Ermənistanın təcavüzünün qarşısı alınaraq muxtar respublikanın təhlükəsizliyi təmin edilmiş, qonşu Türkiyə və İran ilə iqtisadi əlaqələr yaradılmışdır.

Bu gün Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası yüksək templə inkişaf edir, çiçəklənir.

2013-cü ildə dünyanın 800-dən artıq görkəmli nümayəndəsinin cəlb olunduğu Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi hissəsindən sonra forumun iştirakçısı kimi digər qonaqlarla birgə Naxçıvana səfər etmək və bu diyarın gözəlliyi ilə tanış olmaq imkanı qazandım. Səfər zamanı Naxçıvandakı muzeylər, tarixi abidələr, teatrlar, saraylar, məscidlərlə tanış oldum. Hər bir



müsəlmanın qəlbində xüsusi yer tutan Əshabi-Kəhf dini abidə kompleksini ziyarətim xatirəmdə daim qalacaq.

**Raca Mahmud BATTİ,**
***"Diplomatik star" jurnalı***
***(Pakistan),***
***16.07.2014***

# ORDUBAD: AVRASİYANIN ÜRƏYİNDƏ QƏDİM ŞƏHƏR

5 oktyabr 2014-cü il tarixdə mənim imkanım oldu ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olduğu Naxçıvan bölgəsinə və bölgədəki Ordubad rayonuna səfər edim. Ordubadın mərkəzinin çox gözəl mənzərəsi, gülərüz insanları və Azərbaycanın bu ərazisinə nadir hallarda səfər edən beynəlxalq qonaqlara isti münasibət var.



Ordubad şəhərində bazarın yaxınlığında haliyədə muzey kimi istifadə edilən və regionda 3 Qeysəriyyə binasından biri olan XVII əsrə aid tarixi abidə vardır. Digər iki tarixi abidə isə Səmərqənd və Təbrizdədir. 1990-cı ildən bəri bu bina Tarix-Diyarşünaslıq Muzeyi kimi istifadə edilir.

Ordubadın öz qədim tarixi, özünə xas olan milli və mənəvi dəyərləri vardır. Rayon Kiçik Qafqazın çox təsir bağışlayan və ərazidə ən yüksək zirvə sayılan Qapıcıq dağının ətəyində yerləşir. Ordubadın kiçik hissəsi dağətəyi ərazi, 5 faizi isə düzənlik ərazidir. Ordubadın həddindən artıq zəngin flora və faunası vardır. Yaşayış sahəsi, əsasən, dağətəyi ərazidə yerləşir və buranın gündəlik istifadə üçün təmiz su mənbələri var. Bu mənbələr suvarma üçün də istifadə edilir. Ordubad cənub tərəfdən İran, şimal tərəfdən Ermənistanla, qərbdən isə Naxçıvanın Culfa rayonu ilə həmsərhəddir.

Şəhərin sərhədləri, hələlik, tam təsdiqlənməyib və müəyyənləşdirilməyib. Hələ də güman edilir ki, bu ərazi dünyadakı ən qədim insan məskənlərindən və bəşəriyyətin formalaşdığı ən qədim yerlərdəndir. Ordubad şəhərinin adı ilk dəfə V əsr yazılı mənbələrdə xatırladılır. Ordubadda yerləşən Gəmiqaya dağında qədim dünyanın böyük panteonlarının olduğu güman edilir. Dağdakı petroqliflər və burada olan insan yaşayış məskənləri onu deməyə əsas verir ki,



qədim insanların məskən saldığı, mədəni inkişaf etdikləri Ordubadın tarixi bizim eradan əvvəl VII-I əsrlərə aiddir.

Əhalinin məskən saldığı bu yerlər və nekropollar bizim əsrin I və II minilliyinə aid mədəni və tarixi tapıntılar ilə zəngindir. Belə abidələr Ordubadın Sabirkənd, Plovdağ və Xaraba Gilan adlandırılan



qədim insan yaşayış məskənlərində mövcuddur. Bu tapıntılar bizə əsas verir deyək ki, Ordubadın tarixi 7 min il əvvələ aiddir.

XVIII əsrin əvvəllərində Ordubad Səfəvi imperiyasının bir hissəsi olmuşdur. 1724-cü ildə Ordubad Osmanlı imperiyasına birləşdirilmiş və sonra İran hökmdarı Nadir şah tərəfindən tutulmuşdur.

Minlərlə Ordubad sakini erməni terrorizminin qurbanı olmuş və XX əsrin əvvəllərində çoxlu təqiblərə məruz qalmışdır.

Ordubadın gözəl təbiəti, sirli dünyası və təbii gözəlliyi XIX-XX əsr səyahətçilərinin marağına səbəb olmuşdur. Rus alimi İ.Şopen, polşalı tədqiqatçı A.Petzold, fransız yazıçısı A.Düma və digər görkəmli şəxslər bu gözəlliyi öz əsərlərində tərənnüm etmiş və Azərbaycanı tərk edərkən Ordubad barədə böyük təəssüratlar yazmışlar.

Ordubad təkcə özünün rəngarəng gözəlliyi ilə yox, həmçinin tanınmış şəxsləri, incəsənət adamları və dünya şöhrətli alimləri ilə xarakterizə edilir. Məşhur astronom alim, riyaziyyatçı və şair Nəsirəddin Tusi Məhəmməd Bin Həsənin davamçıları hələ də Ordubadda yaşayır.



Ordubad Yaxın Şərq və Şər-

qi Asiya ilə ticarət əlaqələri saxlayan mühüm ticarət marşrutlarının birləşdiyi yerdə yerləşir. Ərazi 40 üzüm növünün yetişdirilməsi ilə tanınmışdır. Ordubad ipəyi Venesiya, Marsel, Amsterdam va digər Avropa şəhərlərinə XVI əsrin ikinci yarısından başlayaraq ixrac edilmişdir. Ordubad ipəyi XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgi və yarmarkalarda 13 qızıl medala layiq görülmüşdür. Ordubad Şərq dünyasının canlı muzeyi hesab edilir, şəhər özünün tarix və ənənələrini qoruyur, nəsildən nəslə ötürür. Özünün memarlıq quruluşuna və tarixi abidələrinə görə Ordubad 1977-ci ildə bəşəriyyətin incisi və şəhər qoruğu elan edilmişdir.

***Peter TASE,***
***"Foregin Poleicy News"***
***jurnalı (ABŞ),***
***10.10.2014***



## NAXÇIVAN VƏ ORDUBADA SƏYAHƏT



Azərbaycanın Naxçıvan Muxtar Respublikasında yaranan təəssüratı sözlə təsvir etmək çətindir. Burada həyat tam başqa cürdür. Naxçıvan Muxtar Respublikasında yaşayan azərbaycanlıların Azərbaycanla birbaşa əlaqələri yoxdur. Onları hər tərəfdən nəhəng, keçilməz dağ silsilələri əhatə edir. Ancaq təkcə dağlar keçilməz maneə deyildir. Naxçıvan əhalisi düşmən Ermənistanın əhatəsindədir. Təqribən, 20 il bundan əvvəl Ermənistan rus hərbi silahlı qüvvələrinin dəstəyi ilə Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın 20 faiz torpağını işğal etmişdir. Bu torpaqlar azərbaycanlılara hələ də qaytarılmamışdır. Ermənistan və Azərbaycan arasında tez-tez atəşkəs pozulur. Bütün sərhəd-keçid məntəqələrində qanlı erməni təxribatları olmuşdur. Ona görə də bu vəziyyət naxçıvanlıların həyat tərzinə təsir etməyə bilməz.

Lakin heç də belə düşünməyin ki, Naxçıvanda yaşayan azərbaycanlılar qorxu və yoxsulluq içərisində yaşayırlar. Sadəcə, onların həyat ritmi Azərbaycanın digər yerlərindən bir az fərqlidir. Onlar heç bir yerə tələsmirlər. Və qonaqlara da çox mehriban yanaşırlar. Qonaqları burada daha ürəkdən və daha səmimi qarşılayırlar. Elə bütün Azərbaycan haqlı olaraq qonağa hörmət, mehribanlıq və qonaqpərvərliklə fəxr edir.

Naxçıvanın digər fərqli cəhəti ölkənin indiki başçısı İlham Əliyevin atası, Azərbaycanın keçmiş Prezidenti Heydər Əliyevin burada doğulub boya-başa çatmasıdır. Buna görə də Naxçıvanda görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsinə hörmət əlaməti ilə seçilən çoxlu yerlər vardır. Naxçıvanda Heydər Əliyev Muzeyi və Heydər Əliyevin adını daşıyan, bütün mühüm konfrans və iclasların keçirildiyi müasir saray yaradılmışdır. Naxçıvan muzey-

lərində və xüsusən Tarix Muzeyində Heydər Əliyevin xatirəsini əks etdirən ekspozisiyalar vardır.

Naxçıvanlılar 1992-2014-cü illərdə ölkənin ərazi bütövlüyünün müdafiəsi zamanı şəhid olanların xatirəsinə dərin hörmətlə yanaşırlar. Bütün iri muzeylərdə həmin dövrlərdə həlak olmuş insanların, gənclərin portretlərindən ibarət olan ekspozisiyalar vardır. Bələdçilər həmişə bu ürəkağrıdan mövzuya xüsusi diqqətlə yanaşırlar. Bizi müşayiət edən azərbaycanlı diplomatlar isə həmişə təkrar edirdilər ki, onlar itirilmiş torpaqları nəyin bahasına olursa-olsun, geri qaytaracaqlar.

Qədim silahlar, əl işləri, rəsmlərlə zəngin olan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi dərin təəssürat yaradır. Muzeyin bələdçiləri bu qalada nə qədər qəhrəman Azərbaycan döyüşçüsünün həyatını qurban verdiyi, neçə düşmən hücumlarına və mühasirəsinə sinə gərdiyi haqda ətraflı məlumat verdilər.

Naxçıvan ətrafında nadir müalicəxana vardır. O, yerin altında yerləşir. Onun tavanı nəhəng dağın daşlarıdır. Yarımqaranlıq müalicəxanada çarpayı cərgələri vardır. Burada, yerin altında nəfəs yollarından əziyyət çəkən xəstələr müalicə olunurlar. Müalicə üsulu duz və yod hissəcikləri ilə zəngin olan havadır. Bəzi xəstələr üçün Duzdağ Fizioterapiya Mərkəzində cəmisi bircə gecə keçirmək kifayətdir. Daha ağır dərəcəli xəstələrə müalicə kursunu bir neçə dəfə təkrarlamaq tövsiyə olunur.

Ordubad şəhərinin dağları da heç zaman unudulmayacaq təəssüratlar yaradır. Azərbaycanlılar onları müqəddəs adlandırırlar.

*Gintaras VİSOTSKAS,*
*www.slaptai.lt internet nəşri (Litva),*
*15.10.2014*



## NAXÇIVANA SƏYAHƏT

Görəsən, Rusiyadan olan bir insan Azərbaycanın əsas torpağından "qoparılmış" bir şəhərinin vəziyyəti haqqında nə düşünə bilər? Ən azından, yöndəmsiz köhnə binalar, fasadı sökülüb-dağılmış hökumət qurumlarının binaları, gözə dəyməyən gənc insanlar və daha nələr... Bütün bu təsəvvürlər isə Naxçıvanın coğrafi mövqeyinin nəzərə alınması ilə daha da qətiləşər. Əslində isə o təkcə Azərbaycandan ayrı salınmamış, həm də üzərində gömrük məntəqələri olan təbii sərhəd – Araz çayı ilə İranla və Ermənistanla əhatəyə alınmışdır.

### Hava limanına endiyimizdə necə qarşılandıq?

İlk olaraq, jurnalistlər müxtəlif ölkələrdən gəlmiş qonaqların təyyarədən düşməsini foto və videolentə alırdılar. Daha sonra onlar Naxçıvanın qonaqlarından müsahibələr alaraq Bakıda keçirilmiş IV Beynəlxalq Humanitar Forum barədə və elə şəhərin özü haqqında təəssüratlarını soruşurdular. Bizi biri rusdilli nümayəndələr, digəri isə digər əcnəbilər üçün ayrılmış avtobuslara dəvət edib bələdçilərlə tanış etdilər. Fasilə üçün ayrılan qısa müddətdən sonra biz təsəvvürlərimizi daha da zənginləşdirməyə – Naxçıvan şəhərinə tərəf yol aldıq.

Yerləşəcəyimiz mehmanxana jurnalistlər üçün çox əlverişli ola biləcək yüksəkliklərlə əhatə olunmuş bir yerdə idi. Diqqəti ən çox cəlb edən isə elə pəncərədən müşahidə olunan hərbi texnika və əsgərlər oldu. Sonra bizə izah etdilər ki, bu, döyüş deyil, sadəcə, hərbi təlimdir. Bu situasiya qarşılanma nöqteyi-nəzərindən səciyyəvi oldu. Adamın lap burnunun ucunda keçirilən belə bir tədbirin nə ola biləcəyini dərhal başa düşən rusiyalı nümayəndələr bunu normal qarşıladılar. Amma Avropadan gəlmiş qonaqlar, deyəsən, bir az həyəcanlanmışdılar.

### Azərbaycan: Günəş və çimərliklər

Əşyalarımızı yerbəyer etdikdən və günorta yeməyində həmkarlarımızla qarşıdakı tur haqqında müzakirə apardıqdan sonra, nəhayət, avtobuslara minib Naxçıvan şəhərinə yollandıq. Mən

Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Vüqarla tanış oldum. Onun vəzifəsi təbliğat işi idi. O danışırdı ki, burada təkcə xarici turizmə deyil, həm də daxili turizmə geniş yer verilir. Hər bir ölkədən turistlərin cəlb olunması üçün strategiya hazırlayan xüsusi şöbə vardır.

Rusiya üçün, məsələn, "Günəş və çimərlik" şüarı müəyyən olunmuşdur. Bütün broşürlər əvvəlcə ingilis dilində nəşr olunur, sonra isə digər dillərə çevrilir.

Naxçıvan haqqında o, belə deyirdi ki, əsasən, onun coğrafi mövqeyinə görə ildən-ilə bu regiona maraq artmaqdıdır. Naxçıvan hökuməti turizmin inkişafına hərtərəfli dəstək göstərir. Burada hər iş təfərrüatına qədər dəqiqdir. Turist daşıyan avtobusları polis müşayiət edir. Bələdçilər bir neçə dildə danışırlar. Turistlərin gəlişi ilə ziyarət proqramları da yenilənir. Bir sözlə, yerli hökumət hərtərəfli köməyini göstərir.

### Təsəvvürlər və reallıq

Naxçıvanı daha çox tanıdıqca biz başa düşdük ki, buradakı real mənzərələrin Rusiyadakı təsəvvürlərlə oxşarlığı yoxdu. "Qoparılmış region" çiçəklənən və memarlıq cəhətdən cazibədar bir yerdir. Bütün bunlar isə rəsmi Bakının mərkəzlə regionların sosial-iqtisadi inkişaf fərqinin azaldılmasına yönəldilmiş regional siyasətinə tam cavab verir. Bu problem isə Rusiyadakı ilə eyni olsa da, dövlətlərin gücü ilə müqayisədə bu, Azərbaycanda daha sürətli templə həll olunur. Azərbaycan hökuməti artıq çoxdan (demək olar ki, on il) regionların inkişafına xüsusi diqqət yetirir.

Naxçıvanın küçələri heyrətamiz dərəcədə təmizdir. Nə küçənin ortasına atılmış kağız, nə də siqaret kötüyü görmək mümkündür.

Yeni evlər vardır. Onlar boz-bulanıq doqquzmərtəbəli kibrit qutuları kimi deyil, yaşamağın ləzzətini bilənlərin gözünü oxşayan dərəcədə müasirdirlər. Yaşı yüzə çatmış köhnə evlər də vardır. Onların da fasadı yenilənir. Şəhərdə mədəniyyət xadimlərinin abidələri vardır. Yaxın keçmişdə muxtar respublikada ən yaxşı Doğum Mərkəzinin uca binası tikilmişdir. Bələdçi vurğuladı ki,



Doğum Mərkəzi təkcə xarici görünüşünə görə deyil, xidmətlərinə görə də Avropa standartları səviyyəsindədir.

Çoxlu muzey və tarixi yerləri olan şəhərdə Musiqili Dram Teatrı fəaliyyət göstərir.

İlk olaraq, biz Heydər Əliyev Muzeyini ziyarət etdik. Görkəmli siyasətçinin həyatını əks etdirən ekspozisiyalar, əsasən, fotoşəkillərdən, şəxsi əşyalardan, o cümlədən sənədlərdən ibarətdir. Daha sonra Xalça Muzeyi, Tarix Muzeyi və həmçinin "Şərqin Şekspri" adlandırılan Hüseyn Cavidin mavzoleyində olduq.

Günün sonunda biz Duzdağ Fizioterapiya Mərkəzinə baş çəkdik. Maraqlıdır ki, bu mərkəz birbaşa dağın içərisində yerləşir. Yaxşı işıqlandırılmış uzun tunellər açılmışdır. Ayaqlar altında daşduz vardır, dəhliz şaxələnərək kiçik otaqlara aparıb çıxarır. Burada çarpayılar, lampa, kiçik şkaflar vardır. Otaqlar bağlı olmur. Bizə izah etdilər ki, belə pansionatda qalmaq, təqribən, 30 manatadır. Bu, ayrıca otaq götürmək istəyənlər üçündür. Müalicə kursu 21 gün davam edir. Düzdür, burada imkanlı adamlar üçün kiçik çarpayılar və dolabçalarla təmin olunmuş geniş otaqlar da vardır. Bizim qrupdakıların bəzilərinin fikrincə, burada bir sutka və hətta 21 gün qalmaq heç də asan olmaz. Amma, sən demə, insanlar bura bir neçə saatlığa da gəlirlər.

### Təhsil işıqlı sabahdır

Turun yekununda qrupumuzda qızğın şəkildə gördüklərimizin müzakirəsi gedirdi. Kiməsə tarixi abidələr çox xoş gəlmiş, bir başqaları da səfərin sonunda baş çəkdiyimiz universiteti daha çox vurğulayırdı. Universitetdə 10-a yaxın fakültə, müasir laboratoriyalar vardır.

Azərbaycanda, ümumiyyətlə, təhsilə ciddi diqqət yetirilir. Respublikada Lomonosov adına Moskva Dövlət Universitetindən tutmuş Oksford və Yale universitetlərinə qədər dünyanın aparıcı universitetləri ilə əlaqələr yaradılıb.

Tələbələr dövlət tərəfindən haqqı ödənilərək xarici universitetlərə dövlət proqramı üzrə qəbul oluna bilirlər. Tək şərt ondan ibarətdir

ki, yeni məzun olmuş mütəxəssis öz vətəninə qayıdaraq minimum beş il işləməlidir. Lakin bu heç də ölkə daxilində ali təhsil sisteminin inkişafına mane olmur. Bu mənada Naxçıvan universiteti nümunəvi bir yerdir.

### Naxçıvana uçub gəlin

Qaldı iki il bundan əvvəl Moskvada keçirilmiş sərgidə "Naxçıvana uçub gəlin" adının təzələnməsinə.

Siz peşman olmazsınız: dağlar, gur sulu Araz çayı, orta əsrlərə aid daş abidələr, üçrəng çalarlı təpələr – bütün bunlar bizim düşündüyümüzdən daha cazibədardırlar.

***Nadana FRİDRİXSON,***
***"Qafqaz siyasəti" portalı (Rusiya),***
***24.10.2014***



## NAXÇIVAN: AZƏRBAYCANIN VƏTƏNPƏRVƏRLİK BEŞİYİ



4-5 oktyabr 2014-cü il tarixdə müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyevin vətəni olan Naxçıvan Muxtar Respublikasına səfər etmək mənim üçün böyük şərəf idi. Qədim tarixə malik olan bu şəhərin inkişafını sözlə təsvir etmək mümkün deyil. Çünki şəhər Azərbaycan tarixinin və vətənpərvərliyinin ürəyi hesab olunur.

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycanın qədim tarixi və zəngin arxeoloji mənbələrinin, mədəniyyətinin, qədim adət-ənənələrinin və tarixi humanizminin öyrəlməsi baxımından



mühüm yer hesab olunur. Əzəli türk torpağı olan Naxçıvan həm də bəşər sivilizasiyasının beşiyi sayılır. Burada qədim zamanlardan bəri yerli əhali təsərrüfatın müxtəlif sahələri ilə məşğul olmuş, Neolit dövründə incəsənətin müxtəlif sahələri inkişaf etdirilmişdir. Naxçıvan sözünün mənası çox qədimə dayanır. Araşdırmalar zamanı aydın olmuşdur ki, "Naxçıvan" sözü tarixin müxtəlif dövrlərində "Nuhçıxan", "Naksuana" və ya "Naxç", fars ədəbiyyatında isə "Nəxşicahan" kimi işlədilmişdir. Qədim türk mənbələrində isə Naxçıvan adı savadlı və müdrik millət mənasını verir.

5 min ildən artıq yaşı olan Naxçıvan Avropa və Asiya arasından keçən Böyük İpək Yolunun üzərində yerləşir. Marco Polo XIII əsrdə bu ərazidən keçmişdir. Naxçıvanda tunc və daş dövrlərinə aid tarixi yerlər vardır. Daşlara həkk olunmuş yeddi min illik rəsimlər mövcuddur. Zəngin mədəniyyətin olduğunu subut edən

qədim şəhər qalıqları bu günə qədər gəlib çatıb. Bütün bunlar Naxçıvanın insan cəmiyyətinin inkişafındakı rolunu bir daha sübut edir. Böyük İpək Yolu da daxil olmaqla mühüm ticarət marşrutları bu ərazidən keçdiyinə görə Naxçıvan əlverişli strateji mövqeyə malikdir. Naxçıvanda ticarətin çiçəklənməsi, mədəniyyətin və bu münbit torpaqlarda kənd təsərrüfatı məhsullarının yetişdirilməsi tarixən qonşu ölkələrin marağını cəlb etmişdir.

Naxçıvan minilliklər boyu digər dövlətlərin tərkibinə daxil edilmişdir. Lakin buna baxmayaraq qədim diyar inkişafdan kənarda qalmamışdır. 1747-ci ildən 1828-ci ilə qədər Naxçıvan müstəqil şəkildə idarə olunmuşdur. Sonralar Rus İmperiyasının nəzarətində olan Naxçıvan Sovet Rusiyasının iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında 1921-ci ilin 16 martında imzalanan Moskva və həmin ilin 13 oktyabrında imzalanan beynəlxalq Qars müqaviləsindən sonra Azərbaycanın ayrılmaz tərkib



hissəsi kimi təsdiq olunmuş və sərhədləri müəyyənləşdirilmişdi.

1905-ci ildə Naxçıvan Ermənistanla Azərbaycan arasında münaqişə mövzusu olmuşdu. 1917-ci ildə isə ermənilər Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etmişlər. Azərbaycan Demokratik Respublikasının yaranma ərəfəsində, 1917-ci il aprelin 15-də Bakıda Qafqaz Müsəlmanları konqresində federasiya yaratmaqla müsəlmanlara ərazi muxtariyyəti verilməsi ideyası irəli sürüldü. Həmin ilin yayında Naxçıvan ərazisində dövlət idarəretmə orqanları yaradılmışdır. 1918-ci ilin əvvəllərində erməni daşnak silahlı dəstələri Naxçıvanda böyük qırğınlar törətdilər. Bu vəziyyətdə Naxçıvan Milli Komitəsi yalnız Türkiyədən yardım ala bilərdi. Xəlil bəyin başçılığı ilə Türk ordusu kömək üçün Naxçıvana gəldi. 1918-ci ilin noyabrında burada Araz Türk Respublikası yaradıldı. 1 milyon əhalisi və təxminən 16 min kvadratkilometr ərazisi olan respublikanın paytaxtı Naxçıvan



şəhəri idi. Onun ərazisinə Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, habelə Sərdarabad , Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və digər rayonlar daxil idi. Lakin birinci Dünya müharibəsində Türkiyənin məğlub olması, Mudros sülh müqaviləsinin bağlanması Türk qoşunlarının Azərbaycan və Naxçıvandan çıxarılmasına səbəb oldu. Sovet İttifaqı dövründə isə İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Naxçıvan torpaqlarının qorunması üçün Moskva və Qars müqavilələri vacib idi. Sovet İttifaqı dövründə Naxçıvan ərazisinin bir hissəsi Ermənistana verildi və Türkiyə Respublikası ilə mədəni və siyasi əlaqələri tamamilə dayandırıldı.

Azərbaycan və onun ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikası müstəqillik üçün uzun müddət mübarizə apardı. 1990-cı ildə Naxçıvan SSR Ali Soveti SSRİ-dən çıxmaq qərarına gəldi. Əslində bu SSRİ-nin dağılmasının başlanğıcı idi. Həmin dövrdəki siyasi proseslər, Dağlıq Qarabağdakı uzun müddətli müharibə Naxçıvan iqtisadiyyatına mənfi təsir göstərmişdi. Bu zaman Naxçıvanın vəziyyəti ağır təhlükədə idi. Naxçıvanın daim Ermənistan tərəfindən işğal edilmə təhlükəsi var idi. 1990-cı il iyulun 22-də Azərbaycanın böyük lideri Heydər Əliyevin Moskvadan gəlişi Azərbaycanın ərazi bütövlüyü və doğulduğu Naxçıvan torpağının müdafiəsi üçün təminat oldu. Heydər Əliyev aktiv siyasətə qayıdaraq Naxçıvan və Azərbaycan parlamentinin üzvü, 1991-ci ilin sentyabr ayında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. Onun rəhbərliyi və qətiyyətli iradəsi sayəsində Naxçıvan parlamentinin tarixində ilk dəfə milli dövlətçiliyin bərpası yolunda mühüm addımlar atıldı. Üçrəngli bayraq qəbul edildi. Ermənistan tərəfindən blokadaya alındığına görə, əhalinin rifahı üçün Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının İran və Türkiyə ilə münasibətlərinin yaxşılaşdırılmasına böyük önəm verdi. 1992-ci ildə Naxçıvanla Türkiyə və İran arasında Arza çayı üzərində körpülər tikildi, Türkiyə, İran və Naxçıvan arasında strateji əməkdaşlığın yaradılması haqqında protokol imzalandı.

Azərbaycanın bu regionu tarixən müharibələrdən, ermənilərin

azərbaycanlı əhaliyə qarşı biokimyəvi silahlardan istifadə etdiyi uzunmüddətli silahlı münaqişə və təcavüzlərindən əziyyət çəkmişdir. Bu gün Naxçıvan Azərbaycan türklərinin vətənidir. Ermənistan tərəfindən blokadada olmasına baxmayaraq Naxçıvan dinamik inkişaf edir. Belə davam etsə, bu şəhər öz müasir memarlığı ilə Qafqazın meqapolisinə çevriləcək.

***Peter TASE,***
***"Eurasiahoy.com" xəbər portalı (ABŞ),***
***04.11.2014***



## NAXÇIVAN: AZƏRBAYCANIN QƏDİM TORPAĞI BARƏDƏ BİR NEÇƏ QEYD

Naxçıvan Muxtar Respublikası Kiçik Qafqazın qərb hissəsində, dəniz səviyyəsindən 600-1000 metr yüksəklikdə yerləşir. Naxçıvanın iqlimi, əsasən, kontinental və qurudur: qış fəsli soyuq, yay fəsli isə isti və quru keçir. Azərbaycanın əsas ərazisindən ayrı düşən Naxçıvan şimalından cənub istiqamətinə 246 kilometr Ermənistanla, cənubdan şərq istiqamətinə 204 kilometr İranla və cəmi 11 kilometr məsafədə Türkiyə ilə sərhəddir. İnkişaf dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasının əhalisi 430 min, ərazisi isə 5,5 min kvadratkilometrdir. Əsasən, dəniz səviyyəsindən 1500-2500 metr yüksəklikdə yerləşən Naxçıvanın bəzi ərazilərinin hündürlüyü 3000 metrdən artıqdır. Zəngəzur və Dərələyəz dağ silsilələri Naxçıvanı sərhəd boyu əhatə edir. Zəngəzur silsiləsinin ən yüksək zirvəsi 3904 metr yüksəklikdə yerləşən Qapıcıq dağıdır. Bu, Zaqafqaziyanın qeyri-vulkanik mənşəli ən yüksək dağıdır. Zəngəzur silsiləsinin cənub ətəyini Türkiyə, Ermənistan, Azərbaycan və İran ərazisindən keçən Araz çayı yuyur. Orta hündürlükdə yerləşən Talış dağlarının ən yüksək nöqtəsi sayılan Gömürgöy zirvəsi isə 2477 metrdir. Bu dağların şimal-şərqindəki yamacları Azərbaycan ərazisində yerləşir. Araz çayı Azərbaycan və İran arasında sərhəd olduğu üçün Talış yamacının digər hissəsi İran ərazisində qalır.



Azərbaycan Qara dənizdən Xəzər dənizinə qədər, təqribən, 800 kilometrlik məsafədə uzanan Qafqaz dağlarının cənub-şərq hissəsində yerləşir. Avropa və Asiyanın kəsişdiyi yerdə unikal coğrafi mövqeyi ilə seçilən bu ölkə dünya iqtisadi və mədəni əlaqələrinin inkişafına töhfə verir.

Naxçıvan Heydər Əliyevin anadan olduğu və vaxtilə rəhbərlik

etdiyi unikal regiondur. Dünyada bəşəriyyət tarixinə Azərbaycanın bu qədim diyarı qədər töhfələr verən oxşar bir yer tapmaq mümkün deyil. Burada tarixin bütün dövrlərində, xüsusilə XII əsrdə güclü dövlət olmuşdur. "Naxçıvan" sözü "Nuh Cahan" sözündən yaranıb və Nuh Peyğəmbərlə bağlıdır. Arxeoloji qazıntılar zamanı bu ərazidə müqəddəs kitablar olan "Qurani-Kərim"də və "İncil"də də təsvir olunan Dünya tufanının izləri aşkar olunmuşdur.

Azərbaycan ərazisinin yarısı dağlıq relyefdir. Şimal hissəsində Böyük Qafqaz dağları (ən yüksək zirvəsi Bazardüzü 4466 metr), cənub-qərb hissəsində Ermənistan və Gürcüstan istiqamətində uzanan Kiçik Qafqaz dağları, cənubunda isə Talış dağları yerləşir. Qafqaz və Orta Asiya regionuna aid olan coğrafi xüsusiyyətləri özündə yaşadan bu heyrətamiz ərazi rəngarəng və zəngin təbiətə malikdir.

1920-ci ildə bolşeviklər tərəfindən Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi nəticəsində Naxçıvan ərazisi Azərbaycanın əsas hissəsindən ayrı düşmüşdür. Sovet İttifaqı dövründə keçmiş Azərbaycan ərazisi olan Mehri dəhlizindən istifadə etməklə Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə dəmir yolu əlaqəsi olmuşdur. Lakin Sovet İttifaqı dağıldıqdan sonra erməni silahlı qüvvələri Azərbaycan ərazisinə hücum edərək 7 rayonu işğal etmiş və bu işğal nəticəsində muxtar respublika ilə dəmir yolu əlaqəsi kəsilmişdir. 1991-ci ildən bəri Ermənistanın tətbiq etdiyi blokada nəticəsində Naxçıvanın Azərbaycanla heç bir quru nəqliyyat əlaqəsi yoxdur. Azərbaycanın başqa regionlarına getmək üçün yeganə vasitə İran hava sahəsindən keçən təyyarə və ərazisindən keçən avtomobil yoludur. Hər gün Naxçıvandan Bakıya 6, həftədə bir dəfə isə Moskva və İstanbula təyyarə reysləri həyata keçirilir.

***Peter TASE,***
***"Foreign Policy News" portalı (ABŞ),***
***06.11.2014***



## ORDUBAD – GÖZƏL, UNUDULMAZ QƏDİM ŞƏHƏR

2014-cü il oktyabrın 5-də Azərbaycana ilk səfərim zamanı Naxçıvan Muxtar Respublikasının qədim Ordubad şəhərinə səfər etmək imkanım oldu. Naxçıvan vaxtilə Azərbaycanın Prezidenti olmuş Heydər Əliyevin doğulduğu yerdir. Heydər Əliyev Sovet İttifaqı dağıldıqdan sonra öz müstəqilliyini qazanan, bu gün iqtisadiyyatı sürətlə inkişaf edən, demokratik və müstəqil Azərbaycan dövlətinin banisidir.



Ordubad şəhərinin mərkəzinin gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılara buranın qədim mədəniyyətini tanıtmaq imkanı vardır. Ordubad şəhərində XVI əsrə aid olan bazarın yanında hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası yerləşir. Tarixən bu regionda 3 belə Qeysəriyyə binası olmuşdur. Digər iki Qeysəriyyə binaları Səmərqənd və Təbrizdədir. Ordubaddakı Qeysəriyyə binası 1990-cı ildən bəri Tarix Muzeyi kimi fəaliyyət göstərir.




Ordubad qədim tarixə, özünəməxsus adət-ənənələrə və milli xüsusiyyətlərə malik olan rayondur. Rayon Kiçik Qafqazın zirvəsi sayılan Qapıcıq dağının ətəyində yerləşir. Cəlbedici təbiət mənzərələrinə malik olan Ordubadın bir hissəsi dağətəyi, 5 faizi isə düzənlik ərazidir. Ordubadın həddindən artıq zəngin flora və faunası vardır. Yaşayış məntəqələri, əsasən, dağətəyi ərazidə yerləşir. Zəngin içməli su mənbələri

suvarma üçün də istifadə edilir. Ordubad cənub tərəfdən İran, şimal tərəfdən Ermənistanla, qərbdən isə Naxçıvanın Culfa rayonu ilə həmsərhəddir.

Şəhərin sərhədləri, hələlik, tam müəyyənləşdirilməyib. Bu ərazinin dünyadakı ən qədim insan məskəni olduğu güman edilir. Ordubad şəhərinin adına ilk dəfə V əsr yazılı mənbələrində rast gəlinib. Rayonda yerləşən Gəmiqaya dağında qədim dünyanın böyük panteonlarının olduğu güman edilir. Dağdakı petroqliflər və burada aşkar edilən insan yaşayış məskənləri onu deməyə əsas verir ki, qədim insanların məskən saldığı, mədəni inkişaf etdikləri Ordubadın tarixi bizim eradan əvvəl I-VII əsrlərə aiddir. İnsanların tarixən məskən saldığı bu yerlər, həmçinin buradakı qəbiristanlıqlar miladdan əvvəl II minilliyə aiddir. Belə ki, bu ərazidə Ordubad, Sabirkənd, Plovdağ və Xaraba Gilan adlandırılan qədim insan yaşayış məskənləri mövcuddur. Bununla yanaşı, rayon ərazisində əldə olunan tapıntılar bizə deməyə əsas verir ki, Ordubadın tarixi 7 min il əvvələ aiddir.

Ordubad təkcə özünün rəngarəng gözəllikləri ilə deyil, həm də yetirdiyi tanınmış şəxslər, incəsənət adamları və dünya şöhrətli alimləri ilə tanınır. Məşhur astronom-alim, riyaziyyatçı



və şair Nəsirəddin Tusinin davamçıları və qohumları hələ də Ordubadda yaşayır. Ordubad Yaxın Şərq və Şərqi Asiya ilə ticarət əlaqələri saxlayan mühüm ticarət marşrutlarının kəsişdiyi yerdə yerləşir. Ərazisində 40 növ üzüm yetişir. Ordubad ipəyi Venesiya, Marsel, Amsterdam va digər Avropa şəhərlərinə XVI əsrin ikinci yarısından başlayaraq ixrac edilmişdir. Ordubad ipəyi XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgilərdə 13 qızıl medala layiq görülmüşdür.



Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən nəslə ötürür. Ona görə də Ordubad öz quruluşu və tarixi-memarlıq abidələrinə görə qoruq elan olunmuş, 1977-ci ildə bəşəriyyətin xəzinəsi kimi tanınmışdır.

***Peter TASE,***
***"Eurasiahoy.com"***
***xəbər portalı N4 (ABŞ)***

## AZƏRBAYCAN: NAXÇIVAN MUXTAR RESPUBLİKASI 90 İLLİK YUBİLEYİNİ QEYD EDİR




Bu il beynəlxalq alim və arxeoloqlar tərəfindən bəşər sivilizasiyasının beşiyi sayılan Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələdir. 2014-cü il aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi qeyd olundu və silsilə tədbirlərin keçirilməsinə start verildi.

Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının eramızdan əvvəl IV əsrdən başlayaraq faciəli hadisələrlə dolu ağrılı tarixi vardır. Azərbaycanın bu ərazisinin sahəsi 5,5 min kvadratkilometr, əhalisinin sayı isə 435 min 400 nəfərdir. Ermənistan, İran və Türkiyə ilə həmsərhəddir. Naxçıvanı Azərbaycanın əsas hissəsindən Araz çayı boyunca uzanan və eni 44-45 kilometr olan ərazi ayırır.

Ermənistan tərəfindən Naxçıvanı Azərbaycanın şərq hissəsi ilə birləşdirən dəmir yolu koridorunun bağlanması nəticəsində Naxçıvan Azərbaycandan tam təcrid edilmişdir. Digər mühüm və ədalətsiz tarixi fakt isə Zəngəzur mahalının qanunsuz şəkildə 1920-ci ildə Sovet İttifaqının rəhbərləri tərəfindən Azərbaycandan alınaraq Ermənistana verilməsidir. XX əsrdə Ermənistan Silahlı Qüvvələrinin təşkil etdiyi etnik təmizləmə siyasətinə məruz qalan Zəngəzur tarixi xəritələrdə və mənbələrdə Azərbaycan ərazisi kimi göstərilir. Həmçinin bu dövrdə (1918-1920-ci ildə baş verən daşnak vəhşilikləri) Azərbaycanın kənd və şəhərlərində, xüsusilə Şuşa və Cəbrayılda erməni silahlı qüvvələri tərəfindən mülki əhaliyə qarşı zorakılıqlar törədilmiş və bunun nəticəsində əhalinin yaşayış şəraiti xeyli pisləşmişdir. Qana susamış erməni generalı Andranik Ozanyanın komandanlığı altında nizami erməni ordusu 1918-ci ilin oktyabrında etnik təmizləmə kampaniyasına başlayaraq yerli azərbaycanlı əhalidən ya ermənilərin nəzarəti altında yaşamağı, ya da öz əzəli torpaqlarını tərk etmələrini tələb etmişdir. Bu hadisələr bu gün eyni ilə İslam Döləti (İŞİD) ordu qruplaşmaları tərəfindən işğal olunan İraq şəhərlərində və Yaxın Şərqdə azlıq təşkil edən, öldürülməkdə olan xristian qruplara qarşı törədilir. Cəbrayıl və Şuşada çox kəndlər məhv edilmişdir və həmin kəndlərin torpaqları ermənilər tərəfindən alt-üst edilmişdir. 50 mindən çox müsəlman qaçqın vəziyyətinə düşümüş və Cəbrayıl rayonunun qonşu ərazilərində yerləşmiş, çoxlu sayda insan isə soyuq hava səbəbi ilə ölmüşdür. Zəngəzur rayonunda 115-dən çox kənd yandırılmış və tamamilə məhv edilmişdir.

Naxçıvanda 1162 tarixi-mədəniyyət abidəsi vardır. Onların 58-i dünya əhəmiyyətlidir və YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Qazançı qalası (b.e.ə III minillikdə inşa edilib), Əlincəqala (Əlincəçay sağ tərəfində yerləşir, III əsr), "Əshabi-Kəhf", Nuh türbəsi, Gəmiqaya rəsmləri, "Möminə xatın" türbəsi (XII əsr), Gülüstan türbəsi (XIII əsr) bu tarixi abidələrdən bəziləridir.

Naxçıvanın bugünkü ərazisi XVI əsrdə Səfəvi dövlətinin bir hissəsi olmuşdur. 1828-ci ildə - son Rusiya-İran müharibəsi və Türkmənçay müqaviləsindən sonra Naxçıvan xanlığı Rusiya imperiyasının nəzarəti altına keçmişdir. Rusiya imperiyasının süqutundan sonra Naxçıvan Azərbaycan Xalq Cümhuriyyətinin bir hissəsi olmuş və bu hökumətin müstəqilliyi 23 ay sürmüşdür.

I Dünya müharibəsi başa çatdıqdan sonra, Rusiya bolşevik inqilabı rəhbərləri erməni içğalçılarının "Böyük Ermənistan" iddialarının gerçəkləşdirilməsinə şərait yaratdılar. Nəticədə erməni təcavüzkarları maksimum ərazi üstünlükləri üçün hərəkətə keçdilər. Yerevan yaranan şəraitdən istifadə edərək qonşu ölkələrin, xüsusilə Azərbaycan torpaqlarının işğalına başladı. Erməni Silahlı Qüvvələrinin əsas niyyətlərindən biri Naxçıvanı işğal etmək idi. 1918-1920-ci illərdə xarici işğalçılar Naxçıvana nəzarət edirdi. Andranikin

rəhbərliyi altında erməni silahlı dəstələri dəfələrlə Naxçıvan torpağını işğal etməyə cəhd etdilər. Naxçıvan əhalisinin cəsarətli müqaviməti və Türkiyənin böyük dəstəyi sayəsində erməni işğalçıları Naxçıvanı işğal edə bilmədilər.

Bu gün Naxçıvan Qərbi Avropa ölkələri kimi inkişaf edən bir regiondur və müasir infrastruktura malikdir. Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin adını daşıyan müasir teatr binası xüsusi memarlıq üslubu və akustik imkanlarına görə Qafqaz regionunda ən gözəl binalardan biridir. Cəlil Məmmədquluzadənin adı bütün Naxçıvan əhalisinin ürəyində vətənpərvər bir insan kimi yaşayır. Naxçıvanda anadan olan ədib ana dilinin saflığı və bütövlüyü uğrunda fəal mübarizə aparmışdır. O, 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş və bundan sonra 10 il müddətində Baş Noraşen, Uluxanlı, Nehrəm və İrəvan Quberniyasının digər şəhər və kəndlərində müəllim işləmişdir. Cəlil Məmmədquluzadə öz müasirlərini Azərbaycan dilinin lüğət tərkibinə daxil olmayan, anlaşılmaz Rus, Fars və Osmanlı Türkcəsinə aid sözlərdən istifadə etdiklərinə görə tənqid etmişdir. Həmçinin o, Azərbaycan əlifbasının hazırlanması prosesində fəal iştirak etmişdir. 1898-ci ildə, o, İrəvana, 1903-ci ildə isə Tiflisə köçüb və orada Azərbaycan dilində nəşr olunan “Şərqi-rus” qəzetində işləyib. 1906-cı ildə Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” satirik jurnalını təsis edib. Lakin Qafqazda tez-tez baş verən hərbi münaqişələr və mövcud siyasi mühit onu Təbrizə köçməyə vadar edib. Cəlil Məmmədquluzadə burada da “Molla Nəsrəddin” jurnalının nəşrinə başladı və baş redaktor kimi fəaliyyətini davam etdirdi. 1921-ci ildə isə Mirzə Cəlil Bakıya köçdü.

Naxçıvan tarixi üçün əhəmiyyətli olan yubiley ilində bu teatr binasında Naxçıvanın folkloru və zəngin mədəniyyətini nümayiş etdirən müxtəlif tədbirlər keçirilir, Azərbaycanın vətənpərvərlik beşiyi olan bu qədim torpaq dünyaya təqdim olunur.

***Peter TASE,***
***“Diogen pro” jurnalı (Bosniya-Hersoqovina),***
***19.11.2014***



## NAXÇIVAN HAQQINDA QISA TƏQDİMAT






Tarixi mənbələr təsdiq edir ki, Azərbaycan torpağı olan Naxçıvanın ərazisi dünyanın ən qədim sivilizasiya və mədəniyyət mərkəzlərindən biridir. Azərbaycan xalqı Naxçıvanda qədim və zəngin mədəniyyət yaratmışdır. Bu gün də bu ənənə davam etdirilir. Azərbaycan xalqının milli tarixinin, elmi və zəngin mədəni irsinin formalaşmasında Naxçıvan mühüm rol oynamışdır.

“Naxçıvan” sözünün öz mənbəyi vardır. Tarixi mənbələrə görə, “Naxçıvan” adı “Nəqşi-cahan” sözündən yaranıb və mənası “Dünyanın bəzəyi” deməkdir. Həmçinin yerli əhali arasında geniş yayılmış əfsanə və rəvayətlərə görə, “Naxçıvan” sözünün Nuh Peyğəmbərlə dərin bağlılığı vardır. Bu söz “Dünya tufanı” ilə də əlaqələndirilir və “Nuhun torpağı” mənasını verən “Nuhçıxan” sözündən yarandığı ehtimal olunur. Bu mənada Nuh Peyğəmbərin qəbrinin Naxçıvanda olduğunu qeyd etmək yerinə düşər. “Naxçıvan” sözü tarixi mənbələrdə “Naksuana” kimi də göstərilmişdir ki, bu da “Möcüzəli gözəl sular”, yaxud “Müalicəvi mineral sular” mənasını verir.

1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, Naxçıvan Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvanın 440 mindən çox əhalisi, özünün Konstitusiyası, Ali Məclisi, Nazirlər Kabineti və Ali Məhkəməsi vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi 45 deputatdan ibarətdir. Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın

Ali vəzifəli şəxsidir. Ali Məclisin Sədri Vasif Yusif oğlu Talıbov Azərbaycan və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarında təsbit olunmuş normalara uyğun olaraq fərman və sərəncamlar imzalayır.

Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Naxçıvan Muxtar Respublikasının da dövlət atributlarıdır. Naxçıvan Muxtar Respublikasının idarəetmə sistemi Azərbaycan Respublikasının idarəetmə sistemi ilə eynidir. Şəhər və rayonların ərazi vahidlərinə İcra hakimiyyətlərinin başçıları rəhbərlik edir. İcra hakimiyyətlərinin başçıları vəzifəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur.

Son illər Naxçıvan Muxtar Respublikasının kənd və şəhərlərində yüzlərlə müasir orta məktəb binaları, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Özəl Universiteti, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi üçün yeni binalar tikilmiş, 6 elmi-tədqiqat institutu fəaliyyətə başlamışdır. Bundan əlavə, Naxçıvanın bütün yaşayış məntəqələrində mədəniyyət, təhsil və idman obyektləri, eləcə də inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, siyasi, ictimai və mədəni proseslərdə əhəmiyyətli irəliləyişlər əldə olunur. Qonşu İran İslam Respublikası və Türkiyə Respublikası ilə qarşılıqlı əlaqələr qurulmuş, iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahələrində münasibətlər genişlənmişdir.

Naxçıvanın tarixi mədəniyyət abidələri – Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu türbələri, "Xan evi", "Buzxana", "İmamzadə", "Xanəgah" abidə kompleksi, İsmayılxan hamamı və digər tarixi abidələri əsaslı təmir edilmişdir. Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Məmməd Səid Ordubadi və Cəlil Məmmədquluzadənin ev-muzeyləri yenidən qurulmuşdur. Eyni zamanda Bəhruz Kəngərlinin adı əbədiləşdirilmiş və onun ev-muzeyi yaradılmışdır. Görkəmli maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 və 160 illik yubileyləri qeyd olunmuş, əsərləri nəşr edilmiş, onun irsinin öyrənilməsi ilə bağlı konfranslar keçirilmişdir.



2006-cı ilin iyununda Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən elmi simpozium təşkil olunmuşdur. Simpoziumda Türkiyə və İran alimləri də iştirak etmiş, 50-dən çox elmi məqalə təqdim olunmuşdur. Bundan əvvəl isə 2000-ci il 14-16 sentyabr tarixlərində "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri və onlardan səmərəli istifadə edilməsi" adlı Beynəlxalq Simpozium keçirilmişdir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun iştirakı ilə 1996-cı ilin sentyabr ayında "Uluslararası qaynaqlarda Naxçıvan" adlı Beynəlxalq Simpozium da keçirilmişdir. Bu tədbirlərdən sonra xarici ölkələrdən olan alimlər Naxçıvan tarixinin öyrənilməsinə başlamışlar. Bu da Naxçıvanla bağlı erməni millətçilərinin əsassız ərazi iddialarına tutarlı cavab olmuşdur.

Cənab Vasif Talıbovun milli tarixi öyrənmək üçün başqa bir təşəbbüsü kimi isə 26 aprel 2001-ci ildə Tarixi Etnoqrafik Abidələr Kompleksi – Gəmiqayanın öyrənilməsi ilə bağlı imzaladığı xüsusi Sərəncamını göstərmək olar. Bu fəaliyyətlər bir daha sübut edir ki, Naxçıvan erkən qədim dövrdən Azərbaycanın ayrılmaz bir hissəsi olmuş və Azərbaycan xalqına aiddir. Bu fərmanlar sayəsində hər il Gəmiqayada arxeoloji və etnoqrafik ekspedisiyalar təşkil olunmaqdadır.

***Peter TASE,***
***"Foreign Policy News" portalı (ABŞ),***
***19.12.2014,***

***"Eurasiahoy.com" informasiya portalı (ABŞ),***
***20.12.2014***

## NUHUN GƏMİSİ HARAYACAN ÜZÜBMÜŞ?



Naxçıvan Muxtar Respublikasının başçısı Vasif Talıbovun "Nuh-2005" ekspedisiyasına dəvəti mənə əvvəlcə təsadüfən edilmiş təklif kimi görünürdü. Təklif cəlbedici, amma bir az darıxdırıcı təsiri bağışlayırdı: bu, nağıllardakı uçan xalça və yaxud sehrli çəkmənin izlərini axtarmağa yollanmaq deyilmi? Bir də axı Nuhun izlərinin çoxdan Ermənistanda tapıldığı iddia olunursa, daha Azərbaycanda nə tapa bilərsən?

Çoxları kimi mənim də şüurumda Nuh Peyğəmbərin adı Ağrı dağı ilə bağlıdır. Guya gəminin qalıqlarını orada tapıblar, deyilənə görə, bir fraqmenti isə erməni kilsəsində müqəddəs bir şey kimi qorunub saxlanılmaqdadır. Bəzi çılğın adamlar hətta ictimaiyyəti az qala inandırıblar ki, Nuh... ermənidir. Siyasətə qoşulmaq istəmədiyimdən mən təklifdən imtina etdim.

Amma xeyli düşünüb-daşınandan sonra fikrimi dəyişməli oldum. Əfsanə elə əfsanədir, amma bu qədər yaşaya bilirsə, deməli, onda nəsə vardır. Aydındır ki, İncil və Qurana da daxil olmuş Nuh tufanı əfsanəsi özündə çox mühüm, sirli, bizim üçün əlçatmaz görünən informasiyalar daşıyır. Əfsanənin kökü, mənbəyi unudulsa da, obrazları yaşamaqdadır, deməli, onları zaman adlı kitabın səhifələrindəki hərflər kimi oxumaq olar!.. Məndə mövzuya maraq getdikcə artırdı.

Doğrudan da, əfsanənin naturalist reallığına yalnız uşaq inanar. Yerin bütün quru hissəsini basmaq üçün o qədər su haradandır? Və yaxud, sonra bu su necə oldu? Əgər hər şey, qida suyun altında qalmışdırsa, Nuh "hər şeydən bir cütü" necə əldə etmiş və onlara nə yedirtmişdir? Suallar bir-birindən doğur. Bir sözlə, mən birdən hiss etdim ki, Naxçıvanın liderinin təklifini qəbul etməyə bilmərəm, ancaq bir şərtlə, siyasətdən kənar olmaqla. Mənə hər cür imkanlar vəd olunurdu.



* * *



Məlum olur ki, öncə kitablarımla tanış olmuş naxçıvanlılar Nuh tufanı əfsanəsini uzun illər araşdırdığıma bələd olduqlarından Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti tərəfindən təşkil olunmuş ekspedisiyaya dəvət edilmişəm. Bir sözlə, geriyə çəkilməyə haqqım olmadığından təyyarəyə bilet almağa getdim.

Naxçıvan qeyri-adi şəhərdir, tam mənası ilə tarixi yaşadan şəhərdir, keçmiş sanki ona hopmuşdur. Bu, hər an gözə çarpır. Nuhun adı isə açıq-aşkar qabarır. Amma onu, necə deyərlər, görməyi qadağan etmişdilər: iki əsrə qədər, 1813-cü ildən bəri Azərbaycanın elmi fikrini istiqamətləndirən Moskvanın göstərişləri belə imiş. Demək kifayətdir ki, şəhərin adı "Nuh sığınacağı" və yaxud "Nuh çıxan" kimi səslənir. Toponimin ən azı iki min beş yüz ildən artıq yaşı vardır, insanlar isə bu yerlərdə daha qədimdən – üç min beş yüz il əvvəl məskən salmışlar. Sovet dövrünə qədər burada Nuhun məzarı bütöv bir panteon olub. Onu əsrlər ərzində milyonlarla insan ziyarət edib. Amma "keçmişin qalıqları" ilə – insan və abidələrlə mübarizə aparan Moskva onu da dağıdıb. İndi həmin məzardan kommunist terrorundan salamat çıxa bilmiş şəkillər xəbər verir. İnsanlar isə bu məzarı yaxşı xatırlamırlar, çünki tarixi yalnız məktəb proqramı predmeti və yaxud siyasət obyekti sayan nəsillər yetişdirilibdir. Bax, beləcə...

Qədim yunan alimi Klavdi Ptolomey Naxçıvanı (Nuksuanı) adına Şərqdə Noy və yaxud Nuh deyilən Peyğəmbərin məskəni kimi xatırladır. Rəvayətə görə, Nuh bu yerlərdə qalıb yaşamış,



indiyə kimi bu şəhərə şöhrət gətirən duz mədənlərini də aşkarlamışdır. Ətrafdakı dağın (Nəhəcir) və kəndin (Nehrəm) adı da (buradakı kurqanlarda Nuhun sonrakı nəsilləri dəfn olunmuşdur) peyğəmbərin adına işarə edir. Orada Gəmiqaya adlı dağ vardır ki, Nuhun gəmisi ona "yan alıbmış"... Bütün bu məlumatlar çox maraq kəsb edir, lakin Naxçıvandan o yana heç kimə bəlli deyil.

Kimin üçünsə bunları gizlətmək lazımmış ki, Nuh əfsanəsinə indi özgə, fərqli bir baxış bərqərar olsun.

Amma zaman dəyişilmiş, Azərbaycan müstəqil dövlət olmuşdur. Onun üçün özü barəsində həqiqəti bilmək iqtisadi çiçəklənmədən daha mühüm əhəmiyyət kəsb etməkdədir. Çünki xalqın yaddaşı oyanır, dünya birliyinə qovuşan gənc bir dövlət ruhən yenidən doğulur. Müstəqilliyin şərtlərindən biri də budur ki, azad insanların tərcümeyi-halları kimsə tərəfindən qondarılmış deyil, doğru-düzgün olmalıdır. Azərbaycanda tarix ideoloji resursa çevrilməkdədir, o isə neftdən də, dünyanın bütün zinətlərindən də qiymətlidir – əslində, azadlıq elə budur. İndiki hakimiyyətin keçmişə marağını mən elə bununla da izah edərdim. Ölkə özünü anlamaqdadır! Deməli, onun gələcəyi olacaq!

* * *

Naxçıvan torpağının məndə yaratdığı təəssüratları qələmə almayacağam – bu, zamana ehtiyacı olan məsələdir. Ekspedisiyanın, onun yekunlarının oyatdığı hisslərin səngiməsini gözləmək lazım gəlir. Təəssüratlar, necə deyərlər, oturuşmalıdır. Qismət olsa, nə vaxtsa bu barədə kitab yazacağam. İndi isə, "isti-isti" qeyd edim ki, mülayim Moskva yayından sonra Naxçıvanın qızmar havası



kimi, ekspedisiyanın gedişi də ürəyimcə deyildi: çöl həyatına alışmaq, kolleqalarla daha yaxından tanış olmaq lazım gəlirdi ki, bu da yaşlaşdıqca çətin olur. Çünki kolleqalarımdan kimlərsə erməni arxeoloqları kimi maddi tapıntıları hədəfə almışdılar, onlar isə, əslində, olmamalıdır. Gəminin qalıqlarını tapmaq olmaz, çünki, həqiqətən də, o, mövcud olmuşsa da, minilliklər ərzində çoxdan çürüyüb gedibdir. Xatırlatmalı oldum ki, biz Nuh tufanının izlərini, mifik gəminin qalıqlarını axtarmağa getmirik. Nuh bizim üçün öncə türk tarixinin bir səhifəsi kimi maraqlıdır. Məhz türk tarixinin! Çünki dünya tufanı haqqında əfsanə öncə Qədim Altayda yaranıbdır, oradan isə dünyaya yayılıb, əvvəlcə Şimali Hindistana, sonralar Orta və Yaxın Şərqə, Zaqafqaziyaya gəlib çıxıb.

* * *

Əfsanənin Altay kökləri haqqında XIX əsrdə burada zorla xristianlaşdırmanı həyata keçirmiş rus din xadimləri S.Landışev və V.Verbitski məlumat vermişlər. Yalnız ehtimal etmək olar ki, onlar "vəhşi" saydıqları aborigenlərdən ümumdünya tufanı, planetin yaranışı, əbədi insan ruhu haqqında eşitdikdə necə də təəccüblənibləmiş. Altay türkləri İncil və Quranın, bələd olmadıqları bu kitabların süjetlərini inamla nağıl edirmişlər – çünki onlar həm xristianlıq, həm də islamdan öncə yaranmış bir dinə sitayiş edirmişlər. O, qədim türk dini idi, bəşəriyyət Səmavi Allahın obrazının dərkinə onunla başlamışdır! Tenqriyə (əbədi Mavi Səmaya) inamla.

V.İ.Verbitskinin "Altaydakı yabançı xalqlar" kitabında mən tufan əfsanəsinin, ola bilər ki, ən qədim mətninin təhkiyəsini oxumuşam. Bundan başqa, yeni eradan əvvəl birinci minillikdə Böyük Köçə başlamış türk ordalarının gəlib çıxdığı Qədim Hindistanın əfsanələri də tufandan bəhs edir... Nuh marşrutu qədim türklərin, onların mədəniyyətinin miqrasiya yollarıdır, deyilmi?

Gözlənilməz səslənsə də, əfsanə Xalqların Böyük Köçü və Tenqri dininin, yəni Səmavi Allaha inancın yayılması ilə bağlıdır. Nuh insanların ilki olaraq təkallahlığı qəbul etmiş, yəni türk olmuşdur. Onun əməllərinin ölməzliyinin səbəbi bundadır. Deməli,

"türk" onda hələ etnik deyil, mədəni, daha dəqiqi, mənəvi termin idi. Mənim fikrimcə, əfsanənin mənası da elə bundadır. Bu isə onun məhz Altay variantında daha aydın sezilir.

Bilirdim ki, Tenqri dininin qəbul edilməsi qədim türklərdə arı-alkın adlanan suyasalma mərasimi ilə müşayiət olunurdu. Bu mərasim türklərin ulu vətəni sayılan Sibirin bəzi kəndlərində indiyədək unudulmayıbdır. Yeri gəlmişkən, xaç suyuna salma sonralar xiristianlığa keçmişdir. Müsəlmanlarda isə yuyunma (dəstəmaz alma) adəti mövcuddur. Onlar Tenqri dininin qayda-qanunlarını xristianlar kimi özlərinə məxsus şəkildə orta əsrlərdə İslama gətirərək inkişaf etdirmişlər... Göründüyü kimi, heç nə izsiz ötüb keçmir, mədəniyyət yox olmur, yeni formalar, yeni ənənələr şəklində inkişaf edir ki, bu barədə də mən öz kitablarımda yazmışam.

Səmavi Allah inancını qəbul edən büt dünyasının suya batmasını (salınmasını) ümumdünya tufanı rəmzləşdirir.

Bu, dərin fəlsəfi məna kəsb edən aşkar ədəbi obrazdır ki, türk tarixinə bələd olmadan onu dərk etmək mümkün deyil. Heç olmasa Ararat dağının türk adı Ağrını götürək: o çox mətləblərdən xəbər verir. Bu ad (Ağrı dağı) qədim arı-alkın (arıq-alkın) mərasimi haqqında yaddaşı oyadır. Qədim türk dilində "arıq", "saf", "müqəddəs", "pak" demək idi. Məhz buna görə də türk xalq eposunda bu qeyri-adi dağ haqqında nə qədər əfsanə mövcuddur.

Qafqazın arxası dünyada Nuh Peyğəmbərin "olduğu" yeganə məkan deyil. Bunun isbatı isə, əlbəttə, yalnız toponimika və xalq eposu ilə məhdudlaşmır...

* * *

Gəmi və onun yan aldığı dağ haqqında mülahizə, yəqin ki, elə Nuh yaşayarkən başlayıb. Biz mübahisə və təkzib həvəskarları olan türklər elə beləyik. Misal üçün, cənubi altaylılar mənə Çemala çayı yaxınlığında oxşar adlı dağı göstərib deyirlər ki, guya gəminin qalıqları orada ilişib qalıb. Şimali altaylılar təsdiqləyirlər ki, xeyr, gəmi onlarda, Uludağın qarlı zirvəsindədir, orada onun nəhəng mıx qalıqlarını götürüblər (əlbəttə ki, təxəyyülün gözlərilə!) Qazaxların hadisəyə dair öz versiyaları, xakasların öz versiyaları... mövcuddur. Burada nə demək olar? Tanış mənzərədir. Zaqafqaziyadakı kimi. Məsələnin mahiyyətini bilmədən, biz qızğın mübahisəyə girməyi xoşlayırıq. Özü də səsimiz tutulana kimi mübahisə edirik.

Götürək, məsələn, gəmi əhlini, nə üçün də mübahisə predmeti olmasın. Kimlər üçünsə bu, sadəcə, heyvanlardır, mənim üçünsə türk tayfalarının totemləridir: axı qədimdə bizim tayfaların hər birinin heyvan obrazında hifz edəni olmuşdur. Əfsanənin Altay variantından məhz məlum olur: Nuh göyərtəyə "öz ailəsi və dostları ilə daxil olmuş", sonra onlara heyvanlar "təşrif buyurmuşlar". Bəs hansı heyvanlardır? O heyvanlar ki, onlar totem bayraqlarında əks olunurdu. Orada fillər, ağ ayılar və ya begemotlar yox idi, orada yalnız "öz" heyvan və quşları var idi.

Əlbəttə, yeni inancın qəbul olunması – haralara gedib çıxacağı bəlli olmayan halda coşub-daşan okeanda üzməyə bənzər risqli bir addım idi. Risq isə heç də hamının ürəyincə deyildi. Allahdan ilk imtina edən quzğun oldu, Nuh onu gəmidən buraxdı və o, cəmdək dalınca uçub getdi. Gəmini sonra isə qarğa və qəcələ tərk edərək əvvəli həyatlarına qayıtmağı üstün tutdular. Nuha öz sədaqətini ilk göstərən göyərçin oldu. Görünür, o, indiyəcən türklərin ehtiramını buna görə daşımaqdadır ki, Nuh ona belə buyurmuşdur: "Sən mənim sədaqətli quşumsan, sənə axıracan mənim nəsillərimlə birlikdə yaşamaq xeyir-duasını verirəm"... Əvvəllər heç zaman mən başa düşmürdüm ki, nə üçün uçan göyərçin dəstəsindən səma canlanır, niyə fərəhdən sanki ürək sancır, sən demə, hər şeyin səbəbi varmış, hətta yaddaşı canlandıran fərəh hisslərinin də.

Daha bir xırda misalı qeyd etməmək olmaz. Əfsanəvi "üzməndən"

sonra (yəni arı-alkın mərasimindən sonra) Nuh öz adını dəyişir, onu Yayacı-xan (və yaxud Yaradan-xan) deyə çağırırlar. Oğulları da öz büt adlarını nəcib adlarla əvəz edirlər: Soozunuulu Taulye, Sar-uulu-Şaulye və Valıke-Tuple olur. İndi onların adları da, inancları da türkləşir. Tarixdə ilk dəfə olaraq! Yeri düşmüşkən, Naxçıvanda, Nuh kəndi (Nehrəm) yaxınlığında qalmış məzarlar onların deyilmi?

O zaman türk məişəti çoxlu yeni ştrixlər əxz etdi, çoxlu yeni ənənələrin əsası qoyuldu. Məsələn, Nuh insanın ölümündən sonra qırxıncı günü qeyd etməyi əmr etmişdi, çünki Nuhun özünün "üzməsi" qırx gün çəkmişdi. Özgə dünyaya yolun müddəti belə imiş! İnsanlar yaşayış yerlərini təmizləməli, mərhumun yatağına xoruz bağlamalı imişlər. Elə o vaxtdan xoruzları fəda edərmişlər və nadir hallarda ondan qida kimi istifadə edərmişlər... Və yaxud əvvəl belə bir inanc var idi ki, ölü özü ilə ev heyvanlarını da o dünyaya aparır. Bir daha belə bir bədbəxtliyin olmaması üçün, Nuh yazda ona ağ qoçun qurban kəsilməsini, həm də ən hündür dağda kəsilməsini əmr edir... İslamın qəbul edilməsi ilə bu ənənə, məlum olduğu kimi, unudulmadı, amma özgə, İslama uyğun məzmun kəsb etdi.

* * *

Belə ki, ekspedisiyamızın marşrutu Gəmiqaya dağına istiqamətlənməsi təsadüfi deyildi. Bu dağ Kiçik Qafqazda ən yüksək dağdır, onun hündürlüyü dörd min metrə yaxındır, məhz burada, zənnimcə, qədim türklərin Zaqafqaziyadakı izlərini axtarmaq lazımdır. Onların məskunluğunun sirli nişanələri buradadır.

Doğrudur, türkoloqa çox mətləbləri anlada biləcək dağ Azərbaycanın Ermənistanla indiki sərhədləri yaxınlığında yerləşir. Hərbi şəraitin narahatçılığına görə orada ayıq-sayıq olmalısan. Ekspedisiyamız elə-belə adi ekspedisiyalardan deyildi. Məsələ təkcə ən hündür dağa dırmanmaqdan, yaddaşın yadigarlarını axtarmaqdan ibarət deyildi: qarşı yamacda gizlənmiş snayperin hədəfinə çevrilməmək heç də az əhəmiyyət kəsb etmirdi. Müharibədə özünü, necə deyərlər, elə müharibədəki kimi aparmalısan.



Təbii ki, Gəmiqaya dağı ekspedisiyanı, ilk növbədə, ona görə maraqlandırırdı ki, xalq inancına əsasən, Nuhun gəmisi məhz ona "yan almış imiş". Bu qədim fikir sağlam düşüncəyə zidd deyil, əksinə, ona uyğundur. Orada, dağda, həmin Nuh əyyamında daş üzərində qazılmış təsvirlər qalmaqdadır ki, onlar da yaxın vaxtlardan alimlərin tədqiqat predmetinə çevrilmişlər. Sovet dövründə onları "görmürlərmiş", halbuki süjetlərə sübut, dəlil lazım deyil.

Amma mən təsvirləri deyil, vişap adlanan qoç, balıq, ilanların iri daş heykəllərinə diqqəti yönəldərdim. Mən onlara dağda deyil, Naxçıvanın özündə rast gəldim. Bu cür heykəllərə arxeoloqlar yalnız qədim türklərin yaşayış məskənlərində rast gəlmişlər, onları Altayda, Xakasiyada çox görmüşlər. Bu bənzərsiz, bir az da kobud görkəmli heykəl-nişanələri ulu babalarımız "başapa" adlandırarmışlar. "Başapa" isə müasir dilə tərcümədə "əzəl" deməkdir, daha doğrusu, "əzəlin atası", "mənbənin atası" və yaxud "hər şeyin atası".

O, yeni torpaqların ayırıcı işarəsidir. Axı qoç türk üçün bolluq və firavanlığın rəmzi sayılırdı, ulu babamız məhz bu heyvanı əhliləşdirmişdi. Daş qoçların yan üzlərində totem nişanəsi – tamqaları (damğaları) asanlıqla seçmək olur, onlar müxtəlif və eyni cürdürlər, sanki bir əldən çıxıb, eyni qaydalar üzrə düzəldilibdir. Digər xalqlar öz torpaqlarını bu cür orijinal heykəllərlə nişanlamırdılar, onlarda, sadəcə, mərmərdən belə möcüzə yarada bilən alətlər olmayıbdır.

Bununla belə, Zaqafqaz vişapları Altaydakılardan formaca deyil, tarixləri ilə fərqlənirlər. Onların Orta Şərqdə (Zaqafqaziya da bura aiddir) meydana çıxması çar Aci-Dahakin adı ilə bağlıdır: məhz o, belə heykəlləri yaratmağı əmr edibmiş. O, təzə torpaqları bölürmüş! Məhz buradan Gəmiqaya təsvirlərində daha bir əfsanəvi obraz –

ilan, əjdaha obrazı meydana çıxır. O həm vişaplarda, həm də qayalarda mövcuddur. Əfsanədə deyildiyi kimi, yeddi ildə bir dəfə, burada, zirvədə sabantuy keçirilər, insanlar toplaşarmış ki, onlara da ilan obrazında zühur edən bu yadelli çar himayədarlıq edərmiş.

Həm də məlumdur ki, qədim Altayda ilan türklərin ulu atası sayılarmış, insanlar ona xüsusi hörmət və ehtiram göstərərmişlər: ulular üçün o, ocağın, elin nişanəsi imiş... Əfsuslar ki, naxçıvanlılar bunları çoxdan unudublar.

* * *

Mən dəhşətlə belə əhvalat eşitdim ki, hansısa başabəla alimlər vişapanın içində guya qızıl gizlədilməsi şayiəsini yaymışlar. Asan qazanc əldə etməyə girişmiş bəzi insanlar bu nadir abidələri axtarıb tapır və sındırırlarmış. Bu yalan kimə sərfəlidir? Mən deyə bilmərəm, amma keçmişimizi öz nadanlıq girdabımızda məhz belə itirmişik: insanlar özlərini ana bilmədikdə, onları istənilən mənasız şeylərə sövq etmək asan olur. Türk düşmənləri də bundan yararlanırlar.

Bax buna görə də indi dağlarda vişapa rast gəlməzsən. O, nadir bir şeyə çevrilib. Naxçıvanın hakim dairələri şəhərin mərkəzini açıq səma altında məxsusi olaraq muzey yaradıblar ki, müasir barbarlardan bu qiymətsiz yadigarları qoruyub saxlasınlar; bunun digər üsulu yoxdur. Salamat qalmış heykəlləri diyarın ən ucqar guşələrindən daşıyıb buraya gətirmişlər. Yaradana şükürlər olsun ki, nə isə salamat qala bilib.

Biz dağa "vezdexod" adlanan avtomaşınlarla qalxırdıq. Yollar Alp çəmənliklərində qurtardığından orada düşərgə salmalı və yolumuza yayda dağ yüksəkliyinə məxsus rayihəni uda-uda piyada davam etməli olduq. Təbiəti çox sərt, amma safdan saf olan bu yerlərdə yay üç-dörd həftə çəkir, hətta iyulda da qar yağa bilər. Əslində, qar burada həmişə olur, ən qızmar günlərdə belə, dar



dərələrin qarı əriyib getmir. Amma ucsuz-bucaqsız çiçəkliklər, ağlasığmaz ətriyyat və rənglər çələnginə düşür, füsunkar yüksəklik, ovsunlayıcı gözəlliyin şahidi olursan.

Elə ilk qayaüstü təsvirləri görən kimi mən onu anladım ki, bu bazalt qaya parçaları ulularımızın bizlərə müraciətlərini hifz etmişdir. Etiraf edim ki, məni qəflətən bürüyən xoşbəxtlik hissindən hətta səksəndim. Qarşımızda daşda həkk olunmuş.Zaman dayanıb durmuşdu. Əlbəttə, belə şeyləri mən ilk dəfə deyildi ki, görürdüm: eyni ilə belə təsvirlər Altay, Xakasiya, Yakutiya, Qazaxıstanın qaya daşlarında da qalmaqdadır. Onlardan hər birinin qarşısında beləcə, uşaq kimi tilsimlənmiş halda donub qalmışam – axı qədim sənət qalereyalarında sakitcə qalmaq çətindir. İki min beş yüz il bundan əvvəl Gəmiqayaya qalxmış sənətkarlar maral, dağ keçisi, ilan, ov səhnələri, məişət səhnələri təsvir etmiş, bizə hələlik tam aydın olmayan bir sıra ritual rəmzlər qoyub getmişlər. Min beş yüzə qədər təsvir Azərbaycan alimləri tərəfindən araşdırılmış, onlar haqqında məqalə və monoqrafiyalar çap edilmişdir. Doğrusu, onların heç birində Gəmiqayada olub, verilməməsi mümkün olmayan bir neçə sualın izinə də rast gəlmədim.

Birinci sual: Niyə sənətkarlar başqa yerlərə deyil, məhz buraya qalxırmışlar? Və ya onları daşların nəyi özünə cəlb edirmiş? İkincisi bu qədim sənəti necə və hansı alətlərlə yaradırmışlar? Sadəcə, səslənsələr də, suallar sadə deyil.

Gəmiqayada hansısa qala-şəhərin mövcud olması fikrinin, məncə, heç bir əsası yoxdur. Əgər buraya yol yoxdursa, əgər burada ilin on ayını qış hökm sürürsə, əgər aşağıda zəngin, yaşayış üçün əlverişli dərələr mövcuddursa, onda hansı şəhərdən söhbət gedə bilər? Şəhərə dair fikri, məncə, türk tarixinə bələd olmayan insanlar söyləmişlər. Onlara isə sovet stereotipi – sübutsuz hökmlər hakim olubdur.

Düzdür, türklər ən yüksək dağları şüurlu şəkildə seçirdilər.

Orada insan Göyə, Tenqriyə daha yaxın olur. Onlar buraya məxsusi məqamlarda gəlirdilər. Özü də ağ geyimdə gəlirdilər ki, Nuhun vəsiyyətlərinə uyğun olaraq o dünyaya köçmüş qohum-əqrəbalarını yad etsin, əgər lazım gələrsə onlara kömək olsunlar və yaxud onlardan kömək alsınlar.

* * *

Rəvayətə görə, türkün ölümündən sonra onun ruhu yaşayır, qar dənəciklərinə çevrilir, Qiyamət məqamını gözləmək üçün dağın zirvəsinə enir. Yeri düşmüşkən, ulu babalarımıza məxsus yas rəngi buradandır: Ağ saflıq və yaddaş rəngidir. İnsanlar dağın zirvəsinə məxsusi xahişlə gəlir, Tanrıdan mərhumun günahlarını bağışlamasını və ona qarşı çox ciddi olmamasını istədilər. Sonra Obo-huri adlanan daş qalaqları düzəldərdilər: iki-üç daşı üst-üstə qoyardılar. Hər ehtimala qarşı onların xahişlərini xatırlatsın.

Orada, zirvədə həm də Səmavi Allahın naminə şücaət göstərmiş möminləri dəfn edirdilər.

Ekspedisiya məni inandırdı ki, unudulmuş rəmzləri olan Gəmiqaya ziyarət yeri, müqəddəs yer olmuşdur. Düzdür, Gəmiqaya gəmini xatırladır, amma... yaddaşın gəmisini. Onu görmək üçün gərək saf ruhlu olasan. Xeyli dərəcədə də təxəyyül imkanların olmalıdır. Mən dağa gecə ikən, ay işığında nəzər salanda, gümüşü işıqda səlis bir peyzaj canlanırdı. Dağı, əlbəttə, lövbər salmış gəmiyə bənzətmək olar. Çünki Obi (Oba), Yenisey (Anasu), Lena (İlin) və Qədim Altayın digər yerlərində olduğu kimi, əvvəllər ondan üç qara qaya – nəhəng bazalt qollar qabarırmış.

Uzaq Vətəni Altayı xatırladan qayaları insanlar Nuhun gəmisi ilə "bağlamışlar".

Sonralar baş vermiş güclü zəlzələ "avarları" dağıtmışdır. Yaranmış qırıntı topası hissə-hissə aşağıya sürüşüb gəlmiş, yaddaşın nişanəsi olan bu daşlar qədim sənətkarların diqqətini özünə cəlb etmişdir.

Məhz qara bazalt daşlarda təsvirlərə rast gəlinir, bu ağır daşlar



üstünə yağ və ya lak çəkilmiş kimi görünür, onlar digər daşlardan çox fərqlənirlər. Geoloqlara görə, bu daşlarda dəmirin miqdarı çoxdur.

İstisna deyil ki, ilk təsvirlər hələ dağılmamış qayalarda da olmuşdur. Ancaq hələlik tədqiqatçılar onları tapmayıb...

İkinci "sadə" suala cavab, mənə elə gəlir ki, tarixin digər incə məqamlarını özündə əks etdirir. Gəmiqayadakı təsvirlərin yaranma tarixi elə özündən bəlli olur. Bu tarix Səmavi Allaha inancdan başqa, həm də məhz metalla fərqlənən türk mədəniyyətinin Qafqaza gəlişi ilə bağlıdır. Qədim türklərin əmək alətləri metaldan olduğu vaxtlarda dünyanın qalan hissəsi mis və bürünc alətlərlə kifayətlənməli olurdu. Dəmir hər yerdə nadir bir şey sayılır, qızıldan baha dəyərləndirilirdi, bizdə isə o, adi işlək metal idi.

Sözlərimə şübhə ilə yanaşanlara adi mis mıxçanı götürüb bazalt daş parçası üzərində bircə hərf yazmağı məsləhət görərdim. Və yaxud şəkil çəkməyi. Bir cızıq belə alınmayacaq, çünki mis bu bazaltdan yumşaqdır. Deməli, qədim sənətkarlar təkcə zövqləri ilə deyil, həm də nə isə başqa şeylərlə, məsələn, metal iskənələri və çəkicləri ilə seçilirdilər. Əks halda, onların qayaüstü sənəti mümkün olmazdı.

Qafqazda poladın meydana çıxması türk mədəniyyətinin Nuhun buraya gəlişi ilə bağlıdır. Əfsanədə deyildiyi kimi, onda Zaqafqaziya "vişapların oylağına" çevrildi. Bu məsələdə, məncə, hər şey yerli-yerindədir: məhz yeni eradan əvvəl birinci minilliyin ortasında dəmir məmulatlarının kütləvi şəkildə meydana çıxdığını arxeoloqlar qeyd edirlər. Nə üçün? Çünki sovet dönəmində heç kim və heç zaman türklərin gəlişi ilə bağlı sualı verməmişdir! İndi isə başqa zamandır... Yaxşı başa düşürəm ki, mənim gəldiyim bu nəticələr köhnə məktəbin alimlərinin etirazına səbəb olacaqdır. Nə etməli? Mübahisə edəcəyik ki, bizi uzun zaman və bacarıqla uzaq saldıqları həqiqətə birgə gəlib çıxa bilək.

* * *

"Nuh dəyişikliklərinin ikinci əlaməti" kimi mən ibadətgahları göstərərdim. Bunlar da Xalqların Böyük Köçü ilə bağlı ştrixlərdir. Səkkizüzlü divarları, günbəzli örtüyü olan belə ibadətgahlar Naxçıvan peyzajının bir hissəsinə çevrilmişdir. Əvvəllər ibadətgahlarda Tenqri mərasimləri keçirilərdi, amma sonralar, islam qəbul edildikdən sonra onların yanında məscidlər tikməyə başladılar. Köhnəlik və yeniliyin yanaşı olması təkallahlılıq inancına zidd deyildi (islam dini, məlum olduğu kimi, təkallahlılıq ideyasını inkişaf etdirmişdir). Bunu mən Əlincə qalasının yaxınlığında indi bərpa edilən Xanəgah dini kompleksində müşahidə etmişəm. Naxçıvanın özündə də görmüşəm.

İlk ibadətgah – Əshabi-kəhf mağarasını Haqq-taalanın özü yaradıb. Yəqin ki, Quranın 18-ci surəsinin ayələri ona həsr edilib. Rəmzidir ki, surədə dünyəvi bilgi nişanəsi kimi vişapı-balığı göstərmək olar (60, 61-ci ayə). Postamentin üstündə saxlanılan iri dəmir meteorit parçası haçansa səmadan uçub gələrək mağaraya giriş yolu açmışdır.

Mən meteoritə ehmalca əlimi toxundurdum, amma metalın soyuqluğunu deyil, Tenqriyə Əbədi Mavi Səmaya sonsuz inamın gücünü duydum. Bu inam haçansa xalqları türk etmişdir.

Mağara dağın dar yarığında görünmür, giriş yolu cənuba yönəlibdir. Bu da, görünür, ulu babalarımızı özünə cəlb etmişdir. Həm də təkcə öz yönü ilə deyil, Haqq-taalanın zühur günündə təbiətin yaratdığı möcüzə olması ilə diqqəti cəlb etmişdir. Dekabrın iyirmisi günlərində, Tenqrinin yaranış bayramında günorta vaxtı Günəş mağaranın ən dib hissəsini, ucqar zalını da işıqlandırır. Bura həm də onunla maraq doğurur ki, mağaranın damından adamların başına arabir xırdaca damcılar – mərhəmətli Umayın göz yaşları düşür. Bununla da, həmin adama uğur və himayə yar olur.



Ola bilsin ki, mağara əvvəllər möminlərin sığınacağı olmuşdur: bu da Tenqri dininin ənənələrinə uyğundur. Buna gənc insanların üç yüz il müddətində yatıb bixəbər qalmalarına dair əfsanə də işarə edir. Axıracan araşdırılmayan bu əfsanə iudaizmdə, xristianlıqda və İslamda var, amma orada mağaranın yerləşməsi Naxçıvandakı kimi deyil. Niyə? Cavab, məncə, aydındır: dünya türk mədəniyyətini əxz edərkən onu öz təbinə uyğun dəyişdirmişdir. Həmişə və hər yerdə belə olmuşdur.

Təəssüf ki (bəlkə də, əksinə, xoşbəxtlikdən), bütün türk mədəniyyəti kimi, Əshabi-kəhf mağarasını da tədqiq etmək uzun müddət yasaq olunmuşdur. Bu gün o, bütün Naxçıvan diyarı kimi, özünün əzəli saflığını qoruyub saxlamaqdadır. Nə vaxtsa ikinci Altay adlandırılacaq Naxçıvan diyarının hər yerində kəşf edilməmiş mədəni irs xəzinələri mövcuddur. Onlar türkləri xəlvəti özünə cəlb edir. Buraya hər gün Türkiyədən, İrandan, Azərbaycanın özündən insanlar ata-babaların ənənəsini davam etdirərək axışıb gəlir.

Heyrətləndirici faktdır ki, onlardan bəziləri mağaranın divar çıxıntıları üzərində obo-hurilər qoyub gedirlər. Mənasını başa düşməsələr də, qədim türk ənənələrinə uyğun hərəkət edirlər. Bir-birinin üstünə yığılan xırda daş parçaları hər yanda vardır. Ulularımızdan miras qalmış xalq yaddaşı bununla güclüdür, o, yox olmur, yalnız unudulur – bir ara və ya həmişəlik.

Bu həqiqətə bir daha, həm də gözlənilməyən yöndən mən Naxçıvanda əmin oldum – o yerdə ki, insanların nadanlığı ucbatından mühasirəyə alınmış qalaya çevrilmişdir, Azərbaycanın bir hissəsi olan Qarabağ isə işğal olunmuş əraziyə... Siyasətə qoşulmaq istəməzdim, lakin artıq onsuz ötüşmək olmur. Hiss edirəm ki, anlaşılmazlıq olacaq, çünki ağrıyan yerə toxunuram, amma ekspedisiyadan sonra gəldiyim qənaətləri oxucularla bölüşməyə bilmərəm.

* * *

Nə üçün Ermənistan Nuhun gəmisinə israrla iddia edir? Bu

sualı cavabsız buraxsam oçerkim natamam olar.

Kimsənin istəyindən asılı olmayaraq, ermənilərin də biz türklər kimi tarixə haqları vardır. Bu, şəksizdir. Amma tariximizə yönəli təkəbbürlü iddialarına görə onları günahkar saymaq olarmı? Xeyr. Çünki ermənilərin də bir qismində (həm də az olmayan bir qismində) bizdəki kimi elə həmin genetik yaddaş, elə həmin köklər yaşamaqdadır. Heyhat, bu, belədir. Söhbət milyonlarla insandan gedir. Tam məsuliyyətimlə deyirəm, hər sözümə görə başımla cavab verməyə hazıram!

Bir fikir verin! VII əsrdə İslam dini Zaqafqaziyaya gəlib çıxdıqda hamı onu qəbul etməmiş, Tenqri dininin davamçıları olan bəzi türklər erməni kilsəsinə üz tutmuşlar. Bu kilsə bizim bəzi mənəvi ənənələrimizi hifz etmişdir! Haqq-taalaya müraciət etdikdə onlar Xristosu deyil, Tenqrini dilə gətirirdilər, yalnız türkcə ibadət edirdilər. Orada olan da xristian kilsəsi deyildi.

Ermənilərin özləri də etiraf edirlər ki, inancı onlar türklərdən, "hunlardan" qəbul ediblər, kilsə tarixlərində beləcə də yazılıb. Türklər onlara ilk məbədləri tikiblər. Erməni yepiskopları Vardost və Makar IV əsrdə illərlə bizim ruhanilərdən dərs alıblar, müqəddəs kitablarımızın üzünü öz kilsələri üçün köçürüblər. Türk dili və türk kitabları bütün dünyada ilahi kitablar sayılırmış... Bu belə də olub! Bu haqda mən "Türklər və dünya: gizlədilmiş tarix" kitabında danışmışam, bu mövzuya digər kitablarımda da dəfələrlə toxunmuşam.

Xatırladım ki, Ermənistanın çarları Arşak nəslindən olan türklər olublar. Ən nəcabətli erməni nəsillərinin az qala hamısı türk əsilli idilər. Bu da onların şəcərələrində öz əksini tapıbdır. Ermənistanın toponimikasına, erməni dilindəki türk sözlərinin hədsiz sayına bir nəzər salın. Erməni cəmiyyəti yekcins deyildir, bunu görməmək çətindir... Bəs nədən erməni olmuş türk nəsilləri rahatlıq tapa bilmirlər? Niyə bizim qan qardaşlarımız olan onlar özlərini, öz



tarixlərini axtarırlar? Onlar da bizim kimi siyasətçilər tərəfindən aldadılıblar, onların Nuh gəmisini özününküləşdirmək istəkləri, fikrimcə, bir insan kimi başa düşüləndir...

Nəhayət, "Vipasani" adlı erməni xalq eposu vardır ki, onu rədd etmək olmaz: eposda isə deyilir ki, vişapların anası Araratdan (Masisdən) şərqdə, yəni Naxçıvanda yaşayırmış. Hər şey bizim bu amansız dünyada bir-birinə qarışıb, kələfi isə siyasətçilər dolaşdırıblar... Bu məlumatları nəzərə almaqla yaxşıca mübahisə etmək olar, deyilmi? Səs batana kimi, axıracan!

Amma bundan bir şey hasil olmaz. Ən yaxşısı başqa bir şeydir. Mübahisə yox, barış. Əvvəlki mövqelərə çəkilmək, türk və erməni münasibətləri tarixinə yeni səhifədən başlamaq lazımdır. Özü haqda həqiqətdən! Bu, gələcəyə aparan yeganə yoldur.

Nuh Peyğəmbər isə həmin sülh danışıqlarında uğurlu vasitəçi olar. Bəs niyə də olmasın?

**Murad ACI,**
***türkoloq,***
***"Literaturnaya rossiya" qəzeti, 2005***

## ALLAH YURDU NAXÇIVAN

Tarixi konsept baxımından inam və humanizm komponentlərinin daxili və xarici vəhdətinin öyrənilməsi çox vacib əhəmiyyət kəsb etmiş və gələcəyin fəlsəfəsi və məntiqi baxımdan özünüdərki üçün fundamental baza hesab edilmişdir. Bu mənada Şərq mənəviyyatı və əxlaqını elmi əsaslarla öyrənib dərk edənlər tərəddüd etmədən qərar verə bilərlər ki, dünyada "sivilizasiya beşiyi"nin fundamental başlanğıc nöqtəsi Şərqdir. Bizim istək və arzumuzdan asılı olmayaraq, bir çox peyğəmbərlər indiki Naxçıvan adlanan yurdun ilk insan məskəni olduğunu qeyd etmişlər. Sonrakı dövrlərdə Şərq ticarət yolunun (İpək Yolu) məhz Naxçıvandan keçməsi, Ordubadda ipəkçilik ənənəsinin formalaşması, tarixin yaddaş salnaməsinə çevrilmiş, heç kimin və heç nəyin, heç bir real tarixi gerçəkliyi inkar edə bilməyəcəyi bir məntiqi həqiqət üzə çıxmışdır.

"Naxçıvan" sözünün mənası bir çox versiyalar baxımından izah edilsə də, mövcud xalq fəlsəfi fikri və elmi baxışlar bunu Nuh Peyğəmbərin məskunlaşdığı yer kimi izah edib bildirirlər ki, dünyanın su təlatümü öz dəhşətli sonluğunu "Naxçıvan" adlanan bu torpaqda sevinclə, yaşayışın davamı ilə bölüşmüşdür. Nuh Peyğəmbər yeganə bəşər övladıdır ki, Allah ona həm suda və həm də quruda yaşamaq imkanı və səlahiyyətini vermişdir. Yer kürəsinin bu balaca hissəsini özünə və özü bildiklərinə məskən seçən Nuh Peyğəmbər bu seçiminin Allah əmri olduğunu bildirmişdir. Naxçıvanın Nuh Peyğəmbərlə əlaqəli olmasını versiya kimi qəbul edənlər məntiqsiz, elmi əsası olmayan iddia sahibləri ola bilərlər. Belə ki, bu torpağın hər qarışı Nuh əlamətlərini bu gün də qoruyub saxlayır. Heç bir sağlam düşüncəli insan Nuh-Naxçıvan əlaqəsinə subyektiv prizmadan baxmamalı, əksinə, bu obyektiv gerçəkliyi elmi araşdırmalarla genişləndirməlidir. Çünki bu gerçəklik Naxçıvanın dağlarında və buranın bugünkü sakinlərinin qədim tarixində, gündəlik həyat tərzində yaşanmış və bu gün də yaşayır.

Nuh Peyğəmbər özü ilə unikal üslubunu, müvafiq yaşam modelini gətirmiş, formalaşdırmış və gələcək nəsillərə örnək ola biləcək



səviyyəyə çatdırmışdır. Allahın ən yaxın dostu və bəndələrindən biri kimi qəbul edilən Nuh Peyğəmbər özünün dözümlü və səbirli iradəsi ilə Allahın ərməğan etdiyi müvəqqəti dünyaya, onun tarixinə yalnız və yalnız öz gözü ilə, öz düşüncə tərzi ilə baxmağa məhkum idi. Onun nümunə götürə biləcəyi elə bir mənbə olmadığından o, yalnız və yalnız Allahın ona bəxş etdiyi iman və etiqada söykənərək addım atır və gələcəyə böyük ümidlə baxırdı. İman və etiqad, sevgi və həqiqət cəngavəri olan Nuhun həyat leytmotivini bəşəriyyətə həqiqi, səmimi və ədalətli xidmət təşkil edirdi. O, bu həqiqəti həm sözlə, maarifləndirmə ilə və həm də əməli işi ilə həyata keçirirdi. Bu mənada Nuhdan qaynaqlanan Şərq mədəniyyəti, Şərq qonaqpərvərliyi ən real nümunə kimi göstərilə bilər.

Nuh fəlsəfəsinə, Nuh baxışına görə dünyada yer və göyün qovuşduğu yalnız bir yer var və bu yer məhz Naxçıvandır. Əgər belə olmasaydı, Nuh Peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarix yaddaşına Nuh möhürünü Naxçıvanda yox, digər bir bölgədə vurmuş olardı.

Bu keçən dövr ərzində Nuhun Naxçıvanla bağlı bir çox təkzibolunmaz faktları elm aləminə məlum olsa da, onun tarixi və mədəniyyət xəzinəsinin ən dərin qatları tam öyrənilməmişdir. Bu gün Naxçıvan tarixini, mədəniyyətini, arxeologiyasını öyrənməklə Nuh irsinin zənginliklərini aşkarlamaq olar. Baxmayaraq ki, dünyanın bir sıra yerlərində Nuh izinə düşənlər və ya bu təşəbbüsdə olanlar var, lakin ən inandırıcı, elmi baxımdan ən obyektiv tədqiqat nəticələri Naxçıvanla bağlıdır. Belə ki, istənilən naxçıvanlı, istənilən ucqar kəndin sadə bir adamı Nuhla bağlı bir çox əhvalatlar deyər və saysız-hesabsız yer adlarının Nuhun şərəfinə aid olduğunu əsaslandıra bilər. Əgər belə bir sorğu digər Nuh axtaranlar ölkəsində aparılsa, şübhəsiz ki, heç bir xalq versiyası üzə çıxmayacaq. Naxçıvan ilk baxışdan heç də diqqəti cəlb edən məkan kimi görünmür və bu ötəri baxış ötəri olduğu qədər də maraqsızdır. Lakin Naxçıvanın canlı həyatını və cansız mövcudluğunu dərk edəndən sonra adam başa düşür ki, Naxçıvanda cansız aləmin özü

də canlı aləm qədər canlı və mənalı olub, fəal həyat tərzinə malikdir. Bu fəal həyat tərzini, Naxçıvanın daxili aləmini yalnız böyük intellekt sahibləri dərk edib düzgün qərar verə bilirlər. Naxçıvan ayrıca götürülən mövcud element və komponentlərdən də qat-qat böyükdür. Çünki Naxçıvan bir mədəniyyətdir, Naxçıvan bir adət-ənənədir, Naxçıvan bir dindir, dini varlıq və musiqidir, Naxçıvan incəsənətdir, Naxçıvan qonaqpərvərlik rəmzidir!!! Ümumilikdə, Naxçıvan yaşam və ölüm yurdudur!!!

Hər Novruz bayramı Naxçıvan yenilәşir, cavanlaşır. Xalq mahnılarında yazın gəlişinin çox obrazlı ifadə olunması bu yurdun qədimliyinin nümunəsidir. Yaz əkin-biçini, illik ruzinin əsasının qoyulmasını bayram edən xalq daha sivildir, daha qədimdir və obrazlı desək, Allahın şah əsəridir. Bu əlamətlər məhz Naxçıvandadır. Naxçıvanda həyat simfoniyasının çalarlığı İlandağa (Nuh Peyğəmbərin gəmisi toxunan dağ) harmoniya təşkil edir. İlandağ Naxçıvan panoramasının əvəzolunmaz və böyük əhəmiyyət kəsb edən bir parçasıdır. Məhz İlandağ hər gün Nuhla danışır və daimi olaraq biz insanlara müqəddəs Peyğəmbərin tövsiyələrini çatdırır. Ölüm, həyat aksiomu olub, sanki dəyirman daşında emal olunduqdan sonra əbədiyyətə təhvil verilir. Bu təhvil-təslim Naxçıvanda o qədər özünəməxsus formada həyata keçirilir ki, insan ölüm deyilən fikri çox normal qarşılayır. Naxçıvanda kiminsə vəfatından sonra kimliyindən asılı olmayaraq, insanlar yas sahibinin ətrafına yığışır, onun dərdinə şərik çıxır, maddi və mənəvi kömək edirlər. Naxçıvan yas adəti bəşəriyyətə nümunə ola biləcək səviyyədədir.

Regionun ən diqqəti cəlb edən xüsusiyyətlərindən biri də onun coğrafiyası və geosiyasi mövqeyidir. Biz Naxçıvanın Şərqin qapısı olmasından, onun strateji mövqedə yerləşməsindən danışmayacağıq, çünki bu bir həqiqətdir. Biz, sadəcə olaraq, Naxçıvan mənzərəsindən, elə bir mənzərədən danışmaq istəyirik ki, o, təbiətən, Allah tərəfindən çəkilibdir. Bu, Naxçıvanın möhtəşəm dağ mənzərəsidir. Kənardan baxanda bu dağlar sanki istehkamı xatırladır, lakin daxildən baxanda bu mənzərə insana təcrid olunmuş bir məkanın



mövcudluğundan xəbər verir. Lakin yerli əhalinin bir-birinə olan isti münasibəti bu tənhalığı hissedilməz formaya salmışdır.

Naxçıvanın və naxçıvanlıların həyatında çay içkisinin ayrıca əhəmiyyəti var. İstər sərt, şaxtalı qış aylarında və ya kəskin yay istisində çay xidməti, çay mədəniyyəti insanların adi həyat tərzinin tərkib hissəsidir (Naxçıvanın iqlimi kəskin kontinental xarakterlidir). Müqəddəs Əshabi-Kəhf Naxçıvan tarixinə, Naxçıvan mədəniyyətinə, Naxçıvan torpağına aid olan dini abidədir və onun haqqında "Qurani-Kərim"də bəhs edilir. Bu müqəddəs ocaq daim ziyarət olunur və orada Allah yolunda qurbanlar kəsilir. Məlumdur ki, tarixin müəyyən ideya və fəlsəfi baxımdan qaranlıq dövründə insanların ilk doğulan övladlarını qurban kəsməsi təcrübəsi mövcud olmuşdur. Bu, inanc təcrübəsinə əsaslanan bir hal kimi də qəbul edilmiş və göydən yerə bərəkət, sağlamlıq gələcək inama əsaslanmışdır. Sonradan İbrahim Peyğəmbər qurbanlığının heyvan qurbanlığı ilə əvəzolunma mərhələsi başlandı. İndi bu müqəddəs ocaqda kəsilən qurbanlar Tanrıya sevgi və yaşadıqları torpağa əbədi məhəbbət və müqəddəslik rəmzi kimi başa düşülür. Naxçıvanlılar hər il Qurban bayramını daha böyük amalların reallaşması fonunda ən yüksək səviyyədə və yerli şəraitə uyğun keçirirlər. Bu, bir daha göstərir ki, bu yurdda yaşayan insanların fəaliyyəti birbaşa haqq-ədalət və müqəddəslik, paklıq üzərində köklənmişdir. İnanmırıq ki, dünyada Allahın yerə yaxınlığı, onun insanlara bağlılığı Naxçıvandakı qədər yaxın və dərin olmuş olsun. Naxçıvan tarixi dünya tarixinin müqəddəslik və paklıq rəmzidir. Biz Naxçıvanda çox şey – qonaqpərvərlik, səmimiyyət, böyüyə hörmət və ən başlıcası, ailəyə və torpağa bağlılıq keyfiyyətlərini öyrəndik. Naxçıvanda həyat daha gözəldir, daha ümidverici və təminatlıdır.

Bir də onu deməyi özümüzə borc bilirik ki, biz övlad həsrətimizə müqəddəs Naxçıvan torpağında son qoyduq. Övlad hissinin müqəddəsliyini biz bu müqəddəs torpaqda hiss etdik. Harada olmağımızdan asılı olmayaraq, biz Naxçıvanla bağlı təəssüratlarımızı dünyaya yayacağıq. Çünki bu bir həqiqətdir, bu, bizim insani borcumuzdur!

Biz dünyanın heç bir yerində, hətta doğma vətənimiz Argentina və Amerikada da Naxçıvandakı qədər dərindən, sinədolusu nəfəs almamışıq. Təmiz və müalicə əhəmiyyətli havası olan Naxçıvanda dünyada analoqu olmayan mineral və termal su mənbələri var. Belə ki, Cənnət deyilən həmin məkan Yer planetində məhz Naxçıvandır!

**Qabrielo və Marti FİLLİPS,**
***Norvest Universitetinin nəşri (ABŞ),***
***28.05.2008***



## TURİZM BAXIŞI: NAXÇIVANIN MİSTİK ƏFSANƏSİ

Qafqazda yerləşən Naxçıvan Muxtar Respublikası hələ 1990-cı ildə Azərbaycan Respublikasından bir il əvvəl SSRİ-dən ayrılaraq müstəqilliyini elan etmişdir. Azərbaycandan uzaq düşmüş bu ərazi Türkiyə, İran və Ermənistanla sərhəddə yerləşir. Bəziləri bu regionun adını, "Naxçıvan" kəlməsini Nuh Peyğəmbərlə və dünyanı məhv edən böyük daşqınla əlaqələndirir.

Əgər siz müqəddəs və əfsanəvi məkan axtarışındasınızsa, Naxçıvana getməlisiniz. Nuh Peyğəmbərin gəmisinin qalıqları məhz burada, Ağrı dağının yaxınlıqlarında tapılmışdır. Rəvayətə görə, 7 kəndli ucqar bir mağarada 300 il ərzində yatmışdır. İndi həmin yer balaca bir məscidin də olduğu ibadətgaha çevrilmişdir. Siz orada olarkən ürəyinizdə bir arzu tutub mağarada oturursunuz. Əgər qayadan başınıza damcı düşərsə, deməli, arzularınız gerçək olacaq. Digər qeyri-adi yer isə şəhərdən 20 dəqiqəlik məsafədə yerləşən termal su mənbəyinin yerləşdiyi yerdir ki, orada vanna qəbul edərək rahatlamaq olar. Yaddançıxmaz təəssüratlar axtaran macərapərəstlər duz zirzəmilərində gecələsələr ordan ağciyərlərində rahatlıq hiss edərək çıxarlar.



*2013-cü ilin aprel ayında Naxçıvan beynəlxalq şahmat yarışına ev sahibliyi etmişdir.*

### Büdcə

Nəqliyyat və hotel seçimləri üçün müxtəlif vasitələr var. Biz 140 manata başa gələn Bakı-Naxçıvan təyyarə reysini tövsiyə edirik. Lakin siz viza alaraq səyahət etmək istəyirsinizsə, İran ərazisindən keçməklə 11 saata buraya gələ bilərsiniz. Burada cəmi 10 manata əla yemək yeyə bilərsiniz.

### Gəzinti növü

Şəhərdə yerləşən abidələri, eləcə də dağlıq bölgələri gəzmək bütün yaşda olan turistlər üçün eyni şərtlərdəndir.

## Harda qalmaq olar?

3 hotel məsləhət görülür: 2 beşulduzlu hotel ("Təbriz" və "Duzdağ" hotelləri) və 1 üçulduzlu hotel (hotel "Grand") Naxçıvan şəhərində yerləşir. "Təbriz" hoteli şəhərin mərkəzində yerləşir və orada spa mərkəzi və 13-cü mərtəbədə restoran fəaliyyət göstərir. "Duzdağ" hoteli şəhərdən 9 km-lik məsafədə, duz dağların üzərində yerləşir və açıq havada hovuzu var. "Grand" hoteli isə şəhərdə, maliyyə mərkəzinin yanında yerləşir.

## Buraya necə getmək olar?

Hazırda ən yaxşı variant hava yoludur. Boeing təyyarələri köhnə pərli quşları əvəz etmişdir, siz buna əmin ola bilərsiniz. Biletləri Bakıda Silkway agentliyindən almaq olar. Gediş-gəliş qiyməti 140 manat təşkil edir. Gündəlik 5 təyyarə reysi nəzərdə tutulmuşdur.

## Mömünə xatın



1186-cı ildə Şəmsəddin Eldənizin həyat yoldaşı Zahidə xanımın (Möminə xatın) şərəfinə tikdirdiyi bu məqbərənin memarı Əcəmi Naxçıvanidir. Atabəy Şəmsəddin Eldəniz 1136-1175-ci illərdə Atabəylər (mərkəzi hazırkı Naxçıvan şəhəri olub) dövlətinin başçısı olub. O, həyat yoldaşı üçün tikdirdiyi bu abidənin inşasını sağlığında başlatsa da, sonralar oğlu Məhəmməd Cahan şah Pəhləvan məqbərənin hündürlüyünü 34 metrə çatdırmışdır. Zaman-zaman çoxlu dağıntılara məruz qalan məqbərənin hazırkı hündürlüyü 25 metrdir və onun onguşəli strukturu məqbərənin dairəvi olması barədə təəssürat yaradır. Məqbərənin yuxarı hissəsində firuzəyi mozaika IX əsrə aid kalliqrafik stilli ərəb-kufi yazıları əks olunub.

## Yusif Kuseyiroğlu türbəsi

Şişuclu səkkizguşəli Yusif ibn Kuseyir türbəsi 1162-ci ildə Əcəmi Naxçıvani tərəfindən inşa olunub. Bu, Azərbaycan mədəni irsinin ən qədim incilərindəndir. Türbənin zirzəmisi dəfn yeri kimi istifadə edilmişdir. Memarın ilk işi olan bu türbənin xarici görünüşü, bütövlükdə, həndəsi fiqurlarla örtülmüşdür. Yuxarı hissələrində kufi yazıları da görmək olar.



## Qarabağlar türbəsi



Qarabağlar türbəsi eyniadlı kənddə yerləşir. Bu kənd qədim yer olmuş və XVII əsr səyyahlarının yazılarında öz əksini tapmışdır. O zamanlar burada 70 məscid və 40 minarə və geniş karvansaray var idi. Ərazidə kəndə yaxın böyük binanın və iki minarənin arxeoloji qalıqlarını görmək olar. Xudi xatın Cahanın yazdığına görə, türbə Əbu Səid Bahadur xanın hakimiyyəti dövründə (1319-1335) tikilib. Türbə xüsusi formaya malikdir, çünki abidə ona möhtəşəm gözəllik bəxş edən silindrik elementlərdən ibarətdir.

## Xan evi



XVII əsrin ortalarında Azərbaycanda dövlət ərazi sərhədlərini müəyyən edən xanlıqlar yaradılmışdır. 1787-ci ildə Naxçıvan xanlığına təyin olunmuş Kalbalı xan özünün hərbi şücaəti ilə seçilirdi. O, ailəsi ilə birlikdə Möminə xatın məqbərəsi yerləşən bu sarayda yaşamışdır. Sovet illərində bu bina müxtəlif məqsədlər üçün, o cümlədən məktəb kimi də fəaliyyət göstərmişdir. 1998-2009-cu illərdə bina xalçaçılıq muzeyi kimi fəaliyyət göstərmişdir.

**Ekskursiya və piyada gəzinti**



Qırmızı rəngli dağlarda gəzmək üçün yaxşı çəkməyə malik olduğunuza əmin olun. Sərhəd zonalarında ayıq-sayıq olun və yerli sakinlərdən bələdçi kimi istifadə edin.

**Qeyri-adi təcrübə**



Çalışın Duzdağda yerləşən hotel-klinikada bir gecə keçirəsiniz. Qiymət bir nəfər üçün 50 manatdır. Dünyada unikal təcrübədir.

**Sizin səyahətiniz Naxçıvandakı yerli agentlik tərəfindən təşkil olunur**

"Natiq Travel" agentliyi sizin bütün ehtiyaclarınızı qarşılamağı öz üzərinə götürməyi təklif edir. Baku Frankofon bunu artıq sınaqdan keçirib və sizə də tövsiyə edir. Karta malik üzvlər bütün xidmətlər üzrə 5 faiz endirimdən faydalana bilərlər (nəqliyyat, tərcümə, bələdçi...)

**Matilde Nquyen PANİQEL,**
***ATƏT-in Ətraf mühit və iqtisadiyyat şöbəsinin müdiri və Bakıdakı Fransız icmasının rəhbəri,***
***www.natigtravel.com***



# NAXÇIVAN XARİCİ QONAQLARIN GÖZÜ İLƏ

## BİZİM NAXÇIVANA SƏFƏRİMİZ BARƏDƏ BƏZİ ŞƏRHLƏR

Hər ikimiz Amerika vətəndaşı olan mən və mənim dostum 2012-ci ilin avqust ayında Naxçıvana səfər etdik və burada çox gözəl vaxt keçirdik. Bura Qafqaz regionunda bizim üçün ən çox sevilən ərazi idi. Mən bu əraziyə səfər etməyi hamıya tövsiyə edirəm, çünki bura çox müxtəlif – daha uzaq, az izdihamlı və maraqlı sürprizlərlə doludur.

Bizim hər ikimiz tarix və arxitekturanı xoşlayırdıq və buna görə də biz Naxçıvan şəhərində olan bütün muzey və abidələrə baxdıq. Biz xüsusilə Nuh Peyğəmbərin qəbirüstü abidəsini çox xoşladıq, çünki bu abidə müsəlman və xristianlar üçün xüsusi əhəmiyyətə malikdir. Şəhərin kənarında biz Əshabu-Kəhfə getdik və orda biz 400 pilləkən qalxdıq və bizə dərin təsir bağışlayan Duz Şaxtası Xəstəxanasına da səfər etdik. Eyni zamanda biz Orta əsrlərdə əsas karvan dayanacağı olan Qarabağlar kəndinə səfər etməkdən zövq aldıq. İndi orada artıq karvan yoxdur, lakin kənd həyatını görmək üçün çox gözəl yerdir.

Biz Naxçıvandakı asta həyat tempini də xoşladıq. Bura istirahət etmək üçün çox gözəl yerdir. Biz söyüd ağacı altında yolun qırağında dayanaraq fermerlərlə birlikdə onların yetişdirdikləri qovun və üzüm yeməyimizi həmişə xatırlayacağıq. Fermerlər bizim Naxçıvanda qarşılaşdığımız hər bir vətəndaş kimi çox mehriban idilər.

Bizim Naxçıvana səfərimizin ən yaxşı əlamətlərindən biri burada bizim əla bələdçimizin olması idi. Bizim bələdçimiz Həsən Əliyev idi və o, yaxşı ingilis dilində danışırdı və bizim səfər etdiyimiz yerlər barədə yaxşı məlumat verirdi.

Mən balaca bir hekayə ilə öz fikirlərimi yekunlaşdıracağam və fikirləşirəm ki, bu, sizə Naxçıvanda bizim necə gözəl insanla qarşılaşmamızı izah edəcək. Bir səhər biz şəhərdə balaca bir məscidə getdik, bu günün başlanması idi və yaşlı qadın döşəməni təmizləyirdi. O, bizə baxdı, gülümsədi və çox səmimi yolla bizə dedi: "Biz məscidi təmizliyirik, çünki fikirləşirik ki, kimsə gələcək". Bu sözlər bizim özümüzü Naxçıvanda arzuolunan və xoşbəxt hiss etməyimizə səbəb oldu.

**Fleçer HODQES,**
***Nyu-York şəhəri, ABŞ***



## NAXÇIVAN HƏR BİR TURİST ÜÇÜN İDEAL MƏKANDIR

*Son illər muxtar respublikamızda müasir infrastrukturun yaradılması, turizmin inkişafı istiqamətində böyük işlər görülmüşdür. Nəticədə, artıq bir neçə ildir ki, muxtar respublikamıza il ərzində 300 mindən çox turist gəlməkdədir. Muxtar respublikamızın əsrarəngiz təbiəti, buradakı inkişaf turistlərdə dərin təəssürat yaradır. Bu günlərdə Almaniyadan redaksiyamızın elektron ünvanına həmin təəssüratların ifadəsi olan məktub daxil olmuşdur. Bu məktubun maraqlı olacağını nəzərə alaraq oxucularımıza təqdim edirik.*

**Hörmətli redaksiya!**

2013-cü il mayın 22-dən 26-dək Naxçıvan Muxtar Respublikasına olan səfərimi xatırlayarkən demək istəyirəm ki, mən unikal tarixi abidələrdən, landşaftın müxtəlifliyindən və Naxçıvandakı insanların qonaqpərvərliyindən təəccüblənmişəm.

Türkiyədən sərhədi keçdiyim andan Bakıya səfər etməyi planlaşdırmışdım. Ancaq Naxçıvanda gördüyüm qonaqpərvərlik, gözəl mənzərələr məni bir neçə gün orada qalmağa vadar etdi.

Bələdçim əvvəlcə məni Naxçıvan şəhərinin tarixi abidələri olan əzəmətli Möminə xatın və Nuh türbələrinə apardı. Möminə xatın türbəsi öz dəqiq quruluşu və şəbəkə formalı dekorasiyası ilə məni heyrətləndirdi. Mən yenidən bərpa olunmuş Xan Sarayına da baş çəkə bildim. Uzun zamandan bəri xalçalara və qədim İpək Yolu ərazisinin kilimlərinə maraq göstərdiyim üçün Xalça Muzeyi mənim üçün səyahətin ən zövqlü məqamı idi. Naxçıvandakı bütün muzeylərə ödənişsiz səfər etdim və çoxlu ətraflı məlumat verən dostcanlı heyət tərəfindən qarşılandım.

Mənim üçün, həqiqətən, inanılmaz bir müşahidə Araz çayı boyunca Ordubada asta dəmir yolu səyahəti idi. Yaxınlaşdıqca Ordubad təpələri rəngarəng qırışları olan dağ yamaclarına çevrilirdi. Dağlarla əhatələnmiş tarixi şəhər olan Ordubaddan çox təsirləndim.

Növbəti gün Batabata getdik. Kiçik bir ərazidə müxtəlif iqlim və landşaftın şahidi olmaq mənim üçün möcüzəli idi. Biz yuxarı qalxdıqca hava daha da sərinləşirdi. Batabatdakı bulağın suyu o qədər sərin idi ki, mən əlimi bir neçə saniyədən çox həmin bulağın suyunda saxlaya bilmədim.

Digər bir heyrətamiz yer tənəffüs yollarında problem olan insanlar üçün əvəzolunmaz təbii sağlamlıq ocağı Duzdağ idi.

Qədim kənd olan Qarabağlarda çoxlu meyvə bağları gördüm. 14-cü əsrdə tikilmiş abidəni də ziyarət etdim.

Əlincə qalasını və Haçadağı unutmaq olmaz. Çay içmək üçün bizi dağa yaxın olan evlərdən birinə dəvət etdilər. Mən Naxçıvan əhalisinin böyük qonaqpərvərliyini gördüm.

Səfər etdiyim yerlərin hamısında keçmişlə müasirliyin vəhdəti açıq-aydın görünürdü. Naxçıvanın kəndləri, qəsəbələri şəhər görkəmindədir. Naxçıvan şəhəri isə müasir Avropa şəhərlərindən seçilmir. Sizin dövlətiniz insanların yaxşı yaşayışı üçün hər cür şərait yaradıb. Belə dövlətlə yalnız fəxr etmək olar. Ən önəmli cəhətlərdən biri də Naxçıvanda insanların təhlükəsiz şəraitdə yaşamasının təmin olunmasıdır. Naxçıvanı hər bir turist üçün də ideal məkan kimi dəyərləndirirəm. Muxtar respublikanın çoxlu gəzməli-görməli yerləri, qədim tarixi abidələri, müasir otelləri, restoranları, rahat yolları vardır. Mən dostlarıma və tanışlarıma Naxçıvana səyahət etməyi tövsiyə etmişəm.

Mənim üçün Naxçıvanda keçirdiyim vaxt unudulmaz idi və ümid edirəm ki, bir gün ora geri qayıdacağam.

**Liebervirt DANİELA,**
*Almaniya vətəndaşı,*
*"Şərq qapısı",*
*02.07.2013*



## NAXÇIVANLILAR ŞƏRƏFİ ÜÇÜN YAŞAYAN İNSANLARDIR

*Tarixən dünya hərb sənətinə əvəzolunmaz sərkərdələr bəxş etmiş qədim Naxçıvan torpağının igid oğlu Hüseyn xan Naxçıvanski haqqında sənədli filmin çəkilişləri üçün Azərbaycan Respublikasının "Salnamə" studiyasının və Rusiya Federasiyasının ən böyük kinostudiyalarından biri olan "Lennauçfilm" studiyasının bir qrup əməkdaşı Naxçıvana gəlmişlər. Fürsətdən istifadə edib "Lennauçfilm" studiyasının baş direktoru Anton Viktoroviç Smirnovla görüşüb həmsöhbət olduq.*



**– Anton Viktoroviç, rəhbərlik etdiyiniz studiya haqqında qısa məlumat verməniz xahiş edirik.**

– Rəhbərlik etdiyim studiya Sankt-Peterburqun əsas kinostudiyalarından biridir. 1933- cü ildən fəaliyyət göstərən studiyamız elm, təhsil, mədəniyyət, tarix və digər sahələrə həsr olunmuş sənədli filmlər çəkir. Bu səbəbdən də bizim uzun illərə dayanan iş təcrübəmiz var.

**– "Salnamə" studiyası ilə nə vaxtdan əməkdaşlıq edirsiniz?**

– Biz " Salnamə" studiyası ilə ötən ildən əməkdaşlığa başlamışıq. İlk birgə işimiz isə qəhrəman təyyarəçi Hüseynbala Əliyev haqqına oldu. Biz onun haqqında sənədli film çəkdik. Bir neçə gün əvvəl Bakı şəhərində bu filmin premyerası baş tutdu. Bu, ümumilikdə, həm Azərbaycan, həm də Rusiya mədəniyyəti üçün əlamətdar hadisə idi. Ona görə ki, Rusiya və Azərbaycan kinematoqrafları birgə işləyərək gözəl bir film ərsəyə gətirmişdilər. Bu film kinosevərlər tərəfindən çox yaxşı qarşılandı. Sankt-Peterburq şəhərində də bu film nümayiş etdirildi. Təsiredici səhnələrlə zəngin olan bu filmə tamaşaçılar yüksək qiymət verdilər. Filmin nümayişindən sonra isə hamı bizə yaxınlaşıb belə bir film çəkdiyimiz üçün minnətdarlığını bildirdi. İndi isə biz qərara almışıq ki, "Salnamə" studiyası ilə əməkdaşlığı genişləndirək. Niyyətimiz bu əlaqələri yeni,

daha böyük müstəviyə çıxarmaqdır. Hazırda iki layihə üzərində işləyirik. Bunlardan birincisi sizin həmyerliniz, tanınmış səs rejissoru Ələkbər Həsənzadənin həyat və yaradıcılığı, onun səsduyumu haqqında filmdir. O həm də mənim müəllimim olub. Mən ondan kino sənəti haqqında çox şey öyrənmişəm. Elə Rusiya kinosu da həmyerlinizin sənət təcrübəsindən az bəhrələnməyib. İndi Rusiya kinematoqrafiyasında Ələkbər Həsənzadənin yetişdirdiyi yüzlərlə kino ustası vardır. İkinci, ən əsas layihələrimizdən biri də bu torpağın qəhrəman oğlu Hüseyn xan Naxçıvanski haqqında sənədli filmin çəkilişidir. Biz məhz buna görə qədim Naxçıvan torpağındayıq. Görkəmli sərkərdənin vətənini görərək, onu yetişdirən, necə deyərlər, xəmirinin yoğrulduğu torpaqları ziyarət edərək mənbələr vasitəsilə materiallar əldə edirik.

**– Bu igid sərkərdə haqqında nələri bildiyinizi və ümumiyyətlə, fikirlərinizi bilmək bizim üçün maraqlı olardı.**

– Biz bir il ərzində hərb tarixinə adını qızıl hərflərlə yazdırmış Hüseyn xan Naxçıvanski haqqında materiallar toplayacağıq. Ona görə ki, o, görünməmiş miqyasda tanınan bir insandır. Bu səbəbdən də nəinki Azərbaycanda, Rusiyada, Gürcüstanda, gündoğar ölkə olan Yaponiyada belə materialların toplanması, arxivlərin araşdırılması lazım gələcək. Əlbəttə ki, Moskva və Sankt-Peterburq şəhərləri araşdırmaların ən dəqiq şəkildə aparılacağı şəhərlər olacaq. Əldə olan məlumatlar isə ondan ibarətdir ki, Hüseyn xan Naxçıvanski Kalbalı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. On beş yaşında ikən Peterburqdakı Paj korpusu məktəbinə verilmiş, 1881-ci ildə o, məktəbi əla qiymətlərlə bitirmiş, çarın xüsusi süvari qoşununda xidmət etmişdir. Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Naxçıvanskiyə 1903-cü ildə polkovnik rütbəsi verilmişdir. Rusiya-Yaponiya müharibəsində (1904-1905) qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik etmiş, misilsiz rəşadətlər göstərmişdir. Tanınmış rus jurnalisti A.Kvitkanın "Zabaykalye kazak zabitinin gündəliyi" əsərində Naxçıvan alayının döyüş rəşadətindən bəhs olunur. 1906-cı



ildə leybqvardiya polkunun komandiri olmuş, 1907-ci ildə general-mayor rütbəsinə layiq görülmüşdür. 1912-ci ildə Naxçıvanski 1-ci əlahiddə süvari briqadasının komandiri olub. Birinci Dünya müharibəsində isə 1-ci və 2-ci süvari diviziyalarının komandiri olan Naxçıvanski alman cəbhəsinin yarılmasında böyük xidmətlər göstərmişdir. 1916-cı ildə isə ona tam süvari qoşunu generalı rütbəsi verilmiş, Cənubi Qafqaz cəbhəsinin komandanı təyin olunmuş, Rusiyada fevral inqilabından sonra hərbi işdən uzaqlaşmışdır. 1919-cu ildə o zamankı Petroqradda müəmmalı şəkildə vəfat etmişdir. Məzarı Sankt-Peterburqdakı Aleksandr-Nevski qəbiristanlığındadır. Naxçıvanın böyük oğlunun o zaman bolşeviklər tərəfindən xaincəsinə öldürüldüyü güman edilir.

Bunları sadalamaqda məqsədim odur ki, əlimizdə az da olsa, məlumat var. İnanıram ki, bu film böyükhəcmli bədii-sənədli film olacaq. Ola bilər ki, bu sənət əsəri iki hissədən ibarət olsun. Onun həyatından bəzi nüansları səhnələşdirmək fikrimiz də var. Sözsüz ki, bu da filmin həcminin artmasına öz təsirini göstərəcək. Biz istəyirik ki, öz şərəfi və ləyaqəti, inandığı ideyalar üçün yaşayan, mübarizədən dönməyən bu insanın həyatını, döyüş yolunu əhatə edə bilək. Hər şey tam şəkildə bu filmdə əks olunsun, tarixilik baxımından hər şey dəqiq olsun. Beləliklə, onun həyat tarixçəsini öyrədici, təbliğedici şəkildə tamaşaçıya çatdıra bilək. Sözsüz ki, onun ömür yolu hər bir gənc üçün vətənpərvərlik işinə, inandıqlarına sadiqlik nümunəsi ola bilər. Məncə, Hüseyn xan Naxçıvanski təkcə qəhəmanlıqları ilə seçilən tarixi şəxsiyyət deyil, həm də şərəf və ləyaqətin, vətən sevgisinin bütün dəyərlərdən uca tutulmasının simvoludur.

**– Bəs Hüseyn xan Naxçıvanskinin vətənini necə gördünüz?**

– Açığını deyim ki, çox təəccübləndim. Mən buranı Cənubi Qafqazın ən yüksək, ən əlçatmaz nöqtəsi hesab edirdim. Ancaq buraya gəldikdən sonra gördüm ki, Naxçıvan Azərbaycanın inkişaf üçün əlverişli şəraitə malik olan bütün bölgələrindən daha irəlidədir. Bu inkişafı iqtisadi sahəyə də şamil etmək olar, mədəniyyət

sahəsinə də, digər sahələrə də. Coğrafi cəhətdən o qədər də böyük olmayan, üstəlik blokada vəziyyətində olan bu bölgədə belə bir inkişafa nail olmaq, məncə, asan deyil. Bütün bu çətin şəraitdə qurulanlar, yaradılanlar onu deməyə əsas verir ki, bu diyarın rəhbəri diqqətli və qayğıkeş, insanları isə əzmkar və mətanətli, qarşılarına qoyduqları məqsəd üçün yorulmadan çalışan, şərəf və ləyaqəti hər zaman uca tutan, Vətənin çiçəklənməsində sədaqətlə xidmət edən insanlardır. Buranın saf təbiətini, dağlarını, çağlayan sularını, tarixi abidələrini, inanc yerlərini, ən əsası isə zəhmətkeş, qurub-yaradan insanlarını gördükcə böyük sərkərdənin, Naxçıvan torpağının igid oğlunun güclü xarakterə malik olmasında, şəxsiyyətinin formalaşmasında əsas rol oynayan çalarları, təməl amillərini hiss etmək çətin deyil. Düşünürəm ki, naxçıvanlılar şərəfi üçün yaşayan insanlardır. Elə yoldaşlarımla məsləhətləşmişik ki, çəkəcəyimiz filmin adı da "Şərəf insanı" olsun. İnanıram ki, böyük zəhmətlər, axtarışlar, yuxusuz gecələr bahasına başa gələcək bu sənət əsəri sənətsevərlər tərəfindən böyük maraqla qarşılanacaq, xalqlarımız arasında mədəni əlaqələrin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

***"Şərq qapısı",***
***01.12.2010***



## NAXÇIVAN MƏNDƏ XOŞ TƏƏSSÜRATLAR YARATDI

Tarixən qədim Naxçıvan torpağı böyük sənətkarlar, incəsənət xadimləri yetirib. Elə XX əsrdə sovetlər dönəmində də naxçıvanlı sənət adamları müxtəlif sahələrdə böyük uğurlar qazanıblar. Son illərdə isə ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində belə insanların üzə çıxarılması, onların layiq olduqları qiyməti alması, adlarının tarixə yazılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir, salnamələr yaradılır. Elə görkəmli kino ustası, Rusiyanın tanınmış səs rejissoru Ələkbər Həsənzadə haqqında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Səsin izi ilə" adlı filmin çəkilişlərinə başlanması da dövlətimizin və xalqımızın görkəmli sənət adamlarına hörmət və ehtiramının ifadəsidir. Rusiyanın "Lennauçfilm" və Azərbaycanın "Salnamə" kinostudiyalarının birgə layihəsi əsasında hazırlanan filmin çəkilişlərinə bu ayın əvvəllərindən başlanılıb. Xatırladaq ki, Ələkbər Həsənzadə 1939-cu ildə Naxçıvanda anadan olub. Hazırda Rusiyanın Sankt-Peterburq şəhərində yaşayan həmyerlimizin " İtaliyalı" adlı son işi Berlin kinofestivalında əsas mükafata layiq görülüb. "Lennauçfilm" kinostudiyasının yüksək dərəcəli səs rejissoru olan həmyerlimiz 2000-ci ildə Rusiyanın "Oskar"ı sayılan "Nika" mükafatını alıb. O, bu mükafatı alan ilk azərbaycanlı kino ustasıdır. Bu günlərdə filmin çəkiliş qrupu Naxçıvana gəlib. Fürsətdən istifadə edib filmin rejissoru Dmitri Sidorovla görüşüb həmsöhbət olduq. Bu söhbətimizi oxucularımızla da bölüşmək istədik:



**– Əvvəla sizi qədim Naxçıvan diyarında görməkdən çox şadıq. Bilmək istərdik ki, Ələkbər Həsənzadə sizin üçün kimdir?**

– Qeyd etmək istərdim ki, əvvəllər mənim bu görkəmli sənətkarla şəxsi tanışlığım olmayıb. Bu ilin əvvəllərində mənə "Lennauçfilm" kinostudiyasından zəng edib soruşdular ki, Ələkbər Həsənzadə haqqında film çəkmək istəyirəm, ya yox. Onu da deyim ki, mən təklif olunan işə

seçimli yanaşıram. Yəni hər təklifi qəbul etmirəm, görəcəyim işi özüm seçməyi xoşlayıram. Ancaq Ələkbər Həsənzadə adı gələndə bu iş məni xüsusilə maraqlandırdı. Çünki bu insan, necə deyərlər, "Lennauçfilm"in yaşayan simvoludur. Bundan başqa, bu insan kinostudiyanın bir neçə dövrünü görmüş bir şəxs, bu studiyanın yaşayan ensiklopediyası, dünyanın ən böyük səs rejissorlarından biridir. Düşündüm ki, onun yaddaşının, xatirələrinin köməyi ilə "Lennauçfilmin" tarixçəsini yazmağa təşəbbüs etmək olar. Ümumiyyətlə, bu adamla tanış olmaq mənim üçün maraqlı idi. Mən onunla görüşdüm və ilk görüşdə biz xeyli söhbət etdik. Söhbət zamanı anladım ki, müsahibimdə Şərqin gözəl və rəngarəng xüsusiyyətləri, özünəməxsus çalarları var. Mən başa düşürdüm ki, o, mənə nə anlatmaq istəyir. Onunla söhbət zamanı çoxlu məsəllər çəkirdi. Anlamışdım ki, bu məsəllər mifologiyadan deyil, onun həyatından, taleyindən götürülüb. Onun xatirələrinin əsası isə uşaqlıq illəri ilə, Azərbaycanla, eləcə də Naxçıvanla bağlıdır. Onun uşaqlıq illərindən xatirələri isə bədii obrazları ortaya çıxarırdı. Deyirdi ki, çətin bədii yaradıcılıq məsələsini həll edərkən əsas elementlərin nədən ibarət olduğunu öyrənmədən işə başlamır. O, komponentləri öz yaddaşından, xatirələrindən, hissiyyatından seçir. Nəticədə isə mənəvi dünyanın zənginliklərindən doğan bir sənət əsəri ortaya çıxır. Həmin o komponentlərdən həm də onun bədii obrazı yaranır. Belə insanları mən bədii obrazların xəzinəsi adlandırardım. Ələkbər Həsənzadə həm də çox açıqsözlü, dostcanlı adamdır. Məhz onunla tanışlıqdan sonra məndə bu bədii obraz haqqında film çəkmək həvəsi oyandı və bu filmi çəkməyə razılıq verdim.

**– Haqqında film çəkəcəyiniz insanın vətəninə gələcəyinizi eşidəndə nə düşündünüz?**

– Bu, məni çox sevindirdi. Bilirdim ki, bu diyar Sovet İttifaqının ən yüksək vəzifəli şəxslərindən, dövrünün görkəmli şəxsiyyətlərindən olan dahi Heydər Əliyevin doğulduğu yerdir. Bu böyük insanın həyat yolu indi milyonlarla insan üçün örnəkdir. Deyə bilərəm ki,



onun haqqında indiyə qədər çox filmlər çəkilib və bundan sonra da çəkiləcək. Ancaq heç bir film, lap "Oskar"a layiq olsa belə, bu dahi insanın gördükləri işləri əhatə edə, onun xarakterinin, amallarının tam açılışını verə bilməz. Qaldı ki, bu dahi insanın həmyerlisi Ələkbər Həsənzadəyə, açığını deyim ki, belə insanlarla həyatımız boyu çox az-az qarşılaşırıq. Onunla söhbətlərimiz zamanı mənə uşaqlıq illərindən, təhsil aldığı məktəbdən, valideynlərindən, övladlarından tez-tez, həm də böyük məhəbbətlə danışardı. Gözlərindən də görürdüm ki, o, bütün varlığı ilə Vətənə, doğma torpağa can atır. Mən onu, qocaman sənətkarı qollu-budaqlı bir çinara bənzədərdim. O, indi sənətinin zirvəsindədir, çinar kimi göylərə ucalıb. Onu nəinki bütün Rusiya, hətta bütün dünya tanıyır. Amma yenə də köklərinin olduğu torpaqdan ayrılmaq istəmir, onu tez-tez xatırlayır. Buraya gəldiyimizdə isə fikirlərimdə yanılmadığımı gördüm. Üstündən neçə illər keçsə də, Ələkbər müəllim doğulub-böyüdüyü məhəlləni, oxuduğu məktəbi, musiqi təhsili aldığı sənət ocağını unutmamışdı. Bu yerlərə baş çəkdikcə onun üzündəki ifadədən necə sevindiyinin, keçmişlə bağlı xatirələrinin onu necə kövrəltdiyinin şahidi olurdum. Bu, mənim həyatımda, bəlkə də, ən yaddaqalan – kino dili ilə desək, kadrlardan biri idi. Bütün ömrüm boyu eşitsəm də, ilk dəfə şahidi olurdum ki, həyatın amansız dalğaları insanları hansı səmtə atsa da, bir insan vətənindən uzaqda ən yaxşı həyat şərtlərində yaşasa belə, yenə də doğma torpağın, elin-obanın həsrətini çəkir. Keçmişlə bağlı heç bir detalı belə unutmur. Əksinə, zehnində zaman-zaman onu yeniləşdirir.

**– Naxçıvan haqqında təəssüratlarınızı bilmək hamımız üçün maraqlı olardı: Sizcə, Ələkbər Həsənzadənin doğulub-böyüdüyü şəhər hansı xüsusiyyətləri ilə onun hazırda yaşadığı şəhərdən seçilir?**

– Bu torpaq hər zaman qoca Şərqin qapısı sayılıb. Bu yer üstündə böyük imperiyalar uzun illər boyu mübarizə aparıb. Ancaq ulu Tanrının ədaləti, insanların mübarizliyi hər şeyi öz yoluna qoyub. Naxçıvanın hakimiyyəti elə bu torpağın oğullarına tapşırılıb.

Yoldaşlarımla etdiyim söhbətlərdən, mənə məlum olan faktlardan da bilirəm ki, bu diyar sovetlər dövründə bir əyalət kimi diqqətdən və qayğıdan kənarda qalıb. Yalnız Heydər Əliyevin Azərbaycanda və Moskvada hakimiyyətdə olduğu illərdə bu torpaqlara diqqət və qayğı göstərilib. Ancaq indi gördüklərimdən belə nəticəyə gəlirəm ki, Azərbaycanın bu bənzərsiz hissəsi böyük inkişaf yoluna qədəm qoyub. Biz burada olduğumuz müddətdə bir neçə mədəniyyət müəssisəsində də olduq. Sizə deyim ki, bu müəssisələrdə yaradılan şərait Rusiyanın mədəniyyət mərkəzi sayılan Sankt-Peterburq şəhəri ilə eynidir. Dövlət çalışmaq, yazıb-yaratmaq, bir sözlə, mədəniyyəti inkişaf etdirmək üçün insanlara hər cür şərait yaradıb. İnanıram ki, daha bir neçə il keçəcək və Naxçıvan Şərqin və Qərbin mədəniyyət mərkəzinə çevriləcək. Və bu diyar bir deyil, onlarla, yüzlərlə Ələkbər Həsənzadə və başqaları kimi sənət dahiləri, korifeylər yetirəcək. Sankt-Peterburq səsli-küylü, qarma-qarışıq bir şəhərdir, ekoloji problemlər boğaza qədərdir. Havalara gəlincə isə şimalda – Sankt-Peterburqda ilin, demək olar ki, əksər fəsillərində Günəş üzünü göstərməkdə xəsislik edir. İnsanlar günəşli günlərdə gəzintiyə çıxır, belə günlərin qiymətini bilirlər. Burada isə Günəşin çıxacağı günü gözləmək lazım deyil. Günəş öz hərarəti ilə hər yeri isidir, hava, su təmizdir, sakitlikdir. Mən yaşadığım şəhərdə ən yaxın qonşu belə, o birini tanımır. İnsanlar arasında qohumluq, dostluq əlaqələri get-gedə yoxa çıxmaqda, adət-ənənələr unudulmaqdadır. Lakin Naxçıvanda hamı bir-birini tanıyır. İnsanlar bir-birlərinə hörmətlə yanaşır və çox qonaqpərvərdirlər.

**– Naxçıvanı necə gördünüz? Bu yurd yeri və onun sakinləri sizi necə qarşıladı?**

– Tarixən xalqlarımız arasında qırılmaz mədəni əlaqələr olub. Sovetlər dönəmində isə mədəniyyətlərimiz daha çox qaynayıb-qarışıb. Naxçıvan ilk görüşdən mənə müasir Avropa şəhəri təsiri bağışladı. Azərbaycanın iqtisadi qüdrətinin artması paytaxt Bakı şəhəri kimi, Naxçıvanda da özünü büruzə verməkdədir. Tarixi-memarlıq ənənələrinin qorunub saxlanması şərti ilə tikilən binalar,



geniş və işıqlı prospektlər göz oxşayır. Bu şəhərin könüloxşayan cəhətlərindən biri də budur ki, böyük şəhərlərdə olduğu kimi gözqamaşdıran bər-bəzəyin çoxluğuna deyil, insanların rahatlığına önəm verilir. Demək olar ki, hər addımda parklar, yaşıllıqları ilə gözoxşayan xiyabanlar var. Yollara, müasirliyi ilə diqqəti çəkən sosial obyektlərə baxarkən fikirləşirəm ki, müstəqilliyin ilk illərindən sonra rəhbərlər bir dəqiqə belə olsun diqqətini xalqın rifahı naminə çalışmaqdan yayındırmayıb. Bundan başqa, qədimliyin, tarixiliyin carçısı olan abidələrin böyük vəsaitlər hesabına bərpa olunması da təqdirəlayiq hadisədir. Naxçıvanın havası mülayim, insanları istiqanlı, qonaqpərvər və gülərüzdür. Məhz sizin insanları da bizlərdən fərqləndirən bu xüsusiyyətlərdir. Bundan başqa, insanlar bizim hansı məqsədlə buraya gəldiyimizi eşidəndə daha çox yaxınlıq göstərir, hər bir sahədə yardımlarını əsirgəmirlər. Bir şeyi də qeyd edim ki, böyük şəhərin hay-küyündən sonra buraya gəlmək şəxsən mənim üçün çox xeyirli oldu. Mən aylardır yuxusuzluqdan əziyyət çəkirdim. Artıq iki gündür ki, bu narahatlığım aradan qalxıb. Çox rahat və sakit yatıram. Yeməklər isə məni xüsusilə valeh edir. Düşünürəm ki, Naxçıvan qonaqlara "gedin yenə qayıdın" deyən şəhərlərdəndir. Bu yerin insanlarında hiss etdiyim əsas xüsusiyyət isə ondan ibarətdir ki, onlar öz keçmişləri, bu günləri, dünyada tanınmış dahi şəxsiyyətləri ilə fəxr edirlər. Min illər boyu bu torpağın sakinlərini məğlubedilməz edən keçmişə sədaqət və bağlılıq, rəhbərlərə hörmət və ehtiram, sabaha inamdır. Məncə, burada yaşamağa, işləməyə, yazıb-yaratmağa dəyər. Bir sözlə deyə bilərəm ki, Naxçıvan məndə xoş təəssüratlar yaratdı.

**– Maraqlı müsahibə üçün sizə öz minnətdarlığımızı bildiririk. İnanırıq ki, "Səsin izi ilə" gəldiyiniz Naxçıvanda apardığınız çəkilişlər kino aləmində böyük səs-səda yaradacaq.**

*"Şərq qapısı",*
***21.08.2010***

## NAXÇIVANDA GÖRDÜKLƏRİM MƏNİ VALEH ETDİ

Bu günlərdə YUNESKO-nun "Şərq xalçaları üzrə Beynəlxalq Konfrans"ın (İCOC) Akademik Komitəsinin sədri, professor Alberto Boralevi Azərbaycana səfəri çərçivəsində Naxçıvana gəlmiş, muxtar respublikanın muzeylərini ziyarət etmiş, tarixi abidələri ilə tanış olmuşdur. Mədəniyyətimizin dostu, dünya şöhrətli xalçaşünas alim, ekspert, xalça sənətinin görkəmli təbliğatçısı və təşkilatçısı Heydər Əliyev Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində, Açıq Səma Altında Muzeydə, Əshabi-Kəhf ziyarətgahında, Yusif ibn Küseyir türbəsində və başqa yerlərdə olmuş, muxtar respublikanın mədəniyyət və incəsənət tarixi ilə maraqlanmışdır. Görkəmli alimlə söhbətimizi oxuculara təqdim edirik.



**– Cənab Alberto Boralevi, Azərbaycana, o cümlədən Naxçıvana səfərinizin məqsədi haqqında oxucularımıza məlumat verməyiniz maraqlı olardı.**

– Azərbaycana birinci dəfə deyil ki, gəlirəm. Azərbaycan mənim üçün dost bir ölkədir. Sizin ölkəyə ilk səfərim 27 il bundan əvvələ – 1983-cü ilə təsadüf edir. O zaman Bakı şəhərində Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi artıq bir neçə il idi ki, fəaliyyət göstərirdi. YUNESKO-nun dəstəyi ilə Azərbaycanda, keçmiş SSRİ məkanında Şərq xalça sənətinə həsr olunmuş birinci Beynəlxalq simpozium keçirilirdi. Bu tədbirə YUNESKO-nun baş direktoru başda olmaqla, böyük nümayəndə heyəti dəvət olunmuşdu. Mən də bu nümayəndə heyətinin tərkibində ilk dəfə Azərbaycana gəlmişdim. Simpozium yüksək səviyyədə təşkil olunmuşdu. O zaman SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olan Heydər Əliyev də bu simpoziumda iştirak edirdi. Simpozium çərçivəsində böyük xalça sərgisi təşkil olunmuşdu. Sərgidə 2 minə qədər xalça nümayiş etdirilirdi. Xalqınızın çox qədim və zəngin xalça sənəti məni, bəlkə də, o vaxt əfsunlamışdır. Bu dəfə də Azərbaycan Respublikası Mədəniyyət



və Turizm Nazirliyinin və Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin dəvəti ilə ölkənizə gəlmişəm. Sizin ölkənizdə xalça sənətinə böyük önəm verilir və qayğı göstərilir. Budəfəki səfər proqramına Bakı, Quba, Lahıc və Naxçıvanın qədim tarix və mədəniyyət abidələri ilə tanışlığı, xalça sənətinin inkişaf səviyyəsi ilə maraqlanmağı daxil etmişəm.

**– Bir qədər də özünüz barədə oxucularımıza məlumat verərdiniz.**

– İtaliyanın dünya şöhrətli mədəniyyət mərkəzi olan qədim Florensiyada doğulmuşam. Bu şəhər orta əsr İtaliyasında intibah mərkəzlərindən biri kimi də tarixə düşmüşdür. İtaliya ədəbiyyatının və mədəniyyətinin, incəsənətinin böyük simaları – A.Dante, C.Bokkaço, Leonardo da Vinçi, Dalatello və onlarla başqaları bu şəhərin dünya mədəniyyətinə və ədəbiyyatına bəxş etdiyi korifeylərdir. Bu şəhərdə Florensiya rəssamlıq məktəbi yaranıb, memarlar yetişib, sənətkarlar fəaliyyət göstərib. Memarlıq üzrə ali təhsil alsam da, qədim Şərqin xalça sənəti həmişə cazibə qüvvəsi ilə məni özünə çəkib. Bilirsiniz, xalça sənəti çox böyük sənətdir. Bu sənəti duyduqca, hiss etdikcə ona vurulursan. Bu sənətin elə sirləri var ki, onu hiss etmək, mən deyərdim ki, dərk etmək olduqca çətindir. Ola bilər ki, kim üçün xalça bəzək elementidir. Məni isə xalçanın estetikası, fəlsəfəsi düşündürür. Düşünmək isə insana xas olan ən bəşəri dəyərdir. Həyatımı bu sənətə həsr etməkdən heyifsilənmirəm, əksinə, xalça sənətinə vurğunluqdan zövq alıram. Bakıdakı xalça muzeyi ilə sıx əlaqələrim var. 2007-ci ildə YUNESKO-nun Parisdəki Mənzil Qərargahında keçirilən Azərbaycan xalçası üzrə dördüncü simpoziuma dəvət olunmağım da Azərbaycan xalçalarına olan heyranlığımla bağlı idi. Bu sənətin böyüklüyünü ifadə edən belə bir Şərq məsəli də var: "Çöldə iynə ilə quyu qazmaq, bir xalça toxumaqdan daha asandır". Elə bilirəm bu məsəl xalça sənətinin böyüklüyünü gözəl ifadə edir.

Ailəmizdə xalça sənətinə böyük maraq olub. Nənəm, anam, atam, qardaşım bu qədim sənətlə bağlı olublar. Gördüyünüz kimi,

bu sənətə vurğunluğum təsadüfi deyil. Florensiyada mənim şəxsi xalça qalereyam da var. Burada 100-dən çox qədim xalça toplamışam və nümayiş etdirirəm. Qalereyada dünyanın müxtəlif ölkələrində xalça sənəti və islam incəsənəti ilə bağlı nəşr olunmuş 5000 kitabı da burada yerləşdirmişəm. Qalereyanın kataloqunu da hazırlayıb nəşr etdirmişəm.

**– Cənab Alberto Boralevi, qalereyanızda Azərbaycan xalçalarını görmək mümkündürmü?**

– Əlbəttə, Azərbaycan xalçaları da var. Ancaq mən bu xalçaları Azərbaycanda yox, xarici ölkələrdə, xüsusilə Şərq ölkələrində keçirilən auksionlardan, şəxsi kolleksiyalardan əldə etmişəm. Bundan başqa, Londonda, Parisdə, Sankt-Peterburqda, Nyu-Yorkda məşhur muzeylərdə Azərbaycan xalçalarını həmişə böyük heyranlıqla seyr etmişəm.

**– Xalça sənətinin ilk dəfə harada yaranması haqqında bir araşdırıcı alim, ekspert kimi fikirlərinizi bilmək olarmı?**

– Bilirsiniz, xalça sənətinin dəqiq harada yaranması haqqında fikir söyləmək düzgün olmazdı, bu, mübahisəli məsələdir. Mənim bildiyim odur ki, dünyanın ən qədim xalçası Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda mühafizə olunur. Rusiyanın Altay ölkəsindən tapılmış bu qədim xalçanın qədim türklərə aid olduğu bildirilir. Hələlik, xalça sənətinin ən qədim nümunəsi budur ki, onun da 2500 yaşı var.

Belə maraqlı faktlar çoxdur. Nyu-Yorkdakı Metropoliten muzeyində XII əsrə məxsus olan bir neçə qədim xalça var. Bu xalçalar Çinin Tibet vilayətindən tapılmışdır. Bu xalçaların ornamentləri sizin Möminə xatın türbənizin səthindəki ornamentlərə oxşayır. Məndə belə bir inam var ki, bu xalçalar Azərbaycanda toxunub. Məni Naxçıvana gətirən bir maraq da bu abidənin ornamentlərini öz gözlərimlə görmək idi. Abidəni öz gözlərimlə gördüm, onun naxışlarına əlimlə toxundum, daha bir arzuma çatdım. Sizin xalça sənətinizin qədimliyini və zənginliyini sübut edən bu faktlar, yəqin ki, hamınız üçün maraq doğura bilər.



**– Cənab professor, rəhbərlik etdiyiniz komitənin fəaliyyəti haqqında danışmanızı xahiş edirəm.**

– Bizim əsas vəzifəmiz dünyada Şərq xalçası və toxuculuq sənəti ənənələrinin izahına yönəlmişdir. İCOC-un yaradıcısı Londonda nəşr olunan "Hali" jurnalının redaktoru mərhum Robert Pinner olmuşdur. Şərq xalçaları üzrə birinci Beynəlxalq konfrans 1976-cı ildə Londonda keçirilmişdir. Növbəti konfranslar Münhen, Vaşinqton, London, Vyana və Budapeşt, Sankt-Peterburq, Hamburq və Berlin, Filadelfiya, Milan, Vaşinqton və İstanbulda olmuşdur. Növbəti, 12-ci konfrans 2011-ci ildə Stokholmda təşkil olunacaqdır.

Sizin ölkənizdə bu qədim sənətə maraq və qayğı məni məmnun edir. 2007-ci ilin 15 mayında Prezidentiniz İlham Əliyev paytaxtınızdakı Dənizkənarı parkın ərazisində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi binasının təməlqoyma mərasimində iştirak etdi. Heydər Əliyev Fondunun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə inşa olunan bu nəhəng bina qeyri-adi muzey olacaqdır. Bükülmüş xalçanı xatırladacaq bu bina qədim sənəti sevənləri heyrətləndirəcəkdir. Yeni muzeyin beynəlxalq səviyyədə təqdimatı və 5-ci xalça simpoziumunun təşkilinə hazırlıq mənə həvalə edilmişdir. 2012-ci ilə nəzərdə tutulmuş bu tədbirlər mədəni hadisə olmaqla yanaşı, dünyada analoqu olmayan nadir xalça muzeyi olacaqdır. Mən buna əminəm.

**– Naxçıvan şəhəri və muzeylərimiz haqqında təəssüratlarınızı bölüşməyinizi istərdik.**

– Naxçıvan şəhəri, onun gözəl küçələri, abad binaları məndə xoş duyğular yaratdı. Küçələriniz yaraşıqlı və təmizdir. İnsanlarınız gülərüz və qonaqpərvərdir. Ləziz şirniyyatlarınıza söz ola bilməz. Heydər Əliyev Muzeyi və Xalça Muzeyi məndə xoş təəssürat yaratdı. Xalça muzeyindəki şərait məni çox məmnun etdi. Muzey çox gözəl təşkil olunub. Muzey elə qurulub ki, hər bir xalçanın gözəlliyini rahat seyr etmək mümkündür. Sizin Xalça Muzeyini bir çox muzeylərdən fərqləndirən əsas cəhət burada xalçaların

nümayiş etdirilməsinə xüsusi diqqət yetirilməsidir. Dünyanın bir sıra ölkələrində xalça və toxuculuq nümunələri bir yerdə nümayiş etdirilir ki, bu da məni o qədər məmnun etmir. Vaxtım az olsa da, Naxçıvanda gördüklərim məni məmnun etdi. Burada gördüklərimi və təəssüratlarımı kağıza köçürməyə çalışacağam. Qədim diyarınız haqqında əldə etdiyim materialları internet saytlarında yerləşdirəcəyəm.

*"Şərq qapısı",*
***21.08.2010***



# NAXÇIVAN MƏNƏ ANA VƏTƏNİM PAKİSTAN QƏDƏR DOĞMADIR

*Pakistan İslam Respublikasının ölkəmizdə diplomatik fəaliyyət müddəti başa çatan fövqəladə və səlahiyyətli səfiri Əbdül Həmid muxtar respublikamızda səfərdə olmuşdur. Biz də fürsətdən istifadə edib səfirlə görüşüb həmsöhbət olduq:*



**– Cənab səfir, əvvəlcə Azərbaycanda uğurlu diplomatik fəaliyyətinizin başa çatmasına görə sizi təbrik edirik. Azərbaycan-Pakistan hər zaman iki dost ölkə olmuşdur. Ümumiyyətlə, Azərbaycan Pakistanın xarici siyasətində hansı yerə malikdir?**

– İlk əvvəl onu deyim ki, dost ölkədə fəaliyyət göstərdiyimə görə çox məmnunam. Azərbaycan və Pakistan bir-birlərinə doğma ölkələrdir. Bu iki dövlətin insanlarının bir-birinə qarşılıqlı məhəbbəti var. Xalqlarımızın mədəniyyət ortaqlığı və tarixdən gələn birgə ənənələri mövcuddur. Azərbaycan bizə çox yaxın ölkədir. Bilirsinizmi, "baycan" sözü urdu dilində "qardaş can" deməkdir.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra qısa zaman içərisində böyük nailiyyətlər qazanmışdır. Bütün sahələrin inkişafında da çox irəliyə getmişdir. Pakistan xarici siyasətində Azərbaycanla möhkəm əlaqələr qurmuşdur. Bu dövlətlər hər zaman dostluq nümayiş etdirmişlər. Pakistan Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. Onu da deyim ki, Azərbaycan və Pakistan arasında münasibətlərin möhkəmlənməsində və inkişaf etdirilməsində dahi siyasətçi Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O deyirdi: "Azərbaycan və Pakistan dövlətləri arasında olan əlaqələri yüksək qiymətləndirirəm və bu əlaqələri dostluq, sıx əməkdaşlıq və qardaşlıq əlaqələri hesab edirəm. ...Bizim xalqlarımızın mənəvi dəyərlərinin, adət və ənənələrimizin bir-birinə bənzər olması və bir çox başqa amillər xalqlarımızı daim bir-birinə yaxın etmişdir. İndi, Azərbaycan dövlət müstəqilliyini əldə

edəndən sonra bu əlaqələr daha da genişlənmiş və daha da yüksəklərə qalxmışdır. Biz gələcəkdə də Pakistan-Azərbaycan əlaqələrinin inkişaf etməsi yolunda çalışacağıq". Ötən müddət ərzində ölkə rəhbərlərinin səfərləri zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələr imzalandıqdan sonra iki ölkə arasındakı əlaqələr daha da möhkəmlənmişdir. Bu, regional məsələlər üzrə iki ölkə arasında mövcud olan mövqelərin oxşarlığına və qarşılıqlı əlaqələrin daha da inkişaf etməsinə öz töhfəsini vermişdir. Beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimizin təmsilçiləri prinsipial məsələlərin həllində bir-birlərinə dəstək olurlar. Azərbaycanda fəaliyyətim zamanı şahidi oldum ki, Prezident İlham Əliyev Pakistan-Azərbaycan münasibətlərinin ən yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmasında maraqlıdır. Bir sözlə, bu gün Pakistandan Azərbaycanın aldığı siyasi dəstək, eləcə də Azərbaycanın Pakistana verdiyi siyasi dəstək yüksək səviyyədədir.

**–Pakistan və Azərbaycan Kəşmir və Dağlıq Qarabağla bağlı problemlərə malikdir. Bu haqda fikirlərinizi bilmək maraqlı olardı...**

–Pakistan Ermənistanı işğalçı ölkə kimi tanıyır. Hər zaman Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini birmənalı şəkildə qınayıb, məhz bu səbəbdən də Ermənistanın müstəqilliyini tanımayıb və onunla heç bir münasibət qurmayıb. Hələ 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Pakistanın sədrliyi ilə işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə bağlı 822 saylı Qətnamə qəbul edilmişdir. Ümumiyyətlə, Ermənistanın Azərbaycana hərbi təcavüzü, Azərbaycan torpaqlarının işğal olunması ilə əlaqədar məsələlərin beynəlxalq təşkilatlarda həll edilməsi və müzakirəsi zamanı Pakistan həmişə prinsipial, ədalətli mövqe tutmuş və Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığını dəfələrlə bəyan etmişdir. Öz növbəsində Azərbaycan daim beynəlxalq arenada Kəşmir problemində Pakistanı dəstəkləyir və problemin



beynəlxalq norma və prinsiplər çərçivəsində həll olunacağına ümid edir. Qeyd edim ki, Pakistan torpaqların işğalı probleminin həllində Azərbaycana dəstək göstərməkdə davam edəcək və Azərbaycan torpaqları azad edilməyənə qədər Ermənistanı tanımayacaq.

**– Cənab səfir, Pakistanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə əlaqələri barədə nə deyə bilərsiniz?**

– Pakistan dövləti ilə Naxçıvan arasında əlaqələr mövcuddur. Mən Azərbaycanda fəaliyyətə başlayanda 2008-ci ilin noyabrında Naxçıvana gəldim. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdüm. Naxçıvanın Pakistan dövlətinə olan səmimi münasibəti məni sevindirdi. Pakistan universitetləri ilə Naxçıvan Dövlət Universitetinin sıx əlaqələri var. Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadə haqqında kitab Pakistanda urdu dilində nəşr olunmuşdur. Ümumiyyətlə, Naxçıvanın Pakistana olan məhəbbəti böyükdür. Ötən ilin avqust ayında Pakistanda baş vermiş sel fəlakətinin Naxçıvan Muxtar Respublikasında da böyük narahatçılığa səbəb olması, muxtar respublikanın Pakistana maddi yardım göstərməsi, hər cür dəstək verməyə hazır olduğunu bəyan etməsi bizləri çox qürurlandırdı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bu addımı bir daha göstərdi ki, bu region daim Pakistanın yanındadır və ölkəmizi hər tərəfdən dəstəkləyir. Mayın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovla görüşümdə muxtar respublikanın bu addımına görə minnətdarlığımı bildirdim. Görüşdə cənab Sədrin əlaqələrimizin daha da möhkəmlənəcəyinə, inkişaf edəcəyinə, hər iki ölkənin bundan sonra da dünya birliyində daim bir-birini dəstəkləyəcəyinə əminliyini ifadə etməsi məni çox sevindirdi.

**– Üç günlük səfər çərçivəsində muxtar respublikanın görməli yerləri, tarixi abidələri, mədəniyyət və istehsal müəssisələri ilə tanış oldunuz. Aldığınız təəssüratlar necə oldu?**

– Naxçıvan mənim üçün maraqlı bir bölgədir. Həm də bu torpaq dünya şöhrətli siyasətçi Heydər Əliyevin doğulduğu torpaqdır.

Naxçıvana 3 il bundan əvvəlki səfərimdə Sədərəkdən başlayıb Ordubada qədər gəzmişdim. Hər addımda muxtar respublikanın inkişafını görmüşdüm. Ən ucqar sərhəd kəndlərindəki ab-hava, insanların gün-güzəranı mənə çox şey deyirdi. Blokada vəziyyətində olan bir bölgədə belə bir inkişaf insanı heyrətləndirir. Bu, onu göstərir ki, bu inkişafın arxasında doğma yurd yerinə güclü bağlılıq hissləri var. İndiki səfərimdə də bir çox yerlərdə oldum. 3 il ərzində diyarınızın çox dəyişdiyini gördüm. Bu, onu göstərir ki, Naxçıvanın inkişafı üçün çox böyük tədbirlər həyata keçirilir. Məsələn, Şərura gedəndə gördüm ki, yol həmin yol deyil. Çox rahat və dünya standartlarına cavab verən bir yol salınıb.

Səmimi deyim ki, Naxçıvan torpağını, buranın insanlarını çox sevirəm. Bu qədim yurd yeri mənə ana vətənim Pakistan qədər doğmadır. Naxçıvan Dövlət Tarix, Sədərək Rayon Tarix-Diyarşünaslıq muzeylərində oldum. Eksponatları izlərkən sanki Pakistanın tarixi ilə yenidən tanış olurdum. Çünki xalqlarımızın adət-ənənələri çox yaxındır. Səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində oldum. Ali təhsil ocağının rektoru ilə görüşdüm. Rektorun timsalında mən Naxçıvan elminin inkişafına bir daha əmin oldum. Naxçıvanın insanları çox səmimi və qonaqpərvərdirlər. Mən hər zaman muxtar respublikada yüksək səviyyədə qarşılanıram. Burada mənə göstərilən bu qayğı və diqqəti Pakistan dövlətinə göstərilən hörmət və ehtiramın ifadəsi kimi dəyərləndirirəm.

*"Şərq qapısı",*
*24.05.2011*



## EDUARD ŞMİDT: NAXÇIVAN İSLAHATLARA DAHA AÇIQ, REGİONUN İQTİSADİYYATI BÖHRANLARA QARŞI DAHA DAYANIQLIDIR

*Xəbər verdiyimiz kimi, oktyabrın 15-də Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsində "Maliyyə savadlılığının artırılması" mövzusunda biznes-forum keçirilib. Forumda Almaniya Əmanət Banklarının Beynəlxalq Əməkdaşlıq Fondunun (SBFIC) layihə rəhbəri Eduard Şmidt də iştirak edirdi. Muxtar respublikamızın qonağı ilə görüşüb həmsöhbət olduq:*



**– Bu fond Azərbaycanla nə zamandan bəri əməkdaşlıq edir?**

– 2011-ci ildə Azərbaycan Respublikası Mərkəzi Bankı maliyyə savadlılığı üzrə Almaniya Əmanət Banklarının Beynəlxalq Əməkdaşlıq Fondu (SBFIC) ilə əməkdaşlıq barədə razılıq əldə edib. Təmsil etdiyim fond hazırda Azərbaycanda maliyyə savadlılığının artırılması tədbirlərində iştirak edir. Bu əməkdaşlığın məqsədlərindən biri də əhalinin əsassız borclanmasının qarşısını almaq üçün insanların gənc yaşlarından maliyyə savadının artırılmasından ibarətdir.

Əməkdaşlıq proqramına uyğun olaraq, fondun dəstəyi ilə 2011-2012-ci tədris ilində ölkənin seçilmiş (pilot) məktəblərində şagirdlərin maliyyə savadlılığının artırılması üzrə tədbirlər keçirilib və hal-hazırda keçirilməkdədir. Bundan başqa, Azərbaycanın orta məktəblərində şagirdlərin maliyyə savadlılığının artırılması üzrə Təhsil Nazirliyi ilə birlikdə xüsusi layihə üzərində də iş aparılır.

**– Fond ilə əməkdaşlıq Naxçıvan Muxtar Respublikasına nə verəcək?**

– Almaniyanın SBFIC Fondu ilə əməkdaşlıq Naxçıvanda gənclərin iqtisadiyyat və maliyyə biliklərinə yiyələnməsinə, muxtar respublika əhalisinin maliyyə savadlılığının səviyyəsinin yüksəl-

dilməsinə xidmət edəcək. Sevindiricidir ki, bu sahədə ilk addımlar atılıb.

**– Naxçıvanla Almaniya şəhərləri arasında hansı oxşar və fərqli cəhətlər var?**

– Burada olarkən Naxçıvan şəhərinin bir çox gəzməli və görməli yerləri ilə tanış oldum. Alman şəhərlərində olan səliqə-sahman, təmizlik Naxçıvanda da var. Bundan başqa, tarixi binalar da ilk baxışdan diqqəti cəlb edir. Alman şəhərləri ilə indi qonağı olduğum şəhər arasında bir fərq var ki, o da insanların şəhərin təmizliyinə, yaşıllığına olan qayğısı ilə bağlıdır. Almaniyada yaşıllığın, təmizliyin qayğısına dövlətdən çox insanlar qalır. Yəni dövlət bu sahəyə o qədər də diqqət yetirmir. İnsanlar özləri maraqlıdırlar ki, gündəngünə sənaye şəhərlərinə çevrilən yaşayış məntəqələrində kiçik bir park salsınlar, hər yer təmiz olsun. Burada isə bu sahədə dövlət maraqlıdır. Mən hara gedirəmsə, şəhərin yaşıllaşdırma və təmizlik-abadlıq işlərilə dövlət müəssisələrinin məşğul olduğunu görürəm. Digər bir diqqəti çəkən məqam isə yaşayış binalarının dövlət tərəfindən təmir edilməsi, insanlara hərtərəfli şəraitin yaradılmasıdır. Məncə, ən böyük sosial siyasət budur. Sizcə, dövlətin vətəndaşın mənzilinə qaz, su, elektrik xətti çəkməsindən, onun evini təmir etməsindən daha böyük sosial siyasət nümunəsi ola bilərmi?

**– Yenə iqtisadiyyat məsələsinə qayıtmalı olacağıq. Naxçıvan, sizcə, iqtisadi səviyyəsinə görə hansı yerdədir?**

– Naxçıvan bu gün iqtisadi sahədə qətiyyətli addımlar atır. Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı statistik göstəricilərə nəzər salarkən, son on altı ildə naxçıvanlıların böyük uğurlar əldə etdiklərinin şahidi oldum. Mən, demək olar ki, Azərbaycanın bütün bölgələrində olmuşam və həyata keçirilən iqtisadi islahatların nəticələri haqqında geniş məlumat almışam. Çox maraqlıdır ki, Naxçıvan ərazi cəhətdən ölkənin əsas hissəsindən aralı olduğu halda, islahatlara daha açıq, regionun iqtisadiyyatı böhranlara qarşı daha dayanıqlı və güclüdür.

**– Sizcə, bu, nə ilə bağlıdır ?**



– Məncə, bu nailiyyətlər siyasi iradənin, nəzərdə tutulan layihələrin reallaşdırılmasında göstərilən qətiyyətin, dəqiq hesablanmış hədəflərin nəticəsində qazanılıb. Mənə dedilər ki, Naxçıvanda elə bir kənd yoxdur, elektrik enerjisi ilə, mavi yanacaqla təmin edilməsin. Bu gün öz inkişaf səviyyəsinə görə dünyaya meydan oxuyan Almaniyada belə, elə yaşayış məntəqələri var ki, orada mavi yanacaq yoxdur. Yəqin ki, fikrimi sizə aydın çatdıra bildim.

**– Müsahibə üçün sağ olun!**

***“Şərq qapısı”,***
***18.10.2012***

## BEYNƏLXALQ FORUMUN İŞTİRAKÇILARI NAXÇIVANDAN XOŞ TƏƏSSÜRATLARLA AYRILIBLAR

*Ölkə paytaxtı Bakı şəhərində keçirilən "Yeni nəsil: sərhədsiz məsuliyyət" adlı II Beynəlxalq Gənclər Forumunun iştirakçıları Naxçıvan Muxtar Respublikasına gəlmişdi. Səfərdə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının gənclərlə işləyən dövlət və hökumət nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, gənc alimlər, ictimai fəal, yaradıcı və istedadlı gənclər iştirak edirdilər. Həmin gənclərdən bir neçəsi ilə görüşüb həmsöhbət olduq, təəssüratlarını öyrəndik.*



**Xoj-Baudi Daayev – Rusiya Federasiyasının Çeçenistan Respublikasının gənclərlə iş naziri:**

– Bildiyiniz kimi, bu forum Qafqazda yaşayan gənclər arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, mədəniyyətlərarası dialoqun dəstəklənməsi, gənc nəslin dinc və davamlı inkişafında, konfliktlərin həllində, məlumatın yaradılmasında və ötürülməsində məsuliyyətinin artırılması məqsədilə keçirilib. Forum sayəsində Qafqazın ən gözəl şəhərinə çevrilən Bakını, tarixin minbir sirrini özündə saxlayan, ulu öndər Heydər Əliyevin vətəni olan Naxçıvanı gördüm. Çoxlu dostlar qazandım. Onlarla fikir mübadiləsi apardım. Bu gün gəncləri maraqlandıran problemlər haqqında söhbət açdıq. Çox maraqlı fikirlərlə qarşılaşdım. Azərbaycan gəncliyinin bu günə qədər qət etdiyi yola bəzi ölkələrin gəncliyi hələ yeni qədəm qoyur. İndi Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 70 faizdən çoxunu təşkil edir. Demək olar ki, Cənubi Qafqazda maliyyə imkanlarının 90 faizi Azərbaycanın əlindədir. Bu ölkədə iqtisadiyyat güclüdür, gənclərin gələcəyi üçün qətiyyətli addımlar atılıb və atılmaqdadır. Gənclər istər idarəetmədə, istərsə də sərbəst sektorda önəmli yerlərə sahibdirlər. Bu da şimallı-cənublu bütün Qafqaz gəncləri üçün böyük imkanlar deməkdir. Biz Qafqaz gəncləri üçün ən əsas olanı



isə odur ki, ölkənizdə millətindən, dinindən, dilindən asılı olmayaraq, hər bir istedadlı gəncə xəyallarını gerçəkləşdirməsi üçün imkanlar yaradılıb. Tam əminliklə deyə bilərəm ki, bu gün Azərbaycanda gənclik üçün yaradılan şərait bütün Qafqaz gəncliyinə nümunə olacaq tərzdədir.



**Marina Filoretova – Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin baş məsləhətçisi:**

– Bu, mənim Azərbaycana 5-ci səfərimdir. Hər bir səfərimizdə mən özüm üçün yeni nələrisə kəşf edirəm, yeni nələrisə öyrənirəm. Sizin ölkənizin çox zəngin mədəniyyəti var. İnsanlarınız fərqlidirlər. Daha çox qonaqpərvərdirlər, istiqanlıdırlar. Bu dəfə keçirilən forumda da vacib müzakirələr aparıldı, ölkəmizdən gələn gənclər Azərbaycandan zəngin təəssüratlarla Rusiyaya dönəcəklər. Naxçıvana gəlincə, deməliyəm ki, ilk dəfədir, burdayam. Mən bilirdim ki, Naxçıvan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətənidir. Bizə məlumat verildi ki, Naxçıvan Azərbaycana dünya şöhrətli bir çox şəxsiyyətlər bəxş edib. Heydər Əliyev Muzeyində çox maraqlı məlumatlar aldıq. Duzdağ mağarası isə mənim yaddaşımdan uzun müddət silinməyəcək. Sadəcə, möhtəşəmdir. İndi isə biz Möminə xatın abidəsinə baxırıq. Orta əsrlərdə bu qədər möhtəşəm abidənin inşası və bu günə qədər qorunub saxlanması azərbaycanlıların öz keçmişlərinə bağlılığının və hörmətinin ifadəsidir. Naxçıvanın səliqə-sahmanına isə söz ola bilməz; bir də insanların qonaqpərvərliyini və dadlı yeməklərinizi mütləq vurğulamalıyam. Etiraf etməliyəm ki, bura gələndən sonra Naxçıvan haqqında fikirlərim tamam dəyişdi. Mən ucqar bir şəhər olacağını düşünürdüm, amma inkişaf etmiş bir şəhər gördüm.



**Lyudmila Trofimova – "Yeni nəsil: sərhədsiz məsuliyyət" II Beynəlxalq Gənclər Forumu-**

**nun iştirakçısı:** – Forumun əhəmiyyəti ilə bağlı onu deyə bilərəm ki, bu cür forumların keçirilməsi, dünyada gənclərin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün, dünyanı narahat edən müxtəlif problemlərin həllində səylərini birləşdirməsi üçün çox vacibdir. Forumun yüksək səviyyədə təşkil edilməsi mühüm məsələlərdəndir və mən düşünürəm ki, Azərbaycan bu məsələyə ciddi diqqət yetirir. Nəticə olaraq, forum yüksək səviyyədə təşkil olunmuşdu. Forumda çox maraqlı fikirlər səsləndi, ekoloji və sosial problemlərin həlli yolları ilə bağlı gənclərin üzərinə düşən məsuliyyət müzakirə edildi.

Naxçıvana təşkil edilən bu səfəri isə hələ uzun zaman xatırlayacağam. Heydər Əliyev Muzeyi, Duzdağ mağarası, Möminə xatın türbəsi, "Xan Sarayı"nda olmuşuq. Burda – "Xan Sarayı"nda çox maraqlı məlumatlar əldə etdik. Binanın memarlıq üslubu da diqqətçəkicidir. Naxçıvan çox gözəldir. Mən çox şadam ki, burdayam.

*"Şərq qapısı",*
*27.11.2012*



# İBRAHİM ETHEM ATNUR: NAXÇIVAN 50 İLƏ KEÇƏCƏYİ YOLU 15 İLDƏ QƏT EDİB

*Türkiyənin Radio-Televiziya Qurumunun (TRT) bir qrup əməkdaşı Türk Tarix Qurumunun üzvü, Naxçıvanın tarixinin xarici tədqiqatçılarından biri olan professor-doktor İbrahim Ethem Atnurun rəhbərliyi altında Naxçıvanda yeni bir tarixi filmin çəkilişlərini aparıb. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan tarixinin (1918-1921) əsas tədqiqatçılarından biri olan İbrahim Ethem Atnurla "Şərq qapısı" qəzetinin redaksiyasında görüşdük, son 17 il ərzində, demək olar ki, tamamilə yenidən qurulan Naxçıvan haqqında təəssüratlarını öyrənmək, çəkilən filmlə bağlı daha geniş məlumat almaq üçün ona bir neçə sual ünvanladıq:*

**– Naxçıvana xoş gəlmisiniz. Sizin "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921)" adlı kitabınız muxtariyyət ərəfəsində Naxçıvanın tarixinə həsr olunub. Bu əsər Naxçıvanın o dövr tarixinə aid ilk tədqiqatlardan biridir. Niyə məhz Naxçıvan və yaxud İbrahim Ethem Atnuru Naxçıvana bağlayan nədir?**



– Biz illər boyu bağlı sərhədlər arxasında qalmış Azərbaycana həmişə həsrət çəkmişik. Tədqiqat mövzusu kimi Azərbaycanı, daha konkret desək, Naxçıvanı seçməyimə əsas səbəb bu olmuşdu. Digər bir tərəfdən, o zaman üçün bu, araşdırılmamış bir mövzu idi. Məlumdur ki, elmi dərəcə almaq üçün doktorluq mövzusu seçərkən tədqiq olunmamış mövzu seçmək lazımdır. Mən də müəllimlərimin tövsiyəsi ilə Naxçıvan mövzusunu seçdim.

Lakin etiraf edim ki, mövzunu seçdikdən sonra çox çətinliklər çəkdim. Çünki o zamana qədər Türkiyədə bu mövzu araşdırılmamışdı. Çox məhdud çərçivədə məlumata sahib idik.

Mövzunun ətraflı tədqiqinə çətinlik törədən amillərdən biri də bəhs olunan dövrdə Naxçıvanın indiki sərhədlərdən daha geniş ərazini əhatə etməsi idi. O dövrün Naxçıvanı tarixdən də məlumdur

ki, İrəvanın cənubundan başlamış İqdır, Sürməli, Sərdarabad, Vedibasar və digər ərazilər də daxil olmaqla böyük bir ərazini əhatə edib.

Doğrusunu deyim ki, mən bu mövzudan imtina etməyə iki dəfə cəhd də göstərmişəm. Ötən əsrin 90-cı illərinin əvvəllərində Türkiyə ilə Naxçıvan arasında bir körpü açıldı. 1992-ci ilin 28 mayında istifadəyə verilən Sədərək-Dilucu körpüsü bizi qardaşlarımızla qovuşdurdu. Mən də dərhal Naxçıvana gəldim. İnanın, o vaxt Naxçıvanda qalanda çox çətinliklərlə qarşılaşdım. İndi bu qarşı tərəfdə gördüyümüz yaraşıqlı "Təbriz" mehmanxanası o vaxt bərbad vəziyyətdə idi. İnsanlar ağacları kəsib evlərinə aparırdılar. Çünki yanacaq yox idi. İndi gözəl bir yaşayış məntəqəsinə çevrilmiş Sədərək o zaman ermənilər tərəfindən bombalanmışdı. Ordubadda, Batabat istiqamətində müharibə gedirdi. Lakin naxçıvanlılar bütün məhrumiyyətlərə baxmayaraq, düşmən qarşısında dirəniş göstərirdilər. Düşmən qarşısında əyilməyən naxçıvanlıların hələ o zaman dost qarşısında necə istiqanlı və səmimi olduqlarını gördüm. O çətin vaxtlarda insanlar mənə çox kömək etdilər. Rayonları gəzirdim, insanlarla ünsiyyət qururdum. Bəzi kitablarla tanış oldum. Amma o zaman mənim üçün ən maraqlı mənbələrdən biri "Şərq qapısı" qəzeti oldu. Hələ o zaman "Şərq qapısı" qəzetində Naxçıvanın muxtariyyət ərəfəsindəki tarixi ilə əlaqədar bir sıra yazılar çap edilmişdi. Lətif Hüseynzadə ilə tanış olduq. O, həmin dövrü görmüş bir insan kimi bizə çox dəyərli məlumatlar verdi.

Sonralar isə mövzu ilə bağlı digər məlumatları da Azərbaycan, Türkiyə, İngiltərə və Amerika hərbi arxivlərindən əldə etdim. Təsəvvür edirsinizmi, bunlar nəyin göstəricisidir? Bunlar Naxçıvanın tarixin bütün dövrlərində strateji əhəmiyyətini qoruyub saxladığını sübuta yetirir.

"Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921)" adlı kitabım əvvəlcə Türkiyədə çap olundu. 1999-cu ildə isə tədqiqatlarımın nəticəsi olan kitabı burada "Muxtariyyət ərəfəsində Naxçıvan" adı ilə çap etdilər. Sonralar kitabım ikinci



dəfə 2001-ci ildə Ankarada Türk Tarix Qurumunda çap edildi.

**– Qeyd etdiniz ki, XX əsrin 90-cı illərində siz buraya gələndə soyuq otaqlar, soyuq evlər, amma istiqəlbli insanlar gördünüz. Budəfəki gəlişinizdə Naxçıvanı necə gördünüz?**

– Sonuncu dəfə Naxçıvana 2008-ci ildə gəlmişdim. Naxçıvanın inkişafının canlı şahidi oldum. Amma indi gördüyüm Naxçıvan, həqiqətən də, məni heyrətləndirib. Qısa zaman ərzində çox şey dəyişib. Mən Azərbaycanın digər regionlarında da olmuşam. Bütün regionlar inkişaf edib, amma Naxçıvan daha üstün inkişaf səviyyəsinə gəlib çatıb. Bu da mütləq mənada yerli idarəçiliyin əsas uğurlarından sayılmalıdır. Nəinki şəhərlər, rayon mərkəzləri, hətta kəndlərdə belə, yeni binalar, hətta deyərdim ki, sadəcə, binalar yox, memarlıq abidələri yaradılır. Quruculuq işlərini burada xüsusi zövqlə həyata keçirirlər. Buranı tərif etmək üçün demirəm. Tam ciddiyəm: mən belə yolları ancaq Amerikada görmüşəm. Biz TRT-nin heyəti ilə kəndlərdə olarkən tikilən yeni məktəb binalarını gördük. Bir şeyə əmin olduq: dövlət neftdən gələn gəlirlərini sərmayə şəklində gələcəyə, insanların inkişafına yönəltməkdədir.

Naxçıvan çox dəyişib. Dəyişməyən bir hal var: o da insanların isti münasibətləridir.

**– Naxçıvana budəfəki gəlişinizin məqsədi nədir?**

– Bu dəfə ssenarisini özüm yazdığım bir sənədli film çəkirik. Bilirsiniz ki, 1918-ci ildə Osmanlı orduları bu ərazilərdən geri çəkilərkən yerli əhali bir neçə hökumət qurub. Naxçıvan ərazisində ermənilərə qarşı müdafiəni təşkil etmək məqsədilə Araz-Türk Respublikası, bir az qərbə doğru Qars İslam Şurası, bir az yuxarı ərazilərdə isə Ahıska Türk Hökuməti yaradılıb. Bu ərazilərdə sonradan qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyəti hökumətinin rəhbəri Cahangiroğlu İbrahim bəy adlı bir insan olub. Bu insan əslən gümrülüdür, lakin Qarsda böyüyüb. Cahangiroğlu İbrahim bəyin Naxçıvanın tarixində də xidmətləri var. O, Naxçıvanda qurulan Araz-Türk Respublikasının hərbi naziri olub. Biz onun haqqında portret filmi çəkirik. Yəni mənim yazdığım bir tarix kitabını film-

ləşdiririk. Ssenarini yazarkən düşündük ki, bu insan haqqında film çəkiriksə, çəkilişlərin bəzi hissələri mütləq Naxçıvanda aparılmalıdır.

**– Bu həm də Naxçıvan üçün bir tanıtım filmi olacaq?**

– Bəli, belə də demək mümkündür. TRT-nin dünyanın hər yerində yayımlandığını bilirsiniz. Bu şirkət bir neçə televiziyanı birləşdirir və çəkdiyimiz film bu televiziyalarda yayımlanacaq. Deməli, insanlar həm də Naxçıvanın tarixi haqqında, Naxçıvan haqqında daha geniş məlumat əldə etmək imkanı qazanmış olacaqlar. İnsanlar bu bölgədə yaşayan əhalinin əsrin əvvəllərində hansı qəhrəmanlıqları nümayiş etdirdiklərinin şahidi ola biləcəklər.

Təkcə tarixi hadisələri deyil, həm də burada – Naxçıvanda yaradılan mədəniyyəti dünyaya nümayiş etdirəcəyik. Biz Möminə xatın, Qarabağlar türbələrində çəkilişlər apardıq. Bu abidələr təkcə memarlıq inciləri deyil, həm də bu torpağın kimə aid olmasını sübut edən sənədlərdir.

**– Bir tədqiqatçı kimi Naxçıvanın müasir dövr tarixinə aid tədqiqat əsərləri yazmaq fikriniz varmı?**

– Mən, ümumilikdə, Azərbaycanın müasir dövr tarixinə aid bir çox yazılar yazmışam. Xüsusilə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Naxçıvanın blokada vəziyyətinə düşməsi ilə bağlı bir çox məsələlərə yazılarımda toxunmuşam. Amma mən bəzən düşünürəm ki, blokada şəraiti Naxçıvanın inkişafını dayandıra bilməyib. Naxçıvanlıların əzmi və cəsarəti sayəsində Naxçıvan inkişaf edib. Konkret olaraq Naxçıvanın müasir tarixi ilə bağlı nə isə yazacağımı hələ ki planlaşdırmamışam. Ancaq bu barədə düşünürəm. Lakin müxtəlif elmi konfranslarda, kütləvi informasiya vasitələrinə müsahibələrimdə bu haqda danışacağım şəksizdir.

Bir daha vurğulayım ki, Naxçıvan blokadaya baxmayaraq, sürətlə inkişaf edib. Burda 50 il ərzində görüləcək işlər 15 ildə görülüb. Naxçıvan düşmənlərə gözdağına çevrilib.

**– Maraqlı müsahibəyə görə sağ olun.**

***"Şərq qapısı",***
***28.05.2013***



## RUSİYALI AKADEMİKİ NAXÇIVANA GƏTİRƏN ƏSƏRLƏR

*"Yeni era" Dünya Rəssamlar Akademiyası, yəqin ki, oxucularımızın əksəriyyəti üçün tanış bir qurum deyil. Dünyada məşhur olan bu yaradıcılıq akademiyasına həmyerlimiz, istedadlı rəssam Ülviyyə Həmzəyevanın həqiqi üzv seçilməsi bu qurumu naxçıvanlılara tanıtdı. Akademiyanın yeni üzvünə – Ülviyyə Həmzəyevaya üzvlük diplomunu qurumun rəhbəri, Rusiya Humanitar Akademiyasının üzvü, Rusiya Federasiyasının əməkdar rəssamı Anatoli Silov şəxsən özü təqdim etdi. Təqdimetmə mərasimindən sonra rusiyalı qonaq öz təəssüratlarını bölüşdü. 75 yaşlı akademik onu Rusiyadan Naxçıvana çəkib gətirən Ülviyyə Həmzəyevanın sənətindən, Naxçıvan rəssamlıq məktəbində gördüyü maraqlı məqamlardan danışdı.*

**– Anatoli Aleksandroviç, qonaqdan, adətən, gəlişinin məqsədini soruşmuruq, ancaq "xoş gəlmisiniz qədim Naxçıvan torpağına", – deyirik.**



– Etiraf edim ki, mən akademiyamızın üzvlərinə diplomların təqdimatı üçün, adətən, heç yerə getmirəm. Əksinə, "Yeni era"nın prezidenti kimi mənim qəbuluma, Moskvaya gəlirlər. Buranın üzvü olmaq üçün hətta, bəzən illərlə növbəyə də dururlar. Ancaq Ülviyyə Həmzəyevaya diplom təqdiminə özüm şəxsən gəlmişəm. Çünki onun əsərləri ilə internetdə tanış olarkən o qədər xoşuma gəldi ki, bu gənc rəssamı şəxsən görmək, onun əsərlərini yaxından seyr etmək, bu əl işlərinə toxunmaq istəyi yarandı məndə. Digər tərəfdən onun "yaradıcılıq mətbəxi" ilə yaxından tanış olmaq marağı güc gəldi. Yaşadığı məkanla, mühitlə tanış olmaq istədim. Çünki rəssamın yaradıcılığına bu amillər çox təsir edir. Naxçıvana gələndə isə Ülviyyə Həmzəyevanın əsərlərinin belə mükəmməl alınmasının sirrini anladım. Naxçıvan bir rəssam üçün ideal məkandır. Mənə, sadəcə, heyrətlənmək qaldı. Mənim üçün çox xoşdur ki, sizin muxtar respubli-

kadayam və akademiyanın mükafatını belə gənc rəssam xanıma təqdim edirəm. Azərbaycanın, Naxçıvanın belə gözəl rəssamına diplom vermək mənim üçün qürurvericidir. Biz ondan böyük ümidlə yeni, maraqlı əsərlər, yaradıcılıq maneraları gözləyirik. Çünki o, buna layiq olduğunu öz əsərləri ilə sübut edib. O, dünya səviyyəsində məşhur bir rəssam olacaq. Mən onun böyük gələcəyinə inanıram.

**– Əsərlərdə diqqətinizi çəkən nə oldu?**

– Bu əsərlər çox maraqlı və bənzərsizdir. Bizim akademiyanın 60 nəfər üzvü var. Onlardan 4-ü Azərbaycanın xalq rəssamıdır. Ülviyyə Həmzəyeva 5-ci azərbaycanlı, hələ ki, birinci naxçıvanlıdır bizim sıralarımızda. Onun əsərlərindəki kolorit, mövzu mənim diqqətimi çəkdi. Mən özüm Çuvaşiyada anadan olmuşam və dünyanın bir çox yerlərini gəzmişəm. Türk dünyasını da yaxşı tanıyıram. Maraqlı burasıdır ki, bizim akademiyanın üzvlərinin çoxu türkdilli dövlətlərin rəssamlarıdır. Mən Ülviyyənin əsərlərində ümumtürk ruhunu hiss elədim. Bura gələndən sonra isə baxdım ki, onun rəsmləri elə Azərbaycan xalqının, naxçıvanlıların yaşam tərzi, düşüncəsi və koloritidir.

**– Anatoli Aleksandroviç, bəs sizcə, bu akademiyanın üzvü olmaq bizim rəssama nə verəcək?**

– Ülviyyə Həmzəyeva bizim akademiyanın həqiqi üzvüdürsə, deməli, onun əsərlərini təşkil etdiyimiz sərgilərdə nümayiş etdirəcəyik. Bir də onu qeyd edim ki, Ülviyyə Həmzəyeva akademiyanın birbaşa həqiqi üzvü, daha dəqiqi, akademiki seçilən az sayda rəssamlardandır. Bizə əvvəlcə müraciət olunur, sonra rəyasət heyəti həmin rəssamın işlərinə baxır, ona rəy verir. Sonra o, üzvlüyə qəbul edilir. Bir müddət keçdikdən sonra həqiqi üzv seçilir. Hətta mənim özümün ərizəmi 6 dəfə geri qaytarıblar. Ancaq Ülviyyə Həmzəyeva hamının yekdil rəyi ilə rəssamlıq akademiyamızın birbaşa həqiqi üzvü seçilib. Bununla qürur duymağına dəyər. Sözsüz ki, sərgi salonlarımızın da coğrafiyası genişdir. Yaponiya, Amerika Birləşmiş Ştatları, Rusiya, Çin və sair. Təsəvvür



edin ki, dünyanın hər yerindən olan rəssamların əsərlərinin sırasında Naxçıvan mövzusu da olacaq. Yeri gəlmişkən, Ülviyyənin əsərlərindəki rənglər elə Naxçıvanın dağlarının rəngidir.

**– Deyəsən, vuruldunuz Naxçıvana?**

– Əlbəttə, şəhərə söz ola bilməz. Rusiyadan çox uzaqda yerləşən Naxçıvan şəhərində olmaq mənim üçün çox maraqlıdır. Şəhər çox gözəl, yaşıl və təmizdir. Məncə, ən sakit yerdir. Ömür vəfa etsə, gələcəkdə də bura gəlmək fikrim var.

**P.S. "Yeni era" Dünya Rəssamlıq Akademiyasının təşkil etdiyi sərgilərə əsər göndərməkdə Ülviyyə xanıma sərbəstlik verilib. Hansı əsərini istəsə, ora təqdim edə bilər.**

**– Bəs bu hansı əsər ola bilər? sualımıza rəssamın cavabı "Naxçıvan bəşəriyyətin beşiyidir" əsəri, oldu.**

*"Şərq qapısı",*
***05.06.2013***

## TRABZON DÖVLƏT TEATRI 26-CI MÖVSÜMÜNƏ NAXÇIVANDA BAŞLADI

Avqustun 30 və 31-də muxtar respublikamızın qonağı olan Türkiyənin sayılıb-seçilən dövlət teatrlarından biri – Trabzon Dövlət Teatrı naxçıvanlılar qarşısında maraqlı tamaşa ilə çıxış etdi. Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunun və Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı və dəvətilə muxtar respublikamıza gələn teatr yeni – 26-cı mövsümün açılışını naxçıvanlılar qarşısında etdi. Türkiyə Cümhuriyyətinin dövlətçilik tarixində mühüm yer tutan 30 avqust – Zəfər bayramının növbəti ildönümü münasibətilə nümayiş etdirilən tamaşa Uğur Saatçının eyniadlı əsəri əsasında səhnələşdirilmişdir. İkipərdəli tamaşaya Barış Erdenk quruluş vermişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında nümayiş olunan "Bu da keçər ya hu" adlı səhnə əsəri komediya janrında olsa da, tamaşada baş verən hadisələr Birinci Dünya müharibəsindən sonra İstanbulu işğal edən ingilisləri doğma torpaqlarından çıxarmaq istəyən bir neçə nəfərin əhatəsində cərəyan edir. Tamaşa Mustafa Kamal Atatürkün komandanlığında türk ordusunun mübarizəyə başlamasıyla – ingilislərin də İstanbuldan çıxarılmasına başlanıldığı xəbəriylə, yəni xoş xəbərlə yekunlaşır.

İki gündə iki dəfə göstərilən tamaşa boyu zalda boş yer tapmaq mümkün deyildi. İlk gündən fərqli olaraq, ikinci gündə artıq nəinki zal, ikinci və üçüncü mərtəbələrdəki lojalarda belə, boş yer qalmamışdı.

Tamaşanın birinci nümayişindən sonra qonaq teatrın direktoru, tamaşada admiral Kolthard rolunu ifa edən Birkan Görgün və əsərdə Falih rolunu canlandıran Fatih Dokgöz ilə həmsöhbət olduq:

**– Sizi beş minillik tarixi olan qədim türk yurdu Naxçıvanda görməyimizə şadıq. İlk olaraq sizi, teatrın kollektivini bu gözəl tamaşa münasibətilə təbrik edirik. Bu tamaşadan sonra naxçıvanlılar Trabzon Dövlət Teatrını ətraflı tanımaq istəyəcəklər.**





**Birkan Görgün:** – Trabzon Dövlət Teatrı Türkiyə dövlət teatrlarına bağlı olaraq, fəaliyyət göstərən 13 bölgə teatrından biridir. 1987-ci ildə yaradılan teatrımız həmin ilin oktyabr ayının 7-də Necati Cumalının "Boş beşik" əsərilə tamaşaçılar qarşısında çıxışlara başlayıb. 25 mövsüm boyu 120-yə yaxın əsər oynanılıb. Bu gün 26-cı mövsümümüzə başladıq və çox sevincliyik ki, ilk dəfə olaraq mövsümü ölkəmizdən kənarda, canımız qədər sevdiyimiz doğma Azərbaycan torpağında, Naxçıvan tamaşaçıları qarşısında açdıq. Bu, bizim teatrın tarixində əbədilik olaraq öz yerini tutacaq.

Tamaşanın ilk günü zalda oturacaqların hamısı tutulmuşdu. Bir teatrsevər, sənətsevər olaraq deyə bilərəm ki, sabah daha çox tamaşaçı teatra axışacaq.

Tamaşanın sonunda naxçıvanlıların bizi uzun sürən alqışlarla təbrik etməsi, kollektivimizin hər bir üzvünə gül-çiçək dəstələri hədiyyə etməsi göstərdi ki, zalda olanların əksəriyyəti tamaşanı təkrar izləməyə gələcək, hətta dost-tanışlarını da dəvət edəcək. Səhnə arxasına keçərkən bizimlə şəkil çəkdirmək istəyən teatrsevərlər bildirirdilər ki, mütləq sabah da gəlib tamaşanı izləyəcəklər.

**– Fatih bəy, 27 yaşlı gənc bir yazarın – Uğur Saatçının əsərinin səhnə həlli tamaşaçılara istənilənі deyə bildimi, sizcə?**



– Əslinə qalarsa, tarixin bizə anlatdığı savaş savaşın öz həqiqətlərindən çox uzaqdadır. Bu baxımdan tamaşada savaşın içində olan, amma savaşla əlaqəsi olmayan insanların həyatını canlandırmağa çalışdıq; həm də tragediyanın içində yumoristik bir üslub seçərək. "Bu da keçər ya hu", əslində, elə müharibə illərində İstanbulun bir qisim əhalisinin Vətən üçün nəsə etmək istəyinin hekayəsidir. Birinci Dünya müharibəsinin sonunda Türkiyənin müstəqillik mücadiləsi başlayır. Həmin hadisələr əsərdə

qismən anladılıb. Əsərin sonundakı sevinc Atatürkün "Böyük türk milləti! Ordularımızın qabiliyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi. Böyük zəfər sənin əsərindir" sözlərinin sevinci ilə üst-üstə düşür.

**– Bir az teatrdan, səhnədən, tamaşadan ayrılaq. Səhv etmirəmsə, kollektivin hər bir üzvü ilk dəfədir, Naxçıvana gəlir. Naxçıvan sizi necə qarşıladı, nələr gözləyirdiniz, nələr diqqətinizi çəkdi?**

**Birkan Görgün:** – Naxçıvanın, Atatürkün dediyi kimi, bir türk qapısı olduğunu bilirdik. Lakin sovetlərdən 20 ildən bir az çox olsa da, ayrılmasına baxmayaraq, bu qədər inkişaf etmiş bir bölgə ilə qarşılaşacağımızı gözləmirdik. İstər yerli dövlət nümayəndələri, istərsə də Türkiyənin Naxçıvandakı Baş Konsulluğu bizim rahatlığımız üçün ən kiçik nüanslara qədər həssaslıq göstərdilər. Özümüzü öz evimizdəki kimi hiss edirik. Dilimiz bir, dinimiz bir, kimliyimiz bir.

Ən əsası isə tərtəmiz bir şəhərdir Naxçıvan. Qədim tikililəri ilə, çağdaş binalarıyla, memarlıq fərqləriylə könlümüzü oxşadı.

**Fatih Dokgöz:** – Naxçıvan şəhəri ilə tanışlıq imkanımız da oldu. Həm də onu öyrəndik ki, Naxçıvanın beş minillik şəhər tarixi var. Bu, çox böyük bir rəqəmdir və deməli, burada mədəniyyət ta qədimlərdən mövcud olub, inkişaf edib. Duzdağ mağarası ayrıca bir möcüzədir.

Biz Azərbaycan və Türkiyəni "Bir millət, iki dövlət" adlandıran dahi rəhbər Heydər Əliyevin Vətənindəyik. Heydər Əliyev Muzeyində eksponatlarla tanış olarkən ulu öndər Heydər Əliyevin çətin və şərəfli yolunu geniş izahla öyrəndik. Azərbaycan xalqının tarixində və taleyində böyük və əvəzsiz yeri olan bir lideri də məhz tarixi qədim olan diyar yetişdirə bilər.

Sürəkli alqışlar da göstərdi ki, tamaşayla istəyimizə nail ola bilmişik. Həm də naxçıvanlıların sevgisini qazana bilmişik. Bu da o deməkdir ki, bu şəhərin insanları sənətə böyük dəyər verirlər.

**– Son olaraq oxuculara demək istədikləriniz bir şey varmı?**



**Birkan Görgün:** – Heyif ki, səfərimiz qısa çəkdi. Amma çox böyük təəssüratlar içərisindəyik. Naxçıvanı, naxçıvanlıları çox sevdik. İnanırıq, onlar da bizim tamaşamızı bəyənib bizi sevdilər. Bundan sonra da fərqli səhnə əsərləriylə buraya yenidən gəlmək istərdik.

**Fatih Dokgöz:** – Tərtəmiz bir şəhərdə yaşayırsınız. Bu ancaq Vətənini sevən, qədirbilən insanların sayəsində mümkündür. Vətəninin qədrini bilib onu sevənlər o Vətənin sənətini də, ədəbiyyatını da, qonağını da sevəcək. Ayrılmaq istəməsək də, getmək məcburiyyətindəyik. Amma bu sevgini də qəlbimizdə aparacağıq – bir daha yenidən görüşmək ümidi ilə həm də.

***"Şərq qapısı",***
***04.09.2013***

## BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI NAXÇIVAN HAQQINDA

*Xəbər verdiyimiz kimi, Naxçıvan şəhərindəki Biznes Mərkəzində Beynəlxalq Miqrasiya Təşkilatının təşəbbüsü ilə keçirilən beynəlxalq konfransda Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya xidmətlərinin əməkdaşları ilə yanaşı, 8 dövlətin aidiyyəti qurumlarının nümayəndələri də iştirak ediblər. Beynəlxalq konfransda iştirak edən qonaqlar Naxçıvanın müxtəlif tarixi məkanları, gəzməli-görməli yerləri ilə də tanış olublar. Belə gəzintilərdən biri zamanı müxtəlif ölkələrdən gəlmiş xarici qonaqlardan bəziləri ilə görüşüb onların Naxçıvanla bağlı təəssüratlarını öyrəndik.*



**Serhan Aktoprak (Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin rəhbər əvəzi – Türkiyə):**

– İlk dəfə Naxçıvana 2009-cu ildə gəlmişəm. O dövrdən indiyə qədər Naxçıvanda möhtəşəm dəyişikliklər görürəm. Naxçıvan Azərbaycanın ən sürətlə inkişaf edən regionudur. Sonuncu dəfə bura, təqribən, 13 gün əvvəl gəlmişdim. İnanın ki, 13 gündən sonra belə, burada dəyişikliklər var. Naxçıvanın təmizliyi, səliqəliliyi payız fəslində belə, diqqət çəkir. Amma bəzi dəyişməyən məsələlər də var. Məsələn, Naxçıvan bütün tarix boyunca olduğu kimi, bu gün də bütün türk dünyasının göz bəbəyidir. Naxçıvanın geostrateji mövqeyi həmişə olduğu kimi, bu gün də əhəmiyyətini saxlamaqdadır. Naxçıvan İslam mədəniyyətinin mərkəzlərindən biri olmaqla yanaşı, həm də müxtəlif mədəniyyətlərə hörmətlə, saygı ilə yanaşmağı bacaran insanları ilə seçilir. Beynəlxalq Miqrasiya Təşkilatı olaraq ən çox diqqət yetirdiyimiz məsələlərdən biri multikulturalizm konsepsiyasıdır ki, bu konsepsiya çərçivəsində baxdığımız zaman Naxçıvan və ümumilikdə, Azərbaycan bir nümunədir. Dünyada gedən bu prosesləri nəzərə alsaq, əminliklə deyə bilərəm ki, dünyanın müxtəlif ölkələrinin idarəçiləri Naxçıvandakı bu tolerant yanaşmanı nümunə götürməli, bunu öyrənməlidirlər. Əgər biz "hər şey insan üçün" ideyasını əsas götürürüksə, Naxçıvanda bu ideya artıq reallığa çevrilib.





**Mark Hulst (BMT-nin Gürcüstandakı Nümayəndəliyinin Proqram rəhbəri – Hollandiya):**

– Mən Hollandiyadanam, Tiflisdə yaşayıram və işləyirəm. İlk dəfədir ki, Naxçıvana gəlirəm. Bura mənim üçün yeni bir yerdir. Təbii ki, məni xüsusi cəlb edən məsələ buranın inkişafıdır. Hansı ki bu inkişaf ilk baxışdan sezilir: yeni binalar, rahat yollar, təmiz və səliqəli şəhər – ümumilikdə, inkişaf etmiş infrastruktura malik Naxçıvan, bir də mehriban və səmimi insanlar. Tarixi abidələrinizlə tanış olduqdan sonra isə başa düşdüm ki, bu tərəqqi və inkişaf tarixi ənənələrə dayanır. Naxçıvan mənim yaddaşımda belə qalacaq.



**Oleq Zalyubivski (Ukrayna Dövlət Sərhəd Xidmətinin Risk Qiymətləndirilməsi İdarəsi rəhbərinin müavini, polkovnik):**

– Mən bu gün Naxçıvana Ukrayna Dövlət Sərhəd Xidmətinin polkovniki kimi gəlmişəm. 25 il əvvəl isə mən burada sərhədi qoruyan bir zabit idim. Naxçıvana gələndə, sadəcə, Araz çayı və Haça dağı görəndə əmin oldum ki, bura Naxçıvandır. Qalan hər şey dəyişib. Naxçıvan tamamilə dəyişib, inkişaf edib. Burda tarixlə müasirliyin vəhdəti yaradılıb. Muxtar respublikada yenidən olmaq mənim üçün çox xoşdur. 1988-1991-ci illərdə burada xidmət edərkən mən Naxçıvanda vəziyyətin necə gərgin olduğunun şəxsən şahidi olmuşam. Onda Naxçıvan blokada vəziyyətində idi, sərhəd hərəkatı başlamışdı. Biz başa düşürdük ki, insanlar azadlıqlarını əldə etmək istəyirlər, lakin bizim vəzifəmiz dövlət sərhədlərini qorumaq idi. Maraqlı orasında idi ki, biz hərbçi olsaq da, insanlar bizə qarşı aqressiv deyildilər, əksinə, onlar bizə kömək edirdilər. Mənim həyat yoldaşım burada bağçada işləyirdi, övladlarım burda böyüyürdü və insanlar bizə hörmətlə yanaşırdılar. Bunları heç vaxt unutmuram. İndi Naxçıvan inkişafın zirvəsindədir, amma buranın insanları xarakterlərindəki humanizmi və qonaqpərvərliyi qoruyub saxlayıblar.

***"Şərq qapısı",***
***26.10.2013***

## III BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARI NAXÇIVAN HAQQINDA

*31 oktyabr-1 noyabr 2013-cü il tarixlərində keçirilən Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarından bir qrupu noyabrın 2-si və 3-də Naxçıvan Muxtar Respublikasında olub. Muxtar respublikanın müxtəlif tarixi məkanları, mədəniyyət müəssisələri ilə tanış olan forum iştirakçıları "Şərq qapısı" qəzetinin əməkdaşları ilə təəssüratlarını bölüşüblər.*

**Avtandil Beridze (Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri):**



– Mən Bakıda Humanitar Forumda iştirak etməyə gələrkən Naxçıvana da gedəcəyimizi biləndə çox şad oldum. Bura gəlmək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşmək mənim üçün çox vacib idi. Çünki Acarıstanla Naxçıvan arasında tarixi köklərə dayanan dostluq əlaqələri və bu əlaqələrin təzahürü olan dostluq və əməkdaşlıq haqqında müqavilə var. Biz bu dostluq əlaqələrini daha da inkişaf etdirmək istəyirik. Məlumdur ki, Azərbaycanla Gürcüstan rəhbərləri arasında çox yüksəksəviyyəli münasibətlər mövcuddur. Biz də ayrılmaz tərkib hissələr olaraq bu münasibətlərin daha da inkişafına töhfələr verməliyik.

Naxçıvanın inkişafı göz qabağındadır. Mənim üçün burada olmaq çox xoşdur. Bura qədim diyardır, buranın zəhmətsevər, səmimi insanları var və ən əsası o insanların bizə münasibəti yaxşıdır. İstərdik ki, naxçıvanlılar bizə tez-tez qonaq gəlsinlər, Batumi və bütün Gürcüstan onları səmimiyyətlə qarşılamağa hazırdır.

**Yokota Murakami Takayuki (Yaponiyanın Osaka Universitetinin professoru):** – Bu, mənim Azərbaycana ikinci, Naxçıvana isə ilk səfərimdir. Biz bir neçə saatdır ki, Naxçıvandayıq. Lakin bir-birindən maraqlı təəssüratlarım var. Təbiət, dağlar və qarşıda gördüyümüz o





çay (Araz çayı – E.K) qəribə bir vəhdət yaradır. İnsanlarınızın dostyana münasibəti və mehribanlığı da diqqət çəkir. Biz sizin ümummilli lideriniz Heydər Əliyevin Muzeyində olduq. Qeyd etməliyəm ki, Heydər Əliyevin həyatı və fəaliyyəti barədə bu muzeyin zəngin ekspozisiyası kifayət qədər məlumat verir. Naxçıvandakı qədim tarixi ənənələrdən xəbər verən abidələr isə, yəqin ki, mənim yaddaşımdan uzun müddət silinməyəcək. XII əsrdə belə bir möhtəşəm abidəni, Möminə xatın türbəsini inşa edən xalqın qədim memarlıq və arxitektura ənənələrinə sahib olduğu şəksizdir.



**David Parri (Böyük Britaniya, ALTİNG LTD-nin sədri, dramaturq):** – Naxçıvan heyrətamiz dərəcədə gözəl yerdir. Mən Azərbaycan haqqında müəyyən məlumatlara sahibəm. Buranın gözəl təbiəti, zəngin sərvətləri, yaradıcı insanları haqqında məlumatım var idi. Naxçıvana gəldikdən sonra isə bu təəssüratlarım daha da zənginləşdi. Naxçıvanda sanki tarix bu günlə yanaşı addımlayır. Mən burdan qayıtdıqdan sonra Avropa Azərbaycanlıları Cəmiyyətinin jurnalı üçün bir məqalə yazmağı düşünürəm və təbii ki, bu məqalədə Naxçıvanın xüsusi yeri olacaq. Naxçıvanın düşdüyü blokada şəraiti çox ədalətsiz bir vəziyyətdir. İnsanlar bu blokada şəraitindən əziyyət çəkirlər. Ancaq bu şəraitdə belə, Naxçıvanı bu qədər inkişaf etdirmək üçün Vətəni çox sevmək lazımdır və burada yaşayan insanlar bunu ediblər.



**Yohanna Laskoviska (Polşanın Sileziya Universitetinin Beynəlxalq Tələbə Qəbulu Aparatının rəhbəri):**

– Bu, mənim Azərbaycana – həm Bakıya,

həm də Naxçıvana ilk gəlişimdir. Mən, həqiqətən də, ölkənizi çox sevdim. Azərbaycanın belə bir tarixi regionunda olmaq, paytaxt Bakı ilə yanaşı, regionların da inkişafının şahidi olmaq xoş oldu. Tarix sahəsində mütəxəssis olmasam da, deyə bilərəm ki, sizin öz



keçmişinizə bu qədər saygılı yanaşmağınız təqdirəlayiqdir. Maraqlısı isə orasındadır ki, siz buranı sadə bir parka çevirmisiniz, xüsusi ödəniş tələb olunmur və insanlar sərbəst şəkildə gəlib bu tarixin arasında gəzib-dolaşa bilirlər. Elə bu, böyük bir mədəniyyətdən xəbər verir.

**Qlen Hovard (ABŞ, Ceymstaun Fondunun təmsilçisi):**

– Burada daha çox vaxt keçirmək, Naxçıvanla daha yaxından tanış olmaq istərdim. Çünki sizin maraqlı insanlarınız, zəngin tarixi abidələriniz və böyük tarixi turizm imkanlarınız var. Xalça Muzeyi, Möminə xatın türbəsi, Nuh Peyğəmbərin məzarüstü türbəsi və adını çəkmədiyim digər yerlər və abidələr mənim üçün, həmçinin



düşünürəm ki, Amerikadan, digər ölkələrdən gəlmiş turistlər üçün çox maraqlı abidələrdir. Elə buna görə də mən burda olduğumuz vaxtdan səmərəli istifadə etməyə çalışıram. İstəyirəm ki, olduğumuz yerlər haqqında daha dolğun məlumat əldə edim.

**Paulina Laitinen-LaYho (Finlandiya – incəsənət investisiyaları üzrə mütəxəssis):**

– Bu, mənim ilk səfərimdir, lakin sonuncu səfərim deyil. Mən hətta istərdim ki, burada yaşayım. Naxçıvan məni təkcə tarixi ilə yox, həm də müasirliyi, inkişafı, səliqəliliyi ilə təəccübləndirdi. Daha doğrusu, özünə cəlb etdi. Biz bura – Nuhun məqbərəsinə gəlməmişdən əvvəl Möminə xatın türbəsindən yaxınlıqdakı muzeyə qədər məsafəni piyada qət etdik. İnsanların qonaqlara qarşı nə





qədər diqqətli və mehriban olduqlarını mən o qısa müddətdə hiss etdim.

**Littorin Svorker (İsveçin sabiq məşğulluq naziri):**

– Humanitar forum yüksək səviyyədə keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və 7 ölkənin sabiq prezidentlərinin



foruma qatılması, bir çox beynəlxalq qurumların foruma maraq göstərməsi Azərbaycana olan marağın göstəricisidir. Dünyanın müxtəlif ölkələrindən olan elm adamları, mətbuat nümayəndələri, siyasətçilər Azərbaycanın inkişafından məmnuniyyətlə və heyranlıqla danışırlar. Dağlarla əhatələnmiş Naxçıvan isə əsrarəngiz gözəlliyə malikdir. Siz inkişaf etməklə bərabər, milli dəyərlərinizi və ənənələrinizi də qoruyursunuz.

**Asta Kaplan (finlandiyalı rəssam):** – Bura mənim indiyə qədər olduğum yerlər arasında ən ekzotik yerlərdən biridir. Məni bir rəssam kimi daha çox buranın təbiətindəki rəng çalarları, həmçinin tarixi abidələrinizin divarlarında istifadə olunan



rənglər və ornamentlər maraqlandırırdı. Dağlara xüsusi fikir verdim. Bir dağın üzərində müxtəlif rənglərin vəhdəti var. Onlar sanki zolaqlar şəklində dağlara bəzək vurublar. Həm Möminə xatın türbəsi, həm də Nuh Peyğəmbərin məzarüstü türbəsində rənglər və ornamentlər çox maraqlıdır. Naxçıvanda olmaq, həqiqətən də, mənim üçün çox xoş oldu. Təəssüf edirəm ki, bu günə qədər Naxçıvan haqqında məlumatım olmayıb.

**Marqareta Linq Vannerus (Azərbaycan-İsveç Qadınlar Şurasının həmsədri):**

– Naxçıvanı gəzərkən olduğumuz iki məkan – Nuh Peyğəmbərin məzarüstü türbəsi və Duzdağ mağarası mənim diqqətimi çəkdi. Deyim ki, dünyanın müxtəlif ölkələrində olmuşam, müxtəlif şəhərləri gəzmişəm, amma bu duz mağarası qədər maraqlı və unikal bir yer görməmişəm. İnsan bura daxil olanda özündə qəribə bir rahatlıq hiss edir. Ümumilikdə, Naxçıvanda özümü çox rahat və güvəndə hiss edirəm. Elə bil ki, hansısa doğma İsveç şəhərindəyəm.

***"Şərq qapısı",***
***05.11.2013***



## YURDUNA, TORPAĞINA BAĞLI İNSANLARIN VƏTƏN SEVGİSİNİN TƏNTƏNƏSİNİN QARŞISINDA SÖZ ACİZDİR

*Xəbər verdiyimiz kimi, 31 oktyabr-1 noyabr tarixlərində Bakı şəhərində keçirilmiş III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarından bir qrupu noyabrın 2-də və 3-də Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Qonaqlardan bir neçəsi ilə görüşüb həmsöhbət olduq, təəssüratlarını öyrəndik.*

**Paolo Kasaqranda (İtaliya-Azərbaycan Assosiasiyasının prezidenti):**



– Ölkəniz sürətli və hərtərəfli inkişaf yolundadır. İtaliya-Azərbaycan Assosiasiyasının prezidenti kimi Bakıda keçirilən III beynəlxalq forum mənim üçün çox maraqlı oldu. Ölkələrimiz arasında mədəni əlaqələr getdikcə artır, inkişaf edir. Romanın məşhur Kapitoli Muzeyində həyata keçirilən təmir işlərinə Heydər Əliyev Fondunun dəstəyi məhz bu əlaqələrin göstəricisidir. Naxçıvanla bağlı onu deyə bilərəm ki, burada heç zaman olmamışam. Bura çox qədim və tarixi bir yerdir. Bununla yanaşı, şəhərinizdə gördüyüm müasir binalar, park və küçələr bu tarixi məkana yeni çalarlar qatır. Ən əsası isə insanlar qonaqpərvərdirlər. İnanıram ki, yaxın gələcəkdə İtaliya-Azərbaycan münasibətlərində bu regionun öz yeri olacaq.



**Kazbek Kazkenov (Azərbaycan-Qazaxıstan Dostluq Assosiasiyasının üzvü, Nur Otan Partiyasının sosial-siyasi problemlərin analiz və proqnozu mərkəzinin rəhbəri, professor):**

– Bütün türk dünyasının lideri Heydər Əliyev öz qüdrəti və zəkası ilə Azərbaycanı böyük fəlakətlərdən qurtarmış və ölkəsinə firavanlıq bəxş etmişdir. Mən sevinirəm ki, bu gün burada – onun doğulduğu Naxçıvandayıq. Naxçıvanın təbiəti,

təmiz havası, gözəlliyi məni çox təəccübləndirir. Şəhəriniz inkişaf edir: hara baxırsan, mütləq orada bir yenilik görürsən. Rahat yollarınız, təmiz şəhəriniz var. Naxçıvan həm də böyük türk dünyasına açılan qapıdır. Buranın türk dünyası üçün əhəmiyyəti böyükdür. İnsanlar burada öz dəyərlərinə sahib çıxmağı bacarırlar. Biz Xalça Muzeyində olduq. Burada necə gözəl xalçalar toxunduğunun şahidi olduq. Heydər Əliyev Muzeyi, Mömünə xatın türbəsi, Duzdağ mağaraları, Nuh Peyğəmbərin türbəsi – bütün bunlar bizim səyahətimiz üçün çox maraqlı oldu.

**Annamaria Esposito (İtaliyanın "Rainews 24" telekanalının müxbiri):**



– Naxçıvanda heç zaman olmamışam. Bakıda olarkən dedilər ki, Naxçıvan həm də böyük siyasətçi Heydər Əliyevin vətənidir. Dağlıq ərazilərin qoynunda yerləşən bu diyarın təmiz və günəşli havası çox xoşuma gəldi. Naxçıvanda olarkən bir çox maraqlı yerlərdə olduq. Tarixi baxımdan bura çox zəngin yerdir, bizə şəhərin 5000 il yaşı olduğu barədə məlumat verdilər. Düşünürəm ki, bu haqda dünya ictimaiyyəti bilməlidir. Dünyanın bir çox ölkələrində olmuşam. Naxçıvandakı fərq ondan ibarətdir ki, bura səs-küydən uzaq, çox sakit və təmiz şəhərdir.



**Birgit Vetzel (almaniyalı sərbəst jurnalist):**

– Mən Almaniya qəzetlərinə sərbəst jurnalist olaraq yazılar hazırlayıram. İşimlə bağlı dünyanın bir çox ölkələrində olmuşam və ən görməli yerləri gəzmişəm. Müxtəlif ölkələrdə insanların həyat şəraitini müşahidə etmək, tarixi məkanları öyrənmək, elm və təhsil sahəsində yeni çağırışları qələmə almaq mənim ən çox sevdiyim məşğuliyyətlərdəndir. Bəzən elə ölkə olub ki, orada insanlarla ünsiyyət qurmaq, söhbət etmək mənim üçün çox çətin olub. Ancaq Bakıda, eləcə də Naxçıvanda belə bir çətinliklə üzləşmədim. İnsanlar



gülərüz, xoşxasiyyət, qonaqpərvərdirlər. Təmsil etdiyim ölkədə ilk dəfə gördüyünüz çox az adamdan "necəsiniz, sizə necə kömək edə bilərəm?" sualını eşidə bilərsiniz. Ancaq burada mən bu sualı tez-tez eşidirəm. Bir qərbli kimi bu, məni çox heyrətləndirir və təsirləndirir. Ordubada gəlişimlə Naxçıvan haqqındakı təəssüratlarım, bir növ, tamamlanmış oldu. Müşahidə etdim ki, "şərqli qonaqpərvərliyi" ifadəsi öz-özünə yaranmayıb. Burada hər kəs bizim üçün nəsə etməyə çalışır, qayğımıza qalır. Bir faktı nəzərinizə çatdırım ki, Tarix-Diyarşünaslıq Muzeyində olarkən bir dəqiqə belə, tək qalmadım. İnsanlar yaxınlaşır, muzeyin bələdçisi kimi buradakı eksponatlar haqqında müfəssəl məlumat verir, kim olduğum, haradan gəldiyim, nə işlə məşğul olduğum haqqında maraqlanırdılar. Ən çox məni təsirləndirən isə onların mənə ünvanladığı "Naxçıvanı bəyəndinizmi?" sualı oldu. Yuxarıda da qeyd etdiyim kimi, dünyanın bir çox ölkələrini gəzmişəm və heç yerdə insanların öz yurdlarının tanıdılmasında, sevdirilməsində bu qədər əmək sərf etdiyinin şahidi olmamışam. Bakıda olarkən eşitdim ki, transmilli layihələrdən olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi sürətlə davam etdirilir. Bu layihə tamamilə icra olunduqdan sonra blokadada olan Naxçıvanın dəmir yolları da beynəlxalq dəmir yolu şəbəkəsinə qoşulacaq. Onda Naxçıvan öz potensialını bütün dünyaya nümayiş etdirə biləcək. O günlərin şahidi olmaq, Avropanın hər hansı bir şəhərindən qatara bilet alıb Naxçıvana doğru səfərə çıxmaq, müasir, çiçəklənən bir diyarın qazandığı yeni nailiyyətləri görmək istərdim.



**Mehmet Şahin (Türkiyə):**

– Bu gün Türkiyə-Azərbaycan əməkdaşlığı, sadəcə, dövlətlərimiz arasındakı güclü həmrəyliyə deyil, eyni zamanda xalqlarımızın paylaşdığı köklü tarix və könül birliyinə söykənir. Türkiyə və Azərbaycan xalqları eyni dildə danışır, müştərək bir tarixi paylaşır. Hər iki ölkə qarşısına eyni coğrafiyada sülh, sabitlik və rifahın təmin edilməsi məqsədini qoyub. Bu sağlam zəmin üzərində qurulan,

"Bir millət, iki dövlət" prinsipi əsasında möhkəmlənən əlaqələrimiz siyasi və iqtisadi sahələrdə əldə olunan inkişaf prosesi ilə bugünkü mükəmməl səviyyəsinə çatıb. Bu gün Azərbaycan və Türkiyə arasında Naxçıvan ərazi cəhətdən bir körpü rolunu oynayır və təmsil etdiyim ölkə bu qədim oğuz-türk yurdunda gedən proseslərə xüsusi önəm verir. Əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan türk dövlətləri arasında ən inkişaf etmiş ölkələrin sırasında yer alıb. Onun ayrılmaz parçası olan Naxçıvanda gedən inkişaf hamımızı sevindirir. Mən bu gün Ordubaddakı Tarix-Diyarşünaslıq Muzeyində oldum. İlk baxışda özümü Malatya muzeylərində hiss etdim. Çünki muzeydə sərgilənən, torpaq altından çıxarılan qədim sənətkarlıq, xalq yaradıcılığı nümunələri eyni idi. Bu, məni çox heyrətləndirdi və anladım ki, "Bir millət, iki dövlət" ifadəsinin arxasında minillərin ortaq tarixi dəyərləri dayanır. Nə qədər ki bu dəyərlər qorunur, hər iki ölkənin birliyi və qardaşlığı da hər zaman var olacaqdır.

**Rza Talebi Daryani (Almaniya):**



– Mən əslən azərbaycanlıyam. Hazırda Almaniya vətəndaşı kimi bu ölkədə yaşayır və elmi fəaliyyətlə məşğul oluram. Azərbaycanda keçirdiyim bu günlər, bəlkə də, həyatımda ən yaddaqalan günlər olacaq. Özümü xarici qonaq saymıram və Naxçıvan haqqında bu torpağın bir sakini kimi muxtar respublikaya gələn nümayəndə heyətlərinin üzvləri ilə tez-tez söhbətlər edirəm. Onlardan eşitdiyim isə yalnız və yalnız xoş sözlər, təəssüratlar olur. Təbii ki, bu da məni bir azərbaycanlı kimi çox sevindirir, qürurlandırır. Onları ən çox heyrətə salan məkanlardan biri də müqəddəs "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf ziyarətgahıdır. Bu məkan öz görkəmi ilə hər kəsi valeh edir, onlarda Yaradana böyük inam hissləri oyadır. Nəhəng qayaları sanki kimsə iki barmağı ilə götürüb üst-üstə qoyub, hansısa bir rəssam sehrli fırçası ilə əzəmətli, əsrarəngiz və möhtəşəm bir mənzərə yaradıb. Buraya xarici ölkələrdən gələnlərin bir çoxu elm adamlarıdır və etiraf edim ki, onlar müqəddəs kitablarda yazılanlara deyil, elmin, təbiətin diktə etdiyi qanunlara daha çox inanırlar. Ancaq burada mən müşahidə etdim ki, hansısa bir sehrli qüvvə böyük bir kütləni cəlb etdi və yaşlı-cavan demədən hamı ən sonuncu pilləyə kimi nəfəs belə dərmədən qalxdı. Hər kəs böyük ruh yüksəkliyi ilə ziyarətdə iştirak etdi. Bu da Əshabi-Kəhfin müqəddəs ziyarətgah, Naxçıvanın müqəddəs bir məkan olduğunu bir daha sübuta yetirir. Biz Əshabi-Kəhfdən sonra Naxçıvan teatrında və Naxçıvan Dövlət Universitetində olduq. Gördük ki, naxçıvanlılar incəsənət və elm ocaqlarına da əsl məbəd kimi baxır, ümumilikdə, mədəniyyətə böyük əhəmiyyət verirlər. Nə deyə bilərəm? Belə gözəlliklərin, bütün çətinliklərə baxmayaraq, yurduna-torpağına bağlı insanların Vətən sevgisinin təntənəsinin qarşısında söz də acizdir. Bircə onu deyə bilərəm ki, sağ ol, Naxçıvan, sağ olun, Naxçıvanın qayğıkeş, üzügülər insanları!

*"Şərq qapısı",*
*06.11.2013*

## NAXÇIVANIN GÖZƏLLİYİNİ, ABADLIĞINI, MÜASİRLİYİNİ GÖRƏN, İNSANLARI İLƏ ÜNSİYYƏT QURAN HƏR KƏS YENİDƏN BU DİYARA GƏLMƏK İSTƏYƏR

***Bu fikirləri Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclasının iştirakçıları səsləndirdilər***

Xəbər verdiyimiz kimi, sentyabrın 16-17-də muxtar respublikamızda növbəti mühüm beynəlxalq tədbir – Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası keçirildi. İclasda mühüm məsələlər müzakirə olundu, əhəmiyyətli qərarlar qəbul edildi. Müxtəlif ölkələrdən gələn qonaqlar Naxçıvan şəhərinin gəzməli-görməli yerlərində də oldular. Şəhərin gözəlliyi, abadlığı, təmizliyi, tarixi abidələr qonaqlarda çox böyük təəssürat yaratdı. Onlarla söhbət edərkən Naxçıvan Muxtar Respublikası barədə təəssüratlarını öyrəndik.



**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə Elmi-Tədqiqat İnstitutunun direktoru Rüşdü Səfərov:**

– Biz qonaqlarla Naxçıvan şəhərini gəzdik, tarixi yerlərdə olduq. Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq məndə, həmçinin qonaqlarda çox böyük təəssürat yaratdı. Burada insanların şəfa tapması, rahat müalicə olunması üçün hər cür şərait mövcuddur. Bura təkcə biz azərbaycanlılar üçün deyil, həm də bütün dünya xalqları üçün əhəmiyyətli şəfa mənbəyidir. Naxçıvan şəhərinin gözəlliyini isə ifadə etməyə söz tapa bilmirəm. Dünyaya dahilər bəxş etmiş bu diyar bu gün həm də nümunəvi şəhər mədəniyyəti ilə hər bir qonağın diqqətini



cəlb edir. Bu gün gözəl, güllü-çiçəkli Naxçıvan şəhəri hər bir azərbaycanlının fəxrinə çevrilib.



**Rusiya Federasiyasından Sənaye Təhlükəsizliyi üzrə Dövlətlərarası Şuranın üzvü, Rusiya Ekoloji, Texnoloji və Atom Nəzarəti üzrə Federal Xidmətin rəhbəri Aleksey Vladislavoviç Alyoşin:**

– İclasın Naxçıvanda keçirilməsinin bir əhəmiyyəti də o oldu ki, biz çox qədim tarixə malik olan Naxçıvan ilə tanış olmaq, onun tarixi barədə ətraflı məlumat əldə etmək imkanı qazandıq. Naxçıvan şəhərinin tarixi-memarlıq abidələri, Xalça Muzeyi, Xan Sarayı, Möminə xatın türbəsi, Naxçıvanqala məni valeh etdi. Yurdunuzun çox qədim tarixi olduğunu öyrəndik. Tarixi abidələrinizi qoruyub saxlamağınız, onları bərpa etməyiniz yüksək qiymətə, hörmətə layiqdir. Bu da xalqın öz tarixinə olan ehtiramının ifadəsidir.

Etiraf etməliyəm ki, əvvəllər Naxçıvan adını eşidəndə muxtar respublika barədə heç bir təsəvvürüm olmadığı üçün o qədər də diqqətimi cəlb etmirdi. Ancaq Naxçıvana gələndən sonra və çox gözəl, tarixi, abad, xüsusən təmiz, yaşıllıqlarla əhatə olunmuş şəhərinizi gördükdən sonra mən bu möhtəşəm diyarı həmişə böyük ehtiramla xatırlayacağam.



**Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət Departamentinin rəisi Aleksandr Nikolayeviç Kudryaşov:**

– Üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Axırıncı dəfə 2009-cu ildə Azərbaycanda olmuşam və gördüm ki, ölkənizin hər tərəfində abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Naxçıvan Muxtar Respublikasının isə bu baxımdan lider olduğunu

deyə bilərəm. Əvvəllər Naxçıvan haqqında çox eşitmişdim. Ancaq muxtar respublikaya gəlmədiyim üçün qədim diyarınız barədə təsəvvürüm yox idi. Naxçıvana gəldikdən sonra, sözün həqiqi mənasında, buranın inkişafı məni valeh etdi. Naxçıvana heyran qaldım. Hər tərəfdə intensiv tikinti işləri gedir, bununla birlikdə şəhər çox təmiz saxlanılır.

Naxçıvan şəhərindəki tarixi abidələrlə tanış olduq. Çox möhtəşəmdirlər. Ancaq mən əminəm ki, Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli yerləri bundan da çoxdur. Həmin yerləri gəzmək üçün xeyli vaxt lazımdır.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı sahəsində də böyük nailiyyətlər qazanılıb. Ərzaq məhsulları ilə təminata nail olunması gözəl haldır. Onu da deməliyəm ki, Naxçıvanda yetişdirilən meyvə-tərəvəzlər çox dadlıdır.

Mən bilirəm ki, bu qədim torpaq naxçıvanlıların qanı bahasına qorunub saxlanılıb, onların alın təri ilə abadlaşıbdır. Qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikasının blokada şəraitində saxlanılması heç də doğru deyil. Hesab edirəm ki, müasir dövrdə yüklərin təyyarə ilə daşınması metodundan ancaq çox zəruri hallarda istifadə olunur. Naxçıvana isə neçə illərdir ki, yüklər, əsasən, təyyarələr vasitəsilə daşınır. Bu, qəbuledilməz haldır. Mənim arzum budur ki, uzun illərdir, davam edən bu münaqişə tərəflərin maraqları çərçivəsində həll olunsun və bununla birlikdə Naxçıvan Muxtar Respublikası da blokadadan xilas olsun.



**MDB İcraiyyə Komitəsinin Təhlükəsizlik Sahəsində Əməkdaşlıq, Yeni Çağırış və Təhdidlərə Müqavimət Departamentinin Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq şöbəsinin müşaviri Sergey Qriqoryeviç Mixnoveç:**



– Naxçıvanın çox gözəl iqlimi var. Havası, suyu təmizdir. Bütün bunlar ekoloji baxımdan, insan sağlamlığının qorunması baxımından yüksək qiymətə layiqdir. Mənim diqqətimi xüsusilə mineral sular cəlb etdi. Dadı və tərkibi, hər halda, həm də faydalılığı çox gözəldir.

Bununla birlikdə, insanlarınız gülərüz, qonaqpərvər və mədənidirlər. Bu, ali insani xüsusiyyətlərdir ki, naxçıvanlılarda bu, var. Mən sizi əmin edirəm ki, Naxçıvanın gözəlliyini, abadlığını, möhtəşəm iqlimini görən, suyunu içən, insanları ilə ünsiyyət quran hər kəs təkrar bu diyara gəlmək istəyər. Sözün açığı, mən də Naxçıvana bir daha gəlmək arzusundayam.

Naxçıvanın tarixi abidələri ayrıca bir söhbətin mövzusudur ki, bununla bağlı saatlarla danışmaq olar. 5 minillik şəhər tarixi olan bir yurdun, onlarla tarixi abidələri olan bir diyarın valehedici bir mənzərəsi var.



**Tacikistan Hökuməti yanında Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Xidmətinin rəisi Sidjouddin Salomzoda:**

– İlk dəfədir ki, Naxçıvana gəlmişəm. Düzünü desəm, şəhəriniz çox xoşuma gəldi. Naxçıvan çox gözəl tarixi şəhərdir. Təəccüb edirəm ki, 20 ildən çoxdur, blokadada olan bir məkan necə olur, bu səviyyədə sürətlə inkişaf edir? Məncə, bu, insan amili ilə bağlıdır. Vətəni sevmək, onun uğrunda çalışmaq, yüksəlişinə nail olmaq hər bir naxçıvanlının amalı olub. Məhz buna görə də qədim Naxçıvan bu cür sürətlə inkişaf edib.

Ümumilikdə, Azərbaycan Respublikası sürətlə inkişaf edir və bu məqamı Naxçıvanın timsalında görmək olar. Tarixi yerlərinizə göstərdiyiniz xüsusi diqqətə heyran qaldım. Min illərin tarixi ilə həmyaşıd olan abidələrinizi qoruyub saxlayıb, bərpa etmisiniz.

Bu, məni çox sevindirir. Çünki Azərbaycan, Naxçıvan tacikistanlılar üçün də doğmadır, əzizdir. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, dünyada Naxçıvan kimi gözəl, tarixi abidələrlə zəngin ikinci bir şəhər yoxdur.

*"Şərq qapısı",*
*19.09.2014*



## BLOKADADA YAŞAYAN NAXÇIVANIN SÜRƏTLİ İNKİŞAFI ƏSL MÖCÜZƏDİR

***Muxtar respublikada səfərdə olan IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçıları bu fikirdədirlər***

Bu günlərdə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçılarından bir qrupu oktyabrın 4-ü və 5-i Naxçıvan Muxtar Respublikasında olub. Muxtar respublikanın müxtəlif tarixi məkanları, mədəniyyət, təhsil və səhiyyə müəssisələri ilə tanış olan forum iştirakçıları "Şərq qapısı" qəzetinin əməkdaşları ilə təəssüratlarını bölüşüblər.



**Avtandil Beridze – Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri:**

– IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçısı kimi Naxçıvanda da olmağımdan sevinc duyuram. Forum çox uğurlu keçdi və belə möhtəşəm tədbirlər Azərbaycanın şöhrətini daha da artırır. Bu forum dünyanın müxtəlif regionlarından olan insanları bir araya topladı. Forum çərçivəsində Naxçıvanda olmaq isə mənim üçün ikiqat əlamətdardır. Bu, mənim Naxçıvana ikinci səfərimdir. Əvvəlki səfərim zamanı biz burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi məsələlərini müzakirə etmişik. Xalqlarımızın dostluq əlaqələri çox genişdir və Naxçıvan-Acarıstan əlaqələri hələ keçən əsrin 70-ci illərindən başlayıb. Hesab edirəm ki, biz bu ənənələri daha da irəliyə aparmalıyıq. Bunun üçün yaxşı imkanlar vardır. Hazırkı mərhələdə iqtisadi və humanitar sahədə mühüm nailiyyətlərimiz, qarşılıqlı tələbə mübadiləmiz, turizm əlaqələrimiz vardır. Bu il çoxlu sayda naxçıvanlının Acarıstana dincəlməyə gəldiyini qeyd edə bilərəm. Sizin də gözəl müalicə-istirahət mərkəzləriniz vardır. Naxçıvana müalicə üçün gəlmiş acarıstanlı uşaqlar buradakı şəraiti çox bəyənirlər. Biz belə humanitar əlaqələri dəstəkləyirik. Düşünürəm ki, bütün bunlar, ümumilikdə, əlaqələrimizin inkişafına xidmət edən amillərdir.

**Aureliya Qriqoriu – Moldovanın ombudsmanı:**



– Öncə bütün naxçıvanlıları Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istərdim. Hər birinizə sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram, həyatda hər şey ürəyinizcə olsun. Naxçıvan hər zaman bugünkü kimi çiçəklənsin, gözəl olsun, inkişaf etsin, yüksəlsin.

Naxçıvan gözəldir və bura gəlməyimə çox sevindim. Muxtar respublikanın möhtəşəm təbiəti, təmiz havası, saf suyu, gözəl insanları var. Mən bir daha insan amilinə diqqət çəkmək istəyirəm və deməliyəm ki, Naxçıvanın mehriban, səviyyəli insanları bu yurdun ən böyük sərvətidir. Tarix boyu bura dahilər yurdu olub, çox böyük şəxsiyyətlər yetişdirib. Təbii ki, həmin dahilərin, elm, siyasət xadimlərinin fövqündə Azərbaycan xalqının ümummilli lideri, ölkənizi bəlalardan xilas edərək qüdrətləndirən Heydər Əliyev dayanır.

Mənim həmişəki arzum idi ki, dahi şəxsiyyət Heydər Əliyevin doğulub boya-başa çatdığı bu gözəl yurda gəlim. Vaxtilə Onun gəzdiyi, yaşadığı yerləri görüm, insanlarına güc verən əzəmətli dağları, bərəkətli torpaqları seyr edim. Sevinirəm ki, bu, mənə qismət oldu. Gözəllikləri gördüm və başdan-başa abad, təmiz, çiçəklər içərisində, yaşıllıqlarla əhatə olunan, gözəlləşən Naxçıvanı gördüm və bu torpağa, bu torpağın mehriban, qonaqpərvər insanlarına heyran qaldım.

Mən bütün naxçıvanlılara, azərbaycanlılara xoş diləklərimi, arzularımı çatdırmaq istəyirəm. İnanıram ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi özünün ədalətli həllini tapacaq, Azərbaycanın zəbt edilmiş torpaqları işğaldan azad ediləcək, Azərbaycan torpağı olan Qarabağ yenidən ölkənizə qaytarılacaqdır və bütün bunların fonunda Naxçıvan Muxtar Respublikası da ağır blokada şəraitindən xilas olacaqdır.

Yeri gəlmişkən, 23 il blokadada yaşayan bir diyarın bu şəkildə



sürətlə inkişaf etməsi şəxsən mənim üçün möcüzədir. Naxçıvan, naxçıvanlılar buna nail olublar. Gözəl infrastruktur yaradılıb, möhtəşəm, gözoxşayan binalar tikilibdir. Bütün bunlara baxdıqca insanların əzmkarlığına, Vətən sevgisinə heyran qalırsan. Deməli, dahi rəhbər Heydər Əliyevin yolu Onun vətənində çox uğurla davam etdirilir.



**Yefim Pivovar –Rusiya Dövlət Humanitar Universitetinin rektoru, tarix elmləri doktoru:**

– Mənim Naxçıvana ilk səfərimdir. Muxtar respublikaya gələnə qədər Azərbaycanın bu bölgəsi haqqında yalnız qiyabi təsəvvürüm var idi. Artıq iki gündür, buradayıq. Çox zəngin təəssüratla geri qayıdıram. Şəhərlə ilk tanışlıq oldu, Ordubada, Əshabi-Kəhf ziyarətgahına səfər etdik – bütün gözəllikləri ilə əsrarəngiz bir diyardır Naxçıvan. Naxçıvanda tarixiliyin və müasir inkişafın vəhdət təşkil etdiyi qənaətindəyəm. Naxçıvanın dövrümüzün böyük siyasətçisi Heydər Əliyevin ana vətəni olduğunu da bilirdim. Dünən Onun abidəsini və adını daşıdığı muzeyi ziyarət etdik. Möhtəşəm idi! Müasir Azərbaycan dövlətinin qurucusu kimi O böyük şəxsiyyətə sonsuz hörmətim var. Bugünkü çiçəklənən Azərbaycan, Naxçıvan Muxtar Respublikası məhz Onun əsəridir.



**Piter Teys – ABŞ-ın Marquette Universitetinin beynəlxalq əlaqələr üzrə eksperti:**

– Mən çox şadam ki, Naxçıvana gələrək bu gözəl, qədim tarixə malik yerlərlə tanış ola bildim. Naxçıvan həm də geostrateji baxımdan Azərbaycan üçün, ümumilikdə, region üçün əhəmiyyətli bir məkandır. Bu mənada belə əhəmiyyətli bir bölgəni görmək mənə sevinc bəxş etdi.

Naxçıvan Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyevin doğulub boya-başa çatdığı Vətəndir. Təkcə bu amil onun əhəmiyyətini xeyli artırır.

Təbii ki, məni muxtar respublikanın tarixiliyi, abadlığı ilə birlikdə, elmi potensialı, buradakı elm ocaqları da maraqlandırır. Naxçıvan Dövlət Universiteti ilə tanış olarkən gördüm ki, təhsil ocağı üçün modern binalar tikilib və təhsil çox yüksək səviyyədədir.

Ümumiyyətlə, təkcə universitet deyil, bütün Naxçıvan Muxtar Respublikasının ərazisində yüksək səviyyədə infrastruktur qurulduğunun şahidi oldum.

İnsanlarınız çox qonaqpərvər, istiqanlıdırlar. Yeməklərinizə isə söz ola bilməz; düşünürəm ki, bu qədər dadlı yeməkləri ancaq Naxçıvanda yemək mümkündür. Sizin kimi dostlarla tanış olmaq isə mənim üçün hər şeydən daha önəmlidir. Çünki siz naxçıvanlılar çox geniş dünyagörüşə və humanist, insanpərvər fikirlərə sahibsiniz. Ona görə də istərdim ki, Naxçıvana bir daha gəlim, bu gözəl yurdu yenidən başdan-başa gəzim.



**Hüseyn Bağcı – Türkiyənin Ortadoğu Texniki Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri:** – Naxçıvana ilk dəfədir, gəlirəm. Doğrusu, muxtar respublikanın bu qədər inkişaf etdiyini bilmirdim. Əslində, dörd ildir ki, ardıcıl olaraq Azərbaycana gəlirəm. Ancaq Naxçıvana gəlmək istəsəm də, işlərin çoxluğu səbəbindən bu mümkün olmamışdı. Budəfəki səfərimdə Naxçıvana gəlməyim və muxtar respublikada nəhəng inkişafı görməyim məni çox sevindirdi. Sevinirəm ki, Azərbaycan müasir dünya düzəninə sürətlə inteqrasiya edir.

Naxçıvan elm və mədəniyyət baxımından da çox böyük inkişaf yolu keçib. Biz səfər müddətində bir daha bunun şahidi olduq. Naxçıvan Dövlət Musiqili Dram Teatrında Dövlət Filarmoniyasının orkestrinin solistlərinin iştirakı ilə keçirilən konsert proqramı muxtar respublikada mədəniyyətin, incəsənətin necə yüksək səviyyədə inkişaf etdiyini deməyə əsas verir.

Ordubadda olduq, bu rayon başdan-başa gözəlliklər diyarıdır. Tarixi, təbiəti məni valeh etdi. Həm orada, həm də Naxçıvan şəhərində olan sadə insanlarla səmimi söhbətlərdən insanlarınızın qonaqpərvərliyini, yüksək mədəniyyətini görmək çətin deyil. Təbii ki, eyni dilə, eyni dinə, eyni dəyərlərə sahib olmağımız da mehriban münasibətlərimizə çox böyük təsir göstərir.

Mən indiyədək iştirak etdiyim bütün beynəlxalq tədbirlərdə Azərbaycanın təcavüzə məruz qaldığını, Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadada saxlanıldığını daim yüksək səslə ifadə etmişəm və bunun çox böyük ədalətsizlik olduğunu dilə gətirmişəm. Bundan sonra da deyəcəyəm. Bunu da deyəcəyəm ki, Ermənistanın 23 ildir, blokadada saxladığı muxtar respublika çox sürətlə inkişaf edib, çiçəklənib. Qoy görsünlər ki, Naxçıvana qarşı atılan heç bir düşmən addımı onu inkişaf yolundan döndərə bilməyib.



**Tınçtıkbek Karımşakov – Qırğız Respublikasının"KABAR" Milli İnformasiya Agentliyinin direktor müavini:** – İndiyədək Azərbaycanda üç dəfə olmuşam, ancaq Naxçıvana ilk səfərimdir. Təəssüratlarım çox böyükdür. Naxçıvan çox təmiz, gözəl, xalqınızın milli ənənələrini özündə əks etdirən bir şəhərdir. Bu, çox vacibdir, hiss olunur ki, şəhərin görüntüsündə yeniliklərlə bərabər, milli atributlara da mühüm yer verilib. İnsanlarınız çox qonaqpərvər, səmimi və ünsiyyətcildirlər. Biz Ordubadda da olduq. Bu səmimiyyəti orada da gördük. Bundan başqa, burada təşkilatçılıq çox yüksək səviyyədədir. Hiss olunur ki, hər kəs öz işini bilir və bunun öhdəsindən layiqincə gəlir.



**Bektemir Murzubraimov – Qırğız Respublikası Milli Elmlər Akademiyasının üzvü, Qırğız Xalq Assambleyasının sədri, akademik:** – Naxçıvan haqqında təəssüratlarım çox böyükdür. Qısa olaraq deyə bilərəm ki, şəhəriniz kiçik olsa da, çox təmiz, gözəl, sakit bir şəhərdir. Bu da onu göstərir ki, buranın rəhbərliyi, eləcə

də sakinlər öz yaşadıqları yerə çox bağlı insanlardır. Biz burada çox yerlərdə olduq. Heydər Əliyev Muzeyi, Xalça Muzeyi və Ordubad şəhərinin maraqlı yerləri ilə tanışlıq mənə çox xoş təsir bağışladı. Naxçıvan Dövlət Universitetində də olduq. Burada təhsil almaq üçün hərtərəfli şərait var. Mən özüm 15 ilə yaxın ali məktəbdə rektor işləmişəm. Təhsil prosesinin necə çətin bir iş olduğunu yaxşı bilirəm. Buna görə bu sahədə işləyənlərə uğurlar arzulayıram. Ümumilikdə isə bütün azərbaycanlılara, siz naxçıvanlılara daha böyük və inkişaf edən gələcək arzulayıram.

***"Şərq qapısı",***
***06.10.2014***



## ARYE GUT: AZƏRBAYCAN RESPUBLİKASININ CAZİBƏDAR NAXÇIVAN MUXTAR RESPUBLİKASI ÖZÜNÜN İNTİBAH DÖVRÜNÜ YAŞAYIR

"Dördüncü Bakı Beynəlxalq Humanitar Forumu kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi bu ölkənin beynəlxalq aləmdə daha çox tanınması üçün vacib idi. Bakı Humanitar Forumunda dünya səviyyəli nüfuzlu siyasətçilər, dövlət xadimləri, alimlər, rəssamlar, bir sıra ölkələrin vətəndaş cəmiyyətlərinin aparıcı nümayəndələri iştirak edirdilər. Yəni bu, dünyanın intellektual elitasının toplaşdığı nüfuzlu bir beynəlxalq tədbir idi. Bu forum dünyanın müxtəlif bölgələrindən insanları bir araya gətirdi. Forum çərçivəsində Naxçıvana səfər isə mənim üçün ikiqat əhəmiyyətli oldu".

Bunu "Forum Daily" qəzetinə müsahibəsində IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı, "İsrail səsi" radiosunun şərhçisi, beynəlxalq münasibətlər, Cənubi Qafqaz üzrə tanınmış ekspert, "Azərbaycan-İsrail" Beynəlxalq Assosiasiyasının (Azİz) həmsədri Arye Gut deyib.

A.Gut qeyd edib ki, bu il Azərbaycan Respublikasında Naxçıvan Muxtar Respublikası muxtariyyət qazanmasının 90 illiyi təntənəli tədbirlərlə qeyd olunur. Bunun səbəbi odur ki, XX əsrin əvvəllərində Naxçıvan muxtariyyət qazanmaqla Azərbaycanın tərkibində qalmış və inkişaf edə bilmişdir. "Mən burada öyrəndim ki, bir sıra qədim tarixi mənbələrdə Naxçıvan adı həm də "Nuh yurdu", "Nuhun çıxdığı məkan" kimi adlandırılır", – deyən Arye Gut onu da əlavə edib ki, Naxçıvan şəhəri orta əsrlərdə Atabəylər dövlətinin paytaxtı olub. 1924-cü ildən isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtıdır.

Naxçıvan çoxəsrlik dövlətçilik ənənələrinə sahibdir və Azərbaycan xalqının zəngin mədəni irsi burada daha diqqətlə qorunub saxlanılır. Burada elm, mədəniyyət yüksək səviyyədə inkişaf edib. Dahilər yurdu deyilən bu diyar bir sıra tarixi şəxsiyyətlərin doğulduğu məkan olub. Həmin şəxsiyyətlər Azərbaycanın sosial-iqtisadi, ic-

timai-siyasi, mədəni həyatına əvəzsiz töhfələr vermişlər. Heç şübhəsiz, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanın Azərbaycana bəxş etdiyi tarixi şəxsiyyətlərin fövqündə dayanan böyük dövlət xadimidir.

A.Guta görə, Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu bütün dövrlərdə Naxçıvana daim böyük diqqət və qayğı göstərib, onun problemlərinin həllinə xüsusi diqqət yetirib: "Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan çox böyük geosiyasi və geoiqtisadi uğurlar əldə edib. Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli liderinin yolunu uğurla davam etdirərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına xüsusi diqqət yetirib. 23 ildir, blokadada yaşayan muxtar respublika cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün dinamik sürətdə inkişaf edir. Bunu faktlar da sübut edir. 2003-2013-cü illərdə Naxçıvan Muxtar Respublikası çox böyük inkişaf yolu keçib. Bu dövrdə muxtar respublikada Ümumi Daxili Məhsul 8,3 dəfə, sənaye məhsulunun həcmi 49 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,7 dəfə, ixracın həcmi 96,6 dəfə, icmal büdcənin həcmi 12,7 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, hər bir nəfərə düşən gəlirlər 8,8 dəfə, orta aylıq əməkhaqqı isə 9,8 dəfə artıb. Bir sıra iş yerləri açılıb, təhsil, səhiyyə, mədəniyyət, infrastruktur və digər sahələrdə çox böyük irəliləyişlər nəzərə çarpıb. Məhz buna görə də bu gün Naxçıvan dövlət və hökumət başçılarının, iri beynəlxalq konfrans və forumların keçirildiyi məkana çevrilib. 2018-ci ildə isə İslam mədəniyyətinin paytaxtı olacaq Naxçıvan çox əhəmiyyətli bir missiyanı yerinə yetirəcək".

İsrailli ekspertin sözlərinə görə, hazırda qədim Naxçıvan, həqiqi mənada, intibah dövrünü yaşayır: "Müsbət dəyişikliklər hər sahədə özünü göstərir. Kiçik və orta biznes inkişaf edir. Həmçinin dövlət sektoru ilə yanaşı, özəl iqtisadi sektor da güclənir, münbit rəqabət mühiti yaradılıb. Yüksək texnologiyaların tətbiqinə üstünlük verilir,



sistemli və çox faydalı, elmi əsaslara söykənən islahatlar davam etdirilir. Biznestənzimləyən inzibati tədbirlər həyata keçirilir, liberallaşmaya üstünlük verilir, lazımsız məhdudiyyətlər aradan qaldırılır, daxili və xarici investisiyalar cəlb olunur. Bu proseslər Azərbaycan Prezidenti İlham Əliyevin də diqqətindədir".

Arye Gut onu da bildirib ki, Naxçıvan Muxtar Respublikasının çox güclü turizm potensialı vardır. İnfrastruktur çox yüksək səviyyədə qurulub. Gözəl, rahat otellər tikilib, yollar salınıb. Tarixi məkanlar isə hər bir qonağın diqqətini cəlb edir. Əshabi-Kəhf ziyarətgahı, Nuh Peyğəmbərin, Yusif Küseyir oğlu, Möminə xatın, Gülüstan, Xanəgah türbələri, Naxçıvan Cümə məscidi, Qeysəriyyə, qədim hamam, Gəmiqaya və sair bunların sırasında yer alır. Yəni Naxçıvan öz tarixi abidələri ilə zəngin qədim Azərbaycan torpağıdır. Naxçıvanın gözəl təbiəti ilə yanaşı, gözəl memarlıq üslubu da hər kəsi valeh edir. Burada 250-dən çox mənbədə mineral su vardır. Sirab, Badamlı, Darıdağ, Nəhəcir, Cəhri, Qəmur, Qahab və digərləri çox tanınıb.

"Naxçıvanda əla, müalicəvi istirahət mərkəzləri fəaliyyət göstərir. Bunlar arasında Duzdağ Fizioterapiya Mərkəzi xüsusilə diqqətimi çəkdi. Burada astmanın ən ağır formaları belə, müalicə oluna bilir. Hər il dünyanın müxtəlif ölkələrindən yüzlərlə insan bura gəlir və şəfa tapır", – deyən Gut Naxçıvanda turizmin daha da inkişaf edəcəyinə əminliyini bildirib.

***"Şərq qapısı",***
***22.10.2014***

# MÜNDƏRİCAT

## *NAXÇIVAN DÜNYA MƏTBUATINDA*


Naxçıvan Muxtar Respublikası: Tarixi-siyasi məlumat ....4
Biz öz torpağımızda yaşayırıq....7
Təhsilə böyük qayğı....9
Ümid körpüsü .... 11
Torpağın sərvəti .... 13
Bir daha Naxçıvan Duzdağı haqqında .... 16
Dünyada ən yaddaqalan anlar .... 19
Dəyişiklik və müasirləşmə....21
Qafqaz dağlarının San-Fransiskosu – Naxçıvana xoş gəlmisiniz.... 23
Mağara tədqiqatçıları üçün füsunkar mehmanxana .... 31
Sloveniyanın "RTV kanalı"nda Naxçıvan haqqında televiziya proqramı yayımlanıb .... 33
Mənim Naxçıvan təcrübəm.... 37
Qoparılmış Parça – Naxçıvan .... 39
Kəngərlilər Rusiyanın Qafqazdakı idarəsinin sənədlərində ....48
Azərbaycanın ürəyi Naxçıvan Muxtar Respublikasının 90 yaşı tamam olur ....60
Naxçıvan – Azərbaycanın incisi və qədim mədəniyyətin beşiyi.... 64
Rus rəssamı İ.P.Şeblıkinin əsərlərində Naxçıvan.... 72
"Naxçıvan – bəşəriyyətin beşiyi" II Beynəlxalq Rəsm Festivalı haqqında informasiya verilmişdir.... 79
Güllər içində gözəl Naxçıvan... (*I məqalə*) ....81
Gəzdim gözəl Naxçıvanı (*II məqalə*) ....86
Naxçıvan haqqında qeydlər .... 90
Naxçıvan xatirələrim.... 93
Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi .... 97
Ordubad: Avrasiyanın ürəyində qədim şəhər .... 100
Naxçıvan və Ordubada səyahət .... 103
Naxçıvana səyahət....105
Naxçıvan: Azərbaycanın vətənpərvərlik beşiyi....109
Naxçıvan: Azərbaycanın qədim torpağı barədə bir neçə qeyd....113
Ordubad – gözəl, unudulmaz qədim şəhər....115
Azərbaycan: Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini qeyd edir....118
Naxçıvan haqqında qısa təqdimat....121
Nuhun gəmisi harayacan üzübmüş? .... 124





Allah yurdu Naxçıvan ....140
Turizm baxışı: Naxçıvanın mistik əfsanəsi ....145


## *NAXÇIVAN XARİCİ QONAQLARIN GÖZÜ İLƏ*


Bizim Naxçıvana səfərimiz barədə bəzi şərhlər....149
Naxçıvan hər bir turist üçün ideal məkandır....150
Naxçıvanlılar şərəfi üçün yaşayan insanlardır .... 152
Naxçıvan məndə xoş təəssüratlar yaratdı ....156
Naxçıvanda gördüklərim məni valeh etdi ....161
Naxçıvan mənə ana vətənim Pakistan qədər doğmadır .... 166
Eduard Şmidt: Naxçıvan islahatlara daha açıq, regionun iqtisadiyyatı böhranlara qarşı daha dayanıqlıdır .... 170
Beynəlxalq Forumun iştirakçıları Naxçıvandan xoş təəssüratlarla ayrılıblar .... 173
İbrahim Ethem Atnur: Naxçıvan 50 ilə keçəcəyi yolu 15 ildə qət edib .... 176
Rusiyalı akademiki Naxçıvana gətirən əsərlər .... 180
Trabzon Dövlət Teatrı 26-cı mövsümünə Naxçıvanda başladı .... 183
Beynəlxalq konfransın iştirakçıları Naxçıvan haqqında .... 187
III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları Naxçıvan haqqında .... 189
Yurduna, torpağına bağlı insanların Vətən sevgisinin təntənəsinin qarşısında söz acizdir ....194
Naxçıvanın gözəlliyini, abadlığını, müasirliyini görən, insanları ilə ünsiyyət quran hər kəs yenidən bu diyara gəlmək istəyər .... 199
Blokadada yaşayan Naxçıvanın sürətli inkişafı əsl möcüzədir....204
Arye Gut: Azərbaycan Respublikasının cazibədar Naxçıvan Muxtar Respublikası özünün intibah dövrünü yaşayır....210

# AZƏRBAYCANIN NAXÇIVAN DİYARI DÜNYAYA AÇILIR

Yığılmağa verilmiş 01.09.2016.
Çapa imzalanmış 04.10.2016.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 27.0 ç.v.
Sifariş № 737. Tiraj 250 nüsxə.

Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.


DIPLOMATIC STAR
Albayrak
BÜYÜKELÇİLERE DADAŞ RUHU
Gönüllerince eğlendiler
ИЗВЕСТИЯ
Правительство похоронило газовую биржу
ホテルでリフレッシュ！
НЕВСКОЕ ВРЕМЯ
ПОБЕДИТЬ РАК
DUZDAG HOTEL
IL CALENDARIO DEL POPOLO
オーナー経営者のための
NIKKEI TOP LEADER
日経トップリーダー
1
年 中小企業予測
大倒産時代到来
立ち上がれ、経営者！
ORTAK SES
TÜRKİYE'NİN ORTAK SESİ
KAMUDA GÖREVDEN ALMALAR SÜRÜYOR
MK
МОСКОВСКИЙ КОМСОМОЛЕЦ
Azf 294639